ISSN 2221-7584

e-ISSN 3005-9941

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ**

**AZERBAIJAN STATE UNIVERSITY OF CULTURE AND ARTS**

# МИР КУЛЬТУРЫ
# MƏDƏNİYYƏT DÜNYASI
# THE WORLD OF CULTURE

**XLVI**

**BAKI – 2024**

Crossref
ÜZVÜ

doi

ISSN

**Redaksiya heyəti**

| | |
|---|---|
| ***Ceyran Mahmudova*** | Sənətşünaslıq elmləri doktoru, professor (sədr) |
| ***İsa Həbibbəyli*** | Akademik, filologiya elmləri doktoru |
| ***Nizami Cəfərov*** | Akademik, filologiya elmləri doktoru |
| ***Kamal Abdulla*** | Akademik, filologiya elmləri doktoru |
| ***Rafael Hüseynov*** | Akademik, filologiya elmləri doktoru |
| ***Məryam Əlizadə*** | Sənətşünaslıq elmləri doktoru, professor |
| ***İsrafil İsrafilov*** | Sənətşünaslıq elmləri doktoru, professor |
| ***İlham Rəhimli*** | Sənətşünaslıq elmləri doktoru, professor |
| ***Oqtay Mirqasımov*** | Xalq artisti, professor |
| ***Niyazi Mehdi*** | Fəlsəfə elmləri doktoru, professor |
| ***Məlahət Fərəcova*** | Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent |
| **Lalə Hüseynova** | Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor |
| ***Sevinc Şaxhüseynova*** | Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent |
| ***Laşa Çxartişvili (Gürcüstan)*** | Şota Rustaveli adına Dövlət Teatr və Film Universitetinin professoru, sənətşünaslıq elmləri doktoru |
| ***Tuba Gültekin (Türkiyə)*** | Türkiyə Cümhuriyyəti Doqquz Eylül Universitetinin professoru |
| ***Yelena Polyakova (Rusiya)*** | Altay Dövlət Mədəniyyət İnstitutunun dosenti, tarix elmləri doktoru |
| ***Olqa Sapanja (Rusiya)*** | Sankt-Peterburq Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, kulturologiya elmləri doktoru |
| ***Nəbi Xuşvakov (Özbəkistan)*** | Əmir Teymur adına "Şəhrisəbz" Dövlət Muzey-Qoruğunun baş direktoru, tarix elmləri doktoru, dosent |
| ***Alina Jumaqulova (Qazaxıstan)*** | Qazaxıstanın Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyinin (IAAR) baş direktoru |

**Baş redaktor**

| | |
|---|---|
| Sədaqət Əliyeva | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent |

**Redaktor**

| | |
|---|---|
| Aslan Xəlilov | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent |

**Məsul katib**

| | |
|---|---|
| Fəridə Cəlilova | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent |

**Təsisçi: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Məcmuə ildə iki dəfə dərc olunur.**

*"Mədəniyyət dünyası" elmi-nəzəri məcmuəsi Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol N 10-R) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər"in siyahısına daxil edilmişdir.*

*Jurnal 25 dekabr 2019-cu il tarixində N4279 saylı əmrlə Ədliyyə Nazirliyində yenidən qeydə alınmışdır.*

**ISSN 2221-7584**
**e-ISSN 3005-9941**
**Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XLVI buraxılış,** Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2024, 180 səh.
**Ünvan: AZ1065, Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 39**
**Адрес: Азербайджанская Республика, AZ1065, город Баку, пр. Строителей 39**
**Address: 39, Inshaatchylar avenue, Baku, Azerbaijan Republic, AZ1065**
**Tel: (012) 599-00-54 (130)**
**www.medeniyyetdunyasi.az**
**© ADMİU, 2024**

# Sahələr üzrə redaksiya komissiyaları:

- **Sənətşünaslıq ixtisası üzrə:** pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova (sədr), fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova, fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Xaləddin Sofiyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sevinc Əsgərova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Günay Qafarova, filologiya üzrə fəlsəfə doktoru Sevinc Əhmədova;

- **Teatr sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Aydın Talıbzadə (sədr), sənətşünaslıq elmləri doktoru, professor Məryam Əlizadə, sənətşünaslıq elmləri doktoru, professor İsrafil İsrafilov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Elçin Cəfərov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, baş müəllim Lalə Səlimova, müəllim Tərlan Rəsulov, müəllim Aygün Süleymanova;

- **Kino, televiziya və digər ekran sənətləri ixtisası üzrə:** Əməkdar incəsənət xadimi, professor Əli Əmirli (sədr), sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Rafiq Quliyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Fazilə Abbasova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Elnur Mehdiyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Kifayət Bünyatova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Gülnarə Hüseynova, müəllim Anar Verdiyev;

- **Təsviri sənət ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sevil Kərimova (sədr), Xalq rəssamı, professor Arif Əzizov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Məlahət Fərəcova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günel Seyidəhmədli;

- **Musiqi sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə (sədr), sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ellada Hüseynova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Səbinə Mehdiyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Güllü İsmayılova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Gülnar Verdiyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nərmin Qaralova;

- **Fəlsəfə ixtisası üzrə:** fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdi (sədr), kulturologiya üzrə fəlsəfə doktoru, dosent Xaləddin Sofiyev, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Sevinc Şaxhüseynova, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova

**Psixologiya ixtisası üzrə:** psixologiya elmləri doktoru, professor Ramiz Əliyev (sədr), psixologiya elmləri doktoru, professor Elnarə Səfiyeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Zərifə Əliyeva, psixologiya üzrə fəlsəfə doktoru Vasif Muradzadə, beynəlxalq Mediator, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova

# M Ü N D Ə R İ C A T

## S Ə N Ə T Ş Ü N A S L I Q

**Ayxan Şahbaz oğlu Qəhrəmanov.** Ailədaxili zorakılığın uşaqlara təsiri ....................9
**Rufanə Rizvan qızı Fətəliyeva.** Müasir dövrdə dini plüralizm nəzəriyyəsi, onun təzahür formaları ........................................................................................ 15
**Məhsəti Sabir qızı Cəfərova.** Genderin müasir inkişafdakı mühüm rolunun sosial-fəlsəfi istiqamətləri ........................................................................................ 23
**Minaxanım Rafiq Qızı Əsədova.** Yusif Ziya Talıbzadənin kulturoloji görüşləri...... 36

## T E A T R  S Ə N Ə T İ

**Sona Məmmədağa qızı Mikayılova.** Tələbə-aktyorun rol üzərindəki işinin ilkin mərhələlərində pedaqoqun rolu ........................................................................43
**Nərminə Ağayevə.** Zamanın Elçin teatrı və Elçin teatrının zamanı......................... 49

## M U S İ Q İ  S Ə N Ə T İ

**Teyyub Şueyib oğlu Aslanov.** Ustad xanəndə Əlibaba Məmmədovun yaradıcılığına bir nəzər ........................................................................................ 56
**Toğrul Mirnazim oğlu Əsədullayev.** Kamança ifaçılıq sənəti: Mirzə Səttar............64
**Leyla Emin qızı Babayeva.** Xalq artisti Vasif Adıgözəlovun “Şuşam, laylay” mahnısının xüsusiyyətləri........................................................................ 72
**Нармина Энвер кызы Байрамалибейли.** О трех эпизодах солирования ударных в балете «Тысяча и одна ночь» Фикрета Амирова ..............................80
**Nigar Murad qızı Məmmədova.** Azərbaycan bəstəkarlarının fortepiano işləmələrində rəqs və miniatür janrının vəhdəti ......................................................87
**Nərmin Mübariz qızı Kamilova.** Orta ümumtəhsil məktəblərinin ibtidai siniflərinin “Musiqi” dərslərində yeni metodların tətbiqi /oyunlar/.........................94
**Hülya Kudret.** Qarapapaq etnik qrupunun istifadə etdiyi Hüseyni məqamı səs sırası...................................................................................................99
**Natavan Mikayıl qızı Həsənova.** Məmmədağa Kərimovun sənət dünyasına səyahət ........................................................................ 112

## T Ə S V İ R İ  S Ə N Ə T

**Məryəm Mənsim qızı Kazımova.** Azərbaycan heykəltəraşlığında ağac materialından yaradılan əsərlərin bədii xüsusiyyətləri ........................................... 119
**Nuranə Namiq qızı Rzazadə.** Tamilla Abdullayevanın qobelenlərində mənzərə janrının müqayisəli təhlili...................................................................... 128

**Könül Nurməhəmməd qızı Gəncmalıyeva.** Dini təyinatlı metal əşyaların bədii-dekorativ xüsusiyyətləri (İslam dini kontekstində) ....................................... 136
**Rayihə Şaiq qızı Məmmədli.** Xocalı faciəsinin təsviri sənətdə ifadəsi ................. 143
**Лейла Азад кызы Исаева.** Философия искусства народного художника Азербайджана Гусейна Ахвердиева .................................................................. 148
**Gülşən Tofiq qızı Qasımzadə.** Osmanlı saray xalıları və onun inkişafında azərbaycanlı rəssam və sənətkarlarının rolu ........................................................ 156

## FƏLSƏFƏ

**Sevinc Asif qızı Şaxhüseynova.** Ellinizm dövrü filosofları incəsənət haqqında ..... 163

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский государственный университет культуры и искусств XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Arts, XLVI edition, Baku, 2024

# S Ə N Ə T Ş Ü N A S L I Q

**UOT31.**
**ORCID: 0009-0002-2605-4771**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.005**

**Ayxan Şahbaz oğlu Qəhrəmanov**
**Azərbaycan Turizm və Menecment Universiteti**
**Doktorant**
**Email: ayxanqehremanov@gmail.com**

## AİLƏDAXİLİ ZORAKILIĞIN UŞAQLARA TƏSİRİ

**Xülasə:** Ailədaxili zorakılıq ailə üzvlərinin bir-birinə qarşı tətbiq etdiyi bəzi aqressiv və itaətkar davranışlar kimi müəyyən edilir və bu davranışlar çox vaxt təkrarlanan davranış nümunələridir. Ailədaxili zorakılıq qadınlar, uşaqlar, ailələr və ümumiyyətlə cəmiyyət üçün ciddi fiziki, psixoloji, iqtisadi və sosial nəticələr yaradır. Tədqiqatlar göstərir ki, zorakılıq hadisələrinin əksəriyyəti uşaqların gözü qarşısında baş verdiyi üçün və ailədə zorakılığa birbaşa məruz qalma və ya şahidi olma uşaqlarda oxşar emosional-davranış problemləri ilə nəticələnir. Bu məqalədə ailədaxili zorakılığa məruz qalan müxtəlif yaş qruplarından olan uşaqların fərqli reaksiyalardan təsirlənməsindən bəhs edilir və problemlə əlaqəli beynəlxalq təşkilatların fəaliyyətləri və bir sıra statistik məlumatlar təqdim olunmuşdur.
**Açar sözlər:** zorakılıq, uşaq hüquqları, ailə, cəmiyyət, rifah.

Ailədaxili zorakılıq psixoloji zorakılıqdan tutmuş ölümlə nəticələnən fiziki zorakılıq hallarına qədər dəyişən bir anlayışdır. Ailədaxili zorakılıq zamanı zorakılıq törədən və ya qurban ailə üzvlərindən biri və ya bir neçəsi ola bilər. Bu vəziyyət müxtəlif yollarla, o cümlədən cinsi, psixoloji və hətta iqtisadi şəkildə müşahidə edilə bilər. Ailə yaxın münasibətlərin, xoşbəxtliklərin, bütün məmnunluqların və inkişaf imkanlarının mənbəyi olduğu kimi, ən böyük emosional pozğunluqların, gərginliklərin və münaqişələrin də mənbəyi ola bilər. Ailə üzvünə, anaya, ataya və ya uşağa qarşı zorakılıq bütün fərdlərə mənfi təsir göstərsə də, bunlar arasında ən çox əziyyət çəkənlərin müdafiəsiz uşaqlar olduğu bildirilməkdədir [3].

Ailədaxili zorakılığın uşaqlara bir çox mənfi təsirləri var və bu təsirlər ağır və uzunmüddətli ola bilər. İngiltərədə məişət zorakılığı ilə bağlı xidmət göstərən dörd mərkəzin köməyi ilə aparılan tədqiqatın nəticələrinə görə, məişət zorakılığına şahid olan uşaqların 52%-də davranış problemi yaranıb, 39%-də məktəbə uyğunlaşma problemi

var, 25%-i zorakılıq nümayiş etdirməyə başlamış, 60%-i isə evdə baş verən zorakılıq hadisələrinə görə özlərinin məsuliyyət daşıdıqlarını və günahkar olduqlarını bildirmişlər. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, valideynləri tərəfindən pis rəftar görən uşaqlarda bəzi psixoloji, fiziki və davranış problemləri yarana bilər. Bu problemlər zorakılıq göstərən və ya zorakılıq görən olmaq, depressiya, siqaret çəkmək, piylənmə, yüksək riskli cinsi davranışlar, arzuolunmaz hamiləlik, spirtli içki və ya narkotik maddə istifadəsi kimi ortaya çıxmaqdadır [5].

Təəssüf ki, ailə üzvlərinin gözü qarşısında yaşanan zorakılıqlar öyrənilə, təqlid olunaraq gələcəyə ötürülə bilər. Məlumdur ki, uşaqlıqda zorakılığa şahid olan kişilər daha çox zorakılığa meyilli olur, uşaqlıq illərində zorakılığa məruz qalan qadınlar isə evliliklərində yaşadıqları zorakılığı haqlı hesab edərək bunu normallaşdırırlar. Beləliklə, zorakılığa şahid olmaq təkcə zorakılığın mümkünlüyünü artırmır, həm də müşahidəçinin qurbana çevrilmək meylini artıra bilər. Bundan əlavə, ailədaxili zorakılığın yaratdığı utanc və qorxu səbəbindən uşaqlar bu vəziyyəti heç kimlə bölüşə bilmirlər. Bəzən uşaqlar bunu ailədən kənar kiminləsə paylaşsalar, valideynlərinin boşanacaqlarını, anaları və qardaşlarını atacaqlarını, evdən köçmək məcburiyyətində qalacaqlarını, sahib olduqlarını itirəcəklərini düşünərək narahatlıq yaşaya bilərlər. Ona görə də məişət zorakılığı illər boyu ailədə bir sirr olaraq mövcud ola bilir [7].

Yuxarda qeyd edilənlərlə bərabər daha vacib məqam isə uşaqların birbaşa zorakılığa məruz qalmasının əksinə zorakılığın şahidi olmasıdır. Bu məsələylə bağlı kiçik bir misal versək aydın olar ki, analarının təpiklənməsi, boğulması, yandırılması və ya bıçaqlanması kimi zorakı davranışlardan evdə pəncərələrin və ya qapıların sındırılması, əşyaların atması və məhv edilməsi və hətta bu zorakılıq zamanı ev heyvanlarına zərər verilməsi hallarına kimi dəyişə bilər [8]. Bu vəziyyət uşaqlar üçün çox narahatvericidir və ailə bağlarına inamın ciddi şəkildə pozulmasına səbəb ola bilər. Yaşanan fiziki və emosional mühit bu hadisələrlə yeni problemlər, yeni travmatik izlər daşıya bilər və beləliklə, uşaqlar bu izlərdən silinməz travma ala bilərlər.

Yuxarıdakı tapıntılar araşdırıldığında uşaqların məişət zorakılığının qaçınılmaz şahidi olduğu və ilk növbədə bu zorakılıqdan təsirləndiyi görünür. Dünyada məişət zorakılığının yayılmasına əsaslanaraq demək olar ki, zorakılığa məruz qalan bütün uşaqlar həyatın təbii axarında qeyri-təbii reallıqlarla üzləşirlər. Türkiyədə anası zorakılığa məruz qalan və anası olmayan uşaqlar üzərində aparılan araşdırmada, anaları zorakılığa məruz qalan uşaqların "tez-tez kabuslar görməsi, yatağı islatma, ictimai həyatda utancaqlıq, tez-tez ağlamaq, zorakı və aqressiv hərəkətlər kimi reaksiyalar göstərdiyi müəyyən edilmişdir [4]. Göründüyü kimi, dolayısı ilə və ya bilavasitə məruz qaldıqları bu vəziyyətlərdə uşaqlar xüsusilə psixoloji təsirə məruz qala, qorxu, etibarsızlıq və acizlik hisslərini sıx şəkildə yaşaya bilərlər.

2007-ci ildə ailədaxili zorakılığı araşdıran Funzotto və Fusco 6 yaşdan kiçik uşaqların məişət zorakılığının şahidi olma riskinin daha yüksək olduğunu bildirmişdir. Ailədaxili zorakılığın şahidi olan azyaşlı uşaqlarda emosional stress, yuxu pozğunluğu, tək qalmaq qorxusu, somatik şikayətlər, tualet təhsili və dil inkişafında geriləmə müşahidə

olunur [9]. Başqa bir araşdırmada isə uşaqlarda bağlanma problemləri və ayrılıq narahatlığı olduğu və bu uşaqların hisslərini ifadə etmək üçün şifahi dilə gətirmə imkanlarının hələ yetərli olmadığı müşahidə edilmişdir ki, bu da qəzəb, aqressivlik, ağlama və sakitləşə bilməmə, narahatlıq və ümidsizliyi izah edir. Eyni zamanda, yeni doğulmuş və kiçik uşaqlar stressə qarşı həssasdırlar və bu yaşlarda yaşanan stress beyin inkişafına təsir göstərir və həyatın ilk 2 ilində məruz qalınan insanlar arasında travma xüsusilə zərərlidir və uşağın idraki qabiliyyətlərinə birbaşa təsir göstərir [2].

Uşaqlara qarşı göstərilən zorakılıqların nəticələri onların və cəmiyyətin həyatına təsirsiz qalmır. Bu nəticələrin eyni vaxtda iki aspekti var: qurbana zərər və cəmiyyətə zərər. Belə ki, hər hansı bir zorakılığa məruz qalmış uşaqlar sosiallaşmada çətinlik çəkirlər, onların böyüklərlə əlaqələri kəsilir, həmyaşıdları ilə uyğun ünsiyyət bacarıqları olmur, məktəbdə nüfuz qazanmaq üçün kifayət qədər bilik və diqqətə malik olmurlar.

Zorakılığın qurbanı olan uşaqlar çox vaxt öz problemlərinin həllini kriminal, sosial mühitdə tapırlar və bu, çox vaxt alkoqol və narkotiklərə aludəçiliyin inkişafı ilə əlaqələndirilir, eləcə də onlar oğurluq və digər cinayət əməllərini törətməyə başlayırlar.

Qızlar tez-tez fahişəliklə məşğul olmağa başlayır, oğlanlar isə cinsi oriyentasiyada problemlər yaşaya bilərlər. Nəhayət hər iki cinsdən olan uşaqlar sonradan öz ailələrini yaratmaqda çətinlik çəkirlər, çünki öz emosional problemlərini həll etməyiblər. Qeyd edildiyi kimi, hər hansı bir zorakılıq növü uşaq və yeniyetmələrdə elə şəxsi və davranış xüsusiyyətləri formalaşdırır ki, onları cəlbedici etmir, hətta cəmiyyət üçün təhlükəli edir.

Uşaqlara qarşı zorakılığın cəmiyyətə vurduğu zərər baxımından ilk növbədə, uşaq və yeniyetmələrin qətlə yetirilməsi və ya onların intiharı nəticəsində insan tələfatı, cəmiyyətin məhsuldar üzvlərinin psixi və fiziki sağlamlığının pozulması, təhsil və peşə səviyyəsinin aşağı olması nəticəsində baş verən itkilərdir və bu hallar özündə cinayət davranışını formalaşdırır. Bu, fiziki və mənəvi cəhətdən sağlam övlad böyütməyə qadir olan valideynlərin itkisidir. Nəhayət, bu, cəmiyyətdə qəddarlığın təkrar istehsalıdır.

Müvafiq olaraq, müdaxilələr hazırlayarkən və ya ailədaxili zorakılığın şahidi olan uşaqlarla işləyərkən mübarizə üsullarını və həll yollarını müəyyən etmək vacibdir. Buna görə də ailədaxili zorakılığın qurbanı olan uşaqlarla işləyərkən atılması lazım olan bəzi addımları aşağıdakı kimi ifadə etmək olar:

1. İlk olaraq, ailədaxili zorakılığın qurbanı olduğu düşünülən uşaqlar üçün hərtərəfli qiymətləndirmə aparılmalı və ondan təsirlənmə dərəcəsi müəyyən edilməlidir.
2. Bu uşaqlarla işləyərkən uşağa qarşı laqeydlik və ya zorakılıq halları nəzərə alınmalı və belə hal aşkar edildikdə aidiyyəti orqanlara təcili məlumat verilməlidir. Bu səbəbdən zorakılıq qurbanı olan uşaqlarla işləyən peşəkarlara laqeydlik və zorakılıq mövzusunda təlim keçirilməlidir.
3. Hər bir zorakılıq qurbanı olan uşaqla xüsusi məşğul olan bir mütəxəssis olmalı və bu mütəxəssis uşağı dəyərləndirməli və müdaxiləni uşağa uyğunlaşdıra bilməlidir.
4. Məişət zorakılığının şahidi olan uşaqlarla işləyən qurumlar və mütəxəssislər böhranlı vəziyyətdə işləyirlər. Bu səbəbdən uşağın təhlükəsizliyini və məxfiliyini təmin

etmək üçün protokollar hazırlanmalı və travma ilə bağlı məsləhətlər verilməlidir. Qurumların və ekspertlərin böhrana müdaxilə protokolları olmalıdır.
5. Valideynlərin tərbiyəsində və ailənin təşkilində uşaqların inkişaf dövrü və mədəni fərqlilikləri nəzərə alınmalıdır.
6. Zorakılıq qurbanı olan uşaqlarla işləyənlər digər şəxslər və qurumlarla əməkdaşlıq etməyə hazır olmalıdırlar. Əməkdaşlıqlar təhlükəsizlik bölmələri, məktəblər, sığınacaqlar, prokurorluqlar, vəkillər və valideynlərlə qurula bilər.
7. Məişət zorakılığı qeyri-adekvat valideynlik təcrübələrinə səbəb ola bilər. Bu səbəbdən də zorakılığa məruz qalan valideynlə, mümkünsə zorakılıq edən valideynlə də işləməli, sağlam valideynlik üsulları öyrədilməlidir. 2000-ci ildə bu sahədə apardığı tədqiqat işiylə seçilən Carlson da qeyd etdiyi kimi, valideynin uşağın ehtiyaclarını ödəməyi öyrənməsi və sağlam valideyn olması uşaqla yenidən etibarlı bir əlaqənin qurulmasını təmin edir.
8. Zorakılığa məruz qalan ailələrin ayrılması prosesində qəyyumluq problemləri yarana bilər. Ailədaxili zorakılığın qurbanı olan uşaqlarla işləyən qurumlar bu məsələdən xəbərdar olmalıdırlar. Bundan əlavə, uşaq və valideynin görüşüb ünsiyyət qura biləcəyi təhlükəsiz mərkəzlərin yaradılmasına ehtiyac var.
9. Məişət zorakılığının şahidi olmanın uşaqlara təsiri haqqında yeni valideynlərə və cəmiyyətdəki digər şəxslərə təlimlər keçirilməlidir. Beləliklə, məişət zorakılığının qarşısı alınmalı və fərdlərə sağlam valideynlik öyrədilməlidir [1].

Ailədaxili zorakılıq birbaşa məruz qalan şəxs üçün travmatik təcrübə olsa da, bununla məhdudlaşmır. Zorakılığa birbaşa və ya dolayısı ilə şahid olan və ya məruz qalan uşaqlar həm qısa, həm də uzun müddətdə zorakılığın təsirini yaşayırlar. Bu təsirlərin qısa və uzun müddətdə uşağa zərər verməməsi üçün müxtəlif ehtiyat tədbirlərinin və müalicə üsullarının işlənib hazırlanması və yayılması çox vacibdir. Bu səbəblərdən uşağa özünü qorumaq üçün nümunə olan təhlükəsizlik planının hazırlanması və uşağın rifahını qorumaq üçün alternativ müalicə üsullarından bəhs edilməlidir.

Bundan əlavə, ölkəmizdə də ailədaxili zorakılığın uşaqlara təsirlərinin qarşısının alınması istiqamətində işlər görülməkdədir [6]. Lakin, "Məişət zorakılığının qarşısını alınması haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsindən 10 ildən artıq müddət keçsə də hazırda bu qanunun tətbiqi zamanı bəzi çətinliklər müşahidə edilməkdədir. Təcrübə göstərir ki, bu hallatrın qaynaqlandığı əsas məsələ ölkəmizdə ilk növbədə məişət zorakılığının ailələrimizdə gizlədilməsidir. Eyni zamanda statistik göstəricilərə rast gəlməyin mümkün olmamasıdır. Bu isə Azərbaycanda baş verən ailədaxili zorakılıqların əksəriyyətinin sosial-mədəni tərəflərdən qaynaqlandığını özündə birləşdirir.

## İstinad edilmiş ədəbiyyat

1. Aile İçi Şiddete Şahit Olan Çocuklar: Bir Alanyazın Derlemesi, Feyza Dinçera Müge Yüksel, 2018. s. 135.

2. Interpersonal Trauma Exposure and Cognitive Development in Children to Age 8 Years: A Longitudinal Study
3. Towards a Definition of Orphaned and Vulnerable Children s.620
4. Türkiyədə Qadınlara Qarşı Ailə Məişət Zorakılığı Hesabatı, 2009
5. World Health Statistics 2014

## İnternet resurslar

6. Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu: https://e-qanun.az/framework/20131
7. Aile İçi Şiddetin Çocuklar Üzerindeki Etkisi: https://www.nobelcocuk.com/blog/aile-ici-siddetin-cocuklar-uzerindeki-etkisi.html
8. Domestic Violence and Education: Examining the Impact of Domestic Violence on Young Children, Children, and Young People and the Potential Role of Schools: https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC6243007/
9. Exposure to violence, mental health and violent behavior: https://www.researchgate.net/publication/251678669_Exposure_to_violence_mental_health_and_violent_behavior

**Aykhan Shahbaz oghlu Gahramanov**

**Consequences of Domestic Violence on Children**

**Summary:** Domestic violence is defined as certain aggressive and submissive behaviors that family members use against each other, and these behaviors are often repetitive patterns of behavior. Domestic violence has serious physical, psychological, economic and social consequences for women, children, families and society in general. Research shows that because most incidents of violence occur in front of children, direct exposure to or witnessing violence in the family results in similar emotional-behavioral problems in children. This article discusses how children of different age groups exposed to domestic violence are affected by different reactions, and the activities of international organizations related to the problem and a number of statistics are presented.
**Keywords:** violence, children's rights, family, society, welfare.

**Айхан Шахбаз оглы Гахраманов**

**Влияние домашнего насилия на детей**

**Резюме:** Домашнее (семейное) насилие определяется как агрессивное и покорное поведение членов семьи друг против друга, которое представляет собой часто повторяющиеся модели поведения. Домашнее насилие имеет серьезные физические, психологические, экономические и социальные последствия для

женщин, детей, семей и общества в целом. Исследования показывают, что большинство случаев насилия происходит на глазах у детей, прямое воздействие или наблюдение насилия в семье приводит к аналогичным эмоционально-поведенческим проблемам у детей. В данной статье рассматривается реакции детей разных возрастных групп, подвергшихся домашнему насилию, а также представляется деятельность международных организаций по этой проблеме и статистические данные.

**Ключевые слова:** насилие, права детей, семья, общество, благосостояние.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 16.11.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский государственный университет культуры и искусств XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Arts, XLVI edition, Baku, 2024

**UOT 316.74**
**ORCID: 0000-0003-1581-4536**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.010**

**Fətəliyeva Rufanə Rizvan qızı**
**Azərbaycan Kooperasiya Universitetinin müəllimi**
**Bakı Dövlət Universitetinin doktorantı**
**Email: rufanafatali@gmail.com**

# MÜASİR DÖVRDƏ DİNİ PLÜRALİZM NƏZƏRİYYƏSİ, ONUN TƏZAHÜR FORMALARI

**Xülasə:** Dini plüralizm müasir dini fəlsəfənin ən parlaq və mübahisəli mövzularından biridir. Bu qismən ona görədir ki, din fəlsəfəsinin tətbiq olunduğu və öyrədildiyi mühit getdikcə çoxmədəniyyətli, çoxkonfessiyalı mühitə çevrilir. XXI əsrin əvvəlləri müxtəlif dini ənənələrin müxtəlif teologiyalarının dini plüralizmin çağırışına şahid olduğu bir dövr idi. Beləliklə, dini plüralizm bir şəkildə bütün ilahiyyatların məşğul olması lazım olan bir fenomendir. Bu məqalə dinlərdə həqiqət və qurtuluş ideyasına əsaslanan dini plüralizm probleminə işıq tutmaq və qloballaşma kontekstində metafizik dini plüralizmin son məqsədinə diqqət çəkmək məqsədi daşıyır.
**Açar sözlər:** Dini plüralizm, modernləşmə, dindarlıq, tolerantlıq, Con Hikk

## Giriş

Cəmiyyətimizdə, ictimai həyatımızda plüralizm sözü son onilliklər ərzində tez-tez işlənən müasir sözlərdəndir. Təəssüf ki, əsasən bir çox ədəbiyyatlarda bu terminin əsl mənasına varmadan və ya digər ona yaxın mənalı terminlərlə qarışdırılır. Bəzən də onu yalnız istədiyimiz forma və mənalarda da səsləndirə bilirik. Bu məqalədə plüralizm, tolerantlıq, humanizm kimi anlayışlar bir birindən fərqləndirilir.

Qərb mütəxəssislərinin də "plüralizm" və onun əsas tərkib hissəsi hesab olunan "tolerantlıq" barədə fikirləri eynilik təşkil etmir. Tarixi mənbələri araşdırsaq, plüralizm Avropaya XVI və XVII əsrlərdə dini konfliktlər nəticəsində tolerantlığın müəyyən zamanla qəbul edilməsi ilə meydana gəlib**.**

Plüralizm XX əsrin əvvəllərində İngiltərədə Frederick Maitland, Samuel G. Hobson, Harold Lasky, Richard H. Tony və George Douglas Hovard Cole daxil olan bir qrup yazıçı tərəfindən fəal şəkildə araşdırılaraq fərdin ona cəmiyyət hissi verəcək bir sosial kontekstə inteqrasiya edilməsinin lazım olduğunu iddia edirdilər. Belə bir cəmiyyətin nümunəsi olaraq da gildiyaların, qanuni şəhərlərin, kəndlərin, monastırların və universitetlərin orta əsr quruluşuna uyğun olduğu işarə edilirdi. Plüralistlər müasir sənaye cəmiyyətinin bəzi mənfi cəhətlərinin iqtisadi və inzibati mərkəzsizləşdirmə yolu ilə aradan qaldırıla biləcəyini iddia etdilər.

**Əsas hissə**

Tolerantlıq və plüralizm fərdi, həm də fərqli anlayışlardır, lakin hər iki termin müəyyən mənalarda bir-birinə çox yaxındılar. Tolerantlıq plüralizmin bir hissəsidir, yəni tolerant olmayan plüralizm həqiqi plüralizm deyil. Bu iki əsas anlayış arasında fərq ondan ibaratdir ki, tolerantlıq dəyər və ənənələrə hörmətlə yanaşır, plüralizm isə fərqli dəyərlərin varlığını qəbul edir. Çünki plüralizm fərqlilikləri və fərqli yanaşmaları, şəxsləri, xalqları və cəmiyyətləri zənginləşdirən varlıq olaraq dəyərləndirir [1, s.14].

XVII əsrə qədər fərqli mövqelərin, dinlərin mövcudluğunun dövlətlərin dağılmasına və münaqişələrə gətirəcəyinə inanılırdı. Həmrəylik isə dövlətin mühüm şərti sayılırdı. Tolerantlıq quru bir konsepsiya olmaqdan çıxdı və onun həyata keçirilməsində ən böyük amil bəşəriyyətin sərhədlərinin həddinə çatması idi. İnsanlığın dəhşətli hala gəldiyi dövrdə, mövcud şərtlər tolerantlığın məcburi olduğuna dair bir fikrini yaratdı. Beləliklə, tolerantlığın məcburiyyətdən yarandığını düşünmək mümkündür. Tolerantlıq konsepsiyasının tarixini nəzərə alaraq siyasi, mənəvi və dini məzmunun müxtəlif tərifləri verilmişdir. Məsələn, bir fəlsəfi lüğətdə tolerantlıq "öz fikir və inanclarına zidd olan digər fikir və inanclara dözümlülük, onlara qarşı toxunulmazlıq" olaraq təyin olunur.

Öz təbiətinə görə plüralizm cəmiyyətdə normal ictimai, sosial, siyasi münasibətlərin yüksəlmə istiqamətlərinin inkişafını formalaşdırır, proseslər təzyiqə məruz qalmadan azad şəkildə inkişaf edir. Plüralizmin təsiri ilə sosial-siyasi cərəyanların, yanaşmaların sayı artır ki, bu yanaşmalardan hər biri öz suverenliyinə doğru getməyə başlayır. Siyasi mənada isə siyasi alimlər dövlət quruculuğunda plüralizmin inhisarçılığın istənilən formasının əleyhinə çıxış etdiyini qeyd edir və bir neçə ümumi mühüm əlamətləri qeyd edirlər. Bu əlamətlərə aiddir:

1) səbatsızlığın, konfliktin dünyanı çoxqütblü materiya kimi anlamaq yanaşmalarını aradan qaldırır;

2) sosial, konseptual differensiyanı vahid norma kimi qəbullanaraq fərdiyyətin azadlığını artırır.

Plüralizm cəmiyyətdəki sosial təbəqələrin çoxluğu fonunda yetkinləşir. Siyasi plüralizmin müxtəlif formaları müəyyənləşmişdir. Bu, həm çoxpartiyalı sistem, həm hakimiyyətin uyğun hüquq və səlahiyyətləri olan çoxçeşidli mərkəzlərə ayrılması, eyni zamanda da rəsmi deyil, həqiqətən, yerli özünüidarəetmə orqanlarının inkişafı və ən sonunda müxtəlif ədəbiyyatlarda "dördüncü hakimiyyət" sayılan müstəqil mətbuatın olması anlayışı deməkdir. Siyasi ekspertlərin fikrinə əsasən, plüralizm vahid bir mədəniyyət olmasına baxmayaraq, eyni zamanda da cəmiyyətdə müxtəlif ideoya və yanaşmaların olmasıdır [2, s. 172].

Plüralizm eyniliyi, tək ideologiya və hegemon fikri, bütün cəmiyyətə – insanlığa təlqin və məcburi tətbiq edilməsini inkar edir. Plüralizm insanların düşüncə azadlığını, baş verən hadisələr haqqında suveren fikrinin olmasını müdafiə edir. Plüralizm müxtəliflikdir, plüralizm rəngarənglikdir və ən nəhayət, plüralizm zənginlikdir. Bu, əslində elə cəmiyyətin təbii və sadə formasıdır. Çünki insan müstəqil fərddir, onun öz fikri,

düşüncə tərzi və zövqü var. İnsana hansı formada rahatdırsa, məhz elə də yaşamalıdır. O, özünü cəmiyyətə və ümumi çoxluğa uyğunlaşdırmaq məcburiyyətində deyil. Yekdil ideologiyaya məcbur edilmiş xalqlar əvvəl-axır plüralizmlə tanış olacaqlar. Plüralizm özü elmi plüralizm, siyasi plüralizm, dini plüralizm, mədəni plüralizm kimi terminlərə ayrılır. Siyasi plüralizm – bir neçə ideyalar əsasında səciyyələnən rəy, müxtəlif siyasi partiyaların vahid istiqamətdə müxtəlif fikirlərdə yekun nəticəyə gəlməsidir.

İslam, xristianlıq, yəhudilik, hinduizm,buddizm, kaynizm, konfutsiçilik və taoizm kimi milyonlarla inanclı olan dinlər var. Rəqabət edən dinlərin olması, qloballaşma ilə birlikdə müasir insanı plüralizm problemi ilə üz-üzə qoyaraq və bəzi sualları qarşıya qoyur: "Bu dinlərdən yalnız birinə qapılmaq nə dərəcədə məntiqlidir? Sonlu həqiqət bir dini əhatə edə bilərmi? Yalnız bir din qurtuluşu təmin edə bilərmi? ...Plüralistlər, əlbəttə ki, bu suallara mənfi cavab verirlər. Plüralizm baxımından canlı dünyanın müasir dinləri sonlu (qəti) və ya həqiqi (həqiqi) və onun anlayışını və ona müxtəlif cavablarını təmsil edirlər. Hər bir din insanın eqosentrizmdən real mərkəzçiliyə ekzistensial çevrilməsində iştirak edir və müstəqil bir yerdə dayanırlar. Beləliklə, böyük dini ənənələr insanları xilas etmək üçün alternativ yollar kimi qəbul edilə bilər" [3, s.71, 98].

Plüralizm *plural – cəm,* çoxluğa meyillilik mənasındadır. Plüralizmin ictimai həyatın müxtəlif sahələrində, həmçinin din və əxlaq fəlsəfəsində, politologiya və digər sahələrdə çoxluğa tərəf meyil kimi mənalandırılaraq, fərqli istinad formaları var. Plüralizm qeyd edilən bütün ifadə formaları daxilində ortaq olaraq, əsasən vahidliyə meyillilik və ya eksklüzivizmə əks istiqamətdə çoxluğa meyillilik kimi tanımlanır. Amma dini plüralizm bu mənadadır ki, həqiqət və xoşbəxtlik tək bir dində cəm olmayıb, bəlkə də bütün ilahi dinlərdə bu həqiqət var. Əslində var olan və bilinən dinlər arasında sıx koordinasiya olarsa, insan reallığa və tamlığa nail ola bilər. Bu səbəbdən dinlər arasında haqq və batil meyarı aradan götürülərək dini münaqişə və çəkişmələr öz yerini humanizmə verir.

Dini plüralizm cərəyanının ilkin ideyalarını qərb dünyasında ingilis filosofu Con Hikk irəli sürmüşdür. Həyatının gənclik illərində fundamentalist xristian olan Hikk təhsil aldığı universistet üçün Birmingem şəhərinə gəldikdən sonra burada müxtəlif millətlər, xalqlar və dinlərlə tanış olur. 1950-60-cı illərdə Birmingem şəhəri Asiya və Afrika qitəsəindən gələn köçmələrin mərkəzi sayılırdı. Hikkin özünün təbirincə desək: "Bu şəhər irqlər, mədəniyyətlər və dinlər baxımından tam plüralist şəhər idi". Belə bir mühitlə yanaşı, Kantın, Smitin və Şteynin analitik düşüncələri ilə tanışlıq onun fikirlərinin formalaşmasında böyük rol oynamışdır [4, s. 123].

Con Hikk üçün *"mehriban Allah"* ideyası ən maraqlı və ən cəzbedici ideya idi. Onun fikrinə əsasən, nicat və qurtuluşu təkcə xristianlığın inhisarında saxlamaq istəyən, başqalarını isə ilahinin lütfündən məhrum sayan bəzi kilsə xadimlərinin düşüncələri təzadlıdır. O, bu barədə yazır: "Məgər biz mehriban Allahın bütün insanlara nicat vermək istəyini qəbul etmirikmi? Eyni zamanda, bunun yeganə yolunu xristianlıqda görürük. Həmin məntiqlə hamı deyil, məhz insanların müəyyən bir hissəsi qurtuluşa nail olacaq və onların çoxu ondan məhrum qalacaqlar". Beləliklə, Hikk xristianlıq

kəlamında bir dəyişiklik, inqilab etmək istədi və bunu "Kopernik inqilabı" [5, s. 115-116] adlandırdı

Plüralizm kimi, bir çox digər düşüncə cərəyanları da sosial müxtəlifliyə öz şərhlərini vermişlər. Monizm, relativizm, skeptisizm və subyektivizm eyni şəkildə dəyərlərin müxtəlifliyini dərk etməyə əsaslanan fəlsəfi mövqelərdir. Plüralizm, əslində elə bu alternativ fəlsəfi mövqelərlə birləşdirilə bilər və ya üst-üstə düşə bilər və tez-tez onlarla eyniləşdirilir. Bəs plüralizmdə yeniliklər nələrdir? Plüralizm qeyd edilən dəyərlərdəki fərqliliklərin digər izahlarının heç birində olmayan sosial müxtəlifliyi necə izah edir? Plüralizm və digər mövqelər arasındakı əlaqənin öyrənilməsi plüralizmin fərqli prinsiplərini, yəni plüralizmin sosial müxtəlifliyə verdiyi əlaqəli əhəmiyyəti vurğulamalıdır. Plüralizmin qarşı çıxdığı baxışdan başlayaq, yəni monizmdən.

**Plüralizm və Monizm**

Monizm, bütün varlıqların və gerçəkliyin tək bir təməl prinsipə və ya maddəyə söykəndiyini iddia edən fəlsəfi bir cərəyandır. Bu baxışa görə, kainatın mərkəzində yalnız bir növ varlıq dayanır və bu varlıq bütün hadisələrin mənbəyini təşkil edir. Monizm, əks nöqteyi-nəzərdən sayılan dualizmə (varlığın iki ayrı və müstəqil prinsipinin mövcud olduğu nöqteyi-nəzər) qarşı çıxır.

Hər şeyi əhatə edən bir hədəf var ki, bu da monist baxışların struktur təşkili qəbul etdikləri rasional düşüncə növü üçün vacibdir. Bütün digər məqsədlərimiz həyata keçirilir prinsipcə, heç bir normativ qalıq və ya itki olmadan rasional bir qərara gəlmək mümkündür. Teleoloji nəzəriyyələr əsasən monistikdir. Beləliklə, teleoloji quruluşa cavab verən nəticəlilik, utilitarizm və mükəmməllik nəzəriyyələri monistik etik anlayışın bariz nümunələridir. Plüralist nəzəriyyələr, əksinə, onlara uyğun olan normativ müzakirə növü üçün əhəmiyyətli nəticələrə səbəb olan bu hərtərəfli qiymətləndirmə meyarından məhrumdur [6, s. 78, 81].

Bu səbəbdən, monizmə görə, sosial müxtəliflik, nəticədə səliqəli və qalıqsız bir tənzimləmə qarışığına bağlanan tapmacanın parçalarıdırsa, plüralizm üçün sosial müxtəliflik təmiz elementlər təklif edir, hansı ki heç vaxt hamısını əhatə edən vahid ümumi bir sistem təşkil etməyəcək.

**Plüralizm və relativizm**

Həm dini, həm də elmi sahədə köhnə əminliyin yox olması, ənənəvi etik çərçivələrin məhv edilməsi və müxtəlif cəmiyyətlərdə sosial və mədəni müxtəlifliyin artan şüuru relyativizmin müasir ədəbiyyatlarda taninmasına təsir göstərdi. Relativizm bəzən tənqidçilər tərəfindən bütün baxışların eyni dərəcədə ədalətli olduğu tezisi olaraq təyin olunur. Etikada bu, bütün əxlaqi prinsiplərin eyni dərəcədə yaxşı olması deməkdir; epistemologiyada bütün inancların və ya inanc sistemlərinin eyni dərəcədə doğru olduğunu göstərir. Mənəvi relativizm normativ və ya meta-etik mövqe ola bilər. Plüralizm ümumiyyətlə relativizmin meta-etik versiyası ilə, yəni müxtəlif mədəni və tarixi dəyərlərə normativ əhəmiyyət verən əxlaqi mühakimələrin düzgünlüyü və yanlışlığı fikri ilə müəyyən edilir. Həqiqətən, bəzi mütəfəkkirlər plüralizm və relativizmin bir-biri ilə sıx əlaqəli olduğunu iddia etdilər.

Relativizmə görə, mədəni müxtəliflik əxlaqi mühakimələrin həqiqəti haqqında təsadüfi bir anlayış yaradır və bu səbəbdən əxlaqi müzakirə heç vaxt universal, rasional və obyektiv əsaslandırıla bilməz. Plüralizm bu baxımdan iki vacib cəhətdən uzaqlaşır: mədəniyyətə və onun roluna yanaşmasında və qeyri-mütənasiblik konsepsiyasında. Mədəniyyətin roluna gəldikdə, plüralizm sosial müxtəlifliyin dəyərlər, maraqlar və ya inanclarla əlaqəli universal, qəti, daimi və tamamlanmış rasional qərarların qəbul edilməsinə mane olduğunu qəbul edir. Bu mənada plüralizm və relativizm üst-üstə düşür. Bununla birlikdə, plüralizm, relativizmdən fərqli olaraq, mədəniyyətlərə qəti normativ əhəmiyyət vermir. Mədəniyyət, plüralist baxımdan, normativ qiymətləndirməyə müraciətin son mənbəyi deyil. Mədəniyyətlər də dəyər qərarlarının verilməli olduğu mərkəzi normativ məkanı təsvir etmir. Plüralist yanaşma digər tərəfdən, mədəni müxtəliflik ya sosioloji bir həqiqətdir, ya da dəyərlərin müxtəlifliyinə daha dərin bir fəlsəfi baxışın təzahürüdür. Hər halda, mədəniyyətin özü mütləq normativ əsaslandırmanın son çarəsi deyil. Başqa sözlə, mədəniyyət plüralizmin əhatə dairəsini onun miqyasında və ya əsaslandırılmasında müəyyənləşdirmir [7, s. 98].

Mərkəzi normativ məkan, bunun əsasında dəyər qərarları verilməlidir. Plüralist yanaşma baxımından mədəni müxtəliflik ya sosioloji bir həqiqətdir, ya da dəyərlərin müxtəlifliyinə daha dərin bir fəlsəfi baxışın təzahürüdür. Hər halda, mədəniyyət özü mütləq normativin son çarəsi deyil. İkincisi, plüralizmin ən fərqli xüsusiyyəti, ümumiyyətlə relyativizmlə əlaqəli eyni anlayışdan fərqli olan uyğunsuzluq fikridir. Relativizm mədəniyyətlərdə normativ pozuntuları, aralarındakı uyğunsuzluğu nəzərdə tutan boşluğu nəzərdə tutur. Yəni əxlaqi mühakimələr ortaya çıxdıqları mədəniyyətlərə aid olduğundan və sonuncular da öz növbəsində bir-birinə çevrilmədiyi üçün ziddiyyətli mühakimələrin nisbi dəyərini qiymətləndirmək mümkün deyil-əxlaqi mühakimələr və onların müvafiq mədəniyyətləri müqayisə olunmazdır. Bu fikir plüralizmin əsasını təşkil edən ideyadan fərqlidir. Plüralistlər üçün uyğunsuzluq anlayışı mədəniyyətlərə bağlı deyil və bunlarla məhdudlaşmır. Əksinə, qeyri-mütənasiblik, mədəni sərhədlərdən asılı olmayaraq dəyərlərin təbiətinə aid bir xüsusiyyətdir. Beləliklə, relativizm üçün uyğunsuzluq submədəni faktorlara aid olsa da, plüralizm üçün uyğunsuzluq mədəni sərhədləri aşır və insan təcrübəsi üçün əhəmiyyətli dəyərlərə aiddir.

Üstəlik, relativizm ətrafında mübahisələrin mərkəzində olan əsas uyğunsuzluq anlayışı mütləq müqayisə olunmazlıq fikrini irəli sürür. Relativizm ruhunda mədəniyyətlərin bir-biri ilə müqayisə olunmadığını söyləmək, fərqli mədəniyyətlərdə ortaya çıxan əxlaqi mühakimələrin düzgün və ya səhv olmasının bir-biri ilə müqayisə edilə bilməyəcəyini söyləməyə bərabərdir.

Digər tərəfdən, plüralist nəzəriyyə daxilində uyğunsuzluq müqayisəsizliyi əhatə edə bilər və ya daxil edə bilməz. Plüralistlər üçün dəyərlərin bir-biri ilə müqayisə olunmadığı iddiası, aralarında nizamlanmış normativ tənzimləmənin əlçatmaz olduğu anlamına gəlmir.

**Plüralizm və skeptisizm**

Fəlsəfədə skeptisizm yanaşması həqiqətin yolunda atılan ilkin addımdır. Skeptiklər

bu sahədə bütün biliklərə əvvəlcə inamsızlıqla yanaşır və daha da irəliyə gedərək insan ağlının həqiqəti anlamayacağını fikirləşirlər. Fəlsəfə və elm tarixində hər şey skeptisizm təməlində inkişaf etdiyi üçün heç vaxt öz dəyərini itirmir. Orta əsrlərdə xristian kilsələrinin təsiri altında araşdırma və elm üçün təcrübələr aparmaq sonda edam, gilliotina kimi cəzalandırma metodları ilə nəticələnirdi.

Skeptisizm, inanclarımızın davamlı qeyri-müəyyənliyinə əsaslanaraq hər hansı bir mənalı məsələyə dair mühakimələrdən daim çəkinməyi tələb edən fəlsəfi bir dünyagörüşüdür. Qaçılmaz müxtəlifliyin mövcudluğunu və dəyərlərin, maraqların və ya inancların son rasional sıralanmasının mümkünsüzlüyünü tanıyan plüralizm, skeptik baxışa yaxındır. Bununla birlikdə, plüralist düşüncənin iki fərqləndirici xüsusiyyəti olan dəyərlərin azalmazlığı və uyğunsuzluğu mütləq etik və ya siyasətdəki mühakimələrin dayandırılmasına səbəb olmur.

Alman fəlsəfə tarixçisi Nicholas Rescher, plüralizm və skeptisizmin bu məsələdə fərqli olduğunu iddia edir. Skeptisizmin heç bir mövqenin heç vaxt tam əsaslandırılmadığını iddia edən bir baxış olduğuna inanır. Buna görə də, skeptikin nöqteyi-nəzərindən, səhvdən qaçmaq istəyirsinizsə, mühakimədən tamamilə imtina etməlisiniz [8, s. 389].

Digər tərəfdən, Rescher iddia edir ki, plüralizm heç bir mövqenin heç vaxt əsaslandırıla bilməyəcəyini iddia etmir; o, həmçinin qarşılıqlı məqbul alternativlərin mövcudluğunun bizi mühakimələrdən çəkinməyə məcbur etdiyini iddia etmir. Plüralizm, alimə görə, eyni dərəcədə uyğun alternativlər qarşısında öhdəliyin olmamasını deyil, onlardan birinə sadiq qalmağı və bu qərarı rasional şəkildə əsaslandırmağı nəzərdə tutur. Skeptisizmdən fərqli olaraq, plüralizm heç bir mövqenin tam əsaslandırıla bilməyəcəyini düşünmür; bunun əvəzinə bir çox mövqelərin rasional şəkildə əsaslandırıla biləcəyini iddia edir. Skeptisizm inanclarımızın həqiqətinə heç vaxt tam əmin ola bilməyəcəyimizi iddia etsə də, plüralizm bir çox baxışların rasional şəkildə müdafiə oluna biləcəyini iddia edir. Skeptisizmə görə, epistemoloji əminliyin olmaması həqiqi inancların mümkünlüyünü istisna edir. Digər tərəfdən, plüralistlərin nöqteyi-nəzərindən vahid fundamental normativ həqiqətin olmaması müxtəlif bərabər əsaslandırılmış alternativlərə səbəb olur. Beləliklə, sosial müxtəlifliyin mövcudluğu epistemoloji abstinensiyaya gətirib çıxarır, kiskeptisizm, sonra plüralizm vəziyyətində ağlabatan fərqlər yaradır.

## Nəticə

Əgər pluralizmin etiraf etdiyi kimi, bütün dinlər qurtuluşa aparan bir funksiyanı yerinə yetirirsə, bu vəziyyətdə hər hansı bir dinə riayət etməyin mənası nədir? Bütün dinlər eyni qurtuluşa səbəb olarsa, məsələn, şeytana ibadət edən yalançı dinlər necə olur? Qurtuluş inancına inanan insanların birliyinə sahib olmaq din üçün kifayətdirmi? Dinlər arasındakı açıq və əhəmiyyətli fərqlərin səbəb olduğu dekommunizasiya edilmiş ziddiyyətli vəziyyətin də qurtuluş məsələsini şübhə altına aldığı aydındır. Bu və buna bənzər suallara cavab verməkdə çətinlik çəkmək, pluralizmi septisizm və aqnostisizmə yaxınlaşdırır. Plüralistlər əslində bütün dinlərin həqiqət iddialarının səhv və ya nata-

mam olduğunu söyləməyə çalışsalar, Tanrı anlayışımız deizmdən fərqlənməyəcəkdir. Bu vəziyyətdə "metafizik dini plüralizm" deyilənlər, plutistlərin xəyal etdiyi qlobal dinin gələcək təsviri olacaqdır. Qloballaşma son məqsədinə çatarsa, lokallaşdırılmış dinlər üzərində qlobal din konsepsiyası, dinlər vasitəsilə qurtuluş deyil, dinlərdən qurtuluşun elanı kimi görünür.

Ümumiyyətlə, dini plüralizm dinlərin müxtəlifliyi sualına bir cavab olaraq aşağıdakı prinsiplərə söykənir:

• Din bəşər tarixi üçün qlobal hadisədir, yəni insanın son həqiqətə, yaxud Allaha olan mədəni, mənəvi və tarixi münasibətindən yaranmışdır;

• Yekun həqiqət (Allah) ilə cəmiyyətin ona yanaşmasını tərənnüm edən psixoloji təcrübə arasında fərq vardır;

• Bütün ilahi dinlər real sayılma hüquqına sahibdirlər, çünki bu dinlərin hər birinin ideyası bəşəriyyəti sonsuzluğa yetişdirməkdir və bu müxtəlif baxış və yanaşmalarla ifadə olunur;

• Dinin mənbəyi təkcə inancla müəyyən edilmir, təəssüf olsun ki, həqiqət və vəhy anlayışları isə izahlandırılmır. Dinin əsas qayəsi insanlarda əhvali dəyişiklik yaratmaqdır;

• Dinlər arasındakı düşüncə fərqlilikləri bir tərəfdən təbii sayılır, həmçini digər tərəfdən də bir-birini təkmilləşdirə bilir;

• Dinlər öz dəyərlərini ifadə etmək üçün obrazlı və zəngin dil və üsluba malikdir;

• Dini plüralizm insanın öz nəfsinə doğru meyllənməsindən həqiqətə və Allaha doğru yönələrək təkamülə yetişməsidir və bu proses dünyanın bütün böyük dini ənənələrinin içərisində cərəyan edir.

## Ədəbiyyat siyahısı

1. Hadi Sadiqi, Dini Plüralizm, Tərcümə: Ələddin Məlikov, 2011,
2. Lipson Leslie, Politika Biliminin Temel Sorunları, tərcümə. Tuncer Karamustafaoğlu, Birlik Yayınları, Ankara, 1986,
3. Arıcan, M. Kazım, "Felsefi ve Teolojik Bir Problem Olarak Dini Çeşitlilik", Cümhuriyyət Üniversiteti İlahiyat Fakültəsi Dərgisi, 2011, Cild: XV, Sayı: 1, səh. 71-98.
4. Maykl Piterson və digəran. Əql və eteqade-dini (tərcome: Əhməd Nərağı və İbrahim Sultani). Tehran, "Tərhe-no", 1377
5. Jolın Hick. Problems of religions pluralism. London, "Martirispress", 1985.
6. Kekes , J. (2000) Pluralism in Philosophy: Changing the Subject. Ithaca, NY : Cornell University Press
7. Barry, B. (2001) Culture and Equality: An Egalitarian Critique of Multiculturalism. Cambridge, MA : Harvard University Press
8. Р.Рихтерь. Скептицизмь в философии / Рихерь Рауль. – СПб: Шиповикь, 1910.

**Fataliyeva Rufana Rizvan**

## The Concept of Religious Pluralism in Modern Times

**Abstract:** Religious pluralism is one of the most brilliant and controversial topics in the modern religious philosophy. This is partly because the environment in which philosophy of religion is practiced increasingly multicultural (multi-faith, multi-denominational) environment within which the philosophy of religion is now practiced and taught. The beginning of the XXI century witnesses that religious pluralism is one of the most basic challenge for different theologies of various traditional religions. Thus, religious pluralism is a phenomenon that all theologies must deal with in some way. The aim of this article is to shed on light to the problem of religious pluralism with reference to the idea of truth and salvation in religions and giving some important remarks to the main aim of metaphysical religious pluralism within the context of globalization.

**Keywords**: Religious pluralism, modernization, religiosity, tolerance, John Hick.

**Фаталиева Руфана Ризван кызы**

## Теория религиозного плюрализма в современное время, формы ее проявления

Yusif Ziyanın "Tərəqqi" qəzetinin demək olar ki, hər sayında kulturoloji istiqamətdə müxtəlif məqalələr nəşr etdirmişdi. Onlardan "Çocuklarımıza bir çarə" [8], "Müsəlmanlar və maarif" [9], "Bakıda rusi müsəlman məktəbləri" [10], "Xeyir işə əqdəm yaxud maarif bir xidmət" [11], "Ərəbistan yaxud Məkkə və Mədinə" [12] və s. bu elmi məqalələrdən hər biri ayrıca bir söhbətin, təhlilin mövzusudur. Bu məqalələrdə maarif sahəsində olan çətinliklər, tədrisdəki problemlər təhlil edilir. Mədəniyyət sahəsinin yaxşılaşdırılması istiqamətində konkret təkliflər verilir. Yusif Ziyanın müxtəlif vaxtlarda çap olunmuş "Təhsili-qəvaid" (Qaydaların öyrənilməsi), "Tərbiyəyi-nisvan" (Qadınların tərbiyəsi), "Səyahət kitabçası", "Hədiyyəyi-nisvan" (Qadınlara hədiyyə) və teatrlarda oynanılmış "Ərmənusə", "Şamın fəthi" və b. səhnə əsərləri, dövri mətbuatda çıxan dini risalələri ədəbi ictimaiyyətə yaxşı tanış idi. "Hədiyyəyi-nisvan" (Qadınlara hədiyyə) H.Z.Tağıyevin mətbəəsində nəşr edilmiş [13], qadınlara pulsuz paylanılması nəzərdə tutulduğu üçün "Qadınlara hədiyyə" adlanırdı. Amma kitab məzmun etibarı ilə də hədiyyə idi. Sözü gedən dövrdə qadınların övladlarını düzgün böyütməsi üçün demək olar ki, heç bir məlumat yox idi. Bu problemi qismən də olsa həll etmək üçün Yusif Ziya bu kitabı tərcümə və tərtib edir. Rus və xarici müəlliflərin uşağı necə böyütmək lazımdır, gigiyena qaydalarına, təmizliyə necə riayət etmək ki, uşaq sağlam böyüsün-bu mövzulu məqalələri toplayaraq tərcümə edir və qadınlara hədiyyə olaraq nəşr etdirir. İnsanlığın və cəmiyyətin bütün ümumi inkişaf amilləri ilə yanaşı Y.Z.Talıbzadə hələ yüz il bundan öncə gender münasibətlərinə dair də çox maraqlı və faydalı tövsiyələr vermişdir.

XX əsrin əvvəllərində müsəlman cəmiyyətinin mənəvi-əxlaqi problemləri dramaturji əsərlərdə də öz əksini tapmışdır. Bu əsərlərin bir çoxu, eləcə də Yusif Ziyanın pyesləri teatr səhnələrində tamaşaya qoyulmuşdur. Bu əsərlərdə islam dini fərqli istiqamətdən təqdim edilsə də, ümumilikdə dövrün mənəvi mənzərəsini vermək baxımından əhəmiyyətlidir. Yusif Ziyanın "Xalid", "Ərmənusə" dramlarının səhnə təcəssümü maraqla qarşılanmışdır. Burada bir məsələni diqqətə çatdırmaq lazımdır ki, əgər Y.Z.Talıbzadənin publisistik yazılarında və maarifçilik fəaliyyətində daha çox türkçülük ruhu hiss olunursa, onun ədəbi-bədii və dramaturji yaradıcılığında islam birliyi ideyası müşahidə olunur. Ədibin tərcüməçilik fəaliyyətində də dram yaradıcılığının şahidi oluruq. O, Nəriman Nərimanovun "Nadir Şah" pyesini fars dilinə tərcümə etmiş, əsər səhnələşdirilmiş və tamaşa İranda dəfələrlə uğurla göstərilmişdi.

Y.Z.Talıbzadənin silsilə yazılarından biri də qadın hüququnun müdafiəsi haqqında olan "Yeni Füyuzat" jurnalının 1910-cu il dekabr və 1911-ci ilin yanvar və fevral tarixli saylarında dərc edilmiş "Erkəklər və qadınlar" başlıqlı on məqaləsidir.

Müəllif maraqlı bir fikri oxucuların diqqətinə çatdırır ki, bəşər tarixində bir kişi ilə bir qadının birliyi ən taleyüklü məsələlərdən biridir. Bəşəriyyətin əsası da məhz bundan ibarətdir. Yusif Ziya qadın-kişi müasibətlərinin məhəbbət üzərində olması üçün yollar axtarır. Və cəmiyyətə sual verir. Necə etməli ki, qadın və kişi yalnız sevgi ilə ailə qursunlar. Sonda belə bir təklif irəli sürür ki, İslam cəmiyyəti yaranmalıdır. O, insanlıq, qarşılıqlı hörmət, sevgi və məhəbbət üzərində qurulmasını arzu etdiyi bir cəmiyyətin hansı şərtlər və vəzifələr əsasında mövcud olması mümkünlüyünə dair qənaətlərini aşağıdakı

ardıcıllıqla təqdim edir: *1. Əvvələn zövc və zövcənin, bəşəriyyət aləmində əhəmiyyətləri, vəzifələri və vəzifələrini ifa etmələri; 2. Bu erkək ilə qadından təşkil olunan cəmiyyət fərdlərinin əxlaq və davranışlarının təlim və tərbiyəsi; 3. Cəmiyyət ilə üzvlərinin münasibət və əlaqəsi; 4. Cəmiyyətin üzvü olan erkək ilə qadının maddi cəhətdən təminatı; 5. Cəmiyyətin özünün təminatı; 6. Erkək ilə qadından təvəllüd etməkdə olan övladın hansı tərzdə, necə təlim-tərbiyə olunması, gələcəyinin necə təmin edilməsi məsələsi; 7. Erkəklə qadın arasında icra olunan nikahın şərt və qaydaları; 8. Bu vəchlə təşkil olunan cəmiyyətin, onun üzvləri arasındakı səmimiyyətin və ərlə arvadın bir-birilərinə olan qarşılıqlı məhəbbətinin əhəmiyyəti; 9. Belə bir cəmiyyətin təşkili imkanı və insanların məişətinə tətbiqi; 10. Bu surətlə təşkil olunan cəmiyyətin hal-hazırda mövcud olan bəşər cəmiyyətləri ilə təfavüt və müqayisəsi* [2; 187].

Onun kulturoloji baxışlarına görə "fərd və cəmiyyətin inkişafı üçün ərlə arvadı arasındakı münasibətlər hər şeyin əsasını qoyur". Ümumiyyətlə isə, insanlığın təminatı üçün fiziki tərbiyə əvvəl gəlir, sonra mənəvi tərbiyə. Yalnız bunların bir-birini tamamlaması şəraitində cəmiyyət münasibətlərinin təkmilləşməsindən, o cümlədən ər-arvadın bir-birilərinə hörmət bəsləməsindən danışmaq olar. Yusif Ziyanın ədəbi fəaliyyəti də o dövrün ədəbi mühiti üçün diqqət mərkəzində idi. Qeyd etdiyimiz kimi ədibin yaradıcılığı çoxistiqamәli idi. H.Z.Tağıyev haqqında ilk böyük monoqrafiyanı da Yusif Ziya yazmışdı: "Sərvət və səxavətlə məşhur Hacı Zeynalabdin Tağıyev" İlk İslam dövlətləri xəritəsinin tərtibatı da ədibə məxsusdur.

1906-cı ildən başlayaraq Yusif Ziyanın həyatının Türkiyə dövrü başlayır. H.Z.Tağıyev Qurani-Kərimi ərəb dilindən türk dilinə tərcümə etdirir. Və 3 cild nəfis gümüş üzlüklə olan nüsxəni məzh Yusif Ziya vasitəsi ilə Türkiyə sultanına göndərir. Bu fakt Türkiyə-Azərbaycan qardaşlıq münasibətlərinə bir sübutdur. Hal-hazırda həmin tarixi kitab məşhur "Topqapı Sarayı" muzeyində mühafizə olunur. Bu hadisədən sonra Yusif Ziya tez-tez Türkiyəyə gedir. 1912-ci ildə ailəsi ilə bərabər Türkiyəyə köçür, orada hərbi təhsil alır. Birinci cahan müharibəsində Qars Ərdəhan türk ordusunda ermənilərə və ruslara qarşı igidliklə vuruşur. Minbaşı (mayor) rütbəsinə layiq görülür [1; 13]. Ənvər Paşa və Nuri Paşa ilə sıx dostluq əlaqələri olur. Osmanlı Ordusunun tərkibində azərbaycanlı könüllülərdən ibarət "İslam Ordusu"nun rəhbəri olur. 1918-ci ildə Azərbaycanı qandan, ölümdən xilas etməyə gələn Qafqaz İslam Ordusu ilə bərabər Yusif Ziyanın könüllülərdən ibarət alayı vətənə köməyə gəlir.

Yusif Ziya 1921-ci ildə N.Nərimanovun xahişi ilə Azərbaycana köçür. Naxçıvanın hərbi komissarı vəzifəsinə təyin olunur. 1922-ci ilin dekabr ayına qədər bu vəzifədə çalışır. Bu dövr ərzində Naxçıvan torpaqlarına iddialı olan ermənilərə qarşı mübarizə aparır. Sovet rəhbərliyinin ədalətsiz, düşmən siyasəti ilə hec vəchlə razılaşa bilmir. Bakıya qayıdaraq N.Nərimanovla görüşür, bu rejimlə qarşı narazılığını bildirir və sovetlərə xidmət etməkdən imtina edir. N.Nərimanov sovet sərhəddini keçmək üçün ona rəsmi razılıq sənədi verir. Bununla Yusif Ziya Azərbaycandakı həyatına son qoyur. Mühacirət fəaliyyətinə davam edir. Türkiyədə Ənvər Paşa ilə dostluq münasibətlərinə davam edərək onun komandanı olduğu orduya gedir. Yusif Ziya hərbi fəaliyyətini şəhidliklə nəticələnən iş-

ğalçı rus ordusu ilə döyüşdə davam etdirməyi üstün tutur. Bu ordu Orta Asiya xalqlarının azadlığı uğrunda döyüşürdü. Və Yusif Ziya vətəndaşlıq mövqeyini, əqidəsini, dönməzliyi ilə şəhidliyə qovuşur. Bu barədə nəşr olunmuş mənbələrin demək olar ki, hamısında onun qəhrəmancasına doyüşdüyü dəfələrlə qeyd edilir. Bu barədə Zəki Vəlidi Toğanın "Xatirələr" kitabında böyük bir fəsil Yusif Ziyaya həsr olunub [2]. Sonralar bir nəfər həlak olan zaman Yusif Ziyanın qanlı köynəyini və cibində olan Quranı qardaşı Abdulla Şaiqə gətirir. Təbii ki, o dövr üçün mövcud siyasi vəziyyətlə əlaqədar bu hadisə gizli saxlanılır. Yalnız vətənimizdə müstəqilliyin bərpasından sonra gizlədilmiş həqiqətlər Abdulla Şaiqin oğlu, akademik Kamal Talıbzadə tərəfindən üzə çıxarılır. Hazırda həmin quran və arasında Yusif Ziyanın şəhid olması haqqında sənəd Abdulla Şaiqin Mənzil Muzeyinin ekspozisiyasında mühafizə olunur. Bu səbəblərə görə sovet hakimiyyəti illərində Yusif Ziyanın adının düşmən qismində belə çəkilməsi qadağan edilib. Yusif Ziya türkçülük, islamçılıq, müasirləşmək ideyalı əsərləri, ictimai-siyasi fəaliyyəti, dönməzliyi, vətənpərvərliyinə görə yasaq edilib. Ədibin ruslaşdırma siyasətini təhlil edən, onun bütün qanunsuz, insan hüququnu tapdalayan tərəflərini ifşa edən "Rusiyaya səyahət" adlı bir kitabı H.Z.Tağıyevin mətbəəsində nəşr olunub. Həmin kitab sovet hakimiyyətinin ilk illərində evlərdən və kitab mağazalarından yığılaraq məhv edilib.

**Nəticə.** Azərbaycanda Yusif Ziyanın da fəal iştirakçısı olduğu milli-mədəni inkişaf hərəkatı əslində yüzillik bir oyanma prosesinin məntiqi davamı idi. Bu prosesə bir çox ziyalıların yorulmaz fəaliyyəti təkan verdi. Bu maarifçilik fəaliyətinin bütün istiqamətlərində baş verirdi. XIX sonu və XX əsrin əvvəlləri Azərbaycanın qədim mədəniyyət tarixinə milli şüurun və milli dövlətçiliyin yaradılmasına münbit şərait yarandı. Bu işdə ziyalılarımız, maarifçilər, ədiblər çoxistiqamətli fəaliyyətləri ilə mühüm rol oynadılar. Onlar dünyəvi mədəniyyətin müasir ideyalarını ənənəvi mədəniyyətə tətbiq etdilər. Bununla da ömrü az olsa da şərqdə ilk müstəqil Azərbaycan dövləti yarandı. Və illər sonra müstəqilliyini bərpa etdi. Bu gün artıq qalib ölkə vətəndaşı kimi kulturoloji irsimizi öyrənir və təbliğ edirik. Bu mənada Yusif Ziya və onun kimi onlarla ziyalıların kulturoloji irsi tədqiq edilməlidir. Y.Z.Talıbzadə öz yaradıcılığını ancaq dini ənənələrlə, milli zəminlə məhdudlaşdırmamış, bu çərçivəni cəsarətlə qırmağa çalışaraq müasir dünya mədəniyyəti səviyyəsinə yüksəlməyin yollarını axtarmışdır. Bu mənada Y.Z.Talıbzadənin dünyagörüşü zəngin dini, milli, kulturoloji fikrin zəminində, bununla qırılmaz daxili vəhdətdə olan ümumşərq mədəniyyəti kontekstində təşəkkül tapmışdır. Tədqiqatın yekunu olaraq belə qənaətə gəlmək olar ki, Azərbaycan mədəniyyətini yaradan, kulturoloji irsi haqqında tədqiqat aparmaq, onu tanıtmaq bu gün Azərbaycan elminin vəzifələrindəndir. Çünki bugünkü Azərbaycan mədəniyyətinin bünövrəsini xalqımızın tarix boyu qazandığı təcrübələr müəyyən edib. Milli keyfiyyətlər isə milləti yaşadan və inkişaf etdirən keyfiyyətlərdir. Bu mənada kulturoloji irsimizi inkişaf etdirən, onu dünyəvi elmlər sırasında öndə olan əsərlərin, tədqiqatların yazılmasına üstünlük verilməlidir. Azərbaycan xalqı bütün sahələrdə olduğu kimi elmi ilə də dünya səviyyəsində tanınır. Bu inkişafı artırmaq hər birimizin borcudur.

## İstinad edilmiş ədəbiyyat:

1. Məmmədova T. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları Bakı, "Nurlan" 2007. 160 səh.
2. Əsədli M.R. Yusif Ziya Talıbzadə (1877-1923) İstanbul "Yayın" 2019 419 səh.
3. Ot kökü üstə bitər: Akademik Kamal Talıbzadə ilə müsahibə. "Xalq" qəz., Bakı, 5 iyun 1999-cu il
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı: "Lider nəşriyyat", 2005, 472 s.
5. Məmmədli Q. İmzalar Azərbaycan Dğvlət Nə.riyyatı, Bakı 1977, 75 s.
6. Talıbzadə A.Y. Fəttahi Qəssan (Roman surətilə Cürcü Zeydan). "Həyat" qəz., 7 iyun 1905-ci il, № 1.
7. Talıbzadə A.Y. Əmirxanyansa cavab. "İrşad" qəz., 14 noyabr 1906-ci il, № 263.
8. Talıbzadə A.Y. Çocuklarımıza bir çarə. "Tərəqqi" qəz., Bakı, 1909, № 199.
9. Talıbzadə A.Y. Müsəlmanlar və maarif. "Tərəqqi" qəz., Bakı, 1909, 6 sentyabr, № 201.
10. Talıbzadə A.Y. Bakıda rusi müsəlman məktəbləri. "Tərəqqi" qəz., Bakı, 1909, 7 sentyabr, № 202.
11. Talıbzadə A.Y. Xeyir işə əqdəm yaxud maarif bir xidmət. "Tərəqqi" qəz., Bakı, 1909, 13 sentyabr, № 205.
12. Talıbzadə A.Y. Ərəbistan yaxud Məkkə və Mədinə. "Tərəqqi" qəz., 1909, 15 sentyabr, № 209.
13. Talıbzadə A.Y. "Tərbiyəyi-nisvan" Əvvəlinci Şirkət mətbəəsi. 1903 (1320), 90 s.

**Асадова Минаханум Рафик кызы**

**Культурологические Взгляды Юсифа Зия Талыбзаде**

**Цель исследования:** В статье говорится о творчестве Ахунда Юсифа Талыбзаде (далее Юсиф Зия М.А.), занимающего особое место в истории культуры Азербайджана, религиоведа, переводчика, автора многих книг и научных статей, имя оторого было окончательно запрещено в годы советской власти. После восстановления независимости возникла необходимось изучать нашу историю и культуру. Юсиф Зия был первым командующим нашей победоносной армии [1; 11]. Изучение культурного наследия Юсифа Зия является одной из основных целей статьи. В статье рассказывается о просветительской деятельности писателя, литературном творчестве, а также о его успехах в армии Турции и его уникальном мастерстве командира Кавказской исламской армии. Объясняются причины запрещения его имени как врага в советское время, проводится сравнительный анализ. Анализируются произведения и книги Юсифа Зия изданные в известных печатных организациях того времени, таких как «Хаят», «Фьюузат», «Ени Фюузат», «Иршад» и др. Делается вывод, что без изучения жизни, творчества и общественно-политической деятельности таких людей, как Юсиф Зия, невозможно доказать, что насколько богата культурная история и культурное наследие Азербайджана [2].

**Asadova Minakhanim**

**Culturalogical Views of Yusif Ziya Talibzade**

**Summary:** The article talks about the work of Akhund Yusif Talibzade (hereinafter Yusif Ziya M.A.), who has a special place in the cultural history of Azerbaijan, a religious scientist, translator, author of many books and scientific articles, a soldier, and whose name was finally banned during the years of Soviet rule. After the restoration of our independence, it is necessary to study our history and culture as they are, and the first commander of our victorious army [1; 11]. **Design\method\approach:** Studying the cultural heritage of Yusif Ziya is one of the main goals of the article. It talks about the writer's educational activities, literary creativity, as well as his successes as a soldier in Turkey and his unique skills as a commander of the Caucasian Army. The reasons why his name was used as an enemy during the Soviet era are explained, and comparative analyzes are made. **Findinnngs (Results):**Yusif Ziya's works and books published in famous press organizations of the time such as "Hayat", "Fyuuzat", "Yeni Fyuuzat", "Irshad" etc. are analyzed. It is concluded that it is impossible to prove that the cultural history and cultural heritage of Azerbaijan is as rich and secular as it is without studying the life and creative work of people like Yusif Zia, socio-political activity [2].

**Məqalənin redaksiyaya daxil olma tarixi: 20.12.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский Государственный Университет Культуры и Искусств, XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Art, XLVI edition, Baku, 2024

# TEATR SƏNƏTİ

**UOT: 792.071**
**ORCID:** https://orcid.org/0009-0007-3490-1551
**DOI:** **https://doi.org/10.52094/3005-9941.46.2024.021**

**Sona Məmmədağa qızı Mikayılova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Dram teatrı və kino aktyoru kafedrasının**
**əməkdar müəllimi**
**Email: sonakhanim.mikayilova@admiu.edu.az**

## TƏLƏBƏ-AKTYORUN ROL ÜZƏRİNDƏKİ İŞİNİN İLKİN MƏRHƏLƏLƏRİNDƏ PEDAQOQUN ROLU

**Xülasə:** "Tələbə aktyorun rol üzərindəki işinin ilkin mərhələlərində pedaqoqun rolu" adlı məqalədə tələbə-aktyorların rol üzərində başlanğıc iş prosesi ətrafında geniş araşdırma aparılmışdır. Müəllif məqalənin başlıca istiqamətini aktyor sənəti ilə məşğul olan tələbələrin təcrübi qabiliyyətlərinə yönəltmiş, aktyor-pedaqoqlara bu istiqamətdə lazımi tövsiyələr vermişdir. Araşdırma zamanı K.S.Stanislavski və digər pedaqoqların bu istiqamətdə gördüyü işlər də nəzərdən keçirilmişdir.
**Açar sözlər:** Aktyor, pedaqoq, sənət, teatr, məşq, rol, hazırlıq tamaşa, obraz, təcrübi, pedaqoq.

Tələbə-aktyoru bir peşəkar kimi yetişdirib tərbiyə etmək, onun istedadını yaradıcılığının məqsədəuyğun tələblərinə müvafiq istiqamətləndirmək kursun rəhbərinin, sənət müəlliminin pedaqoji ustalığından, onun tədris metodunun müasirlik mahiyyətindən asılıdır.

Pedaqoqu düşündürən əsas məsələ tələbə aktyorun istedadının imkanlarını genişləndirmək, onu rol üzərində müstəqil çalışmağa alışdırmaq, vərdiş halına salmaqdan ibarətdir. O, tələbəyə rol üzərində çalışmağı, obrazı əldə etmək, yaratmaq yollarını dərk etdirməyi qətiyyən unutmamalıdır.

K.S.Stanislavski rol ilə ilk tanışlığa bu cür yanaşırdı: "O bu mərhələni, elçi rejissorun təşkil etdiyi gələcək ər-arvadın görüşü ilə, yaradıcılığın son mərhələsini – səhnə obrazının yaranmasını isə özündə aktyor və dramaturqun xüsusiyyətlərini birləşdirən yeni canlı insanın doğuluşu ilə müqayisə edirdi" [2, s. 322].

Bu mənada tələbə rol üzərində müstəqil işləmək üçün böyük və ciddi həvəslə çalışmalıdır. O, konkret olaraq hadisənin mənasını, əsas məğzini aydın şəkildə duyduğunu dərk etməlidir. Nəhayət, o hiss etməlidir ki, öz üzvi təbiətinin imkanlarını duya bilir, o qədər də mürəkkəb olmayan sadə bir personajın mənəvi həyatına yollar axtarıb

tapmağı və "Mən varam" fikrini yaradıcılıq prosesində tətbiq etməyi bacarır. O, hələ etüddəki hadisənin əsas konfliktini, mənasını, məntiqini və yaxud hər hansı bir pyesdən kiçik bir epizodun fikir və məntiqini aydın şəkildə duyub canlandırmağı, ona nüfuz etməyi çox yaxşı dərk etməlidir.

Görkəmli teatrşünas, rejissor, alim İsrafil İsrafilov "Stanislavski və aktyor sənətinin qrammatikası" adlı kitabında geniş şəkildə aktyorun yaradıcılıq fərdiyyətinin təkmilləşmə prosesini K.S.Stanislavskinin sistemi əsasında əhatəli şəkildə tərtib etmişdir:

"I. Dərketmə mərhələsi:

1. Pyeslə və rolla ilk tanışlıq: təhlil. 2. Rolun səhnəyə bioqrafiyası, 3. İnsan ruhunun səhnə həyatının yaradılması; 4. Ehtirasların doğruluğu, hisslərin həqiqətəbənzərliyi; 5. Psixotexnika.

II. Rolun dərketmə prosesi:

1.Rolun bədii toxumu; 2. Rolun ikinci planı.

III. Yaşama mərhələsi:

1. Əgər ki; 2. Təklif olunmuş şərait; 3.Temporitm; 4. Məntiq və ardıcıllıq; 5. Xarakterlilik.

IV. Təcəssüm mərhələsi:

1. Başqalaşma; 2. Əsas əməl; 3. Ali məqsəd; 4. Ali-ali məqsəd; 5. Fiziki əməl metodu; 6. Əməlin təhlili metodu" [4, 208].

Bu mənada ilkin mərhələdə pedaqoq çalışmalıdır ki, tələbə-aktyor öncə, təcrübə müddəti ərzində əldə etdiyi ilk vərdişləri, sənət haqqında öyrəndiyi qanunauyğunluğu böyük həvəs və ciddiyyətlə təkrar etsin. Keçirilən təcrübələr yenidən nəzərdən keçirilib yaradıcılıq axtarışlarının yolları diqqətlə təhlil edilsin. Rol üzərində iş zamanı aktyorluq sənətinin yaradıcılıq qanunauyğunluğunu öyrənən tələbə ilk addımlardan səhnədə nə edəcəyini sərbəst və aydın şəkildə dərk etməli, başa düşməlidir ki, gələcəkdə dolğun xarakter yarada bilsin.

Pedaqoq əvvəlcə ünsiyyət və dramaturji material üzərində yenicə işə başlayan tələbələri görəcəyi işin məzmunu ilə tanış etdikdən sonra, rol üzərində işləməyi, rolun təhlil və tədqiqinə xüsusi fikir verməyi, onu bədii şəkildə canlandırmaq yollarını öyrətməklə məşğul olmalıdır.

Müəllimin məqsəd və vəzifəsi aktyor fərdiyyətini, onun istedadının müxtəlif cəhətlərini açmaq, tərbiyə etmək, püxtələşdirmək üzərində apardığı işi davam etdirməkdən ibarətdir. O, qarşıya qoyduğu yaradıcılıq işini, məqsədi, vəzifəni tələbə ilə birlikdə qarşılıqlı anlaşma şəraitində yerinə yetirməlidir. Nəhayət, müəllim tələbənin elmi şəkildə öz rolunu müstəqil təhlil etməyi, hadisəni və rolun hərəkətini müəyyən etməyi öyrətməli, bu vərdişi dərindən tələbəyə aşılamalıdır. Bu, tələbənin gələcək fəaliyyətində böyük təcrübi əhəmiyyət kəsb edir.

İlk mərhələdə pedaqoqun aktyor-tələbələrin qarşısında bu kimi tələblər qoyması məqsədəuyğundur:

**1.** Hər bir iş prosesinin əvvəlində aktyor treninqinin həyata keçirilməsi;

**2.** Tərəf-müqabillə qarşılıqlı əlaqə saxlamağa alışdırmaq üçün etüddən istifadə etmək;

**3.** Pyes üzərində işin ilk mərhələlərində pyesdən mövzuya, dövrə, personajın yaşına, xarakter və ritminə müvafiq etüdlər göstərmək;

**4.** Həyatı müşahidələrdən çıxış edərək rolun həyatına dair etüdlər göstərmək;

**5.** Rolun hərəkət ardıcıllığını və müəllifin hadisələr xəttini tapmaq və əldə edilən nəticələri möhkəmləndirmək;

**6.** Tərəf müqabillə iş görmə zamanı hər dəfə birinci dəfədə olduğu kimi eşitməyi, başa düşməyi bacarmaq. Rolun mətni ilə sözaltı mənasını yaratmağa başlamaq, tərəf-müqabilə təsir etmək, sözlə iş görməyi bacarmaq, rolla bağlı müşahidə aparılan qeyd dəftərini təqdim etmək.

Məsələlərə inamla yiyələnmək üçün hər şeydən əvvəl tələbələr səhnə hadisələrinin mübarizə məntiqini dərk etdiklərini iş zamanı nümayiş etdirməyi bacarmalıdırlar.

Eyni zamanda onlar hadisələri dərk olunmuş şəkildə ifadə etməklə yanaşı, ana xətti və ali məqsədi hiss etdiklərini təcəssüm etdirməlidirlər. İlk mərhələdə tələbələr dramaturqun qələmə aldığı personajın təbiətini hiss etməlidirlər. Bu zaman rol üzərində iş prosesinin əvvəlində tələbələrə aşılanmış "öz adından çıxış etmək" prinsipindən fərqli olaraq (bu mənəm, həm də mən deyiləm) vəziyyəti ilə çıxış etmək lazımdır.

Tələbə-aktyor rolun səhnədəki və səhnədən kənar həyatını, tərcümeyi-halını təsəvvüründə canlandırmalı, bitkin, dolğun bir rol yaratmaq işinə tabe etməlidir. Aktyor sənətinə bəslədiyi münasibəti onun təxəyyülü ilk yaradıcılıq yollarında apardığı axtarışların dərinliyi, ciddiliyi bütün mürəkkəbliyi rol üzərində iş prosesində ilə öz əksini tapmalıdır. Ona görə ki, müəllim hiss etməli və görməlidir ki, sənət yolunda atılan ilk addımlar düzgün, səmərəli və faydalıdır. Tələbə öz üzərində müstəqil çalışmağı, rolu haqqında müstəqil düşünüb onu üzvi şəkildə canlandırmağı bacarmalıdır. Belə olmadan gələcəkdə tələbələrin öz istedadından səmərəli istifadə edəcəyinə də ümid bağlamaq çətinləşir. Buna görə də tələbə-aktyor keçdiyi fənnin elmi-nəzəri və təcrübi tələblərini böyük ciddiyyətlə öyrənməli və öz əməli işinə tətbiq etməlidir. Yalnız bu yolla müasir teatrın daima yeniləşən və zənginləşməkdə olan inkişaf tələblərini təmin etmək mümkündür. Buna görə də dərindən mənimsənilməsi, yaradıcılıq qanunauyğunluğu diqqətlə öyrənildikdə tələbə-aktyor nəzərdə tutduğu məqsədə doğru ardıcıl olaraq irəliləyə bilər, sənətə olan məhəbbəti artar, yaradıcılıq axtarışlarının dairəsi daha da genişlənər. Bu səbəbdən aktyor-tələbə sənəti öyrənərkən, səthiliklə barışmamalı, müəyyən bir məsələni yarımçıq öyrənmək hallarını qətiyyətlə aradan qaldırmalıdır. Bu yolla onda rol üzərində iş təcrübəsi və bacarığı tədricən artar.

Bütün bu kimi məsələlər tələbə-aktyora rol üzərində ciddi və faydalı çalışmasına zəmin yaradır. Rol üzərində iş zamanı sənətin çətin və maraqlı yaradıcılıq tələblərinə nüfuz edərkən daha böyük işgüzarlıq, rolu dərindən duyub onun xarakterik cəhətlərini tapmaq ehtiyacı yaranır. Nəhayət, məşq zamanı keçirilən bəhslərin dərindən mənimsənilməsi yeni dərketmə, mənimsəmə üçün şərait yaradır, zəmin olur. Bu əməli təhlilin də tələblərini mənimsəməyə şərait yaradır.

Müəllim rolun həyatında hərəkətli, əməli təhlili (metod deystvennoqo analiza) məşq prosesində tələbələrə aşılamalıdır. Bu zaman müəllim tələbənin ağlını, üzvi təbiətini hərəkətə gətirməli, tələbə-aktyorun ifa edəcəyini ətrafında cəmləşdirməyi öyrətməli, yaratdığı personajın həyat və düşüncə tərzinə şüurlu münasibət bəsləməyi öyrətməyə xüsusi diqqət yetirməlidir. Əməli təhlil metodunu görkəmli pedaqoq, rejissor Zəminə Hacıyeva məhz bu cür səciyyələndirir: “Aktyor öz rolunun rejissoru sayılır: yəni, mətn üzərindəki düzəlişlər qurtaran kimi o, səhnədə və yaxud qurama dekorda bilavasitə işə başlayır;

- rolun “sxemini” yaratdığı dövrdə o, bütün pyesi başdan-axıra qədər (heç olmasa əsas hadisələri) səhnədə məşq edir;
- aktyorun yaradıcı aparatının sinxron işi, maksimal dərəcədə ifadəli teatr dilinin – hərəkəti, işi üzə çıxarır;
- yaradıcılıq prosesinə şüurlu təsir göstərir;
- hər bir iştirakçının ayrı-ayrılıqda ali məqsədi və ana xətti müəyyənləşir” [3, 12].

Məhz bu səbəbdən müəllim məşq prosesində əməli təhlili bütün ciddiyyəti ilə tələbələrə çatdırmalı, bu işin gələcək fəaliyyətdə mühüm əhəmiyyətə malik olduğunu göstərməli, dərk etdirməlidir. Buna görə də o, il boyu tələbələri yuxarı kurs tələbələrinin tamaşalarında kütləvi səhnələrdə iştirak etməyə alışdırmalı və bu tamaşalarda tələbələrin əldə etdikləri nəticələri sənətə münasibətləri, əldə etdikləri biliyi təcrübədə tətbiq edib-edə bilməmələrini təhlil etməlidir.

Əməli təhlil, bu bəhs böyük K.S.Stanislavski tərəfindən çox yaxşı işlənmiş və hazırlanmışdır. K.S.Stanislavskidən sonra bu gözəl irs M.O.Knebel, Q.V.Kristi və V.O.Toporkov tərəfindən məharətlə inkişaf etdirilmişdir. Əməli təhlil eyni zamanda görkəmli Sovet rejissorlarından V.Meyerhold, A.Tairov, A.İsgəndərov, M.Məmmədov tərəfindən yaradıcı bir münasibətlə zənginləşdirilmiş rolun dərk edilməsi, onun məna dərinliyinin üzə çıxarılma yolları açılmışdır. Bu, K.S.Stanislavski “sistemi”nin inkişaf tələblərindən irəli gələn gözəl bir keyfiyyətdir və bu sistemin doqmatik olmadığını sübuta yetirən bir cəhət kimi qiymətlidir. Həm də aktyorların professional vərdişlərini artırır.

Aktyor sənətindən dərs deyən müəllim və kursun rəhbəri səhnədə tələbə-aktyor danışarkən ona xüsusi fikir verməli, az və ya heç sözü olmayanlara xüsusi diqqət yetirməlidir ki, onlar susarkən belə hərəkətin inkişaf prosesini dəqiq, ardıcıl şəkildə izləyə bilsinlər. Digər tərəfdən kurs müəllimi bütün səhnədə iştirak edənlərə eyni zamanda əhəmiyyət və diqqət yetirməli, onları daxilən duymalı, təbii-üzvi, canlı ifa tərzindən kənara çıxmamaqlarına çalışmalıdır. Bu yolla tələbə-aktyor sənətin realist yaradıcılıq yollarında irəliləmək imkanı əldə edə biləcək.

Aktyor daxilən duyub dərk etdiyini onun professionallıq baxımından inkişafına təsir göstərən cəhətləri mənimsəməli, öz yaradıcılıq arsenalının tədricən zənginləşdiyini dərk edib ifadə etmə vərdişini arasıkəsilməz surətdə təkmilləşdirməlidir. O, təklif olunan vəziyyətin tələblərinə müvafiq orqanik oyun tərzi nümayiş etdirməlidir. Hadisə və faktlara düzgün və obyektiv münasibət, tərəf-müqabillə rabitə həmişə ciddiyyətə,

dərketmə yolu ilə ifadə olunmalıdır. Rol üzərində işə başlamaq üçün aktyor "tamaşada rolu nə üçün oynayacaq?" sualına cavab verməli, yəni, bir aktyor kimi özünün ali məqsədini müəyyən etməlidir" [1, 180].

Bu tələbə-aktyorun professional sənətkar kimi tərbiyə olunub yetişməsində mühüm əhəmiyyətə malikdir.

Məşq prosesində səhnə arası həyatı canlandırmaq üçün etüdlərin əhəmiyyətini azaltmaq olmaz. Çünki, etüd tələbəyə gələcək rolun daxili duyğuları ilə ardıcıl yaşamağı öyrədir. Əgər tələbə pyesdəki və yaxud parçadakı hər hansı bir rolu, vəziyyəti dərk etməkdə çətinlik çəkirsə həmin vəziyyətə münasib etüd seçib məşq etmək məsləhətdir.

Tələbə-aktyor təbiiliyi ardıcıl olaraq başa düşməli, dərk etməli, mizanları mənimsəməli və izah etməyi bacarmalıdır. Çünki mizan fikrin ifadəsidir. Bütün bu məsələlər kurs müəlliminin rəhbərliyi altında aparılmalı və başa çatdırılmalıdır.

Tələbə bilavasitə özü müstəqilliyə xüsusi fikir verməlidir. O, çalışmalıdır ki, əsas məsələni ikinci dərəcəli hadisələrdən fərqləndirsin. O, pyesin ana xəttinə fəal kömək edə bilməyən hər bir cəhəti seçib aradan götürə bilməlidir. Pyesdəki ali məqsəd ifaçı-aktyor vasitəsilə üzə çıxarılmalıdır. Bu incə məsələ müəllimlikdə mühüm məsələdir. Müəllim aktyorun da ideya mövqeyinin möhkəm olmasına çalışmalı, onun müstəqil düşüncə və qabiliyyətini özünün təsiri altına salmamalıdır. Bu yolla dramaturqun ideya-bədii mövqeyini obrazlı şəkildə açmaq olar.

Tələbə qarşısında duran mühüm yaradıcılıq məsələsini konkret olaraq başa düşüb onu həyata keçirmək üçün özü sənətin müasir tələbləri fövqündə durmağa can atmalı, sənətin nəzəri və təcrübi qanunauyğunluğunu bilməlidir.

Pedaqoq əsəri şərh edərkən çalışmalıdır ki, əsas fikri başa salarkən diqtə etməsin, o tələbəni elə bir səviyyəyə çatdırmalıdır ki, tələbə özü pyesi şərh edə bilsin. Əlbəttə, müəllim pyeslə əlaqədar olan vəziyyəti aydın misallarla tələbəyə başa salmalı və ona kömək etməlidir. Personajın hər bir parçasındakı məqsədi, fikri bu yolla dərk etdirib canlandırmağa nail olmaq mümkündür. Bir kəlamı yada düşür: "İcraçı olma, müəllif ol" [4, 39].

Rol üzərində ilkin iş prosesi zamanı söz üzərində işə səhnə danışığında nə dərəcədə əhəmiyyət verildiyini müəllim özü yoxlamalı və düzgün istiqamətdə olub-olmamasına fikir verməlidir. Aktyor sənəti müəllimi eyni zamanda lazım gələrsə səhnə hərəkəti və vokal dərslərinə də nəzarət etməli, tələbənin hazırlıq işlərinə, fəallığına və dərketmə prosesinə nəzarət etməlidir. Qüsurları vaxtında tələbələrə başa salmalıdır.

Dediklərimizə yekun vurmalı olsaq, deməliyik ki, yuxarıda deyilmiş bütün fikirlər ciddi və səliqə ilə yerinə yetirilərsə gözəl nəticələr əldə edilməsinə şəffaf şəkildə yol açılmış olar.

**Сона Микаилова**

**Роль педагога на начальных этапах работы студента-актера над ролью**

**Резюме:** В статье «Роль педагога на начальных этапах работы студента-актера над ролью» проведено обширное исследование начального процесса работы студентов-актеров над ролью. Основное направление статьи автор сосредоточил на практических способностях студентов, занимающихся актерским мастерством, и дал необходимые рекомендации актерам-педагогам в этом направлении. В ходе исследования также были рассмотрены работы К.С. Станиславского и других педагогов в этом направлении.

**Ключевые слова:** Актер, педагог, искусство, театр, репетиция, роль, подготовка спектакля, образ, опыт, педагог.

**Sona Mikailova**

**The Role of the Teacher in the Initial Stages of the Actor Student's Work on the Role**

**Summary:** In the article "The role of the teacher in the initial stages of the work of the student actor on the role", an extensive research was conducted on the initial work process of the student-actors on the role. The author focused the main direction of the article on the practical abilities of students engaged in acting, and gave the necessary recommendations to actor-pedagogues in this direction. During the research, the work done by K.S. Stanislavski and other educators in this direction was also reviewed.

**Keywords:** Actor, pedagogue, art, theater, rehearsal, role, preparation performance, image, experience, pedagogue.

**İstifadə edilmiş ədəbiyyat:**

1. B.Zaxava. Aktyor və rejissor sənəti. Maarif. Bakı 1984.
2. Q.Kristi Stanislavski məktəbi əsasında aktyor tərbiyəsi. Tərcümə edən: Əzizağa Quliyev. Maarif. Bakı, 1979.
3. Hacıyeva Z. "Hərəkətli təhlil metodu" rejissor-pedaqoqun tələbələrlə işinin əsasıdır. Metodiki göstəriş. BDU mətbəəsi. Bakı, 1986.
4. İsrafilov İ. "Stanislavski və aktyor sənətinin qrammatikası". Zərdabi nəşr MMC, Bakı, 2021.

**Məqalənin redaksiyaya daxil olma tarix: 22.11.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский Государственный Университет Культуры и Искусств, XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Art, XLVI edition, Baku, 2024

**UOT – 792**
**ORCID.org/0009-0004-1459-2913**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.024**

**Nərminə Ağayevə**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru,**
**dosent**
**AMEA Memarlıq və İncəsənət İnstitutu**
E-mail: **nermine2014@mail.ru**

# ZAMANIN ELÇİN TEATRI VƏ ELÇİN TEATRININ ZAMANI

**Xülasə:** Məqalədə görkəmli xalq yazıçısı Elçin dramaturgiyası və Elçin teatrı zaman kontekstində təhlilə cəlb edilir. Müəllif Elçin teatrının yaranma mühitini, milli teatr prosesinə gətirdiyi konseptual yenilikləri, yeni dövrə xas davranış tipi və ona adekvat dünyaduyumu, özünəməxsus xarakterlər panoramını dramaturqun pyesləri və onların səhnə taleyi ilə paraleldə araşdırır. Qeyd olunur ki, Elçinin ”Ah, Paris, Paris!“ (1997), ”Mənim sevimli dəlim“ (1998), ”Mənim ərim dəlidir“ (”Diaqnoz ”D“) (1999), ”Poçt şöbəsində xəyal“ (2001), ”Qatil“ (2003), ”Arılar arasında“ (2008), ”Teleskop“ (2011), ”Şekspir“ (2012) pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında, ”Salam, mən sizin dayınızam“(1995), ”Mənim sevimli dəlim“ (1998), ”Mənim ərim dəlidir“ (2000), ”Poçt şöbəsində möcüzələr“ (2001),”Cəhənnəm kirayənişinləri“ (2009), ”Teleskop, və ya yuxuda və gerçəklikdə uçuşanlar“ (2012) Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının, ”O da aşiq ola...” (2016), ”Akvariuma xüsusi sifariş“ (2020) pyesləri İrəvan Dövlət Azərbaycan Dram Teatrında səhnə həllini tapmışdır. Eləcə də dramaturqun xarici teatr səhnələrində - İngiltərə, Kipr kimi ölkələrdə, eləcə də Moskva, Sankt-Peterburq, Ankara, İstanbul, Konya, Ərzurumun məşhur teatr səhnələrində oynanılan əsərlərinə, həmçinin absurd tamaşalarına da diqqət yönəldilir.

**Açar sözlər:** Elçin teatrı, absurd dramaturgiya, absurd teatrı**,** ədəbi cərəyanlar, modern teatr düşünsəsi

## Giriş.

Çağdaş dövrün dramaturgiyası “mövzu aktuallığı”nın əsarətindən çıxmaq, insanın bəşəri düşüncələrindən daha çox onun dünyanı dəyişəcək əməllərinin teatr vasitələri ilə təqdimini önə çəkir. Bu zaman dramaturgiya ədəbi qayğılarla yanaşı, səhnə sənəti qayğılarını da çəkir. Həmin dramaturgiya ədəbi-estetik konstruksiya etibarilə, mükəmməl olmaqla bərabər “səhnəlik”, “teatrallıq” kimi kateqoriyaları başlıca bədii prinsip kimi əsas götürür.

Öz müasirliyi ilə seçilən Elçin dramaturgiyası milli mədəniyyətimizdə yeni teatrın əsasına çevrildi. “Elçin dramaturgiyası milli dramaturgiyamızda indiyə kimi rast gəlmədiyimiz yeni mövzuları, gözlənilməz süjet kombinasiyalarını, düşüncə və hisslərin

stereotipdən uzaq bir formada ifadə edilməsilə fərqlənən yeni insan tiplərini, obrazlarını yaratdı" [3]. Elçin pyeslərinin səhnə təcəssümü milli teatr prosesimizə dünya teatr təcrübəsinin mühüm problemlərini qatdı ki, bu, zamanın, dövrün tələbi idi. Zamanın Elçin teatrının yaranışı idi.

**Əsas hissə.**

Elçinin 1970-ci ildə yazdığı "Poçt şöbəsində xəyal" tragikomediyası yalnız XXI əsrin əvvəllərində böyük səhnədə göründü. Akademik Milli Dram Teatrında təcəssüm etdirilən bu pyes sayəsində teatrla dramaturqun tandemi yarandı. Elçin "Poçt şöbəsində xəyal"dan sonra yazdığı üç pyesini ("Ah, Paris, Paris... ", "Mənim sevimli dəlim", "Diaqnoz D" ("Mənim ərim dəlidir") milli klassik dramaturgiya ənənələrini komedi del-arte (italyan) və vəziyyətlər komediyası (fransız) ilə ustalıqla sintez edərək özünəməxsus bir üslub yaratmağa nail olmuşdur.

Bu pyeslərdə dramaturqun "mövcudluq effekti"nin parlaqlığı, maraqlı dramatik, lirik, komik subyektlərin varlığı, aktual mənəvi konflikt-qarşıdurmalar, yeni dövrə xas davranış tipi və ona adekvat dünyaduyumu yüksək peşəkarlıqla bir-birinə hörülüb. Ştrixləri, detalları, intonasiyaları, süjet gedişatlarını mükəmməl şəkildə seçən dramaturq, gah məişət motivləri ilə xəyali romantik çırpıntıların bir-birinə bağlandığı komediyalar yazır, gah da mənəviyyatını, ruhunu, özünü qoruma instinktini itirən obrazlar yaradır.

Məsələn, "Qatil" dramı insan tənhalığı və ondan xilas yollarının axtarılması mövzusuna həsr olunub və sərt daxili strukturu ilə fərqlənir. "Teleskop" tragikomediyasında bu sərtlik çox dərində gizlənibdir və pyes kompozisiya cəhətdən gözlənilməz qurulub. "Qatil" dramında yaşanılmamış qadın ömrü, hədər gedən qadın taleyi, insanın intim və ictimai həyatı kəndirin bir-birinə möhkəm hörülmüş iki ucu kimi verilir. Dramaturq "Qatil"i sərt, amma mənəvi-əxlaqi rakursdan ibrətli qənaətlə bitirir. Yazıçının önə çəkdiyi problematik mövzu qadın tənhalığı, ümumiyyətlə isə insan mövcudluğunun bu kontekstdə var olmasıdır. Qadın və dünya, qadın və Allah, qadın və insanlıq ("dialoji personalizm") özünün real boyalarla, estetik özəllikləri ilə, bununla yanaşı, üzücü yaşamı ilə gerçəkliyin ən acı nöqtələrindən biri olaraq qabardılmış olur.

Elçin öz konsepsiyasını müəyyən etmək üçün rejissorlara, məhz Elçin özünəməxsusluğunu elə zəngin bütövlükdə təqdim edir ki, həmin rejissorlar ərsəyə gətirdikləri məhsullarda, müəlliflə yanaşı, məhz özünəməxsusluqlarını da rahat şəkildə təcəssüm etdirə bilirlər. "Qatil" tamaşasının quruluşçu rejissoru Mehriban Ələkbərzadə Elçin dramaturgiyasının bədii-estetik həllini «psixoloji yaşam» janrında həll edir və müsahibələrinin birində deyir: "Mən ilk dəfə idi quruluş verdiyim tamaşada öz daxili dünyamı ifadə etmək üçün imkan tapmışdım. Mən bu əsərə adicə səhnə oyunu kimi deyil, həyatın bir parçası kimi baxıram" [5].

Elçinin Azərbaycan Dövlət Rus Dram Teatrının səhnəsində oynanılan "Cəhənnəm sakinləri" dramında qəhrəmanın tragizmi ondadır ki, o, həmişə öz "mən"indən imtina edib, dövrün və şəraitin tələb etdiyi rolu oynamalı olubdur. Tarixi zamanın (1937-ci

il) Kişi obrazına geydirdiyi maska onu şəxsi məsuliyyət, vicdan, namus, şərəf kimi əxlaqi-mənəvi keyfiyyətlərdən məhrum edərək (bu insan özünün "mən"inə sahib çıxmaq xoşbəxtliyindən məhrumdur) normal insana xas olan daxili təbəddülat və çırpıntılardan uzaqlaşdırır…

Elçinin qəhrəmanlar qalereyasında özünü axtaran, həyatda yerini tapmayan, azan, şübhələnən, həyatlarının ən ahıl çağlarında belə dəyişməyə hazır olan ("Arılar arasında" - Dayə, Baba), daim sirli bir hadisənin baş verəcəyinə inanan insanlar çoxdur. Dramaturqun "Şekspir" pyesində hadisə xətti qəhrəmanların daxili hiss-həyəcanları, lirik-patoloji çırpıntıları ilə daha da mürəkkəb şəklə düşür, yeni bir məna qazanır. Beləliklə də "Şekspir" pyesində psixiatrik xəstəxananın pasiyentləri (biri Sara Bernar… biri İosif Stalin… biri…) "məşhur" adamların adlarını, qiyafətlərini, iç dünyalarını özəlləşdiriblər və "adi" reallıqdan "coşqun" romantikaya "sıçrayıb" birdən-birə qəhrəman olublar.

"Şekspir" əsəri ədəbi, elmi, dramaturji material olaraq təhlilə və müzakirəyə maraqlı olan dramaturji əsərdir. Söylədiklərim öz təsdiqini müxtəlif teatrların səhnələrində bu əsərin tamaşaya qoyulması, müxtəlif rejissorların səhnə quruluşu verməsi ilə tapır. Müəllif tərəfindən önə çəkilən insanın daxili ilə fərdiyyətinin konflikti teatr üçün maraqlı təhlil və təcəssüm predmetidir.

Elçinin ədəbi-estetik təqdimi ilə verilən bir xəstəxananın divarları əhatəsindəki xəstələrin özəl dünyası müxtəlif hadisələr burulğanında, müxtəlif obrazların səhnə oyununu müəyyənləşdirir. Akademik Milli Dram Teatrının səhnəsində bu tamaşa tanınmış moldav rejissoru Petru Vutkereuya həvalə olunmuşdu. Teatrın təşəbbüsü ilə həyata keçirilən "GUAM-ın teatr məkanı" layihəsi çərçivəsində yaradılan bir əməkdaşlığın əməli nəticəsi olaraq ərsəyə gələn tamaşada quruluşçu rejissor Petru Vutkereunun yaradıcı işində dramaturji materialdan irəli gələn individual insan konsepsiyası - hərəkətin başlanğıcı, ruhun və hisslərin poetikliyi tamaşanın əsas ifadə formulu kimi işlənmişdir.

Dramaturqun pyeslərində güclü lirik, lirik-romantik, tragik, tragikomik zonalar mövcuddur və onlar çox bənzərsiz dramatik strukturun yaranması "Arılar arasında", "Cəhənnəm sakinləri", "Taun yaşayır", "Bolbolustan şahzadəsi, yaxud yaşasın imperator böyük Şir III Otibi Molimi Delembor Tır-tır", "Qatil", "Şekspir", "Sənətkarın taleyi" pyesləri onun müxtəlif janrlarda böyük ustalıqla işləmək istedadına ən bariz nümunəsidir. Bu dramaturgiyasının başlıca xüsusiyyətlərinə diqqət yetirsək, burada mövzu, bədii konstruksiya, janr, konflikt və ali məqsəd kateqoriyalarının işlənməsi ustalığını qeyd etməliyik.

"Teleskop" tragikomediyası Elçinin dramaturgiya sahəsində növbəti uğuru idi. Əsərdə bütün hadisə xətti teleskopun üzərində qurulub. Quruluşçu rejissor (Kamran Şahmərdan) həm rejissor yozumu, həm aktyor ifası baxımından modern teatr düşüncəsinə uyğun bir tamaşa ərsəyə gətirmişdi. Burada diqqətçəkən məqamlardan biri, baş qəhrəmanının gözü ilə müəllifin özünün, teleskopdan cəmiyyətə baxaraq, hər kəsə demək istədiyi "İnsan ol! " diqtəsinin qüdrətidir.

"Elçinin pyesləri nəinki Azərbaycan teatrlarının repertuarını bəzəyir, həmçinin, dünya teatrlarının repertuarını dolaşır. Onun dramaturgiyasını xarici ölkələrdə tanıyırlar, sevirlər və böyük maraqla oynayırlar. Bu tendensiya gün-gündən artmaqda, şaxələnməkdədir" [2, s. 45]. İngilis ədəbiyyatşünası, tərcüməçi İan Piertdinin Elçinin yaradıcılığındakı dünyəvilik prinsipləri barədə əlimizdə olan yazısı, onun yaradıcılıq potensialının geniş imkanlarını isbat edir: "Elçin dünya ədəbiyyatı dəyərlərini, bu sahədəki təcrübəni mükəmməl şəkildə öz yaradıcılıq laboratoriyasından uğurla keçirən çox maraqlı bir yazıçıdır... Rejissor Devid Perri "Şekspir" pyesini oxuyub ona valeh olmuşdu. Onun quruluşunda əsər Londonun Avanqard Teatrında müvəffəqiyyətlə tamaşaya qoyuldu. Elçinin yaşanmış tarixə ironik, paradoksal şəkildə təqdim edilən münasibəti ingilis tamaşaçıları üçün çox maraqlı idi" (2, s. 45).

Londonun "Tristan Bates" Teatrında isə Metyu Qoldun quruluşunda "Mənim sevimli dəlim" pyesi ingilis dilində oynanıldı. "St.James" Teatrında "Cəhənnəm sakinləri" pyesinin motivləri əsasında hazırlanmış "Gecə yarısı" ("Midnight") musiqili tamaşasının ingilis rejissoru Matthev Qoldun quruluşunda təqdimatı da Elçin teatrının uğurları sırasındadır.Onun əsərlərinə dünyanın müxtəlif xalqlarının teatrları ehtiyac duyur. Bu pyeslərin əksəriyyəti Moskva, Sankt-Peterburq, Ankara, İstanbul, Konya, Ərzurum, Krım, Kipr və s. bu kimi dünyanın müxtəlif teatr məşhur səhnələrində uğurla tamaşaya qoyulmuşdur. Və inandırıcı olan budur ki, zaman irəlilədikcə Elçinin özünəməxsus yaradıcılıq qüdrəti ilə ərsəyə gətirdiyi əsərlərinə, məhz xarici teatrlardan daha çox müraciətlər olunacaqdır. Çünki Elçin zamanın fövqündə dayanan dramaturqdur.

Azərbaycan ədəbi-bədii mühitinin və mədəniyyətinin çağdaş mərhələsində əvəzsiz xidmətləri olan nasir və dramaturq, xalq yazıçısı Elçinin yaradıcılığı iki əsr Azərbaycan ədəbiyyatı, mədəniyyəti və teatrının inkişafını təmin edən ən önəmli faktora çevrilmişdir.

Bu da bir həqiqətdir ki, zamanı qabaqlayan müəllifi öz çağdaşlarının dərk etməsi də asanlıqla ərsəyə gəlmir. Rejissor Mehriban Ələkbərzadə deyir ki: "Elçinin həmişə zamanla bir problemi vardı. Onun qəhrəmanlarının düşündükləri dünya ilə yaşadıqları dünya arasındakı çarpıntılarını heç bir obrazlarda görmürdüm. Bunları iş prosesində həll eləmək də "sözün düzü" çətindir" [5]. Buna baxmayaraq zaman səddini aşan Elçinin arxasınca irəliləmək meyli və bununla da gələcəyə yeni pəncərələr açmaq istəyi hər bir rejissorun əsas qayəsinə çevrilirdi. Yeni dünyanın qavranılmasına istiqamətlənən bir pəncərə isə Elçinin ilk hekayələrində özünü görükdürürdü və hörmətli filoloq alimimiz Vaqif Yusiflinin yazdığı kimi, "...bu hekayələrdə absurd teatrından gələn poetika az rol oynamır, lakin təqlid, yamsılama, imitasiya səviyyəsinə enmir, mütləq mənada "milliləşir" [1, s. 69].

Elçin yaradıcılığının tədqiqatçısı Məryəm xanım "Zamanın absurdu və yaxud absurd zamanı" məqaləsində [4] "Ah, Paris, Paris!", "Mən sənin dayınam", "Mənim sevimli dəlim", "Mənim ərim dəlidir", "Bolbolustan şahzadəsi", "Şekspir", "Teleskop", "Cəhənnəm sakinləri", "Şeytan əməlləri" pyeslərini də absurd silsilə zəncirinə daxil etmişdir.

Elçin dramaturgiyası C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının repertuarında da xüsusi yer tutur. 19 dekabr 2016-cı ildə ("Multikulturalizm – 2016" ili əçərçivəsində) "O da aşiq ola..." adlı multikultural teatr layihəsi mövsümün ilk tamaşası oldu. Həmin il respublikamızda Multikulturalizm ili elan olunduğu üçün multikultural kontekstdə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə orijinal bir layihə üzərində iş aparıldı. Layihə özünün genişmiqyaslı mahiyyəti ilə seçilirdi. Lyihədə üç xalqın ədəbi nümunələri, üç xalqın nəhəng ədiblərinin əsərləri cəmləşmişdi. Bunlar Anton Pavloviç Çexovun "Ayı", Elçinin "O da aşiq olub yaza dünyada" və Boris İoseleviçin "Yelləncəkdə iki nəfər" əsərləri idi ki, hər üç əsərdə insan amili, eşq, sevgi, həyata bağlılıq məsələləri bir məzmun ətrafında bu layihədə birləşirdi. Və Azərbaycan ədəbi-mədəni mühitinə yaxın olan həm Azərbaycan, həm rus, həm yəhudi xalqlarının ədəbi nümunələrinin bir səhnədə, bir arada olması və "O da aşiq ola..." adlandırılması onu ifadə edir ki, hər bir xalq üçün, milliətindən asılı olmayaraq, insan faktoru, insana sevgi, insana bağlılıq, insani meyarların ön plana çəkilməsi bəşəri məsələdir və bu layihədə də məhz həmin bəşəri məsələyə diqqət öz əksini tapmışdır.

Hər bir insanın içində ölmüş hisslərin, duyğuların təlatümü yaşayır. Tamaşada cərəyan edən hadisələrin axınında bu təlatüm hər üç əsərdəki bir-birini dünyalarca sevən, dəhşətli dərəcədə eşqlə bir-birinə bağlı olan gənclərin iç dünyalarının ölmüş hisslərində, düyğularında ehtirasla təcəssüm olunur. Aktyorların çılğın oyunu və onların öz iç dünyalarında formalaşdırdıqları personajların hissləri, duyğuları yüksək peşəkarlıqla canlandırılır. "Bir məkanda birhissəli üç oyun" təyinatı ilə hazırlanan bu bənzərsiz tamaşa absurd cərəyanın işıq seli ilə nurlandırılmışdı.

Elçin müəllim premyeradan sonra kollektivlə görüşündə tamaşa haqqında yüksək fikirlər ifadə etdi. Başqa-başqa məzmunlarda olan, ayrı-ayrı mədəniyyətlərin nümunələrini, tam fərqli düşüncə sahibi olan xalqların bəşər övladı olaraq İnsan kriteriyası məcmuəsində bu cür üzvi birləşdirilə bilinməsini, həm də bir müəllif təxəyyülünün absurd ("O da aşiq ola") fəlsəfəsi-estetik qayəsi çevrəsində cilalana bilinməsini təqdir etdi. Hər üç əsərin bir vəhdətdə bağlanmasına və bir vahid kimi görünməsinə sənətin ecazı kimi dəyər verdi.

Elçinin öz avanqard və ovsunlu ecazı ilə tamaşaçıları tilsimləyən əsərlərindən biri də "Akvariuma xüsusi sifariş" (quruluşçu rejissor Nicat Mirzəzadə) absurd tamaşasıdır. Əsər müəllifin illər öncə yazdığı üç birpərdəli "Qızıl", "Mehmanxana nömrəsində görüş" və "Xüsusi sifariş" pyeslərinin motivləri əsasında müəllifin özü tərəfindən eksplikasiya olunmuşdur. Elçin yeni müstəvidən boy verən "Akvariuma xüsusi sifariş" kontekstində sənət mühitinin zaman və məkan müstəvisinə absurdizmin yeni üfüqləri ilə yol açır. Akademik İsa Həbibbəylinin "Elçin Azərbaycan ədəbiyyatında absurd teatrın əsas yaradıcısı kimi qəbul olunur" [6] fikri, daha sonra, həmin fikrin davamı olaraq, "Azərbaycan absurd teatrı Elçinin müəlliflik şəhadətnaməsidir" dəqiqləşdirməsi də deyilən fikrin isbatıdır.

## Nəticə

Söylədiklərimiz əsasında isə belə nəticəyə gəlirik ki, mövzu əhatəliliyi, janr müxtəlifliyi ilə seçilən, milli teatrımızın inkişafında və dünya teatrlarına inteqrasiyasında yeni mərhələ yaradan Elçin yaradıcılığı milli dramaturgiyamıza yeni mövzular, mürəkkəb xarakterli yeni insan obrazları gətirdi. Aktual bədii səciyyələri ilə fərqlənən Elçin dramaturgiyası: pyesləri, komediyaları, tragikomediyaları, absurd hekayələri yeni teatr poetikasının formalaşmasına, müasir teatr düşüncəsinin təşəkkülünə güclü istiqamət verən Zamanın Elçin teatrını yaratdı. Elçin teatrının biopolyar zamanı və məkanı isə əbədi hərəkətdədir.

## Ədəbiyyat:

1. Elçin. Zaman səddini aşmış sənətkar. Bakı, 2004, s. 69.
2. Elçin. Biblioqrafiya. Bakı, 2013, s. 45.
3. Əlizadə M. Elçinin teatr planeti. 525-ci qəzet, 05.05.2018.
4. Əlizadə M.”Zamanın absurdu və yaxud absurd zamanı”. 525-ci qəzet, 22.05.2019.
5. Ələkbərzadə M. “Qatil” dünya ədəbiyyatına girə biləcək bir əsərdir. Ədəbiyyat qəzeti, 09.05.2018.
6. Həbibbəyli İ. Hekayə rapsodiyasından daha dərin qatlara. “525-ci qəzet”, 20.10.2021.

**Нармина Агаева**

## Эпоха театра Эльчина и Эльчинская театральная эпоха

**Резюме.** Предметом анализа статьи является драматургия выдающегося народного писателя Эльчина и его театр в контексте времени. Автор рассматривает среду, в которой зарождался театр Эльчина, концептуальные новации, которые он привнес в национальный театральный процесс, тип поведения, присущий новой эпохе и адекватное ему мировоззрение, а также панораму своеобразных характеров в том же ракурсе, что и пьесы драматурга, а также их сценические судьбы. Отмечается, что пьесы Эльчина «Ах, Париж, Париж!» (1997), «Мой любимый сумасшедший» (1998), «Мой муж чокнутый» («Диагноз «Д») (1999), «Чудеса в почтовом отделении». (2001), «Убийца» (2003), «Среди пчел» (2008), «Телескоп» (2011), «Шекспир» (2012) поставлены в Азербайджанском государственном академическом национальном драматическом театре; постановка пьес «Здравствуйте, я ваш дядя» (1995), «Мой любимый сумасшедший» (1998), «Мой муж чокнутый» (2000), «Чудеса в почтовом отделении». (2001), «Квартиранты ада» (2009), «Телескоп, или летающие во сне и наяву» (2012) осуществлена в Азербайджанском академическом русском драматическом театре, «Если влюбиться…» (2016), «Специальный заказ в аквариум» (2020) – в Ереванском государственном драматическом театре; уделено внимание драматическим произведениям автора, которые получили сценическое разрешение за рубежом: в знаме-

нитых театрах Англии, Кипра, в городах Москва, Санкт-Петербург, Анкара, Стамбул, Конья, Эрзурум. Вместе в тем в статье также отмечены абсурдные пьесы народного писателя.

**Ключевые слова:** театр Эльчина, драматургия абсурда, театр абсурда, литературные направления, модернистское театральное мышление

**Narmina Aghayeva**

**Elchin's Theater of the Time and the Time of Elchin's Theater**

**Abstract**. The article deals with the investigation of People's writer Elchin's dramaturgy and Elchin's theater in the context of time. The author studies the creation environment of Elchin's theater, the conceptual innovations he brought to the national theater process, the type of behavior specific to the new era and the worldview adequate to it, the panorama of unique characters in parallel with the dramatist's plays and their fate on the stage. It is noted that Elchin's "Ah, Paris, Paris!" (1997), "My Beloved Crazy" (1998), "My Husband is Crazy" ("Diagnosis "D"") (1999), "Dream in The Post Office" (2001) , "Killer" (2003), "Among The Bees" (2008), "Telescope" (2011), "Shakespeare" (2012) plays were staged at the Azerbaijan State Academic National Drama Theater, "Hello, I'm Your Uncle" (1995), "My Favorite Crazy" (1998), "My Husband is Crazy" (2000), "Miracles at the Post Office" (2001), "Tenants of Hell" (2009), "Telescope, or Those Who Fly in A Dream And in Reality" (2012) at the Azerbaijan State Academic Russian Drama Theater, "He Will Also Fall in Love..." (2016), "A Special Order for The Aquarium" (2020) at the Irevan State Azerbaijan Drama Theater. Attention is also paid to the dramatist's works performed in foreign theaters – England, Moscow, St. Petersburg, Ankara, Istanbul, Konya, Erzurum, Cyprus, as well as his absurd plays and spectacles.

**Keywords:** Elchin's theater, absurd dramaturgy, absurd theater, literary trends, modern theater thought

**Məqalənin redaksiyaya daxil olma tarix: 20.10.2024**

## MUSİQİ SƏNƏTİ

**UOT: 781,7**
**ORCID: 0009-0007-0716-420X**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.026**

**Aslanov Teyyub Şueyib oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Muğam sənəti kafedrasının dosenti**
**Email: teyyub.aslanov@admiu.edu.az**

# USTAD XANƏNDƏ ƏLİBABA MƏMMƏDOVUN YARADICILIĞINA BİR NƏZƏR

**Xülasə:** Təqdim olunan məqalədə Xalq artisti, görkəmli xanəndə, bəstəkar və pedaqoq, professor, mədəniyyət xadimi, “Şöhrət”, “Şərəf” və “İstiqlal” ordenli Əlibaba Məmmədovun çoxşaxəli yaradıcılığının xüsusiyyətlərindən bəhs olunur. Məqalənin əsas məqsədi Ə.Məmmədovun ifaçılıq, pedaqoji və musiqi ictimai fəaliyyətinin araşdırılması və səciyyəvi xüsusiyyətlərinin müəyyənləşdirilməsidir. Məqalənin əsas məqsədindən irəli gələrək, Ə.Məmmədovun yaradıcılıq xüsusiyyətlərinə əsaslanan vəzifələr müəyyən olunmuşdur. Belə ki, ustad xanəndənin yaradıcılıq fəaliyyətinin əsas məqamları müəyyən istiqamətlər üzrə təsnifatlaşdırılmış və Ə.Məmmədovun bu sahədə gördüyü işlər ətraflı şəkildə araşdırılmağa cəlb edilmişdir. Bu rakursdan yanaşaraq, Ə.Məmmədovun çoxşaxəli yaradıcılığı tədqiqat metodları əsasında tədqiq olunmuşdur. Ə.Məmmədov ifaçı kimi Azərbaycan muğamlarının qanunauyğunluqlarını mükəmməl bilirdi. O, pedaqoji fəaliyyəti ərzində çoxsaylı tələbələrinə muğamın ifaçılıq xüsusiyyətlərini aşılamışdır. Musiqi ictimai xadim kimi Ə.Məmmədov “Hümayun” xalq çalğı alətləri ansamblını yaratmış, Heydər Əliyev Fondunun təşkil etdiyi “Muğam” televiziya müsabiqəsində münsif kimi iştirak etmişdir. Elmi yenilik isə məqalə çərçivəsində Ə.Məmmədovun yaradıcılıq xüsusiyyətlərinin işıqlandırılmasıdır. Məqalənin nəticələri Ə.Məmmədovun yaradıcılığının tədqiqatçıları üçün faydalı mənbədir. Eyni zamanda məqalədə verilən əsaslandırılmış mülahizələrdən Azərbaycan xanəndəlik sənətinin öyrənilməsi zamanı istifadə oluna bilər.
**Açar sözlər:** *Əlibaba Məmmədov, xanəndə, muğam, xalq mahnısı, təsnif*

## Giriş

Xalq artisti, ustad xanəndə, bəstəkar və pedaqoq, professor, mədəniyyət xadimi, “Şöhrət”, “Şərəf” və “İstiqlal” ordenli Əlibaba Məmmədov Azərbaycan muğam ifaçılıq sənətinin inkişafında şərəfli mövqeyə malik sənətkarlardandır. Özünəməxsus oxu-

ma üslubu olan Ə.Məmmədov muğam sənətinin incəlikləri və ifaçılıq xüsusiyyətləri ilə yanaşı, həm də klassik ədəbiyyatın dərinliklərinə mükəmməl şəkildə bələd olmuşdur.

Ustad xanəndənin bütün yaradıcılıq fəaliyyətinin əsas amalını muğam sənətinin yaşadılması və gələcək nəsillərə çatdırılması təşkil etmişdir. O, muğam sənətini yaşatmağı özünün müqəddəs vəzifəsi kimi müəyyənləşdirmişdir.

Ə.Məmmədovun yaradıcılığının araşdırılması Azərbaycan xanəndəlik sənətinin öyrənilməsi kontekstində mühüm əhəmiyyətə malikdir. Belə ki, ustad xanəndənin yaradıcılığı Azərbaycan musiqişünas alimlərinin diqqət mərkəzində olsa da, ətraflı şəkildə fəaliyyətinin müxtəlif istiqamətləri üzrə araşdırılmasına hər zaman böyük ehtiyac duyulur. Xüsusilə muğam sənətinin qanunauyğunluqlarının və əsas xüsusiyyətlərinin öyrənilməsi görkəmli musiqişünas, sənətşünaslıq doktoru R.Zöhrabovun elmi tədqiqatlarının əsasını təşkil etmişdir. Sonrakı dövrlərdə R.Faseh, G.Axundova və digər musiqişünas alimlər Azərbaycan muğamları və xanəndəlik sənətinin inkişaf xüsusiyyətləri ilə bağlı araşdırmalar aparmışlar. Ustad xanəndə Əlibaba Məmmədovun yaradıcılığının xüsusiyyətləri isə S.Təhmirazqızının xatirələri əks etdirən kitabında canlandırılmışdır.

**Əsas hissə:**

**1. Əlibaba Məmmədovun yaşadığı mühit və təhsil illəri**

Ə.Məmmədovun yaşadığı mühit də onun xanəndə kimi formalaşmasına təsir göstərmişdir. Belə ki, Bakı və Abşeron kəndlərində muğam ifaçılıq sənətinin geniş intişar tapması gənc yaşlarından etibarən Ə.Məmmədovun xanəndə kimi yetişməsinə səbəb olmuşdur.

Eyni zamanda Şuşa xanəndəlik məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti Seyid Şuşinskinin sinfində təhsil alması onun muğam bilicisi kimi təkmilləşməsində mühüm rol oynamışdır. Ə.Məmmədov hələ erkən yaşlarından Seyid Şuşinskini dinləyirdi və onun ifasının vurğunu olduğu üçün ustad xanəndənin sinfinə daxil olanda artıq müəlliminin ifaçılıq üslubuna bələd idi. Ə.Məmmədov qısa müddət ərzində S.Şuşinskinin ən sevimli tələbəsi kimi tanınmışdır. 1950-ci illərdə Asəf Zeynallı adına Bakı orta ixtisas musiqi məktəbində pedaqoji fəaliyyət göstərən S.Şuşinskidən muğam sənətinin, təsnif və xalq mahnılarımızın ifa tərzini mənimsəyən Ə.Məmmədov Azərbaycan xanəndəlik sənətinin uzun illərdən bəri formalaşan ənənələrini qoruyub saxlamaqla yanaşı, həm də onların inkişaf etdirilməsi istiqamətində də böyük xidmətlər göstərmişdir. Onun qeyri-adi fenomenal musiqi yaddaşı digər ifaçılardan çox fərqlənirdi. Hələ tələbəlik illərindən başlayaraq, Ə.Məmmədov yenilik axtarışında idi. Ə.Məmmədovla eyni dövrdə S.Şuşinskinin sinfində təhsil alan Xalq artisti, dünya şöhrətli sənətkar Zeynəb Xanlarova belə xatırlayır: *"Hiss edirdin ki, nəsə yenilik axtarır. Hələ tələbə ikən "Hümayun" muğamına bir yenilik gətirdi. Ağa da, yəni Seyid Şuşinski də onun bu yeniliyini qəbul elədi. Söhbət Əlibabanın tapdığı "Bidad" şöbəsindən gedir. Demə "Hümayun" dəstgahında belə bir şöbə varmış, sadəcə Ağa tələbələr çaşmasın deyə onu bizə öyrətməyib. Əlibaba bunu radiodan İran xanəndəsinin ifasından eşidib gəlib*

*deyəndə, Ağa bunu təsdiq elədi. Belə axtarışları onun yaradıcılığını daha da genişləndirdi"* [1; 33].

**2. Ə.Məmmədovun yaradıcılıq fəaliyyətinin xüsusiyyətləri**

Ə.Məmmədov gənclik illərində xalq çalğı alətlərində ifa bacarıqlarına da yiyələnmişdir. O, xanəndəlik sənətindən əvvəl tar, nağara və klarnetdə ifa etməyi öyrənmişdir. Belə ki, onun ritmi dəqiq, musiqi duyumu isə çox güclü idi. Ə.Məmmədov mahnılarını tarda ifa edərək bəstələyirdi. Görkəmli xanəndə xalqımızın bir-birindən dəyərli mahnı və təsniflərini dinləməkdən sanki zövq alırdı. Ustad sənətkarlarla görüşləri, qrammafon vallarını və lent yazılarını dinləyərək, musiqi aləminin ecazkarlığını, çoxmənalı çalarlarını duymağı bacarırdı.

Ə.Məmmədovun yaradıcılıq fəaliyyətini bir neçə sahə üzrə istiqamətləndirmək mümkündür:

1. İfaçılıq;
2. Pedaqoji;
3. Musiqi-ictimai fəaliyyəti.

**3. Xanəndə kimi fəaliyyəti**

İfaçı kimi Ə.Məmmədov muğam sənətinin dərinliklərinə bələd idi. Ə.Məmmədov daim öz repertuarının zəngin olması ilə seçilir, xalq mahnı və təsniflərinin yeni çalarlar əldə etməsinə nail olurdu. "Rast", "Şur", "Bayatı-Şiraz", "Rahab", "Dəşti" kimi muğamların mükəmməl tərzdə ifa olunması məhz Ə.Məmmədovun adı ilə bağlıdır. Onun zəngin repertuarı Azərbaycan muğamları, mahnı və təsnifləri, eləcə də özünün müəllifi olduğu musiqi nümunələri ilə zəngindir. Ə.Məmmədov 1954-cü ildə respublika radiosunun musiqi fondu üçün "Bayatı-Şiraz" dəstgahını, "Hümayun" təsnifini, eləcə də "Güllü qafiyə", "Ana yurdum", "Gəl bizə, yar", "Vətənimin cəlalı" mahnılarını lentə yazdırmış və gənc yaşlarında olmasına baxmayaraq, mükəmməl ifası ilə muğam bilicilərinin rəğbətini qazanmışdır. Təsadüfi deyildir ki, görkəmli xanəndəmiz "Rast", "Bayatı-Şiraz", "Rahab" və "Dəsti" muğamlarını 24-30 yaşlarında lentə yazdırmışdır.

Ə.Məmmədovun yaradıcılığında "Dəşti" muğamı xüsusi əhəmiyyətə malikdir. "Bayatı-Kürd" muğamının əsas şöbələrindən biri olan "Dəşti" ifaçılıq tarixində müstəqil muğam kimi demək olar ki, nadir hallarda oxunub. Qeyd edək ki, "Dəşti" həm də "Şur" muğamında ifa olunur. Ə.Məmmədov öz müsahibələrində "Dəşti"nin "Bayatı-Kürd" və "Kürdü" ilə musiqi dili və intonasiya cəhətdən oxşarlığını bildirmişdir. Buna görə də Ə.Məmmədov "Dəşti" oxuyan hər bir xanəndənin çox ehtiyatla ifa etməsini tövsiyə etmişdir. "Dəşti"ni hədsiz dərəcədə çox sevən Ə.Məmmədov bu muğamı mükəmməl şəkildə mənimsəyəndən sonra efirdə səsləndirmişdir. Bu zaman o, dəfələrlə ustad müəllimləri Seyid Şuşinski, Əhmədxan Bakıxanov və Bəhram Mansurovla məsləhətləşərək, onların xeyir-duasını aldıqdan sonra ifasını geniş dinləyici kütləsinə təqdim etmişdir.

Ə.Məmmədovdan bəhs edərkən, ilk növbədə onun məlahətli səs tembrini və özünəməxsus, heç kəsə bənzəməyən ifaçılıq üslubunu qeyd etmək lazımdır. O, fitri istedadı sayəsində şifahi ənənəli Azərbaycan klassik musiqisinə yeni təravət gətirmiş və bütün

bunları işgüzarlığı üzərində qurulan yazıb-yaratmaq şövqü ilə uzlaşdırmağa nail olmuşdur. Səhnə mədəniyyəti, daim yeniliklər axtarışında olması Ə.Məmmədovun fərqləndirici xüsusiyyətlərindən idi.

**4. Klassik ədəbiyyata və Əliağa Vahidin qəzəllərinə münasibəti**

Xanəndə kimi ustadlığın zirvəsində olan Ə.Məmmədov muğam ifaçılarının əsas xüsusiyyəti kimi dəyərləndirilən klassik poeziya nümunələrini dərindən mənimsəməyə nail olmuşdur. Ə.Məmmədov hələ gənc yaşlarından musiqi ilə sözün vəhdətinin böyük məna əhəmiyyətini kəsb etdiyini dərk edir və muğamın xarakterinə uyğun qəzəlləri axtarıb üzə çıxarırdı. Klassik ədəbiyyata, əruz vəzninin xüsusiyyətlərinə bələd olan Ə.Məmmədov qəzəllərin deyilişini və musiqi ilə həmahəngliyini düzgün şəkildə müəyyənləşdirməyi bacarırdı. Bu baxımdan şair Əliağa Vahidin qəzəlindən bir beyt sanki Ə.Məmmədovun səciyyəvi cəhətlərinin yalnız ona məxsus olmasını ifadə edir:

Bütün gözəlliyi Tanrım o sərvinazə verib,
O, hər nə etsə, təbiət ona icazə verib.

İfaçı kimi Ə.Məmmədov unudulmuş, bəzən də diqqətdən kənarda qalmış melodiyalara sanki yeni nəfəs bəxş edirdi. O, oxuduğu mahnı və təsniflərə elə çalarlar bəxş edirdi ki, melodiyalar yenidən səsləndirilməyə başlayır və ifaçıların repertuarına daxil olurdu.

Ə.Məmmədov xanəndəlik sənətinə, muğam irsinə dərindən bələd olmaqla yanaşı, həm də gözəl söz xiridarı idi. O, Azərbaycan klassik şairlərinin yaradıcılığını mükəmməl şəkildə bilməsinə baxmayaraq, həm ifa etdiyi muğamlarda, həm də bəstələdiyi mahnılarda Əliağa Vahid poeziyasına əsaslanırdı. Bununla da, Ə.Məmmədov 1960-cı illərdə Ə.Vahid poeziyasına olan haqsız soyuq münasibəti aradan qaldırmaqla, xalqın sevimli şairinin qəzəllərini muğam sənətinə gətirdi. Ə.Məmmədovun təbliğatı sayəsində Azərbaycan xalqı Ə.Vahidi tamamilə fərqli yanaşmadan dərk etməyə müvəffəq oldu. Ə.Məmmədov ifa zamanı seçdiyi qəzəllərin musiqi ilə uyğun olmasına da böyük əhəmiyyət verirdi. Belə poetik mətnlər arasında Ə.Vahidin sözlərinə yazdığı beyt çox məşhurdur:

Gözəllər içrə sən, ey mahiparə, bir dənəsən,
Gözəllərin gözüsən, zülfü qarə bir dənəsən.

Ə.Məmmədov muğam sənətinin, xüsusilə də musiqi folklorunun müxtəlif janrlarının ayrı-ayrı nümunələrinin bədii-estetik mahiyyətini, məna çalarlarını düzgün dərk edərək, ifaçılıq fəaliyyətini məqsədyönlü şəkildə istiqamətləndirmişdir.

Ustad xanəndə heca vəznini muğama gətirərək, onu müasirləşdirməyə nail olmuşdur. Əslində Ə.Məmmədovun muğamlarda oxuduğu qəzəllərin sadə xalq dilində yazılması, onun xalqa daha da yaxın olmasına dəlalət edirdi.

**5. Bəstəkar-xanəndə kimi fəaliyyəti**

Ə.Məmmədov həm də bəstəkar-xanəndədir. Ustad xanəndə xüsusi olaraq bəstəkarlıq təhsili almasa da, bəstəkar kimi təfəkkür tərzinə malik idi. Onun ərsəyə gətirdiyi mahnılar, təsniflər, rənglər və dəramədlər Azərbaycan muğamlarının xüsusiyyətlərinə əsaslanır. Təkcə onu demək kifayətdir ki, Ə.Məmmədov "Çahargah" üzərində 20-

yə yaxın mahnı və təsnif bəstələmişdir. Qeyd edək ki, ustad xanəndənin bəzi mahnıları sovetlər dövründə müəyyən səbəblərdən xalq mahnısı adı altında lentə yazılmışdır. Ə.Məmmədovun mahnıları yalnız yazıldığı ildə deyil, bütün dövrlərdə öz əhəmiyyətini və bədii dəyərini qorumuşdur. Onun bəstələdiyi mahnı və təsniflər xalq ruhuna yaxındır, poetik mətni isə vətənpərvərlik və lirik mövzulara əsaslanır. Ədəbi qanunauyğunluqlara bələd olan xanəndə bəzi mahnılarının sözlərini əksər hallarda özü yazır və yaxud da poetik mətnə müəyyən düzəlişlər edirdi.

**6. "Hümayun" xalq çalğı alətləri ansamblını yaratması**

Ə.Məmmədovun yaratdığı "Hümayun" xalq çalğı alətləri ansamblı onun fəaliyyətinin mühüm bir istiqamətini təşkil edir. Görkəmli sənətkarın yaradıcılığının təxminən otuz ili 1968-ci ildə yaratdığı bu ansamblla bağlıdır. Maraqlısı budur ki, Ə.Məmmədov "Hümayun"u təşkil edəndə həmin dövrdə kifayət qədər tanınmış Xalq çalğı alətləri ansamblları mövcud idi. Lakin ustad xanəndənin peşəkarlığı və xalq yaradıcılığına bələd olması rəhbərlik etdiyi ansamblın qısa müddət ərzində musiqi həyatımızda geniş yer almasına imkan yaratdı. "Hümayun"a cəlb edilən xanəndələrin say etibarilə çoxalması da ustad sənətkarın hər kəsə bəlli olan yaradıcılıq fəaliyyətinin bəhrəsi idi. O, gənc ifaçıların düzgün şəkildə püxtələşməsinə çalışır və onlara düzgün istiqamət verərək, sənətdə uğurlu addımlamasında geniş imkanlar yaradırdı. Bu baxımdan həm sənətkarlıq baxımından, həm də insanlıq nöqteyi-nəzərindən bütün müsbət keyfiyyətlər məhz Ə.Məmmədovun şəxsiyyətində birləşmişdi. O, ansamblda "bildiklərini digərlərinə də öyrətməlisən" devizi ilə fəaliyyət göstərir və əbədiyaşar muğam sənətini ümidverən gənclərə aşılayırdı. Bu baxımdan "Hümayun" ansamblı Ə.Məmmədovun özünəməxsus dəst-xəttinin və ifaçılıq xüsusiyyətlərinin təzahürü kimi dəyərləndirilə bilər.

**7. Pedaqoji fəaliyyəti**

Ə.Məmmədov pedaqoji fəaliyyətlə də məşğul olmuş, əvvəlcə Asəf Zeynallı adına Musiqi Texnikumu və Bülbül adına orta ixtisas musiqi məktəbində, yaradıcılığının kamillik dövründə isə Azərbaycan Milli Konservatoriyasında çalışaraq gənc xanəndələrin yetişdirilməsində öz bilik və bacarıqlarını əsirgəməmiş və ifaçılıq sənətinin xüsusiyyətlərini onlara aşılamışdır. Əslində, Ə.Məmmədovun yaradıcılığı elə bir məktəb kimi dəyərləndirilə bilər. O, hər zaman səliqəli geyimi, təmkinli davranışları, aydın tələffüzü, dərsə davamiyyəti ilə tələbələrə örnək idi. Pedaqoq kimi o, fəaliyyətində ciddilik və səmimiyyəti uzlaşdırmağı bacarırdı. Ə.Məmmədov dərs prosesi zamanı səmimiyyətlə öyrədər, ciddi şəkildə və tələbkarlıqla tələbələrin mənimsəmə səviyyəsini müəyyənləşdirərdi. Xalq artistləri Canəli Əkbərov, Məmmədbağır Bağırzadə ustad xanəndənin tələbələri olmuşlar.

**8. Heydər Əliyev Fondunun keçirdiyi "Muğam" televiziya müsabiqələrində iştirakı**

Ə.Məmmədovun çoxşaxəli fəaliyyətində bir istiqaməti də Heydər Əliyev Fondunun təşəbbüsü ilə gənc muğam ifaçılarının televiziya müsabiqələrində münsif kimi iştirakı təşkil edir. Milli musiqi mədəniyyətimizin, musiqi irsimizin təbliğində böyük əhəmiyyəti olan bu müsabiqədə Ə.Məmmədov həmişə düzgün və obyektiv təhlilləri, dəyərli

tövsiyələri ilə gənclərin muğam sənətinin dərinliklərinə yiyələnməsində böyük dəstək olmuşdur. Müsabiqə zamanı onun muğamın əsl mahiyyətini, incəliklərini aydın şəkildə açıqladığı fikirləri həm iştirakçılar, həm də dinləyicilər tərəfindən rəğbətlə qarşılanırdı. Ə.Məmmədovun dəqiq və dürüst şəkildə haqlı iradları bildirməsi ona olan rəğbəti daha da artırırdı. Muğamı və səslənən qəzəlləri bilməsi, gözəl təhlil etmək qabiliyyəti Ə.Məmmədovun böyük sənətkar olmasını hər zaman təsdiqləyirdi.

**9. Azərbaycan dövləti tərəfindən Ə.Məmmədovun fəaliyyətinin dəyərləndirilməsi**

Görkəmli xanəndənin geniş yaradıcılıq fəaliyyəti dövlətimiz tərəfindən yüksək dəyərləndirilmişdir. Belə ki, Əlibaba Məmmədov "Şöhrət" (2000), "İstiqlal" (2010) və "Şərəf" (2020) ordenləri ilə təltif edilmişdir. Onu da qeyd edək ki, ustad xanəndə ilə olan görüşün təfsilatı İlham Əliyevin "İnkişaf məqsədimizdir" çoxcildli silsiləsində ətraflı şəkildə verilmişdir. Həmin görüşdə İlham Əliyev görkəmli sənətkarın yaradıcılığı ilə bağlı bu dəyərli fikirləri söyləmişdir: *"Siz uzun illərdir ki, xalqımızı öz sənətinizlə sevindirirsiniz. Həm gözəl ifaçı, xanəndə, həm gözəl bəstəkar kimi Azərbaycan musiqi mədəniyyətinə böyük töhfələr vermisiniz. Siz 100-dən artıq mahnının müəllifisiniz və Sizin ifanızda səslənən xalq mahnılarımız, muğamlarımız insanlara xüsusi zövq verir. Xalqımız Sizi ürəkdən sevir, siz həm gözəl sənətkar, həm də gözəl insansınız. Siz Azərbaycan ziyalısını təcəssüm etdirirsiniz"* [1; 33].

**10. Ə.Məmmədovun "Vətən yaxşıdır" təsnifi İkinci Qarabağ müharibəsində**

İkinci Qarabağ müharibəsində Ə.Məmmədovun "Vətən yaxşıdır" təsnifi bir vətənpərvərlik dastanına çevrilərək, lirik ruhlu hərbi marş əhəmiyyəti daşımışdır. Ə.Vahidin sözlərinə bəstələnmiş bu təsnifi Ə.Məmmədov ilk dəfə 1960-cı ildə səsləndirmişdir. Uzun illərdir ki, Ə.Məmmədovla yanaşı, bir çox xanəndələr də həmin təsnifi ifa etmişlər. Azərbaycan Silahlı Qüvvələrinin giziri, İkinci Qarabağ müharibəsinin şəhidi Xudayar Yusifzadənin ağır döyüşlərdən bir neçə gün əvvəl "Vətən yaxşıdır" təsnifini oxuması əsərə yeni nəfəs bəxş etdi. Həmin dövrdə Ə.Məmmədov müəllifi olduğu təsnifin şəhidimizin ruhuna ehtiram əlaməti olaraq, "Xudayar təsnifi" adlandırılması təşəbbüsü ilə razılaşaraq, bu ifanın onu çox təsirləndirdiyini bildirmişdir.

**Nəticə**

Ə.Məmmədov muğam sənətini milli mədəniyyətimizə miras qoyan ustad xanəndədir. O, muğam səltənətinin cəngavəri və xalqın sevgisi ilə yaşayan görkəmli sənətkar idi. Ə.Məmmədov Azərbaycan muğam sənətinin sütunlarından biri olmaqla yanaşı, həm də Şərq aləmində muğam sənətinin kamil bilicisi kimi tanınırdı. Ustad xanəndənin çoxşaxəli yaradıcılığının əsas xüsusiyyətlərinin işıqlandırılması məqalənin elmi yeniliyini təşkil edir. Bu baxımdan Azərbaycanın görkəmli muğam ifaçılarının yaradıcılığının öyrənilməsi kontekstində məqalə daxilində Ə.Məmmədovun səciyyələndirən xüsusiyyətlərin müəyyənləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Məqalə mövzusunun araşdırılması zamanı müəyyən təsnifatların verilməsi gələcək elmi araşdırmalarda davam etdirilə bilər. Ə.Məmmədovun səs yadigarları və ərsəyə gətirdiyi əsərlər əbədi

olaraq yaşayacaqdır. Muğam bilicisi, muğam tarixçisi kimi onun dəqiq və əsaslandırılmış çıxışları gənc xanəndələrin, musiqisevərlərin maarifləndirilməsi istiqamətində mühüm əhəmiyyətə malikdir. Əlibaba Məmmədov sözün əsl mənasında Azərbaycanda muğam ifaçılıq məktəbi yaratmışdır və bu gün həmin məktəb görkəmli ustad xanəndənin ənənələrini uğurla davam etdirir.

## İstinad edilmiş ədəbiyyat

1. Təhmirazqızı S. Ustad xatirələrdə. Bakı, 2023.
2. Zöhrabov R. Azərbaycan muğamları. Bakı, 2013.
3. Faseh R.M. Azərbaycan muğamlarında söz və musiqinin əlaqəsi. Bakı, 2004.
4. Axundova G.Ə. Azərbaycanda xanəndəlik ənənəsinin və vokal mədəniyyətin yaranması və inkişafı. Bakı, 2009.

**Тейюб Асланов**

## Взгляд на творчество опытного исполнителя мугама Алибабы Мамедова

**Резюме:** В представленной статье подчеркивается особенности многогранного творчества Алибабы Мамедова, народного артиста, выдающегося певца, композитора и педагога, профессора, деятеля культуры, награжденным орденами орденов «Шохрат», «Шараф» и «Истигляль». Основная цель статьи – исследовать исполнительскую, педагогическую и музыкально-общественную деятельность А.Мамедова и определить ее характерные черты. Исходя из основной цели исследования, были определены задачи, основанные на творческих особенностях А.Мамедова. Таким образом, основные моменты творческой деятельности мастера-певца были классифицированы по определенным направлениям, а работа А.Мамедова в этой области подверглась детальному исследованию. Подходя с этой точки зрения, на основе исследовательских методов было изучено многогранное творчество А.Мамедова. Как исполнитель А.Мамедов прекрасно знал законы азербайджанского мугама. За время своей педагогической карьеры он обучил многих своих учеников исполнительским характеристикам мугама. Как музыкально-общественный деятель А.Мамедов создал ансамбль народных инструментов «Хумаюн», участвовал в качестве жюри в телевизионном конкурсе «Мугам», организованном Фондом Гейдара Алиева. Научной новизной является освещение творческих особенностей А.Мамедова в рамках статьи. Результаты исследования являются полезным источником для исследователей творчества А.Мамедова. В то же время, аргументированные соображения, приведенные в статье, могут быть использованы при изучении искусства азербайджанского пения.

**Ключевые слова:** Алибаба Мамедов, певец, мугам, народная песня, тесниfы

**Teyyub Aslanov**

## A Look at the Creativity of the Master Mugham Singer Alibaba Mammadov

**Summary:**The presented article emphasizes the features of the multifaceted creativity of Alibaba Mamedov, a people's artist, an outstanding singer, composer and teacher, professor, cultural figure, awarded the Orders of Shohrat, Sharaf and Istiklal. The main objective of the article is to explore the performing, pedagogical and musical-social activities of A.Mamedov and determine its characteristic features. Based on the main objective of the study, the tasks based on the creative features of A.Mamedov were determined. Thus, the main points of the creative activity of the master singer were classified in certain directions, and A. Mamedov's work in this area was subjected to a detailed study. Approaching from this point of view, the multifaceted creativity of A.Mamedov was studied on the basis of research methods. As a performer, A.Mamedov knew the laws of Azerbaijani mugham very well. During his teaching career, he taught many of his students the performing characteristics of mugham. As a musical and public figure, A.Mamedov created the ensemble of folk instruments "Humayun", participated as a jury in the television competition "Mugham", organized by the Heydar Aliyev Foundation. The scientific novelty is the coverage of the creative features of A.Mamedov within the framework of the article. The results of the study are a useful source for researchers of A.Mamedov's work. At the same time, the reasoned considerations given in the article can be used in the study of the art of Azerbaijani singing.

**Keywords:** Alibaba Mamedov, singer, mugham, folk song, tasnifs

**Məqalənin redaksiyaya daxil olma tarix: 21.11.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский Государственный Университет Культуры и Искусств, XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Art, XLVI edition, Baku, 2024

**UOT: 78**
**ORCID: 0009-0007-2016-1652**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.064**

**Əsədullayev Toğrul Mirnazim oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**Email: toghrul.asadullayev@admiu.edu.az**

# KAMANÇA İFAÇILIQ SƏNƏTİ: MİRZƏ SƏTTAR

***Xülasə:*** *Təqdim olunan məqalədə kamança ifaçılıq sənətinin inkişafında ustaddan şagirdə keçən yolun böyük əhəmiyyəti göstərilmiş, bu təmayül nəticəsində muğamların bizim dövrümüzə qədər ötürülməsində ifaçılıq sənətinin böyük rolu üzə çıxarılmışdır. Məqalənin əsas məqsədi, müasir dövrdə də öz aktuallığı ilə seçilən mövzulardan olan milli ifaçılıq məktəbinin nümayəndəsi, ustad kamança ifaçılarından biri Mirzə Səttarın yaradıcılıq fəaliyyəti təqdim olunur. Onun haqqında elmi mənbələr əsasında araşdırılmalar təqdim olunmuş, kamança alətində ifaçılıq xüsusiyyətlərinin özünəməxsusluğu, ustad ənənələri, pedaqoji fəaliyyəti və tələbələri haqqında məlumatlar verilmişdir. Mirzə Səttar ilə eyni dövrdə yaşamış sənətkarlardan Məhsəti Gəncəvinin, Mirzə Məhəmməd Kamançayinin, Ustad Məsum Kamançayinin, Qaraçı Hacı bəyin fəaliyyət göstərdiyi dövr, eləcə də musiqi ictimaiyyətində mövcud vəziyyət təqdim edilmiş, yazılı mənbələrə əsaslanaraq təhlillər aparılmışdır. Məqalənin elmi yeniliyi kamança ifaçısı Mirzə Səttar haqqında mövcud elmi mənbələrin, tarixi faktların üzə çıxarılması, onun yaradıcılıq xüsusiyyətlərinin araşdırılması sayıla bilər. Bununla yanaşı Mirzə Səttar ustad sənətkar olaraq bir neçə professional ifaçının yetişdirilməsində müstəsna xidmətləri üzə çıxarılmışdır. Onun yetişdirdiyi ifaçılardan Məşədi Məlik Mansurovu, Ağakərim Salik və Mirzə Fərəci xüsusilə qeyd etməliyik. Məqalədə əldə olunan nəticələr kamança ifaçılığı, xüsusilə Mirzə Səttar və onun yaşadığı dövrdə ilə yazılan tədqiqatlarda faydalı ola bilər.*
***Açar sözləri:*** *Mirzə Səttar, kamança ifaçısı, ustad, ənənə, elmi mənbə.*

## Giriş:

Qədim zamanlardan böyük inkişaf təmayülləri keçən kamança ifaçılıq sənəti bu gün öz inkişafının, aktuallığının yüksək zirvəsindədir. Bu xüsusiyyət heç də təsadüfi deyil. Azərbaycanda muğam dəstgahların, kiçik həcmli muğamların, zərbi-muğamların, təsnif və rənglərin üzə çıxarılması, müxtəlif əsərlərin nota yazılması, onların not məcmuələri şəklində çap olunması, müxtəlif tədqiqatların aparılması, ifaların lentə və ya diskə alınması, albom şəklində buraxılması, internet saytlarının yaradılması və s. buna bariz sübutdur.

Kamança ifaçılıq sənəti XXI əsrin başlanğıcında yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Belə ki, 2017-ci ilin 7 dekabr tarixində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 12-ci sessiyasında "Kamança simli musiqi alətinin hazırlanma və ifaçılıq sənəti" adlı çoxmillətli nominasiya (İran İslam Respublikası və Azərbaycan) UNESCO-nun Bəşəriyyətin Qeyri-maddi mədəni irsi üzrə Reprezentativ siyahısına [1] daxil edilməsi bunu bir daha təsdiqləyən başlıca amildir. Xüsusilə, milli ifaçılıq sənətinin beynəlxalq səhnədə məşhurlaşmasında, həm muğamın, həm də kamança ifaçılığının UNESCO tərəfindən Bəşəriyyətin qeyri maddi mədəni irsinin siyahısına daxil edilməsində Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri vardır. Bu mənada 7 muğam lahiyəsinin hazırlanması ("Muğam-İrs", "Muğam dəstgah", "Muğam ensiklopediya", "Muğam internet", "Muğam antologiyası", "Muğam aləmi" və Beynəlxalq muğam Mərkəzi) parlaq nümunədir.

**Əsas hissə:**

**1. Kamança ifaçılıq sənəti və "musiqi dərsləri"nin keçirilməsi**

Kamança ifaçılıq sənətinin inkişafında bütün dövrlərdə ustad sənətkarların olduqca böyük rolu və əhəmiyyəti vardır. Qədim dövrdən bəri yaranan və inkişaf edən kamança ifaçılıq sənətinin tarixi keçmişinin həm elmi yazılarda, həm də onun ifasının müxtəlif ölkə səhnələrində qorunması bu gün də öz aktuallığını saxlayan başlıca mövzulardandır.

Şifahi şəkildə ustaddan şagirdə ötürülən milli ifaçılıq sənətində fərdi şəkildə bu və ya digər çalğı alətinin sirlərini öyrədirdilər. Məlumdur ki, Azərbaycanın ərazisində müxtəlif dövrlərdə bir sıra musiq məktəbləri, musiqi ocaqları var idi. Məhz bu sənət ocaqlarının olması bilavasitə şifahi ənənəli professional musiqinin janrlarının dəqiq şəkildə illər sonra da çatdırılmasını və düzgün şəkildə inkişafını təmin edir.

Əslində kifayət qədər qədim dövrlərdə ustadın şagirdinə çalğı alətini öyrətdiyi şəxsi evini də "musiqi məktəbi" adlandırmaq olar. Ustad burada şagirdinə təkcə çalğı alətində çalmağı öyrətməklə kifayətlənmirdi. O, eləcə də "musiqi dərsləri"ndə ifaçının ədəb-ərkan və məclisdə özünü necə aparması haqqında maraqlı söhbətlər edir və müəyyən tövsiyələr verirdi. Belə "musiqi dərsləri"ndə həmçinin, çalğı alətinin təmir olunması (tellərin dəyişdirilməsi, xərək yerini dəyişdikdə onun düzgün tənzimlənməsini, çanaqda dərinin təzələnməsi və s.), muğamların yaranması, onun şöbə və guşələrinin mənaları haqqında da şagirdlərə bilgilər verilirmiş. Ustad sənətkarların ifaçılıq üsulu tələbələrə ötürülmüş, bu tələbələr də sonrakı mərhələlərdə özləri ustad sənətkara çevrilmişlər. Həmin proses bu gün də davam etdirilməkdədir. Azərbaycanda müxtəlif dövrlərdə yaşamış bir sıra ustad kamança ifaçıları yetişmişdir.

**2. Kamança ifaçısı Mirzə Səttarın fəaliyyət göstərdiyi mühit**

Tarixi və ədəbi mənbələrdə adı çəkilən ustad kamança ifaçılarının - Məhsəti Gəncəvi, Mirzə Məhəmməd Kamançayi, Ustad Məsum Kamançayi, Qaraçı Hacı bəy, Ərdəbilli Mirzə Səttar və başqalarının yaradıcılıq irsinin, həmçinin XX əsrdə sənətə gəl-

miş və bu gün Azərbaycan kamança məktəbinin simasına çevrilmiş sənətkarların yaradıcılığının tədqiqata cəlb olunması musiqişünaslıq elmi üçün aktual məsələlərdəndir.

Araşdırma zamanı məlum olmuşdur ki, bir sıra fərqli alətlərin ifaçıları həm də gözəl kamança çalmışlar. Onlardan Mansurovların məşhur bir nümayəndəsi olan Məşədi Məlikməmməd Ağasalah oğlunun (1838-1909) adını qeyd edə bilərik. Məşədi Məlik kamança çalmağı müasiri Ərdəbilli Mirzə Səttardan (1844-1922) öyrənmişdir. 1879-cu ildən 1887-ci ilə qədər Məşədi Məlikin evində qalan Mirzə Səttar ona kamança çalmağın sirlərini öyrədir. Məşədi Məlik 41 yaşında olarkən kamança ifa etməyə həvəs göstərir. Doğrudur, Məşədi Məlik əsasən, tar ifaçılığı ilə məşğul olurdu. Lakin bəzi məqamlarda müxtəlif tarzənləri kamançada müşayiət edirdi.

Məşədi Məlik nəinki tarı, kamançanı, eləcə də telli alətlərdən kəskin fərqlənən, tam bambaşqa üsulla səsləndirilən tütək və qarmon çalğı alətlərini də eyni məharətlə səsləndirirdi. Həmin çalğı alətlərində mükəmməl ifa etməsi Məşədi Məliki dövrünün qüdrətli sənətkarlarından birinə çevirmişdi.

Məşədi Məlikin kamança müəllimi olmuş Mirzə Səttar haqqında görkəmli jurnalist, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Rafael Hüseynov "Min ikinci gecə" əsərində geniş məlumat verir [2; 16-20]. Cənubi Azərbaycan sənətkarlarından biri olan Ərdəbilli Mirzə Səttar, eləcə də Tehranlı Bağırxan da zəmanəsinin tanınmış kamança ifaçıları olmuşlar.

## 3. İnstrumental ifaçılıqda Mirzə Səttar ilə bağlı tarixi faktlar

Mirzə Səttar haqqında yazılan tarixi faktlar nisbətən az olmasına baxmayaraq, onların bəziləri bu günə qədər istifadə olunan və əsaslandığımız əsas mənbələr sayılır. Bu baxımdan Rafael Hüseynov kamança çalan Mirzə Səttar haqqında qiymətli bilgilər verərək onu qeyd etmişdir ki, *"Bakıya kamançanı ilk dəfə Mirzə Səttar gətirib, dəb salıb"* [2; 16]. Bu fikir mətbuat səhifələrinin bir neçəsində də təkrar olunur.

Lakin biz onu da əlavə edə bilərik ki, tarixi, ədəbi faktlara, səyyahların və tarixçilərin xatirələrinə, etnoqrafik mənbələrə istinad olunmaqla Azərbaycanda VII əsrdən etibarən kamançayabənzər çalğı alətlərinin yayıldığını məlumdur. Həmin dövrdə Bakı şəhəri, ümumilikdə Abşeron ərazisi qədim mədəniyyət və elm mərkəzi kimi tanınırdı.

Apardığımız tədqiqatlardan məlum olur ki, alman səyyah və təbiətşünası Engelbert Kempfer (1651-1716) İsveç səfirliyinin nümayəndəsi kimi XVII əsrin sonunda Azərbaycanda (19 dekabr 1683-cü ildə Şamaxıda, 6-9 yanvar 1684-cü ildə isə Bakıda) olmuşdur. O, yol qeydlərinin "XVII əsr Şərq musiqi mədəniyyəti" adlı fəslində Azərbaycanda rastlaşdığı 23 çalğı alətinin həm rəsmini çəkmiş, həm də bu alətlərin hər biri haqqında ayrıca məlumat vermişdir (Bax: şəkil №1). Bu alətlərdən biri də haqqında söhbət açdığımız kamançadır [3, s.740-745]. Engelbert Kempfer özünün çəkdiyi rəsmdə kamançanı 18 rəqəmi ilə qeydə almışdır.




Şəkil №1 Engelbert Kempferin rəsmi

Ədəbi və tarixi faktlardan məlum olur ki, Azərbaycanda ən azı XI-XII əsrlərdə tar da, kamança da səsləndirilib. Bəzən mətbuatda guya, *"Tar aləti, deyilənlərə görə, ilk dəfə Azərbaycana İrandan keçmişdir" və "Əli Şirazinin tarını görəndən sonra Azərbaycan xalq çalğı alətləri ustaları tar düzəltməyə başladılar"* kimi yanlış fikirlərə rast gəlirik [4; 10]. Əlbəttə bu fikirləri təkzib edən bir sıra dəqiq faktlar vardır.

Azərbaycanın ulu şairləri Orta əsrlərdə çalğı alətlərini şeirlərində sanki peşəkar bir musiqişünas kimi vəsf ediblər. Həmin bu şeirlər çalğı alətlərimizə verilən bir sənəd, vəsiqə və hansı xalqa məxsus olduğunu təsdiqləyən "vəsiqə"dir.

**4. Mirzə Səttarın həyat və yaradıcılığı**

Dövrünün tanınmış sənətkarı, peşəkar kamança ifaçısı Mirzə Səttarın həyat və yaradıcılığı ilə bağlı araşdırmalar apardıqda bir sıra uğurlu nəticələr əldə olundu.

R.Hüseynov Mansurovlar məktəbinin layiqli nümayəndəsi, ustad tarzən Məşədi Süleyman Mansurovun (1872-1955) xatirələrinə istinad edərək, Mirzə Səttarın tərcümeyi-halı, xarici görkəmi, xarakteri, əlamətləri və ifaçılıq xüsusiyyətləri haqqında məlumat verir [5].

Mirzə Səttar 1844-cü ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərində anadan olmuşdur. O, uşaq yaşlarından kamança çalmağı öyrənmişdir. Mirzə Səttar gecə-gündüz, yorulmaq bilmədən kamança çalır, məşq edərmiş. Qonşuluğunda yaşayan Mirsaleh adlı bir müctəhid musiqini sevmədiyindən Mirzə Səttarı Ərdəbildən didərgin salır. Onu həbs etdirəcəyi ilə hədələyir. Mirzə Səttar Ərdəbildən Nəmin şəhərinə gedir. Burada bir mütriblə dostlaşır və onunla bərabər Salyana gəlir. Onlar iki ay ərzində Salyanda musiqiçi kimi fəaliyyət göstərir, elin-obanın rəğbətini qazanırlar. Günlərin bir günü Səttarın Nəmin şəhərindən olan musiqiçi dostu qəflətən xəstələnir və dünyasını dəyişir, rəhmətə gedir. Bu hadisədən sonra 1879-cu ildə Mirzə Səttar Bakıya köçür. Burada Məşədi Məlikgilə pənah gətirir. 1887-ci ilə qədər onun evində yaşayır. Bu illərdə qeyd edildiyi kimi, Məşədi Məlik Mirzə Səttardan kamança çalmağın sirlərini öyrənir: *"Məşədi Məlik Mansurov, şair Ağakərim Salik, tarzən Mirzə Fərəc Mirzə Səttardan muğamları dərinliklərinə kimi öyrənərək püxtələşmişlər"* [6]. Mirzə Səttarın ustad kimi fəaliyyəti haqqında digər mənbələrdə də qeyd olunub *"Mirzə Səttar bir neçə kamil musiqiçi də yetişdirib. Onlardan biri adını yuxarıda çəkdiyimiz Qiyas sabunçulu, ikincisi Salik təxəllüsü ilə şeir yazmış Mirzə Ağakərim Hacı Zeynal oğlu, üçüncüsü Fərəc Rzayev olub. Bu Fərəc Rzayev deyilən kəs Mirzə Səttarın yanında öyrənciliyə başlayana qədər nağara çalırmış. Ustaddan musiqi alətlərini çalmağı kamil öyrənir və sonralar Bakının ən adlı tarzənlərindən birinə çevrilir"* [2; 19].

Mirzə Səttar təkcə mahir ifaçı deyildi. O, intellektual səviyyəsinə görə də həmkarlarından və yaşıdlarından xeyli seçilirdi. Bir neçə dildə – ərəb, fars, türkcə sərbəst danışır, bu dillərdə mükəmməl yazıb, oxuyurdu. Çoxlu mütaliə etdiyindən Mirzə Səttar elmin istənilən sahəsindən xəbərdar idi. Onun şirin ifası kimi, danışıqlarından da doymaq olmurdu. Mirzə Səttarı "muğamı yaxşı bilən nəzəriyyəçi" kimi adlandıran Bülbül qeyd edir: *"Vaxtilə Bakıda Ağa Palas oğlu və Mirzə Səttar muğamı yaxşı bilən nəzəriyyəçilər kimi şöhrət qazanmışdılar. Sonralar Bakıda tarzən Mirzə Fərəc və həvəskar müğənni Ağabala Ağasəid oğlu məşhur olmuşlar; onlar muğam sənətini Mirzə Səttardan və Ağa Palas oğlundan öyrənmişlər"* [7; 150].

**5. Mirzə Səttarın kamança aləti**

Mirzə Səttarın kamançası da digərlərindən fərqlənirdi. Alətinin çanağının ölçüləri normaldan bir yarım (1,5) dəfə böyük idi. Onun kamançasının qolu da uzun idi. Alətə uyğun olaraq qəmçili (əski azər-türkcə – kaman, yay) də uzun imiş. Çanağın üzərindən ağ və qara sümükdən zolaqlar işlənilmişdi. Bu da alətə xüsusi gözəllik verirdi. Onu alaqarpıza da bənzədirdilər. Bəzən dost-tanışları zarafatca "Mirzə, çıxart o alaqarpızı bir az çal" – deyərmişlər.

Mirzə Səttarın kamançası sökülüb-yığılırdı. Yəni qol çanağa vint ilə bağlanırmış. Aşıqlar da vintlə açılıb-bağlanırdı. Mirzə Səttar ifa etmədikdə kamançanı söküb, torbasına ("köynəyi"nə) qoyurdu.

Mirzə Səttar kamançadan başqa müxtəlif üsullarla səsləndirilən tar, qoltuq sazı və yeddi dilli qarmon kimi çalğı alətlərində də eyni ustalıqla, məharətlə ifa edirdi. Belə fərdi keyfiyyətlər bir sıra digər müasir kamança çalanlarda da müşahidə olunur. Yəni

Elman Bədəlovun (1929-1991), eləcə də Ağagül Əliyevin tarda, Vəcihə Səfərovanın (1924-2002) qanunda, Ədalət Vəzirovun (1951-2002) qarmonda, Fəxrəddin Dadaşovun nağara və fortepianoda peşəkar səviyyədə ifalarını yada salmaq olar.

## Nəticə

Gördüyümüz kimi, dövrünün tanınmış sənətkarlarından biri olan Mirzə Səttar haqqında mənbələrdə geniş məlumatlar olmasa da ömrünün sonuna kimi Azərbaycanda yaşaması, burada öz sevdiyi və böyük hörmətlə yanaşdığı peşəyə diqqəti, onun təbliği naminə gördüyü işlər, eləcə də özündən sonra da yetişdirdiyi ifaçılar, onun bu istiqamətdə əldə etdiyi nailiyyətlər yüksək qiymətləndirilərək, çox böyük və əvəzsizdir. Belə ki, onun özünəməxsus dəst-xətti, çalğı üsulları olmuşdur. Mirzə Səttar timsalında ümumilikdə kamança ifaçılığından söhbət açdıqda, mütləq muğam sənətini bu sahənin aparıcı janrı olmasını qeyd etməmək olmaz. Azərbaycan muğamlarının yaranması, formalaşması, təkmilləşməsi və dövrümüzə qədər gəlib çıxmasında bir sıra kamança ifaçılarının da böyük rolu və xidməti olmuşdur. Muğamların ifasında kamança əsas alətlərdən biridir. Bu səbəbdən muğamlarımızın təşəkkül tapmasında, formalaşmasında və inkişafında kamança ifaçılarımızın müstəsna xidmətləri olmuşdur.

## İstifadə edilmiş ədəbiyyat:

1. UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası. Kamança Milli musiqi alətinin hazırlanma və ifaçılıq sənəti. – URL: https://unesco.az/az/articles/intangible_cultural_heritage/art-crafting-playing-kamantcheh-kamancha-bowed-string-musical-instrument (müraciət tarixi: 31.10.2024).
2. Hüseynov R.B. Min ikinci gecə. Bakı: İşıq, 1988.
3. Kaempfer E. Amoenitatum exoticarum politico-physico-medicarum (latıncadan tərcüməsi: Dövlət proqramının tibbi köməyi). Fasciculus V.Lemgoviae, Typis & impensis H.W/ Meyeri, 1712.
4. Bakıxanov Ə.M. Ömrün sarı simi (tərtibçilər: Tofiq Bakıxanov və Məmmədrza Bakıxanov). Bakı: İşıq, 1985.
5. Məşədi Süleyman Mansurovun (1872-1955) xatirələri AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun elmi arxivində qorunur (qovluq № 80).
6. Muğam ensiklopediyası. Mirzə Səttar. URL: http://mugam.musigi-dunya.az/m/mirze_settar.html.
7. Bülbül. Azərbaycan oxuma məktəbi. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1968.

**Тогрул Асадуллаев**

## Исполнительское искусство каманчи: Мирза Саттар

**Резюме:** В представленной статье рассматриваются пути влияния «устада» (мастера) на воспитанника, последователя в развитии исполнительского искусства кяманчи, в результате чего раскрыта значительная роль исполнительского искусства в передаче мугама до нашего времени. Основная цель статьи представить творческую деятельность Мирзы Саттара, представителя национальной исполнительской школы, одного из исполнителей кяманчи, тема которого выделяется своей актуальностью и в наше время. О нем представлены исследования на основе научных источников, даны сведения об особенностях исполнения на инструменте каманча, традициях «устада», педагогической деятельности и о его учениках. Из исполнителей, живших в тот же период, что и Мирза Саттар, были представлены Мехсети Гянджеви, Мирза Мухаммед Кяманчаи, Устад Масум Кяманчаи, Гарачы Гаджи бей, а также текущая ситуация в музыкальном сообществе, проведен анализ на основе письменных источников. Научной новизной статьи является раскрытие на основе имеющихся научных источников, исторических фактов об исполнителя кяманчи Мирзе Саттара, исследование особенностей его творчества, а также были раскрыты исключительные заслуги Мирза Саттара как «устад»а-исполнителя, в обучении нескольких профессиональных исполнителей. Из его воспитанников-исполнителей особо следует подчеркнуть Мешеди Мелика Мансурова, Агакерима Салика и Мирзу Фараджа. Результаты, полученные в статье, могут быть полезны в исследованиях, посвященных исполнительству кяманча, особенно Мирзе Саттару и периоду его жизни и деятельности.

**Ключевые слова:** Мирза Саттар, кяманча, устад, традиция, научный источник.

**Togrul Asadullayev**

## Kamancha Performing Art: Mirza Sattar

The article shows the great importance of the path from "ustad" (master) to student in the development of the performing art of kamancha, as a result of which the great role of performing art in the transmission of mugham to our time is revealed. The main goal of the article is to present the creative work of Mirza Sattar, a representative of the national performing school, one of the performers of kamancha, the topic of which stands out for its relevance in our time.

Research based on scientific sources is presented about him, information is given about the features of performance on the kamancha instrument, the traditions of the "ustad", pedagogical activity and his students. Of the performers who lived in the same period as Mirza Sattar, Mahsati Ganjavi, Mirza Muhammad Kamanchai, Ustad Masum

Kamanchai, Garachi Hadji Bey were presented, as well as the current situation in the musical community, an analysis was carried out based on written sources. The scientific novelty of the article can be considered the disclosure of available scientific sources, historical facts about the performer of the kamancha Mirza Sattar, as well as the study of the features of his work. In addition, Mirza Sattar's exceptional merits as an "ustad"-performer were revealed in training several professional performers. Of the performers trained by him, Meshadi Melik Mansurov, Agakerim Salik and Mirza Faraj should be especially noted. The results obtained in the article may be useful in studies devoted to kamancha performance, especially Mirza Sattar and his period.

**Keywords:** *Mirza Sattar, kamancha player, master, tradition, scholarly source.*

**Məqalənin redaksiyaya daxil olma tarix: 25.11.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский Государственный Университет Культуры и Искусств, XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Art, XLVI edition, Baku, 2024

**UOT:78.03**
**ORCID: https://orcid.org/0000-0001-7777-685X**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.028**

**Babayeva Leyla Emin qızı**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dissertantı**
**Email:babayevaleylusha93@gmail.com**

# XALQ ARTİSTİ VASİF ADIGÖZƏLOVUN "ŞUŞAM, LAYLAY" MAHNISININ XÜSUSİYYƏTLƏRİ

***Xülasə:*** *Təqdim olunan məqalədə görkəmli Azərbaycan bəstəkarı, Dövlət mükafatı laureatı, professor Vasif Adıgözəlovun (1935-2007) yaradıcılığında Qarabağ mövzusuna həsr olunmuş əsərlər sırasında özünəməxsus yerə malik olan "Şuşam, laylay" mahnısının xüsusiyyətlərindən bəhs olunur. Məqalənin əsas məqsədi V.Adıgözəlovun "Şuşam, laylay" mahnısının təhlil edilməsi və bəstəkarın vokal yaradıcılığında bu mahnının əhəmiyyətinin müəyyənləşdirilməsidir. Mahnının təhlil olunması istiqamətində bir sıra mühüm vəzifələr yaranmışdır. Belə ki, "Şuşam, laylay" mahnısı melodik dilin xüsusiyyətləri, poetik mətnin obrazlılığı, bəstəkarın Qarabağ torpaqlarının işğalı nəticəsində keçirdiyi hisslərin səciyyələnməsi baxımından araşdırılmışdır. Bu baxımdan yanaşsaq, "Şuşam, laylay" mahnısı tarixi və nəzəri təhlil metodları əsasında araşdırılmışdır. Eyni zamanda V.Adıgözəlovun yaradıcılığında milli köklərə bağlılıq və xalq musiqi mənbələri ilə üzvi əlaqənin olması da işıqlandırılmışdır. Qeyd olunmuşdur ki, xalq yaradıcılığından qidalanması və muğam ənənələrinin onun təfəkkürünə təsir etməsi V.Adıgözəlovun musiqi üslubunun formalaşmasında böyük rol oynamışdır. Məqalənin elmi yeniliyini V.Adıgözəlovun "Şuşam, laylay" mahnısının təhlilə cəlb edilməsi və səciyyəvi xüsusiyyətlərinin araşdırılaraq müəyyən olunması təşkil edir. Qarabağ müharibəsində qazanılan zəfərdən sonra "Şuşam, laylay" mahnısına yeni poetik mətnin daxil edilməsi və yeni mətnə malik mahnının təhlil edilməsi isə məqalənin əhəmiyyətini müəyyənləşdirir. Həmçinin, məqalədə verilən mülahizələr V.Adıgözəlovun yaradıcılığının tədqiqatçıları üçün faydalı mənbə ola bilər.*
***Açar sözlər:*** *Vasif Adıgözəlov, bəstəkar, mahnı, melodik dil, poetik mətn*

## Giriş

Qarabağ mövzusu – Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, Dövlət mükafatı laureatı, professor Vasif Adıgözəlovun (1935-2007) yaradıcılığının ilham mənbəyi olmuşdur. Bu mövzuda o, müxtəlif janrlı əsərlər yaratmışdır: "Natəvan" operası, "Qarabağ şikəstəsi" oratoriyası, "Çəkin Qarabağdan qara əlləri" xor əsəri, "Qərənfil" romansı, "Şuşam, laylay" mahnısı və s. Bu əsərləri bəlkə də bəstəkarın yaradıcılığının "Qarabağ səhifələri" adlandırsaq, daha düzgün olar. Hələ ilk yaradıcılıq

illərindən başlayaraq, son günlərinə qədər bəstəkar Qarabağ mövzusuna davamlı olaraq müraciət etmişdir. Bu əsərlərdə bəstəkarın Vətən sevgisi, milli mədəniyyətə məhəbbəti və sənətkar marağı, Vətənin gözəlliklərinin tərənnümü, həm xoş günlərinin təəssüratı, həm də doğma torpaqların işğalından doğan ağrı-acısı, hiddəti, eləcə də, Qələbəyə olan inamı öz əksini tapır. Hər bir əsər Qarabağ torpağının, onun tarixinin, mədəniyyətinin, poetik və musiqi dünyasının təsviridir.

1980-ci illərin sonunda və 1990-cı illərdə Qarabağ torpağının mənfur düşmən tərəfindən işğalı Azərbaycanın mədəniyyət xadimlərinin də hiddətinə səbəb olmuş, onlar öz etirazlarını yaratdığı sənət əsərlərində ifadə etmişlər. Bu işğala ilk etiraz səsini ucaldanlardan biri məhz V.Adıgözəlov olmuşdur. 1989-cu ildə onun möhtəşəm, insanlara ruh verən "Qarabağ şikəstəsi" oratoriyası, 1990-cı illərdə isə düşmənə kəskin etiraz səsləndirən "Çəkin Qarabağdan qara əlləri" xor əsəri, dinləyicinin ruhunu sarsıdan "Şuşam, laylay" mahnısı meydana gəlmişdir.

**Əsas hissə:**

**1. Vasif Adıgözəlovun vokal əsərlərində milli xüsusiyyətlərin ifadəsi**

Məlum olduğu kimi, Vasif Adıgözəlov xalq musiqisini, muğamları çox gözəl bilirdi. O, ustad xanəndə, atası Zülfü Adıgözəlovdan xalq musiqisinin incəliklərini öyrənmiş, ustad ifaçıların, tarzən və kamançalanların ifasını dinləyib əxz etmişdir. Bu xüsusiyyətlər bəstəkarın iri və kiçik həcmli əsərləri ilə yanaşı, mahnılarında da parlaq ifadəsini tapmışdır.

V.Adıgözəlov mahnılarında xalq mahnı intonasiyalarından bacarıqla istifadə etmiş, onları özünəməxsus, eyni zamanda müasir səslənmə ilə dolğunlaşdırmışdır. Bu mahnılarda intonasiyaların ürəyəyatımlığının əsas səbəblərindən biri xalq musiqisi ilə bəstəkar üslubuna xas olan romantik coşğunluğun üzvi sintezi olmuşdur. İnsanın ülvi hissləri, şirin duyğuları onun mahnılarında öz təcəssümünü tapmışdır.

Bəstəkarın vokal üslubu özündə bir çox amilləri birləşdirir. İlk olaraq, V.Adıgözəlovun mahnılarında poetik mətnin bədii xüsusiyyətlərinin dərindən açılmasını qeyd etmək lazımdır. Məzmun zənginliyi mahnıların fakturasının dolğunluğunu müəyyənləşdirərək, ona simfonik musiqiyə xas olan inkişaf üsullarını və harmonik dilin mürəkkəbliyini bəxş edir. Onun mahnı və romanslarında simfonik inkişaf üsullarını tətbiq etməsi isə müasiri olduğu XX əsr musiqisi üçün səciyyəvi xüsusiyyət idi və bu da V.Adıgözəlovun dövrünün musiqi aləmində cərəyan edən cəhətlərə münasibətinin göstəricisidir. V.Adıgözəlovun vokal əsərləri haqqında E.Babayevin fikirləri maraqlıdır: *"Sevimli bəstəkarımız Vasif Adıgözəlovun yeni bir nəğməsini eşitdim: "Laylay, Şuşam, laylay". Güman edirdim ki, "Qərənfil"dən, "Xoşum gəlir"dən, "Bakı haqqında mahnı"dan sonra heyranlıq üçün yer qalmayıb. Lakin neçə dəfədir ki, bu yeni nəğməni eyni həyəcanla, gərginliklə, sarsıntı və kədər hisslərilə dinləyirəm"* [1; 38].

Bəstəkarın vokal əsərlərinin əsas xüsusiyyəti lirik xarakterli olması ilə bağlı olub, məhəbbət lirikasını, insanın ülvi hisslərini, həzin duyğuları, sevinci və kədəri özündə əks etdirir. Onlar bəzən zərif, bəzən ehtiraslı, bəzən də dramatik əhval-ruhiyyə daşıyır.

Bu əsərlərin bədii-estetik təsir gücü böyükdür. Bir çox cəhətlərdən onlar lirik xalq mahnılarına çox yaxındır.

V.Adıgözəlovun mahnılarını səciyyələndirən R.Zöhrabov yazır: *"Bu mahnılarda bizi məftun edən nədir? Ən əvvəl gözəl və ehtiraslı melodiya, onun qəlbdən gələn musiqi təranələri, avazları çox axıcı, emosional, hərarətli, təravətlidir. Bu təranələrdə təkraredilməz bir orijinallıq, özünəməxsus xüsusiyyətlər ifadəsini tapır. Bəstəkarın fortepiano və orkestr fakturasının dolğunluğu, yüksək zövqlü, səriştəli yazı üsulu, lad-məqamdan irəli gələn harmoniya zərifliyi, şirinliyi və i.a. hər bir mahnının melodiyasını rövnəqləndirir. Bu ümdə xüsusiyyətlərinə görə də V.Adıgözəlovun hər mahnısı dinləyiciyə gözəl zövq, ovqat aşılayır, onu daxilən saflaşdırır"* [1; 37-38].

**2. "Şuşam, laylay" mahnısının yaranması**

"Şuşam, laylay" mahnısının adından göründüyü kimi, xalq mahnılarının qədim janrlarından biri olan laylay xüsusiyyətlərinə malikdir. Mahnının təsirli, həzin melodiyası laylay intonasiyalarından qaynaqlanaraq, özünəməxsus janr xüsusiyyətləri ilə diqqəti cəlb edir.

Ötən əsrin 90-cı illərində, 1992-ci ildə Şuşanın işğalından sonra yaranan "Şuşam, laylay" mahnısını V.Adıgözəlov Ramiz Duyğunun sözlərinə bəstələmişdir. Mahnı ilk dəfə respublikanın Əməkdar artisti Aygün Bəylərin ifasında səslənərək məşhurlaşmışdır. 2020-ci ildə Şuşa işğaldan azad edildikdən sonra mahnıya yeni sözlər bəstələnərək, əvvəlki poetik mətn yenilənmişdir. Yeni poetik mətnin müəllifi Vüqar Əbdülovdur. Mahnının yeni variantı ilk dəfə 2021-ci ildə Əməkdar artist Aygün Bəylərin ifasında səslənmişdir. Yeni poetik mətnlə mahnı yenə də Aygün Bəylərin ifasında təqdim olunmuşdur.

**3. "Şuşam, laylay" mahnısının ilk poetik mətni**

İlk poetik mətnin müəllifi Ramiz Duyğun (Məlikov Ramiz Məmməd oğlu) şair və publisistdir, yaradıcılığında vətənpərvərlik mövzusu mühüm yer tutur. Əslən Şuşalı olan və mahnının yazıldığı dövrdə doğma şəhərinin işğal altında olması bəstəkara hədsiz dərəcədə təsir etmişdir. Bu səbəbdən Vasif Adıgözəlov "Şuşam, laylay" mahnısında lirik hisslərə üstünlük vermişdir.

"Şuşam, laylay" mahnısının Ramiz Duyğuna məxsus olan poetik mətni üç bənd və nəqarətdən ibarətdir:

I bənd
Divar ağlar, daş ağlar
Gah bərk, gah yavaş ağlar.
Toxunmayın, buludam,
Gözlərim qan, yaş ağlar.
Nəqarət:
A laylay, a laylay,
Şuşam laylay, a laylay.
II bənd
Yuxuda gün düş aya,

Ömrün olsun tuş aya.
Şuşam yağı əlində
Səsim yetməz Şuşaya.
Nəqarət:
III bənd
Bələrəm, səni çin-çin,
Güllərəm için, için.
Gül dəstələr bağlaram
Laylalardan səninçin.
Nəqarət.

Mahnının bəndləri 7 hecalı bayatı şəklində qurularaq, aaba şəklində qafiyələnir. Nəqarət iki misradan ibarət olub (6 heca + 7 heca) aa şəklində qafiyələnir. Xalq bayatılarında olduğu kimi, bu şeirin özündə daxili bir musiqililik, həzinlik vardır. Musiqi sanki misraların daxilindən süzülür.

**4. "Şuşam, laylay" mahnısının yeni poetik mətni**

Şeirdəki nisgil, həsrət dolu hisslər 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan qələbədən sonra poetik mətnin digər müəllifi Vüqar Əbdülov tərəfindən yenilənmişdir. Şuşanın düşmən tapdağı altında olduğu günlərdə nisgil, Şuşasızlığı əks etdirən kədərli poetik mətn yenisi ilə əvəzlənmişdir. Mahnı yeni poetik mətnlə yenə Aygün Bəylərin ifasında tam yeni bir ovqatda, əhval-ruhiyyədə səslənmiş, nikbin çalarlara boyanmışdır. Vüqar Əbdülovun bəstələdiyi yeni poetik mətn də 3 bənd və nəqarətdən ibarətdir:

I bənd
Gün doğdu, ulduz itdi,
Həsrətim sona yetdi.
Uğrunda, gözəl Şuşam,
Qan axdı, canlar getdi.
Nəqarət:
A laylay, a laylay,
İndi rahat yat, laylay.
A laylay, a laylay,
Şuşam, laylay, a laylay.
II bənd
Gəlin, Şuşaya gəlin,
Xoş tamaşaya gəlin.
Xarı bülbül ətrinə,
Məst olmuş sarı gəlin.
Nəqarət.

III bənd:
Bələrəm, səni çin-çin,
Gülərəm, için-için.
Gül dəstələr bağlaram,
Laylalardan səninçin.
Nəqarət.

**5. Yeni poetik mətnin xüsusiyyətləri**

Yeni poetik mətndə I və II bəndlər yenilənmiş nəqarətə cüzi dəyişikliklər gətirilmiş, mahnının üçüncü, yəni son bəndinin sözləri isə olduğu kimi saxlanılmışdır. Düşmən üzərində qazanılan zəfərlə bağlı mahnı işıqlı kədər hisslərini əks etdirir. Mahnının ikinci bəndində Şuşa həsrətinin artıq bitməsini, xoş günləri əks etdirən nikbin misralar verilmişdir. Nəqarət dörd misralı olub, 6+7 şəklində qafiyələnir. Yeni poetik mətn mahnının bədii məziyyətlərini daha da yüksəltmişdir.

Onu da qeyd etməliyik ki, V.Adıgözəlovun "Şuşam, laylay" mahnısının notu olmadığı üçün mahnı audioyazıdan Pərviz Quliyev tərəfindən nota köçürülmüşdür. Köçürmə zamanı Əməkdar artistlər Aygün Bəylərin və Emil Əfrasiyabın ifasından istifadə edilmişdir.

Nümunə 1. "Şuşam, laylay" mahnısı [2; 1]




**6. "Şuşam, laylay" mahnısının forma-quruluş xüsusiyyətləri**

Mahnı on iki xanəli geniş fortepiano girişi ilə açılır. Giriş improvizasiya üslubundadır, sanki kiçik prelüdü xatırladır. Dəyişkən ölçülərün ardıcıllaşması (6/8, 7/8, 10/8) ona sərbəst improvizasiyalı çalğı xüsusiyyətlərini verir. Birinci və ikinci bəndlərin melodiyası, eləcə də nəqarət həzin, məlahətli xarakter daşıyır. Lirik melodiya "Bayatı-Şiraz" muğamının "Nişibi-fəraz" şöbəsinin intonasiyaları ilə başlanır. Melodiya "d" mayəli bayatı-şiraz məqamının VIII pilləsi, yəni mayənin kvintası ətrafında gəzişir və mayəyə enir.

Melodiya aşağıya doğru istiqamətlənir, enən sekunda intonasiyalarından qurulur. Melodiyadakı lyamento intonasiyaları mahnının lirik, kədərli ovqatını yaradır və poetik mətnə uyğun ah-naləli məzmunu ("Divar ağlar, daş ağlar") özündə əks etdirir. Laylayların melodiyasında olduğu kimi, melodiya zildən bəmə tədricən istiqamətlənir. Eyni motiv xüsusən, nəqarətdə variant-sekvensiya yolu ilə inkişaf edir. Nəqarətin enən

intonasiyaları "Küçələrə su səpmişəm" xalq mahnısı ilə (eyni məqam, eyni pərdələrin ətrafında gəzişmə) assosiasiya yaradır.

Mahnının üçüncü bəndinə keçid modulyasiya yolu ilə baş verir. Bu modulyasiya daha zilə - "dis" mayəli bayatı-şiraz məqamına aparır (yarım ton yuxarı). Belə modulyasiya keçidi bədii obraz mənası daşıyır. Keçid fortepiano interlüdiyası vasitəsilə baş verir. Melodiya "Piu mosso" tempində yuxarı registrə istiqamətlənir və bu keçid getdikcə ekspressiv xarakter alır. Üçüncü bənd - "Bələrəm, səni, çin-çin", gülərəm, için-için" daha yüksəkdən forte ahəngində və "Agitato" ifa edilir. Əgər birinci və ikinci bəndlərdə fortepiano müşayiəti sakit, təmkinli xarakter daşıyırdısa, üçüncü bəndin fortepiano müşayiəti daha mürəkkəb və ekspressiv xarakterlidir.

Qarabağ nisgilini əks etdirən "Şuşam, laylay" mahnısı Azərbaycan bəstəkarlarının bu mövzuda yaratdığı mahnı kəhkəşanında parlaq bir ulduz kimi yaşamaqdadır.

**8. V.Adıgözəlovun "Şuşam, laylay" mahnısında instrumental müşayiətin rolu**

V.Adıgözəlovun "Şuşam, laylay" mahnısında instrumental müşayiətin rolu da əhəmiyyətlidir. Belə ki, mahnının obrazlı məzmununun açılmasında fortepiano müşayiəti böyük rol oynayır.

Bəstəkar mahnının fortepiano partiyasına muğam və xalq musiqi ifaçılığına xas olan improvizasiyalı səslənmələr daxil edir. Burada bəstəkar alətin tembr və dinamik imkanlarından geniş istifadə edərək, musiqi materialına rəngarəng melizmlər, arpeciovari gedişlər, pillələr ətrafında qruppettolar, punktir ritmli basların saxlanılması və digər bu kimi cəhətləri daxil edir ki, bu da instrumental səslənməni muğam və mahnı müşayiətinə yaxınlaşdırır.

Mahnının instrumental partiyası əsərin forma-quruluşunda da mühüm rol oynayır. Belə ki, mahnıda geniş instrumental giriş tətbiq olunur ki, bu da mahnının obrazlı və emosional xarakterini hazırlayır. Məhz bu hissədə bəstəkar improvizasiyaya çox yer verir. Girişdəki səslənmələr sonradan həm instrumental, həm də vokal partiyanın əsasını təşkil edir. Girişdə melodik improvizasiyalardan, sekvensiyalardan, arpeciolu gedişlərdən, musiqi frazalarının variantlı təkrarlanmalarından istifadə edilir.

İnstrumental partiyanın mühüm cəhətlərindən biri də mahnının kulminasiya hissəsində üzə çıxır ki, bu da mahnının ikinci hissəsinin – ikinci bəndin əvvəlinə təsadüf edir. Burada hətta demək olar ki, müşayiət partiyası önə çıxaraq, kulminasiyanı hazırlayır və vokal partiyanın yüksək zirvədə səslənməsi üçün zəmin yaradır. İnstrumental partiyanın musiqi materialının yüksək registrə köçürülməsi də yeni improvizasiyalı səslənmələrə yol açır. Kulminasiya əsasən vokal partiyanın melodik materialına əsaslanır. Bu zaman instrumental və vokal partiyalar dialoqa girərək, musiqi materialının inkişafına yeni xüsusiyyətlər gətirir və emosional yüksəlişə yol açır. Qeyd etmək lazımdır ki, kulminasiya mərhələsində instrumental partiyanın səslənməsinə üstünlük verilməsi, bununla vokalın yüksək zirvədə səslənməsinin hazırlanması da xalq ifaçılığından gələn əlamət olub, adətən muğam və təsnif ifaçılığında tətbiq olunur.

## Nəticə

Vasif Adıgözəlovun "Şuşam, laylay" mahnısında vokal və instrumental partiyanın səslənməsi qarşılıqlı əlaqədə çıxış edərək, bir-birini tamamlayır, ümumilikdə mahnının obrazlı məzmununun yaradılmasında mühüm rol oynayaraq, ifadəli məzmun aşılayır. Eyni zamanda, məhz instrumental partiyada mahnının harmonik dilinin xüsusiyyətləri öz əksini tapır. Melodiya və harmoniyanın qarşılıqlı əlaqəsi, bir-birini dolğunlaşdırması bəstəkarın demək olar ki, bütün mahnılarında özünü göstərir. Vokalın aparıcı əhəmiyyətinə baxmayaraq, harmonik müşayiət musiqi dilinin dolğun ifadə olunmasını təmin edir və mahnının xarakterinə zənginlik gətirir.

Beləliklə, Vasif Adıgözəlov "Şuşam, laylay" mahnısının musiqi üslubunda milli musiqi dilinin ifadə vasitələrini, muğam və xalq musiqisi intonasiyalarını cəmləşdirmiş, klassik musiqi ilə şifahi ənənəli musiqi yaradıcılığının ənənələrini qovuşduraraq, parlaq vokal əsərlər yaratmışdır. Bu yanaşma tərzi mahnının müxtəlif illərdə səslənən hər iki variantında özünü göstərir.

## İstinad edilmiş ədəbiyyat

1. Эфендиева И.М. Васиф Адыгезалов. / И.М.Эфендиева. – Баку: Шур. – 1999. – 325 с.
2. Mahmudova C.E. Azərbaycan xalq və bəstəkar mahnılarının mətn xüsusiyyətləri / C.E.Mahmudova. – Bakı: ADPU-nun mətbəəsi, – 2014. – 112 s.
3. Adıgözəlov V.Z. "Şuşam, laylay" mahnısı [Notlar]: / – Bakı. – Əlyazma. – 6 s.

**Лейла Бабаева**

## Особенности песни «Шушам, лайлай» народного артиста Васифа Адыгезалова

**Резюме:** В представленной статье подчеркивается особенности песни «Шушам, лайлай», занимающей уникальное место среди произведений, посвященных теме Карабаха, созданных выдающимся азербайджанским композитором, лауреатом Государственной премии, профессором Васифом Адыгезаловым (1935-2007). Основная цель статьи - проанализировать песню В.Адыгезалова «Шушам, лайлай» и определить значение этой песни в вокальном творчестве композитора. В направлении анализа песни возник ряд важных задач. Таким образом, песня «Шушам, лайлай» исследована с точки зрения особенностей мелодического языка, образности поэтического текста, характеристики чувств композитора в результате оккупации карабахских земель. С этой точки зрения на основе методов историко-теоретического анализа исследована песня «Шушам, лайлай». Вместе с тем подчеркнута связь с национальными корнями и органическая связь с народно-музыкальными истоками в творчестве В.Адыгезалова. Отмечено, что большую роль в формировании музыкального стиля В.Адигезалова сыграло питание народным творчеством и влияние традиций мугама на его мышление. Научная новизна статьи заключается в анализе песни В.Адыгезалова

«Шушам, лайлай» и выявлении ее характерных особенностей. Актуальность статьи определяется включением нового поэтического текста в песню «Шушам, лайлай» после победы в Карабахской войне и анализом песни с новым текстом. Также соображения, приведенные в статье, могут быть полезным источником для исследователей творчества В.Адыгезалова.

**Ключевые слова:** Васиф Адыгезалов, композитор, песня, мелодический язык, поэтический текст

**Leyla Babayeva**

**Features of the Song "Shusham, laylay" by the People's Artist Vasif Adigozalov**

**Summary:** The presented article talks about the characteristics of the song "Shusham, Laylay", which has a unique place among the works dedicated to the subject of Karabakh, created by the outstanding Azerbaijani composer, winner of the State Prize, professor Vasif Adigozalov (1935-2007). The main purpose of the article is to analyze the song "Shusham, laylay" by V.Adigozalov and determine the significance of this song in the composer's vocal creativity. A number of important tasks have arisen in the direction of analyzing the song. Thus, the song "Shusham, laylay" was investigated in terms of the characteristics of the melodic language, the imagery of the poetic text, and the characterization of the composer's feelings as a result of the occupation of the Karabakh lands. From this point of view, the song "Shusham, laylay" was investigated based on historical and theoretical analysis methods. At the same time, the connection to national roots and organic connection with folk music sources in V.Adigozalov's creativity has also been highlighted. It has been noted that feeding on folk creativity and the influence of mugham traditions on his thinking played a major role in the formation of V.Adigozalov's musical style. The scientific novelty of the article is the analysis of the song "Shusham, laylay" by V.Adigozalov and the identification of its characteristic features. The importance of the article is determined by the inclusion of a new poetic text in the song "Shusham, laylay" after the victory in the Karabakh war and the analysis of the song with a new text. Also, the considerations given in the article can be a useful source for researchers of V.Adigozalov's work.

***Keywords:*** *Vasif Adigozalov, composer, song, melodic language, poetic text*

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский Государственный Университет Культуры и Искусств, XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Art, XLVI edition, Baku, 2024

**UOT 781**
**ORCID: 0009-0008-6648-2942**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.030**

**Нармина Энвер кызы Байрамалибейли**
**Бакинская Музыкальная Академия**
**ведущий научный сотрудник научно-исследовательской лаборатории,**
**кандидат искусствоведения**
**E-mail:** nbayramalibeyli@mail.ru

# О ТРЕХ ЭПИЗОДАХ СОЛИРОВАНИЯ УДАРНЫХ В БАЛЕТЕ «ТЫСЯЧА И ОДНА НОЧЬ» ФИКРЕТА АМИРОВА

**Резюме:** В статье рассматриваются три эпизода из балета «Тысяча и одна ночь» (1979) Фикрета Амирова – современные национальные примеры солирования ударных (заключения «Интродукции», «Оргии» и «Праздника Шехеразады»). Все три названных солирования достаточно развернуты и их введение глубоко продумано в драматургическом плане. Задача работы - рассмотрение этих эпизодов в новом ракурсе: во взаимосвязи их драматургической роли, особенностей их ритмики и выразительного значения в них ударной группы оркестра. Именно темброритмика ударных становится носителем образно-смыслового обобщения, эмоциональным итогом данных номеров. Указанные ритмические «каденции», ритмические коды ударных введены в узловых драматургических моментах балета, отличаясь собственным составом инструментов, в соответствии с их авторской трактовкой и образно-эмоциональным замыслом каждого из эпизодов.

**Ключевые слова:** Ф.Амиров, балет «Тысяча и одна ночь», солирование ударных инструментов, ритмика, фактура, драматургия.

Усложнение языка современной музыки, в частности ее метроритмической организации[1], возрастание ее роли в современных композициях в определенной степени обусловливает и параллельное возрастание в них значимости ударных инструментов. Говоря о нынешнем состоянии ударной группы оркестра, Г.П.Дмитриев отмечал не только «рост состава группы», но и «тенденцию к расширению сферы применения ударных инструментов, стремление делать партии ударных инструментов более содержательными. Это соображение, - подчеркивает он, – представляется принципиально важным, так как оно отражает возрастающие требования к выразительным возможностям ударных инструментов и

[1] Примечание: Как пишет В.Н.Холопова, «Ритмика в ХХ веке вобрала в себя понятие метрики, так как в этом столетии было утрачено главное качество метра – его неизменность» [1; 404].

меняющийся взгляд на их трактовку» [2; 4]. Названная тенденция, естественно, не могла не проявиться и в стилистике азербайджанского балетного жанра, сказавшись в нем, с одной стороны, в усложнении ритмического начала, а с другой – в усилении художественной информативности ударной группы оркестра в ее неразрывной связи с драматургией спектакля[2].

Объектом настоящей статьи стали три эпизода из балета «Тысяча и одна ночь» (1979) Фикрета Амирова: заключения «Интродукции», «Оргии», и «Праздника Шехеразады», которые можно представить в качестве ярких современных примеров ***развернутого солирования ударных*** в национальной музыке. Задача работы - ***рассмотрение этих эпизодов в новом ракурсе: во взаимосвязи их драматургической роли, особенностей их ритмики и выразительного значения в них инструментов ударной группы.***

Музыка балета «Тысяча и одна ночь», помимо многих других своих художественных достоинств, восхищает также особым ритмическим богатством, предоставляющим широкие возможности для созидания танца, хореографии.

Ритмика этого балета – некая творческая интерпретация, некое творческое обобщение азербайджанским композитором ритмики Востока, в данном случае, по словам Ф.Амирова «восточно-арабского» [3; 107], с ее сложностью, удивительным, разнообразием, неповторимой спецификой и, конечно, культивированием ударных.

Многочисленные поездки в страны Востока (Иран, Турция, Непал, Индия) и в особенности в арабские страны (Ирак, Египет, Сирия, Марокко), участие в международных музыкальных мероприятиях, общение и беседы с музыкантами, такими как Мунис Башир, позволили Амирову говорить и том, что многие особенности «арабской, особенно иракской [музыки – Н.Б.] …я освоил, как мне кажется довольно обстоятельно» (2, 100). «Арабская ритмика произвела на меня, может быть наибольшее впечатление своими сложными, многообразными конструкциями. Но прежде всего она привлекла мое внимание не ими. Слушая музыку, я не высчитывал. Меня поразил общий эмоциональный колорит ритмичес-

[2] Примечание: Приведем, к примеру, лишь один из ярких образцов современного синтеза в национальном балете ритмики, тембра и драматической выразительности – «Танец черных» из «Тропою грома» (1957) К.Караева (входит в эпизод вербовки рабочих, предваряющий драматическую сцену столкновения черных и цветных). Солирование флейты-пикколо здесь синтезировано с солированием ударных, где вариантно повторяемая в остинатном ритме попевка флейты-пикколо ассоциируется со специфическим ударным началом (ритм-мелодия). Эта мелодико-тембровая модель, ритмомелодический тембровый комплекс трижды вариантно повторяется (вариантность сказывается и в тембровой замене флейты-пикколо на две большие флейты), трижды прерываясь грозным аккордом оркестра. Заключение номера связано с солированием ударных.

Новаторский в азербайджанском балете этап в плане трактовки ударных представили «Тени Гобустана» (1969) Фараджа Караева.

кой сферы – ее темпераментный накал, динамика, изощренность. Я стремился воспроизвести эту атмосферу в балете «1001 ночь», да и в некоторых других произведениях. Вся эта арабская ритмическая шкала импонирует и моим личным азербайджанским вкусам» [3; 101,102].

Воздействие арабской ритмики отмечается в творчестве композитора начиная с 1950-х годов («Песня слепого араба» из музыки к спектаклю «Шейх-Санан» Г.Джавида, знаменитый фортепианный «Концерт на арабские темы» [совместно с Э.Назировой – 1957]) и в некоторых сочинениях последующего времени. С особой яркостью оно проявилось в балете «Тысяча и одна ночь» (1979).

Стихия ритма насыщает необычайной энергией всю партитуру балета. Особо активная роль ритмического начала в балете сказалась и в действенном участии и широком составе ударной группы оркестра. В партитуру, помимо классических (литавры, треугольник, малый барабан, тарелки большой барабан и т.д.), вошли также и некоторые современные ударные инструменты (в указанных эпизодах солирования это bonhi - инструмент латиноамериканского, кубинского происхождения, legno или Wood Block – деревянная коробочка). Заметим, что в составе оркестра не используются национальные ударные инструменты Востока, однако тембр многих из введенных классических ударных располагает к ассоциациям с восточной экзотикой: бубен, колокольчики, ксилофон, треугольник, малый барабан и др. Показательно, что некоторые из них - постоянные участники многих известных «восточных» партитур, к примеру «Шехеразады» Н.А. Римского-Корсакова.

Ритмические соло ударных встречаются как в виде очень коротких фрагментов – вступлений, заключений и внутри номеров, а главное - в виде уже отмеченных относительно развернутых сольных эпизодов. Из коротких фрагментов назовем грозное 6-титактное вступление к номеру «Шахрияр и смерть Нуриды» (ц. 64) в тембре низких литавр и большого барабана, 6-титактное заключение к номеру «Женщины, преследуемые палачами» (ц. 82 Duramente) – Batteria и также 6-титактный фрагмент внутри «Вариации Шахрияра» (ц. 34) – ксилофон, литавры и труба.

Что касается развернутых сольных эпизодов ударных, т.е. эпизодов «ритма без мелодии» или, как в «Празднике Шехеразады», «танца без мелодии», то, как видим, все три названных соло ударных даны именно в заключениях номеров, довольно развернуты и их введение глубоко продумано в драматургическом плане. Все три ритмические «каденции» вводятся в драматургически узловых моментах балета, отличаясь, соответственно их тембровому и образно-эмоциональному авторскому замыслу, собственным составом ударных и особенностями полиритмии. Амиров использует в них некоторые современные выражения принципа ритмического формообразования (противопоставление регулярности и нерегулярности с доминированием последней, акцентное варьирование, остинатность и т.д.) и ритмической организации (неточная возрастающая арифмети-

ческая прогрессия). ***Именно тембroom***

Ритмическое соло в Интродукции – как бы предвосхищение грядущих драматических событий. Этот яркий, взволнованный Agitato con brio эпизод – предвосхищение грядущего действия, пока без танца. Соло в «Оргии» - заключение самого «вакхического» эпизода балета, кода действенного коллективного танца. И наконец, соло в «Празднике Шехеразады» – триумф идеи любви, кода действенного сольного танца. Возникает своеобразная сольная ритмическая арка между первым и предваряющим Финал номерами спектакля, т.е. между Интродукцией и «Праздником Шехеразады». Таким образом «каденции» ударных, превращающиеся в развернутые ритмические коды названных номеров, становятся кратким обобщением, итогом драматургически узловых сцен балета. Наряду с собственным составом ударных, в каждом из названных эпизодов усматривается также и драматургически и образно-эмоционально значимая роль определенного ударного инструмента, продиктованная его тембровой семантикой. Так, в заключении Интродукции роковые события предвещает зловещее vibrato тамтама; в «Оргии» введение legno (деревянные бруски) создает специфический резкий, стучащий, цокающий звуковой эффект, внося ощущение настороженности, напряженности; в «Празднике Шехеразады» нежный перезвон бубна в неизменном ритмическом рисунке на слабые доли на протяжении всего эпизода характеризует грациозный образ героини балета.

Драматургическое значение имеют и особенности полиритмии и ее тембрового выражения в каждом из указанных эпизодов. Ниже рассмотрим эти эпизоды с точки зрения взаимодействия их метроритмических, образно-тембровых и драматургических сторон несколько подробнее.

***1. Заключение Интродукции - эпизод Agitato con brio (с ц. 6)***

Главный образ Интродукции воплощен в теме любви, мелодию которой исполняет хор сопрано с альтами. Сама Интродукция фактурно многопланова: хоровой пласт, мелодическая фигурация, басовая линия, с возникающими временами подголосками темы любви. С ц.4 музыкальная ткань усложняется как мелодически, так и аккордово-ритмическими фигурациями и, достигая кульминации, обрывается на фермато. Предваряясь такой многоплановой фактурой, словно рождаясь из нее, ритмический эпизод Agitato con brio вновь наращивает эту многоплановость посредством постепенного увеличения состава ударных. К соло бонгов поочередно добавляются литавры, малый барабан, большой барабан, там-там. Все завершается общим тремоло на crescendo к fff. Одновременно с постепенным увеличением состава ударных развитие идет от регулярной ритмики к усилению ритмической нерегулярности - как бы предвещая скорое драматическое обострение событий. Этот процесс выражается, во-первых, в метрической переменности эпизода в целом от 6/4 к 5/4 и **C** и, во-вторых, в вариант-

но-вариационном метроритмическом развитии в партии каждого из ударных, а в партии литавр отмечается и некоторая мелодическая вариантность. Характер же развития и соединения в эпизоде своеобразной темброритмической фактуры с динамическими нюансами создает здесь аналог, соответственно терминологии В.Н.Холоповой, «дважды крещендирующей формы фактурной волны» [1;*472*].

***2. Заключение «Оргии» (ц.63).*** Согласно понятиям балетного жанра, «Оргия» – это вакханалия. Названный темпераментный, яркий по эмоциональной силе эпизод несет и некий зрелищный эффект, отражающий сценическое действие. На протяжении всего номера участие ударных почти непрерывно. В ритмической коде же состав ударных представлен литаврами, legno, малым и большим барабанами, т.е. инструментами «глухого», сухого, стучащего, а не звенящего тембра. В ней выделяются две части: первая – продолжительное соло малого барабана и конечный раздел с другими ударными. Как и заключение Интродукции, весь эпизод отмечен признаками ритмической нерегулярности, но выраженными более ярко. В первом разделе с соло малого барабана ее признаки отражены в неточной возрастающей арифметической прогрессии - постепенном увеличении, количества длительностей с наращиванием тактовых размеров 5/8, 8/8, 7/8, 10/8, 12/8 при устойчивости ритмического рисунка. Второй раздел построен на стабильном размере 12/8 (6/4), но в нем наблюдается устойчивое противоречие мотива с тактом – метрического и эпизодического акцентов.

В целом ритмическая каденция, заключение «Оргии» - самый ритмически нерегулярный, самый ритмически «диссонантный» (прибегая к сравнению В.Н.Холоповой нерегулярной ритмики с «диссонантностью» [4,18]) из названных трех соло ударных в балете, и в этой «диссонантности», ритмической дисгармоничности – своя образно-драматургическая символика.

***3. Заключение «Праздника Шехеразады» Allegro brilliante***

В этом заключении, наоборот, довлеет ритмическая «консонантность», Гармония. Стабилен, неизменен и состав ударных. Всё соло ударных выдержано в стабильном размере - простом такте 2/4. В «голосе» каждого из ударных – остинатность и повторность ритмического рисунка. Но синкопирование в партиях литавр, бубна, большого барабана и тарелок вносит в эту ритмическую гармонию «изюминку» нерегулярности. Отмечается также постепенная, направленная к концу номера и подготавливающая последующий затем «Финал» балета ритмическая активизация в партии литавр.

Каждый из рассмотренных выше трех эпизодов солирования ударных представляет собой своего рода *темброритмическую фактуру*, иными словами, художественное пространство полиритмики, зафиксировавшее единение, синтез черт остинатности, нерегулярной ритмики и метроритмической вариантности. Во всех трех заключениях эта фактура связана с динамическим аспектом музыки и имеет крещендирующий к последующему номеру характер, обусловленный сквозным симфоническим развитием.

Безусловно, что указанные эпизоды никак не могут в полной мере охарактеризовать балет с точки зрения взаимодействия его сюжетно-композиционной основы, метроритмики и тембровой трактовки ударных, но, тем не менее, дают представление о тонком драматургическом чутье и блестящем ритмотембровом мастерстве Ф.Амирова. Являясь одной из важных сторон стиля композитора, названные качества, несомненно, во многом способствовали триумфальному успеху и огромной популярности балета «Тысяча и одна ночь» на самых разных театральных подмостках мира.

## Литература:

1. Холопова В.Н. *Формы музыкальных произведений. Учебное пособие. 3-е изд.* – СПб: «Лань», 2006. – 406 с.
2. Дмитриев Г.П. *Ударные инструменты: трактовка и современное состояние.* М: Советский композитор.1973. - 136 с.
3. Виноградов В.С. *Мир музыки Фикрета.* Баку: Язычы. 1983. – 130 с.
4. Холопова В.Н. *Музыкальный ритм. Очерк.* М: Музыка.1980. – 63 с.

**Nərminə Ənvər qızı Bayraməlibəyli**

## Fikrət Əmirovun “Min bir gecə” baletində zərb alətlərinin solo ifasının üç epizodu haqqında

**Xülasə:** Məqalədə Fikrət Əmirovun “Min bir gecə” (1979) baletindən üç epizod – zərb alətlərinin solo ifaçılığının müasir milli nümunələri (“Giriş”, “Orgiya” və “Şəhrizad bayramı”nın yekunları) araşdırılır. Adı çəkilən hər üç solo kifayət qədər inkişaf etmişdir və onların təqdimatı dramaturji şəkildə dərindən düşünülmüşdür. İşin məqsədi bu epizodları yeni perspektivdən nəzərdən keçirməkdir: bu epizodların dramaturji rolu, ritm xüsusiyyətləri və onlarda olan zərb alətlərinin ifadəli mənası qarşılıqlı əlaqədə göstərilir. Məhz zərb alətlərinin tembr-ritmi obrazlı və semantik ümumiləşdirmənin daşıyıcısına, bu epizodların emosional nəticəsinə çevrilir. Göstərilən ritmik “kadanslar”, zərb alətlərinin ritmik kodları baletin əsas dramaturji məqamlarında öz alətlərinin tərkibinə görə fərqlənən müəllif şərhinə və hər bir epizodun obrazlı və emosional konsepsiyasına uyğun olaraq təqdim edilir.

**Açar sözlər:** F. Əmirov, “Min bir gecə” baleti, zərb alətlərinin solo ifası, ritm, faktura, dramaturgiya.

**Narmina Enver Bayramalibeyli**

## About Three Episodes Of Drum Soloing in the Ballet “A Thousand and One Nights” by Fikret Amirov

**Sammary:** The article examines three episodes from the ballet “One Thousand and One Nights” (1979) by Fikret Amirov - modern national examples of percussion

soloing (the conclusions of “Introduction”, “Orgy” and “The Feast of Scheherazade”). All three named solos are quite developed and their introduction is deeply thought out in dramatic terms. The task of the work is to consider these episodes from a new perspective: in the relationship of their dramatic role, the features of their rhythm and the expressive significance of the orchestra's percussion group in them. It is the timbre-rhythm of the drums that becomes the bearer of figurative and semantic generalization, the emotional result of these numbers. The indicated rhythmic “cadences”, rhythmic codes of percussion are introduced in the key dramatic moments of the ballet, differing in their own composition of instruments, in accordance with their author’s interpretation and the figurative and emotional concept of each episode.

**Keywords:** F.Amirov, ballet “A Thousand and One Nights”, solo percussion instruments, rhythm, texture, dramaturgy.

**Məqalənin redaksiyaya daxil olma tarix: 22.07.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский Государственный Университет Культуры и Искусств, XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Art, XLVI edition, Baku, 2024

**UOT 78**
**ORCID: 0000-0002-8465-9122**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.032**

**Nigar Murad Məmmədova**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, dissertant**
**Email: mmnigar83@gmail.com**

# AZƏRBAYCAN BƏSTƏKARLARININ FORTEPİANO İŞLƏMƏLƏRİNDƏ RƏQS VƏ MİNİATÜR JANRININ VƏHDƏTİ

**Xülasə:** Məqalə Azərbaycan bəstəkarlarının xalq rəqslərinə əsaslanan fortepiano işləmələrinin bəzi xüsusiyyətlərinin araşdırılmasına həsr olunur. Burada Midhəd Əhmədov, Tofiq Quliyev, Vasif Adıgözəlov, Elmira Nəzirova, Əşrəf Abbasov və başqalarının yaradıcılığına nəzər salınmışdır. Məqalədə təhlilə cəlb edilən fortepiano işləmələrində bəstəkarların rəqs janrının xüsusiyyətlərini necə dəyərləndirməsi, eləcə də metr, ritm, ostinato kimi musiqi elementləri və ifadə üsullarının şərhinə geniş yer verilmişdir.
**Açar sözlər:** fortepiano, işləmə, rəqs, miniatür, bəstəkar yaradıcılığı

Xalq musiqi janrlarının fortepiano üçün işlənməsi XX əsrin əvvəllərində Üzeyir Hacıbəyli və Müslüm Maqomayev tərəfindən 1927-ci ildə ərsəyə gəlmiş “Türk el nəğmələri” [3] məcmuəsində ilk nümunələrini təqdim etməklə bir meyara çevrilmiş oldu. Bu ənənə digər bəstəkarlar tərəfindən davam və inkişaf etdirilməklə fortepiano işləmələrinin müstəqil janr kimi təşəkkülünə təkan vermiş oldu. Demək olar ki, əksər bəstəkarlar fortepiano üçün xalq mahnı və rəqsləri əsasında xeyli sayda işləmələr ərsəyə gətirdilər ki, milli musiqi mənbəyindən ilhamlanan bu janr həm də pianoçuların repertuarına sevilərək daxil oldu.

Araşdırmamızın əsas təhlil obyekti bəstəkarların xalq rəqsləri əsasında fortepiano işləmələridir. Bu sahədə biz T.Quliyevin, M.Əhmədovun, V.Adıgözəlovun, O.Rəcəbovun və digər bəstəkarların fortepiano işləmələrini qeyd edə bilərik. Bu işləmələrdə bəstəkarlar xalq musiqi nümunəsinin orijinal mətninə müxtəlif yanaşma nümayiş etdirərək fərdi üslub cizgilərindən irəli gələn üsul və ifadə vasitələri tətbiq etmişlər.

Xalq mahnı və rəqslərinin fortepiano üçün işləmələrinin müasir dövrün bədii-estetik, eləcə də bəstəkar yaradıcılığının yeni üslub və ifadə vasitələrinə cavab verən nümunələrinin yaranması deməyə əsas verir ki, xalq musiqisi hər zaman əsas ilham mənbəyi olaraq qalır. Bu zəngin irs hər zaman bəstəkar yaradıcılığını inkişaf etdirən, yeni ifadə vasitələrinin tapılmasına sövq edən və eyni şəkildə piano ifaçılığının milli üslub meyarları ilə dolğunlaşmasına təkan verən qiymətli mənbədir.

Midhəd Əhmədovun 1955-ci ildə işıq üzü görmüş “15 Azərbaycan xalq rəqsi” [4] məcmuəsi də analoji nümunələr sırasında yer alır. Müəllif S.Rüstəmov tərəfindən top-

lanmış xalq rəqslərinin fortepiano işləmələrini hazırlamış, məcmuənin önündə verdiyi izahat bölməsində isə bu işdə bilavasitə T.Quliyevin adı çəkilən məcmuəsini örnək olaraq dəyərləndirdiyini vurğulayır [4, s.5]. M.Əhmədovun məcmuəsində “Azərbaycan”, “Qəşəngi”, “On dörd”, “Novruzu”, “Qazağı”, “Kars”, “Ulduz”, “Gülgəz”, “Qıtqılıda”, “Vağzalı”, “Bağdaduru”, “Uzundərə”, “Tərəkəmə”, “İnnabı”, “Ceyranı” rəqs işləmələri yer almışdır. İlk işləmədən biz melodiyanın oktava unisonu ilə təqdim olunmasını, eləcə də akkordlu müşayiət tipi kimi üsullara diqqət edə bilərik. Eyni işləmə tipini T.Quliyevin “15 Azərbaycan xalq rəqsi” [5] məcmuəsində də izləmişdik. Lakin M.Əhmədovun işləmələrində arpeciolu müşayiətdə triolun ritmik təşkili melodiya ilə üst-üstə düşür və müəllif T.Quliyevdə olduğu kimi punktirli ritmdən istifadə etmir. Bundan başqa M.Əhmədov rəqsin əsaslandığı məqamın əsas pərdələri üzərində səsaltılara geniş yer vermişdir. Bunu həm melodik xəttdə, həm də bas müşayiətində görmək olar.

Nümunə 1. M.Əhmədov “Qəşəngi” rəqs işləməsi




M.Əhmədovun “Azərbaycan xalq rəqslərinin fortepiano üçün işləmələrinin xüsusiyyətləri” məcmuəsində yer alan işləmələri sırasında bəzi nümunələrin adı təkrarlansa da, biz bəstəkarın yeni redaktəsini müşahidə edirik. Məsələn, “Uzundərə” və “Qəşəngi” rəqs işləmələrində müşayiət xəttində unison keçidlərin, harmonik üçsəslilərin arpeciolarla əvəzlənməsi, “Tərəkəmə” və “Gülgəz”, “Qıtqılıda” rəqs işləmələrində əsas melodiyaya səsaltıların əlavə edilməsi, səs qatlarının artırılması və s. misal ola bilər.

Xalq musiqisinin fortepiano üçün işlənməsi pianoçu bəstəkar Elmira Nəzirovanın da diqqətini cəlb etmiş, bəstəkarın bu istiqamətdə bir neçə məcmuəsi işıq üzü görmüşdür. İlk nümunələrdə bəstəkar müraciət etdiyi xalq musiqisinin birbaşa adını qeyd etməsə də, musiqi məzmununu qoruyub saxlamaqla hansı mənbəyə müraciət etdiyinə sanki işarə edir. Məsələn, birinci pyesdə bəstəkar “Qalada yatmış idim” xalq mahnısına müraciət edir. Xalq mahnısının melodiyasını işləmənin yuxarı səsdə yer alan mövzusunda aydın şəkildə eşidirik. Qeyd edək ki, bəstəkar ilk dəftərdə əsas etibarilə xalq mahnılarına müraciət etmişdir.

Xalq mahnıları, rənglər, dəramədlər, rəqslər, təsniflər əsasında işləmələrin hazırlanması işində Sevda İbrahimovanın, Cəlal Abbasovun, Oqtay Rəcəbovun, Elnarə Dadaşovanın, Azər Dadaşovun, Ramiz Mustafayevin, Qalib Məmmədovun və bir çox bəstəkarların xüsusi əməyini qeyd etmək lazımdır. Bu işləmələrin əksəriyyəti fortepiano üçün, xeyli hissəsi də xor üçün hazırlanmışdır. Fortepiano işləmələrinin ərsəyə gəlməsi həm ifaçılıq repertuarının zənginləşməsinə, həm də müstəqil pyeslərin yaranmasına təsir göstərmişdir. Belə ki, işləmələrdə müşahidə etdiyimiz faktura tipləri, müşayiət variantları, melodiyanın təqdimat üsulları və s. eyni zamanda xalq rəqslərinə əsaslnan orijinal fortepiano pyeslərinin yazılmasında müəyyən mənada mənbə rolunu oynamışdır. Bunlardan bir neçəsinə nəzər salaq.

Məsələn, işləmələrdə ən çox müşahidə etdiyimiz müşayiət tiplərindən biri olan arpeciolu triollar (bir çox hallarda onlardan birincisi punktirli olur) "Lirik rəqslər" kimi adlandırılan fortepiano rəqslərində tez-tez müşahidə olunur. Məsələn, V.Adıgözəlovun silsiləsindən "Rəqs" pyesinə nəzər yetirək. Burada bəstəkarın tətbiq etdiyi müşayiət xəttində biz birincisi punktir olmaqla iki triolu müşüahidə edirik. Eyni müşayiət tipini T.Quliyevin "Brilyant", "Yüz bir", "Yeni rəqs", M.Əhmədovun "Tərəkəmə", "Qəşəngi", R.Rüstəmovun "Hacıkənd", o cümlədən E.Nəzirovanın, S.İbrahimovanın, O.Rəcəbovun xalq musiqisinə əsaslanan bir çox işləmələrində görə bilərik. Bu ənənəviliyin kökü isə birbaşa xalq musiqi janrlarının ritmik xüsusiyyətləri ilə bağlıdır. Bəstəkar yaradıcılığında biz həmin ritmik təşkili nəinki işləmələrdə və ya fortepiano rəqslərində, həm də daha iri həcmli əsərlərdə müşahidə edə bilərik. Məsələn, Q.Qarayevin "Yeddi gözəl" baletindən "Aişənin rəqsi", F.Əmirovun "Min bir gecə" baletindən "Mərcananın rəqsi" və s. misal ola bilər. Xalq musiqi janrları üçün səciyyəvi olan 6/8 metr ölçüsündə bir sıra musiqi nümunələri məhz bu cür ritmik təşkilə əsaslanır. Melodiyada özünü göstərən bu cəhət təbii olaraq müşayiət xəttinə də sirayət etmiş, bəstəkar əsərlərində özünə yer tuta bilmişdir. Maraqlıdır ki, bu ritm özəyi həm də milli köklərə bağlılığın göstəricisi kimi mövqe qazanmışdır. Təsadüfi deyildir ki, XX əsrin 30-40-cı illərində ölkənin müxtəlif rayon və kəndlərinə təşkil edilən folklor ekspedisiyalarında iştirak edən bəstəkarlar daha sonra bu zəngin xəzinədən əxz etdiklərini öz əsərlərində parlaq şəkildə təcəssüm etdirməyə nail olmuşlar. Bu xüsusda Q.Qarayevin fikirləri yerinə düşür: "Elmi Tədqiqat Musiqi Kabinetinin rəhbəri yoldaş Bülbül məni xalq musiqisi üzrə işləməyə cəlb etdi. Mən aşıq yaradıcılığını, xalq mahnılarını və rəqsləri fonoqrafa yazır və işləyirdim... Bu səfərin bəhrəsi çox gözəl idi və eşitdiyimi xalq melodiyalarından biri mənim Birinci simfonik əsərimin ("Ürək mahnısı" kantatasının) əsasını təşkil etdi" [2, s.51].

Xalq rəqslərinə istinad edən işləmələrdə əsasən diqqəti cəlb edən məqamlardan biri də əsas mövzunun müxtəlif partiyalarda (sağ və sol əlin partiyasında) yerdəyişməsidir. Bu ifa üsulu üumiyyətlə fortepiano ifaçılığı üçün səciyyəvi olsa da, burada əlaqə yaradan başqa məqamları da qeyd etmək lazımdır. Məlumdur ki, xalq musiqi janrlarının yaranıb yaşadılmasında bilavasitə instrumental ifaçılıq sənətinin, sazəndə yaradıcılığının böyük rolu olmuşdur. Məlumdur ki, xalq rəqsləri də məhz el şənliklərində, bayram

və mərasimlərdə peşəkar qarmon, zurna, balaban, tar, gitara və digər alətlərin ifaçıları tərəfindən səsləndirilir. Ansambl ifaçılığında imitasiyalı üsuldan istifadə həm rəqs, həm də muğam üçlüyü tərəfindən geniş tətbiq edilir. Bu mənada, əsas mövzunun müxtəlif alətlər tərəfindən təkrar, imitasiya və ya kanon şəklində verilməsi fortepiano rəqslərində də təsir göstərmişdir. Bəstəkarlar bu üsulu rəqsin əsas melodiyasının soprano və bas partiyasında verməklə tətbiq edirlər. Buna həm, orijinal pyeslərdə, həm də rəqs işləmələrində rast gəlmək mümkündür. Məsələn, Ə.Abbasov "Uşaq pyesləri" silsiləsindən "Rəqs" miniatüründə əsas mövzuya xas olan triolu passajı növbəli şəkildə həm sağ, həm də sol əlin partiyasına həvalə edərək, eyni şəkildə interval ardıcıllığından ibarət digər motivi də növbəli şəkildə yerdəyişmə edir. E.Nəzirovanın xalq melodiyalarına əsaslanan 12 saylı pyesində bəstəkar bu mövqeyi daha çox sol ələ həvalə edərək, sağ əlin partiyasında variantlı keçidlərlə kifayətlənmişdir.

Nümunə 2. E.Nəzirova. "Pyeslər" fortepiano işləmələri məcmuəsindən 12 saylı pyes




Ə.Abbasovun "Rəqs" pyesində [1, s.22] isə bəstəkar melodiyanın təşkilini sual-cavab prinsipi üzrə qurmuşdur. İlk fraza sopranoda başlanır, omun tamamlanması isə basda həyata keçirilir. Əsərin bütün melodik materialı əvvəldən sona qədər bu prinsiplə qurulmuşdur.

Həm rəqs işləmələrində, həm də orijinal bəstəkar pyeslərində biz 3/4 və 8/6 metr ölçüsünün birgə tətbiqini, qarşılaşdırılmasını, növbələşməsini müşahidə edə bilərik. Təbii olaraq bu fakt xalq musiqisindən qaynaqlanır. Lakin bəstəkarlar bu faktı müxtəlif şəkildə dəyərləndirir. Məsələn, Vasif Adıgözəlovun pyesində biz hər iki metr ölçüsünün bərabər tətbiqini, yəni poliritmik üsulu müşahidə edə bilərik. Belə ki, müşayiət xəttində 3/4, melodiyada isə 6/8 metrinə əsaslanır. Tofiq Quliyevin "Əsgəranı" rəqs işləməsində isə eyni prinsip metr ölçülərinin yerdəyişməsi ilə həyata keçirilmişdir. Burada melodiya 3/4 metrinə əsaslanır, müşayiət xəttində isə bəstəkar 6/8 metrində arpeciolu triollardan istifadə edir.

Bəstəkarlar müəyyən obrazların ərsəyə gəlməsində məhz ritmin imkanlarından geniş istifadə edir. Ritmin milli qaynaqları isə özünü ən parlaq şəkildə məhz rəqs sənətində tapır. Bu baxımdan Azərbaycan bəstəkarlarının fortepiano rəqslərində əsas meyarlardan biri məhz ritm amili ilə əlaqədardır. Təsadüfi deyil ki, xalq rəqslərinin fortepia-

no işləmələrində də bəstəkarlar ritmə əsas komponent kimi xüsusi diqqət yetirmişlər. İlk növbədə bu diqqət işləmələrin müşayiət xəttinin, fakturanın formalaşmasında özünü göstərir. Məsələn, müraciət edilən rəqs 6/8 metro-ritmik göstəricilərinə əsaslanırsa, bəstəkarlar müşayiət xəttini eyni qaydada arpeciolu triollardan və ya nöqtəli çərək ölçüsündə akkord ardıcıllıqları ilə qurmağa üstünlük verir. Əgər rəqsin daxilində 3/4 və 6/8 metr ölçüləri növbələşirsə müşayiət xəttində də əksər hallarda bu prinsipə riayət olunur. Bəzən ritmik kontrapunkt yaratmaq məqsədilə hər iki metr ölçüsünün eyni vaxtda tətbiqini də izləyə bilərik. Qeyd edək ki, bu fakt yalnız işləmə və fortepiano rəqslərində deyil, ayrı-ayrı əsərlərdə də tez-tez rast gəlinir. Beləliklə də, ritm və onun məhz bu özünəməxsus cəhəti Azərbaycan bəstəkarlarının əsərində milli meyarların göstəricilərindən biri kimi çıxış etmiş olur.

Ritm amili həm də ostinatoluluq baxımından diqqət mərkəzinə çəkilmişdir. Bu barədə musiqişünas alim Gülzar Mahmudovanın xüsusi tədqiqat işi [7, s.20] mövcuddur. Bəstəkar yaradıcılığında ritmik ostinatonun tətbiqi Avropa musiqisində müxtəlif tarixi mərhələlərdə öz əksini tapmışdır. Lakin Azərbaycan musiqisində bu məsələ bilavasitə milli təfəkkürdən qaynaqlanır və bəstəkar musiqisində onun təzahürü kimi çıxış edir. Çünki ostinato folklor janrları ilə yanaşı, muğam və aşıq sənətində də mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən Azərbaycan bəstəkarlarının əsərlərində ostinatonun hər üç janrda yer alan növləri rast gəlinir. Məsələn, V.Adıgözəlov "Rəqs" pyesində müşayiət xəttində muğam ifaçılığında tez-tez tətbiq edilən ostinato tipinə müraciət etmişdir.

Nümunə 3. V.Adıgözəlov. "Rəqs" pyesi



Bu pyesdə ritmik ostinatonun digər növünü də görə bilərik. 6/8 metrinə xas olan üçlüklərdən təşkil olunmuş arpeciolu müşayiət xəttində ritmik ostinato tətbiq olunmuşdur. Eyni halı Niyazinin "Rəqs" miniatüründə, F.Əmirovun "Sevilin rəqsi", "Lirik rəqs" və bir çox digər pyeslərində, M.Mirzəyevin "Lirik rəqs"ində, A.Sultanovanın "Balaca rəqqasə" pyesində müşahidə edə bilərik. Rəqs işləmələrində isə demək olar ki, əksər hallarda bəstəkarlar müşayiət xəttini məhz bu ostinato tipini tətbiq edərək qurur. Triolların ardıcıllaşması ilə müşahidə edilən ostinato tiplərindən biri də "Qaytağı" rəqsi üçün səciyyəvidir və onu müşayiət xətti ilə yanaşı, melodiyada da yer alması bilavasitə xalq rəqsinin metro-ritmik quruluşu ilə əlaqədardır. Təhlil obyektimizə nəzərən isə bu ritmik şəkil və onun ostinatolu tətbiqi həm orijinal pyeslərdə, həm də məntiqi olaraq rəqs işləmələrində bilavasitə qaytağı və ona yaxın xalq musiqi nümunələrində təsadüf edilir. Təhlilə cəlb etdiyimiz fortepiano rəqslərində və işləmələrdə biz bu tip ritmik ostinatonun tətbiqinə tez-tez rast gəlirik. Məsələn, A.Zeynallının "Uşaq süitası"nda, Ə.Abbasovunn "Uşaq pyesləri"ndə yer alan "Rəqs", T.Quliyevin "Qaytağı" əsəri və s. buna parlaq misal ola bilər.

Beləliklə, xalq rəqslərinin fortepiano işləmələrinin təhlili və vurğulanan bir sıra səciyyəvi cəhətləri əsas tutaraq deyə bilərik ki, bu nümunələr bəstəkar musiqisində rəqs məzmunlu orijinal əsərlərin yaranmasında şərtləndirici rol oynamışdır. İşləmələrdə müşahidə edilən bir sıra cəhətlər, musiqi əsərinin mühüm komponentlərinin tətbiqi, xalq musiqi nümunəsinə bəstəkar yanaşmasının müxtəlif üsulları öz təzahürünü fortepiano pyeslərində də göstərməkdədir. Əsas məqam isə ondan ibarətdir ki, rəqs musiqisinə müraciət və onun işləməsini ərsəyə gətirmək bəstəkar yaradıcılığında üslub meyarlarının formalaşmasında bu janra xas olan əsas göstəricilərin yer alması ilə nəticələnmişdir. Bu meyarlar özünü ritm, metr, məqam-intonasiya, melodik quruluş, forma, faktura kimi musiqi komponentlərində təcəssüm etdirmişdir. Bütün bunlarla yanaşı, rəqs musiqisinə müraciət edən, ondan bəhrələnən bəstəkarlar hər zaman bu janrın xoreoqrafik məzmununu unutmamış, öz əsərlərində bu cəhəti də nəzərə alaraq obraz-emosional, proqramlılıq, ideya və süjet baxımdan göstərməyə çalışmışlar.

**İstifadə edilmiş ədəbiyyat**

**1.** Abbasov Ə.C. Rəqs. Yeqorova S., Siroviç R. Fortepianoda çalmaq üçün tədris kitabı. II hissə. Bakı, İşıq, 1975, s.22.
**2.** Azərbaycan musiqi tarixi. 5 cildlik. Tər. Z.Y.Səfərova. III cild. Bakı, Elm, 2018. 752 s.
**3.** Hacıbəyov Ü.Ə., Maqomayev M.M. Azərbaycan türk el nəğmələri. Bakı: – 1985.
**4.** Əhmədov M.M. 15 Azərbaycan xalq rəqsləri. Bakı, Azərbaycan Dövlət Musiqi Nəşriyyatı, 1955. 31 s.
**5.** Quliyev T.Ə. 15 Azərbaycan xalq rəqsləri. Bakı, Azərbaycan Dövlət Musiqi Nəşriyyatı, 1955. 30 s.
6. Nəzirova E.M. Pyeslər: Azərbaycan xalq melodiyalarının fortepiano üçün işləmələri. Red.S.Məlikova. Bakı, 2019.42 s.

*Rus dilində*

**7.** Махмудова, Г.Р. Генезис и эволюция остинатности в азербайджанской музыке. Баку, Нурлан, 2006. 434 с.

**Нигяр Мурад Маммадова**

## Единство жанра миниатюры и танца в творчестве азербайджанских композиторов

**Резюме:** Статья посвящена изучению некоторых особенностей фортепианных обработок азербайджанских композиторов, основанного на народных танцах. Здесь рассмотрено творчество Мидхада Ахмедова, Тофика Кулиева, Васифа Адыгезалова, Эльмиры Назировой, Ашрафа Аббасова и других композиторов. В статье проведен анализ музыкальных элементов, таких как метр, ритм, остинато,

а также рассматривается композиторское отношение к особенностям танцевального жанра и фортепианной миниатюры.

**Ключевые слова:** фортепиано, обработка, танец, миниатюра, композиторское творчество.

**Nigar Murad Mammadova**

**The Unity of the Genre of Miniature and Dance in the Works of Azerbaijani Composers**

**Summary:** The article is devoted to the study of some features of piano arrangements by Azerbaijani composers based on folk dances. The work of Midhad Akhmedov, Tofik Guliyev, Vasif Adygezalov, Elmira Nazirova, Ashraf Abbasov and other composers is considered here. The article analyzes musical elements such as meter, rhythm, ostinato, and also examines the composer's attitude to the features of the dance genre and piano miniatures.

**Keywords:** piano, arrangement, dance, miniature, composer's creativity.

**Məqalənin redaksiyaya daxil olma tarix: 13.05.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский Государственный Университет Культуры и Искусств, XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Art, XLVI edition, Baku, 2024

**UOT 78**
**ORCID: 0000-0002-9207-7616**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.036**

**Nərmin Mübariz qızı Kamilova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
Email: nermin.mubariz@mail.ru

# Orta ümumtəhsil məktəblərinin ibtidai siniflərinin "Musiqi" dərslərində yeni metodların tətbiqi /oyunlar/

**Xülasə.** Məqalədə orta ümumtəhsil məktəb şagirdlərinin /ibtidai siniflər/ musiqi dərslərində oyun formalarının texnologiyasından istifadənin məqsədi və şagirdlərin musiqi fənninə marağının inkişaf etdirməkdən danışılır. Oyun metodları şagirdlərin tədris materialının güclü mənimsənilməsinə kömək edir, onların dünyagörüşünü genişləndirir. Müşahidə qabiliyyətini aktivləşdirir, uşağın daxili aləmini formalaşdırır. Yeni texnologiyalara əsaslanan oyun metodları açıqlanır.

**Açar sözlər:** Şagirdlər, yeni texnologiyalar, ümumtəhsil məktəbi, oyunlar

## *Giriş*

Məktəbdə istənilən dərs insana düşünməyi, hiss etməyi öyrətməlidir. Musiqi dərsində bu cür öyrənmə imkanları sonsuzdur. Axı musiqi buna kömək edir, çünki o, həmişə insanlarda ən yaxşı bacarıqları və vərdişləri ortaya çıxarır: "*Öyrətmə üsulları son illər ərzində əhəmiyyətli dərəcədə dəyişilmişdir. Artıq şagirdlərdən parta arxasında səssiz oturub qeydlər götürmək deyil,dərsə aktiv şəkildə cəlb olunmaq, fikir mübadiləsində iştirak etmək və problem həll etmək gözlənilir*" [1].

Musiqi dərsi yaradıcılıq dərsidir. Yaradıcılıq keyfiyyətcə yaradıcı və təkrarsızlığı, orijinallığı və sosial-tarixi unikallığı ilə seçilən fəaliyyətdir. Yaradıcı tapşırıqlar sistemi uşağın düşüncəsinə, nitqinə, təxəyyülünə və fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Bir sıra ölkələrin tədris proqramları orta ümumtəhsil müəssisələrində dərslərin maraqlı keçməsi üçün müxtəlif metodların vacibliyini həmişə diqqət mərkəzində saxlayıb [daha ətraflı bax: 2, 3, 4, 5, 6, 7]. Oyun uşağın həyatında böyük əhəmiyyət kəsb edir. Oyun yalnız zahirən qayğısız və asan görünür. Ancaq əslində o, oyunçudan ona maksimum enerji, zəka, dözümlülük və müstəqillik verməsini tələb edir. Oyun uşağın özünü kollektivdə, bütövlükdə cəmiyyətdə, bəşəriyyətdə, Kainatda tapmaq, sosial təcrübəyə, keçmişin, bu günün və gələcəyin mədəniyyətinə çıxış yoludur. Oyunun əsas motivi nəticə deyil, prosesdir. Oyun şagirdin yaradıcı potensialını üzə çıxarır, bir-birinə dəstək olmaq, çətin məsələlərin həllində qarşılıqlı köməklik hisslərini aşılayır.

Təhsilin oyun formalarının texnologiyasından istifadənin məqsədi şagirdlərin musiqi

fənninə davamlı idraki marağını inkişaf etdirməkdən ibarətdir: *"Belə bir fikir var ki, pedaqogika bir sənətdir. Ancaq sənət hər kəs üçün mümkün deyil, yalnız müəyyən qabiliyyətlərə malik olan, öz işinin ustası üçün mümkündür. Təəssüf ki, bütün müəllimlər pedaqoji bacarıqlara malik deyillər, lakin hər kəs pedaqoji texnologiyaya yiyələnə bilər, çünki "sənət intuisiyaya, texnologiya isə elmə əsaslanır"* [9].

Oyun metodları şagirdlərin tədris materialını güclü mənimsəməsinə kömək edir, onların dünyagörüşünü genişləndirir, yaradıcı təfəkkürünü, bədii təxəyyülünü inkişaf etdirir, yaddaşı, müşahidə qabiliyyətini, intuisiyanı aktivləşdirir, uşağın daxili aləmini formalaşdırır və şəxsiyyətin ahəngdar şəkildə tərbiyəsinə yardım edir: *"Texnologiya işlənəcək obyektə keyfiyyət dəyişikliyinin aparılması üçün istehsal proseslərindəki vasitə və üsullarla əlaqədar biliklər toplusudur. "İzah etmək", "xəbərdar olmaq" mənasını ifadə edən informasiya isə qeyri-müəyyənliyin alınması zamanı onu azaldan və yaxud tam aradan qaldıran məlumatlardan ibarətdir"* [8].

Yeni texnologiyalara əsaslanan oyun metodları mövcuddur:

### *Musiqili-didaktik oyunlar*

Bu oyunlar bir qayda olaraq şagirddən məsələni həll etməyi, ən əsası isə mövzunu bilməyi tələb edirlər. Didaktik oyun nə qədər məharətlə tərtib olunarsa, didaktik məqsəd bir o qədər məharətlə gizlədilir. Uşaq erkən yaşlarından musiqini hərəkətlərlə mənimsəyir. Plastik hərəkət, plastik etüdlər şagirdə öz ruh halını izah etmədən musiqi qavrayışını ifadə etməyə imkan verir. Plastik intonasiya - musiqi dərslərində oyun texnikalarından biridir. Bu, musiqinin jest, hərəkət yolu ilə biliyi, musiqinin qavranılması prosesinin passiv iş (dinləmə) formasından aktiv iş formasına çevrilməkdən ibarətdir. Bu oyunlar bir sıra problemləri həll edir:

1. Psixoloji: "musiqi mənim, mən musiqinin ayrılmaz bir hissəsiyəm". Özünə dair yeni hisslər: qavrayışı, təfəkkürü, yaddaşı aktivləşdirir, diqqətin yaranmasına kömək edir.
2. Təhsil: Dinləmə prosesini pozmadan mürəkkəb musiqi anlayışlarını vizuallaşdırmağa kömək edir. Məsələn, dirijorlar özləri bir alətdə ifa etmədən, eyni zamanda orkestri idarə edirlər. Bu o deməkdir ki, dirijorun jestlərinin köməyi ilə musiqinin intonasiya və məzmununu orkestrə yönəldir.

**"Güzgü"** adlanan üsul xüsusilə maraqlıdır. Öz əllərimlə uşaqlara musiqinin məzmununu açıqlayıram. Sonra şagirdlər təkrar etməyə başlayırlar və səslənən musiqini jestlərlə ifadə edirlər.

Plastik intonasiyaya yaxın oyun üsulu – **"musiqili rəsm"** də yaradıcı təxəyyül və improvizasiya bacarıqlarını inkişaf etdirir. Yəni, uşaqlar rəssam olduqlarını təsəvvür edirlər və əllərində fırça tutaraq və ya sadəcə əllərindən istifadə edərək səslənən musiqi obrazına uyğun olan şəkilləri havada "çəkirlər".

### *"İnstrumental musiqi"oyunu*

Təqdim olunan musiqi nümunəsinin hansı alətin ifasında səsləndiyini müəyyənləşdirərək şagirdlər əllərilə alətin ifasını pantomim şəklində ifa edirlər. Bu oyun şagirdlərdə instrumental musiqi yaradıcılığı, vokal və xor fəaliyyəti, improvizasiya və musiqi dinləmək bacarığını inkişaf etdirir.

Musiqini ifa edəcək aləti uşaqlar özləri seçirlər. Bu oyun onların diqqətlərini əsərlə müşayiət arasındakı uyğunluğa cəlb edir. Uşaqlar azərbaycan xalq mahnılarını və melodiyalarını ifa etməyi sevirlər ki, bu da onlara improvizə xarakterli çoxlu sayda musiqi alətlərindən – tar, kamança, qaval, nağara, dəflərdə necə ifa etməyi öyrədir. Uşaqlar musiqi alətlərində ifa etməklə əsərin xarakterini, əhval-ruhiyyəsini, janr xüsusiyyətlərini və formalarını daha dərindən dərk etməklə yanaşı, onu oyun vasitəsilə çatdırmağı da öyrənirlər.

### *İntellektual oyunlar*

Şagirdlərin zehnlərinə təsir edən idmanla bağlı oyunlar, məşq oyunları. İdmana həsr olunmuş mahnılara əsaslanaraq, məktəblilərə fiziki hazırlıq səviyyələrini inkişaf etdirir, onların idrak fəaliyyətini stimullaşdırır.

**“Nə? Harada? Nə vaxt?”, “Melodiyanı tap”, “Musiqi alətləri aləmi”** – bu oyunlar musiqi alətləri, onların səsi, musiqi janrları, və s. haqqında anlayışı genişləndirir. Şagirdlər qruplarda işləmək təcrübəsi əldə edirlər. Səyahət oyunları məktəblilər tərəfindən xəyali şəraitdə hazırlanır. Bu cür oyunlar müxtəlif ölkələrin mədəniyyətini, bəstəkarların yaradıcılığını öyrənmək üçün istifadə olunur.

### *Süjetli-rollu oyunlar*

Bu oyunlar şagirdlərin yaradıcı təfəkkürünü və idrak fəaliyyətini inkişaf etdirir. Ən çox sevilən oyun “Mən bəstəkaram” oyunudur.

"Mən müəlliməyəm". Demək olar ki, hər bir uşaq özünü musiqi müəllimi hesab edir. Buna görə də musiqi əsərinin melodiyasının xarakterini şifahi danışmaq tapşırığı verir. Digər bir variant mövcuddur - bəstəkarlardan birinin əsərini dinləməklə musiqi melodiyasının xarakterinə uyğun sinifdə olan şagirdlərdən istifadə edərək bir hekayə fikirləşib danışa bilərlər.

Uşaqların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən və təfəkkürün inkişafına kömək edən daha bir neçə oyun texnikasının adını çəkəcəyəm

**“İtkin hərfi tapın”**. Not adlarının hərflərindən istifadə edərək yazılmış sözdə itən hərfi tapmaq. Şagirdlər bu tapşırıqları həm şifahi, həm də yazılı şəkildə yerinə yetirirlər. Məsələn:fa notunun f hərfi, mi notunun İ hərfi və lya notunun l hərfi – Fil. Tapşırıqda fa notunun 1-ci, mi notunun 2-ci hərfi yazılarsa hansı heyvanın adını tapa bilərsiz?-sualı verilə bilər.

Yuxarıda göstərilən üsulların hamısı yaxın "əlaqədə" da istifadə olunur. Dərs kontekstində bir və eyni texnika şagirdlərin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə yönəlmiş bir neçə problemi eyni anda həll edə bilər.

Beləliklə, orta ümumtəhsil məktəb şagirdlərinin inkişafında musiqi müəlliminin rolu böyükdür və yeni texnologiyaların tətbiqi və onlardan düzgün istifadə problemlərin yaradıcı həlli dövründə faydalılıq nöqteyi-nəzərindən qiymətləndirilməlidir.

Diqqətinizə bir neçə oyun texnikası və didaktik oyunları təqdim edirəm, onlardan istifadə musiqi müəlliminə ibtidai məktəbdə dərsləri daha maraqlı və daha səmərəli keçirməyə kömək edəcəkdir.

**"Biz orkestr ifaçılarıyıq"**. Oyunun məqsədi şagirdlərin tembr eşitmə qabiliyyətini inkişaf etdirmək, orkestr və onun növləri, musiqi alətləri və onları ifa etmək üsulları haqqında bilikləri möhkəmləndirməkdir.

Oyunun üsulları və texnikası. "Orkestr və ora daxil olan alətlər" mövzusunu öyrənərkən şagirdlər simli, nəfəsli və zərb alətləri haqqında biliklərə yiyələnirlər. Bu oyun onlara hər növ orkestrin musiqiçi-ifaçısı rolunu öz üzərinə götürmək imkanı verəcəkdir.

Məsələn, müəllim şagirdlərə simfonik orkestr və onun qrupları haqqında danışır, alətlərin illüstrasiyalarını göstərir və ifa texnikasını izah edir.

Simfonik orkestrin musiqiçiləri necə mövqe tuturlar. Birinci partalar birinci skripka və violonçellər, ikinci partalar ikinci skripka və violalardır, bir şagird arfa "çalır", onların arxasında isə kontrabas və s. əyləşir. Hər bir şagirdin vəzifəsi öz alətinin tembr səsinə qulaq asmaq, vaxtında daxil olmaq və alətində ifa etməyi təqlid etməkdir.

Müəllim "simfonik orkestrin dirijoru" kimi çıxış edir və hər ifaçıya nə vaxt daxil olacağıni - girişini göstərir. Seçilmiş musiqi parçasının melodiyası altında şagirdlər simfonik orkestrin alətlərində "çalırlar".

**"Ucadan və Sakit".** Məqsəd: Musiqinin dinamik çalarlarını ayırd etmək bacarığını möhkəmləndirmək: sakit (p), ucadan (f), nisbətən ucadan (mf). Dinamik çalarlara uyğun rəngləri seçin. Musiqiyə 2 dəfə qulaq asırıq, sonra onun necə dəyişdiyini təsvir edirik.

**"Səhnələşdirilmiş mahnılar"**

Müəllim bir mahnı səsləndirir və onu səhnələşdirmək üçün uşaqlara vaxt ayırır. Şagirdlər mahnının bədii mətninə uyğun səhnə düzəldərək ifa edirlər.

Oyun çox mürəkkəb olmamalıdır. Sadəcə bəzi məqamlara, məsələyə aydınlıq gətirilməlidir.

**Musiqi dərslərində assosiativ oyunlardan da istifadə oluna bilər.**

Assosiativ oyunların əsas məqsədi:

— uşaqların assosiativ təfəkkürünü, yaradıcı təxəyyülünü, qeyri-adi fikir və obrazlar yaratmaq bacarığını inkişaf etdirmək;

— duyğuları, hissləri, təsvirləri səslər, üz ifadələri və hərəkətləri ilə çatdırmaq bacarığını inkişaf etdirmək;

— uşaqlara musiqi və qeyri musiqi səslərini tanımağı və təhlil etməyi öyrətmək;

— uşaqlara verilmiş mövzu əsasında müstəqil iş yazmağı öyrətmək.

## İstifadə olunmuş ədəbiyyat siyahisi

*Azərbaycan dilində*

1. İlkin Həsənov, Aynur Rüstəmova, Nigar Babayeva "Yeni proqram əsasında ilk vəsait" "AZPRİNT" MMC, Bakı: 2021, səh. 94, 95.

2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 19.06.2009, № 833-IIIQ

3. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 24.10.2013, № 13

4. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu, Bakı, 2011

*İngilis dilində*

5. Creative curriculum. For infants, toddlers and twos. USA, Vashington, 2010. p. 247

6. Creative Curriculum for Preschool, Diane Trister Dodge, Teaching Strategies, Washington DC, 2008

7. Developmentally Appropriate Practice in Early Childhood Programs. Serving Early Learning Standards, Illinois State Board of Education, 2002

8. Robert, I.V. (2018). Theory and methodology of informatization of education (psychological, pedagogical and technological aspects): 2nd edition, revised. Moscow.

*Rus dilində*

9. Селевко, Г.К. Педагогические технологии на основе активизации, интенсификации и эффективного управления учебно-воспитательным процессом / Г.К. Селевко. – М., 2005.

**Нармин Мубариз кызы Камилова**

**Использования игровых методов на уроках музыки учащихся начальных классов средних общеобразовательных школ**

***Резюме***: В статье говорится об использовании игровых технологий на уроках музыки у учащихся начальных классов средних общеобразовательных школ и развитии интереса учащихся к уроку музыки.

Игровые методы помогают учащимся усвоить учебный материал, расширить свое мировоззрение. Они активизирует наблюдательность, формируют внутренний мир ребенка. Раскрыты методы игр, основанные на новых технологиях.

**Ключевые слова:** учащиеся, новые технологии, общеобразовательная школа, игры.

**Narmin Mubariz Kamilova**

**Using of the Game Forms Method in Music Lessons of Primary School Students**

***Summary:*** The article discusses the purpose of using game technology in music lessons for middle/primary school students and developing students' interest in the musical subject.

Game methods help students learn the educational material and expand their worldview. It activates observation skills and forms the child's inner world. Game methods based on new technologies are revealed.

**Keywords:** Students, new technologies, secondary school, games

**Məqalənin redaksiyaya daxil olma tarix: 04.11.2024**

**UOT: 7.78**
**ORCID: 0000-0002-4440-4977**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.041**

**Hülya Kudret**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası,**
**Doktorant**
**Email:** hulya.kudret.1993@gmail.com

# QARAPAPAQ ETNİK QRUPUNUN İSTİFADƏ ETDİYİ HÜSEYNİ MƏQAMI SƏS SIRASI

**Xülasə**: "Qarapapaq etnik qrupunun istifadə etdiyi Hüseyni məqamı Səs sırası" adlı araşdırma müsahibə üsulu əsasında aparılmışdır. Bu araşdırmada Azərbaycandan Türkiyəyə köçmüş Qarapapaq xalq ozanları diqqət mərkəzindədir. Ozanlar köçdükləri Qars bölgəsində ən populyar olan əsərlərini ifa edirlər. Həmin əsərlər tədqiqatçı tərəfindən lentə alınaraq təhlil edilmiş, həm də nəzəri cəhətdən Azərbaycanda istifadə olunan məqam səs sıraları (diziləri) ilə müqayisə edilmişdir. İstifadə olunan məqamlar ətraflı təhlil olunmuşdur. Türkiyə və Azərbaycanda istifadə olunan məqamların müqayisəsi aparılıb ki, bu da onların oxşar və fərqli cəhətlərini müəyyən etməyə imkan vermişdir. Qarapapaq etnik musiqi tədqiqatının məhdudluğu səbəbindən bu sahədə mühüm boşluğu doldurur. Türk musiqisi nöqteyi-nəzərindən qiymətləndirildikdə, məqamın quruluş qaydaların dərindən dərk edilməsi üçün məqam vəznləri müzakirə olunmuşdur. Bu tədqiqat akademik ədəbiyyatda nadir olmaqla yanaşı, mübahisəli mövzuya müraciət edərək, etnik mənsubiyyətin musiqi təcrübəsinə təsirini ətraflı araşdırır.

Qarapapaq adının kökəninin, bölgənin xalqlarının başlarına taxdığı papaqdan qaynaqlandığı qeyd olunmaqla, qarapapaq termininin bu üslubda bir geyimi üstün tutan insanlara istinad etdiyi göstərilmişdir.

***Açar sözlər:*** *Hüseyni, uşşaq, məqam, dizi, koma, Qarapapaq.*

## Giriş

Qars bölgəsinə köç etmiş qarapapaq etnik qrupu uzun illər davam edən siyasi problemlərin nəticəsi olaraq yeni yaşayış sahələrində varlıqlarını davam etdirirlər. Köçün səbəblərini anlamaq üçün bu etnik qrupun tarixi kontekstdə üzləşdiyi sosial, mədəni və siyasi çətinliklərin araşdırılması vacibdir. Köçlər tarixində mədəni dəyişikliklər həm də musiqi dəyişikliklərinə səbəb olmuşdur. Miqrasiyalar bir mədəniyyətin digəri ilə qarşılıqlı əlaqəsini təmsil edir. Bu qarşılıqlı əlaqə bir çox mədəni aspektlərdə, o cümlədən musiqidə dəyişikliklərə səbəb ola bilər. Qarapapaqların Azərbaycandan Türkiyəyə köçləri, əsasən, XIX əsrin sonu və XX əsrin əvvəllərində baş vermişdir. Bu köçlərin əsas səbəbləri arasında iqtisadi çətinliklər, siyasi qeyri-sabitlik və etnik/dini təqiblər var idi.

Xüsusən, XIX əsrin sonlarına doğru Osmanlı İmperiyasında siyasi-ictimai dəyişikliklər baş vermiş, bölgədə Rusiyanın nüfuzunun artması və münaqişələr qarapapaqların köçünə səbəb olmuşdur. Bundan əlavə, Azərbaycanda iqtisadi çətinliklər və kənd təsərrüfatında uğursuzluqlar da miqrasiyanın sürətlənməsinə səbəb olmuşdur.

Tədqiqatçı Kamaloğlu, Tərəkəmələr və ya Qarapapaqlar kimi tanınan bu etnik qrupun, əsasən, Tiflis, Naxçıvan, Qarabağ, Lori, Ağrı Dağı, Gəncə və Şirvan kimi ərazilərdə yaşadığını qeyd etmişdir. Ancaq Kəmaloğluna görə, Tərəkəmələrin, əvvəllər Qars və Ərdahandan gəldikləri və Türkmənçay andlaşması ilə imzalanıb, 1828-ci ildən sonra bir hissəsinin Qarsa, bir hissəsinin isə Cənubi Azərbaycanın Sulduz bölgəsinə köç etdiyi də qeyd edilmişdir [1; 65].

Qars ərazisinə gələn Azərbaycan kökənli Qarapapaq etnik qrupu, bir yandan öz kimliklərini qorumağa çalışarkən, digər yandan Qars ərazisində yaşayan xalqla mədəni ənənəyə görə, onlarla qarşılıqlı münasibət və əlaqədə olmuşdurlar. Musiqi, folklor anlayışı və dil xüsusiyyətləri baxımından da bir qarşılıqlı münasibət yaşanmışdır [1; 55-81].

Qarapapaq adının kökəninin bölgənin xalqlarının başlarına taxdığı papaqdan gəldiyi məlumdur. Papaq, başa taxılan və əsasən qara rəngdə olan bir başlıq və ya şapka deməkdir. Qarapapaq termini də bu başlığa bənzər və ya bu üslubda bir geyimi üstün tutan insanlara istinad edir. Bu adlandırma, etnik identikliyi, mədəni xüsusiyyətləri və geyim üslubu ilə əlaqələndirilən bir adlandırma formasıdır. Tədqiqatçı Yaşar Kalafat, Qarapapaq adının etnoqrafik kökənini araşdırarkən, bu adın “qara” və “papah” sözlərinin birləşməsindən yarandığını vurğulamışdır. “Qara” sözü bu kontekstdə yalnız rəngi deyil, həm də böyüklüyü və əzəməti ifadə edir, beləliklə, etnik qrupu fərqləndirən bir simvolik məna daşıyır. “Papah” isə yundan və ya qoyun dərisindən hazırlanmış ənənəvi kişi başlığı olaraq təsvir edilmişdir. Kalafat həmçinin qeyd edir ki, bu baş geyiminə bəzi bölgələrdə “papak” deyilir və bu termin dəyişkənlik göstərərək mədəniyyətlərarası keçidləri əks etdirir. Beləliklə, tədqiqatçı Kalafatın izahına görə, “qarapapaq” termini həm rəng, həm də baş geyiminin spesifik xüsusiyyətlərini birləşdirərək, bir etnik simvol və identiklik kimi özünəməxsus məna daşıyır [2; 11]. Qarapapaqlar etnik mənşə və mədəni xüsusiyyətləri baxımından əsasən Azərbaycan türkləri toplumuyla əlaqələndirilir. Şanver Sarısaltunun elmi araşdırmasında da qeyd edildiyi kimi, Qarapapaqlar tarix boyu "Tərəkəmə" adı ilə də tanınmışdır. Qarapapaq və Tərəkəmə anlayışları eyni Türk toplumunu ifadə etmək üçün istifadə olunan iki fərqli termindir. Onların fərqi əsasən yaşayış tərzi və sözlərin mənşəyinə bağlıdır. Lakin tarixi proseslərdə bu terminlər bir-birinin yerinə işlədilmiş və eyni məna daşıdığı qəbul edilmişdir. Buna görə də, qarapapaqlar və Tərəkəmələr əslində eyni etnik toplumun fərqli adlandırmalarıdır.

Qarapapaqlılar, xüsusilə Şərqi Anadolunun Qars, Ərzurum, Ağrı və Ərdahan kimi bölgələrində yaşayırlar. Türkiyədə qarapapaq xalqı öz mədəni irsini və adət-ənənələrini qoruyub saxlasa da, eyni zamanda türk mədəniyyəti ilə də qarşılıqlı əlaqədə olub. Hazırda Türkiyədəki Qarapapaq icması ölkənin etnik və mədəni müxtəlifliyinə əhəmiyyətli töhfə verir.

Köç qavramının nəticəsində Azərbaycandan Türkiyəyə köç edən Azərbaycanlı Qarapapaq etnik qrupu, musiqi və mədəniyyət baxımından əlaqələrinə davam etmişdir. Xüsusən dildə bəzi dil ünsürləri Azərbaycanla bir-birinə bərabərlik göstərməkdədir. Bu əlaqələrin nəticəsində Qarapapaqlar bəzi cəhətlərdə Azərbaycan təsirini saxlamağa davam edərkən, bəzilərində zamanla Türkiyəyə uyğunlaşmışlar. Bu uyğunlaşma prosesi, musiqi təcrübələrindən dil strukturuna qədər geniş bir spektrumdakı dəyişiklikləri əhatə edir və köçmən qruplarının yeni yaşayış şəraitinə uyğunlaşması ilə şəkillənir. Bu bölgələrdə, xüsusilə Qars və Ərzurumda, tarix boyu müxtəlif mədəni dəyişikliklər baş vermişdir. Qarapapaq kimi etnik qrupların işğallardan sonra bu bölgələrə yerləşməsi, bölgənin mədəni naxışına və musiqi irsinə əhəmiyyətli dərəcədə təsir etmişdir. Qarapapaqlar Qafqaz mənşəli bir türk boyu olub, tarixi prosesdə yaşadıqları köçlər və məcburi yerdəyişmələr nəticəsində Türkiyənin şərq bölgələrinə yerləşmişlər. Bu etnik qrupun yerləşməsi bölgədəki musiqi mədəniyyətinin zənginləşməsinə töhfə vermişdir. Xüsusən də Qarapapaq Aşıqları kimi mədəniyyət fiqurları, bu əlaqələrin bir nəticəsi olaraq, həm Azərbaycandan gələn ənənəvi motivləri və musiqi elementlərini davam etdirmiş, həm də Türk musiqi ənənəsinə inteqrasiya olmuşdurlar.

***Mövzunun Təqdimatı:*** Bu tədqiqat, Qarapapaq aşıq ənənəsini yaşadan və müasir dövrdəki əhəmiyyətini davam etdirən məşhur xalq aşıqları Bilal Ersarı və Ensar Şahbazoğlunun fəaliyyətini geniş şəkildə araşdırır. Bu aşıqlar, yalnız xalq musiqisinin ruhunu təcəssüm etdirməklə kifayətlənmirlər, həm də gələcək nəsillərə bu zəngin mədəniyyəti ötürmək və onun qorunmasını təmin etmək məqsədilə xüsusi bir məsuliyyət hissi ilə fəaliyyət göstərirlər. Onların əsərlərində, xalq musiqisinin özünəməxsus melodik strukturları və sözləri qorunmaqla yanaşı, həm də iki xalq arasında mədəni əlaqələrin inkişafına xidmət edən dərin bir əlaqə formalaşdırılmışdır. Tədqiqatın əsas istiqaməti, musiqinin miqrasiya və mədəniyyətlərarası əlaqələr üzərindəki təsirini analiz etməkdir. Miqrasiya prosesləri, insanları musiqi mənsubiyyətini yenidən nəzərdən keçirməyə və dəyişdirməyə məcbur edə bilər. Miqrantlar, yeni cəmiyyətə inteqrasiya olarkən, öz mədəni irslərini qorumaq və ifadə etmək məqsədilə yeni musiqi formaları və alətləri istifadə edərək musiqi təcrübələrini zənginləşdirirlər. Bu kontekstdə, Bilal Ersarı və Ensar Şahbazoğlu'nun fəaliyyəti, həm milli mədəniyyətin qorunması və tanıdılması, həm də mədəni mənsubiyyətin yenilənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Əlavə olaraq, Qarapapaqların yeni yaşayış məskənlərində istifadə etdikləri musiqi məqamları və bu məqamların quruluş qaydaları da analiz edilmişdir. Qarapapaqların, Azərbaycan və Türkiyədəki musiqi ənənələri ilə müqayisədə hansı fərqliliklər və oxşarlıqlar nümayiş etdirdiyi müzakirə olunmuşdur. Bu müqayisə, həm də Azərbaycan musiqi sisteminin müxtəlif aspektlərini, o cümlədən məqam səs qatarlarını daha dərindən anlamağa kömək edəcəkdir. Bu şəkildə, musiqinin, dilin və mədəni mənsubiyyətin necə qarşılıqlı əlaqəyə girdiyini, miqrasiya və mədəni mübadilə proseslərində necə inkişaf etdiyini araşdırmaq məqsədi güdülür. (Bu şəkil araşdırmaya töhfə üçün Aşıq Bilal Ersarı tərəfindən göndərilmişdir [3], (Şəkil 1**).**



**Şəkil 1.** Aşıq Ensar Şahbazoğlu və Aşıq Bilal Ersarı [3].



**Şəkil 2.** Aşıq Bilal Ersarı

*Musiqi alətlərindən istifadə:* Qars Qarapapaq aşıqları ilə aparılan görüşlərdə Qars aşıqları musiqi aləti olaraq bağlamadan istifadə etdiklərini bildirmişdirlər. Qarapapaq Aşıqlarının istifadə etdiyi musiqi alətləri və ifa texnikaları aşıq sənətində mühüm rol oynayır və bu əlaqələr miqrasiya prosesləri vasitəsilə daha da güclənir. Tarixən müxtəlif dövrlərdə Qarsa köç edən Qarapapaqlar, özləri ilə birgə gətirdikləri musiqi ənənələri ilə yerli musiqi mühitinə təsir göstərmişdirlər. Bu təsir, əsasən, musiqi alətlərinin istifadəsi və ifa texnikalarının tətbiqində öz əksini tapır. Qars bölgəsinə yerləşən Qarapapaqlar, tar, qarmon, balaban və zurna kimi ənənəvi alətlərdən istifadə edərək yerli musiqi mədəniyyətinə öz rənglərini qatmışlar. Bu alətlər, Qarapapaq xalqının zəngin musiqi irsinin qorunması və yayılması baxımından önəmli olmuşdur. Müasir dövrdə isə, Qarapapaq xalq mahnılarının ifasında bağlama alətinin geniş yayılması müşahidə olunur. Bu dəyişiklik, həm ənənələrin müasir alətlərlə birləşməsini, həm də mədəni sintezin davamlılığını göstərir. Beləliklə, Qarapapaq musiqisi, həm köklərini qoruyaraq, həm də müasir musiqi alətləri ilə zənginləşərək Türk musiqi mədəniyyətinə inteqrasiya olmağı bacarır.

*Musiqi mənsubiyyəti:* Bir mədəniyyətdən digərinə keçən insanlar da öz musiqi seçimlərini və formalarını daşıyırlar. Məsələn, Rusiyanın təsiri ilə Türkiyəyə köçən Aşıq Şenlik uzun illər siyasi-ictimai düşüncələrini musiqi və söz vasitəsi ilə çatdırmış, bir çox aşıqlar onun ənənələrini davam etdirirlər. Məsələn, Aşıq Şenlikin “Al Osman'ı İsterim” adlı şeirini göstərə bilərik. Bu şeir, dövrün Çar Rusiyasına qarşı bir etirazın ifadəsi olaraq qəbul edilir. Aşıqlar müxtəlif mövzularda şeirlər yazıb, bunları sazla ifa

edə bilən və xalqın düşüncələrini sənət vasitəsilə əks etdirmək bacarığına malik olan sənətkarlardır. Onlar bəzən sosial ədalətsizliyə və zülmə qarşı çıxır, bəzən də məhəbbət, qəhrəmanlıq və tarixi hadisələr haqqında əsərlər yaradırlar [4; 2].

*Dilin Təsiri:* Köçmələr müxtəlif dillərin və sözlərin birləşməsinə və qarşılıqlı təsirinə səbəb ola bilər ki, bu da musiqidəki söz və rəvayətlərə təsir göstərir. Qarapapaqların Qarsda oxuduqları mahnılarda Azərbaycan təsirinin izlərini görmək olar. Bundan əlavə, bir çox adət-ənənələr və dini təcrübələr də oxşardır.

*Musiqi mənsubluğu və mənsubluq siyasəti*: Miqrasiyalar insanları musiqi mənsubiyyətini yenidən nəzərdən keçirməyə və dəyişməyə məcbur edə bilər. Miqrantlar yeni cəmiyyətə inteqrasiya edərkən yeni musiqi formaları yaradaraq, öz mədəni irsini qorumaq və ifadə etmək üçün musiqi alətlərindən istifadə edə bilərlər.

***Problemin Həlli:*** Tədqiqatda Qarapapaq xalqının ən çox istifadə etdiyi Hüseyni və Segah məqamları, xüsusilə Hüseyni məqamının Azərbaycan və Türk musiqisindəki Şur məqamı ilə oxşarlıqları və fərqlilikləri dərinləşdirilmiş şəkildə təhlil edilmişdir. Bunun üçün məqamların analizinə, yəni Türk musiqisinə görə, Hüseyni məqamının quruluş qaydalarına diqqət yetirilmişdir. Bir neçə yol izlənmişdir. İlk olaraq, Türk musiqisində Hüseyni məqamının quruluş qaydaları təhlil edilmişdir. Hüseyni məqamında istifadə olunan, interval sistemləri və simvollarının xüsusiyyətləri göstərilmişdir.

*Azərbaycan musiqisinə görə Şur məqamının quruluş qaydaları:* Azərbaycan musiqisində Şur məqamı qatarının quruluş qaydaları təhlil edilmişdir. Şur məqamı ilə Hüseyni məqamının quruluş qaydalarındakı oxşarlıqlar və fərqliliklər xüsusilə nəzərə alınmışdır. Oxşarlıqlar və fərqliliklərin müəyyənləşdirilməsində İnterval və Melodik Struktur Müqayisəsi təqdim edilmişdir. Hüseyni və Şur məqamlarının interval quruluşları yan-yana qoyularaq müqayisə edilmiş, bu interval sistemindəki əsas oxşarlıqlar və fərqliliklər müəyyənləşdirilmişdir. Hər iki məqamın spesifik olaraq hansı intervallarda bir-birindən fərqləndiyi təhlil edilmişdir.

1968-ci ildə Azərbaycanın görkəmli bəstəkarı Fikrət Əmirov Türkiyəyə səfəri zamanı o dövrün məşhur musiqiçiləri Necil Kazım Akses, Ülvi Cəmal Erkin və Əhməd Adnan Sayqun ilə bir sıra görüşlər keçirmişdir. Əmirov öz müşahidələrini "Musiqi Səhifələri" adlı kitabında oxucularla paylaşıb, Türkiyə ilə Azərbaycan musiqisinin çox oxşar olduğunu vurğulamışdır [5; 113-114].

Hər iki ölkədə də məqam sıralarının tarixi və mədəni inkişafı, sosial və siyasi hadisələrin təsiri ilə formalaşmış və bu sıraların (səs qatarı vəya səs sıraları) icrasında istifadə olunan alətlər, melodik quruluş və ritmik xüsusiyyətlər zaman içində fərqlənərək özünəməxsus xüsusiyyətlər qazanmışdır. Bu baxımdan, Fikrət Əmirovun müşahidələri, yalnız səthi bənzərliklərin deyil, dərin bir mədəni və musiqi qarşılıqlı təsirinin mövcud olduğunu ortaya qoyur. Nəticə etibarilə, Fikrət Əmirovun Türkiyə səfərində əldə etdiyi təəssüratlar və etdiyi tədqiqatlar, Azərbaycan və Türk musiqilərinin bir-birinə olan yaxınlığını və eyni zamanda bu musiqilərin öz daxilində saxladığı zənginlikləri və müxtəliflikləri vurğulayır. Bu cür mədəni qarşılıqlı təsirlər, iki ölkənin musiqi ənənələrinin qarşılıqlı olaraq anlaşılmasına və təqdir edilməsinə imkan yaradır.

Məqam sıraları həm Türkiyədə, həm də Azərbaycanda musiqinin əsas tərkib hissələrini təşkil edən mühüm ünsürlərdir. İki ölkənin musiqilərində hiss olaraq bənzəyən məqam diziləri olmasına baxmayaraq, quruluş və icra baxımından bəzi fərqliliklər mövcuddur. Azərbaycan və Türk musiqisi tarix boyu bir-biri ilə qarşılıqlı təsir içində olmuş, lakin öz daxili dinamikaları və mədəni irsləri istiqamətində özünəməxsus inkişaflar göstərmişdir. Türk musiqisində məqam diziləri adətən daha geniş bir modal quruluşa və zəngin bəzək texnikalarına malik olduğu halda, Azərbaycan musiqisində bu səs sıraları, xüsusilə muğam ənənəsi çərçivəsində daha spesifik və sistematik bir quruluşa sahibdir.

Qarapapaqlar Azərbaycandan Türkiyəyə köçsələr də, türk musiqisinə uyğunlaşıblar. Türkiyədəki musiqi sistemi Azərbaycandakından fərqlidir və oxşarlıqlara baxmayaraq, nəzəri fərqlər də vardır. Türk musiqisi nəzəriyyəsinə görə, bilməmiz lazım olan şeylərdən biri də komma (koma) ifadəsidir.Türk musiqisinə ümumi prizmadan yanaşsaq, bilinməsi lazım olan ilk şey koma (komma) anlayışını, komma və komma dəyərlərinin tanınmasını və onların məqam ardıcıllığını necə yaratdığını qavramaqdır. Türk musiqisində məqamı təşkil edən sıralar da mövcuddur. Buna qısaca səslər sırası da demək olar. Bir məqamı təşkil edən əsas hissələrdən biri də səslər sırasıdır, yəni dizilərdir. Bu işdə Arel-Ezgi not sistemindən istifadə edilmişdir. Səslərin bərabər hissələrə bölünməsi ilə yaradılan səs qatarı və səs qatarını təşkil edən dördlülər və beşlilər haqqında məlumat verilmişdir. Sadəddin Arelə görə, türk musiqisində məqam dizilərinin formalaşmasını sıralar müəyyən edir. 5-in sonunda 4 və ya 4-ün sonunda 5-in əlavə edilməsi ilə əmələ gələn oktavalar 8-lilərə çevrilir. Arel, kitabında (1993) bu oktavaların 24 qeyri-bərabər və ya qeyri-bərabər intervaldan ibarət olduğunu da qeyd edir [6; 24-81]. Arelin (1993) qeyd etdiyi kimi, türk musiqisində hər bir sadə səs qatarının ən alçaq səsi həmişə dayaq nöqtəsi (durak) kimi götürülür. Dördlüləri və beşliləri birləşdirən nöqtə həmişə bu sistem məqam dizisinin "güclü"südür. Həm də səkkizinci səs dayanma nöqtəsi ilə eyni səs olduğundan Arel bu intervalı "üçqat dayanma" olaraq adlandırmışdır.

*Koma (komma):* Ahmet Say "koma" terminini belə təyin etmişdir: Bütöv (tam) səsin doqquz bərabər hissəyə bölünməsindən əmələ gəlir (məsələn, sol-lya arasında). Ahmet Say bu mikrointervalların hər birini "koma" adlandırıb. Lakin Qərb sisteminə görə, o qeyd edir ki, bu doqquz mikrointerval ikiyə bölünür və 4,5 komaya bərabərdir [7; 289].

*Məqam dizisi/ Məqam səs sırası:* Musiqidə "məqam sırası" müəyyən bir məqamın tərkibində olan və ya ona xas olan notların ardıcıllığını və bu ardıcıllığın müəyyən bir sırasını ifadə edir. Hər bir məqam özünəməxsus quruluş və xarakterə malikdir və bu xüsusiyyətlər ardıcıl düzülmüş notlarla ifadə olunur. Məqam ardıcıllığına, adətən, həmin məqamın tərkibində olan notlar və bu notlardan istifadə qaydaları daxildir. (Məqam sırası, Türkiyədə məqamı təşkil edən dizi olaraq göstərilir. Azərbaycanda musiqi nəzəriyəsinə görə, səs qatarı deyə bilərik) [8; 22].

*Məqam anlayışı:* Türk musiqi nəzəriyyəsində hər hansı bir əsərin bütövünə verilən isimdir. Məqamın içərisində yər alan gəzişmə fərqli məqamlara altrerasiya məsələləri məqam anlayışına daxildir. Arel-Ezgi sisteminə görə, **maqam** anlayışı "durak" və "güclü" adlandırılan səslər vasitəsilə sıradakı digər səslərin zehni və nəzəri əlaqələr əsasında bir araya gətirilməsi ilə yaranır. Tədqiqatçı Gülçin Yahya Kaçar, məqamı təşkil edən elementləri bu şəkildə izah edir: pərdələr və səs sahəsi, seyr xüsusiyyətləri (enici və ya çıxıcı xarakterlər), durak pərdəsi və durak növləri (tam durak, yarım durak, asma durak), seyr, keçki (alterasiya məsələləri) və çeşni. **Maqam** termini, musiqi baxımından bütöv bir strukturu ifadə edir [9; 8].

*Yedən səs:* Yedən səs, qərar səsinə getmədən əvvəl istifadə olunan səsdir. Yedən pərdəsi, qərar pərdəsinin bir səs pəstində yerləşən və qərar təsirini gücləndirmək, bitiş hissini artırmaq məqsədilə istifadə olunan bir pərdəsidir. Üçqat dayanma pərdəsinin bir altındakı səs isə "üst yeden" adlandırılır [10; 218]. Türk musiqisində 7 fərqli **alterasiya işarələri** var. Bunlar: koma, itkin balans, balans, kiçik problem, əsas problem, tanin və qalıq ikilidir (Şəkil 3-də göstərildiyi kimi).

| Değiştirici işaretin adı | Koma değeri | Bemolü | Diyezi | Şifresi |
|---|---|---|---|---|
| Koma | 1 | 𝄳 | 𝄲 | F |
| Eksik bakiye | 3 | - | - | E |
| Bakiye | 4 | ♭ | ♯ | B |
| Küçük mücennep | 5 | ♭ | ♯ | S |
| Büyük mücennep | 8 | ♭ | ♯ | K |
| Tanini | 9 | ♭♭ | 𝄪 | T |
| Artık ikili | 12-13 | - | - | $A_{12} – A_{13}$ |

**Şəkil 3.** Komma dəyərləri

Koma diyez və koma bemollerin hər birinin koma dəyərləri, şəkilləri və şifrələri mövcuddur. Bir koma F, Eksik bakiye E, Bakiye B, kiçik mücənnəp S, Büyük mücənnəp K, Tanini Aralığı T, Artıq ikili isə A-12 və ya A-13 olaraq göstərilir. Diyez və ya bemol olma halına görə, şəkilləri dəyişə bilər. Hüseyn Sadəddin Arelə görə, Türk musiqisində böyük ikili aralığı toplam 9 komanın toplamından ibarət oluşur. Onlar kiçikdən böyüyə sıralanır və hərflərlə təyin olunur [11; 9-20]. Türk musiqi sistemində musiqi silsiləsi dördlü və beşlilərin birləşməsindən əmələ gəlir. Tədqiqatçı Hatipoğlunun sözlərinə görə, Arel-Ezgi sistemi türk musiqisində musiqi sıraları yaratmaq üçün dördlük və beşlik sıralara əsaslanır. Bu sıralarda intervallar iki kateqoriyaya bölünür: "tam" və "digər". Türk musiqisi məqamları üç qrupa bölünür: sadə, mürəkkəb və Şedd (Köçürməli) məqamlar. Sadə musiqi seriyaları ən azı bir tam dörd və bir tam beşi birləşdirərək formalaşır. Belə ki, araşdırmaçı Hatipoğlunun fikrincə, türk musiqisində musiqi silsiləsi formalaşması belədir: dördlü və beşlinin birləşməsindən yaranan musiqi silsiləsi sadə adlanır. Sadə musiqi seriyalarına digər dördlük və beşliklərin əlavə edilməsi mürəkkəb musiqi seriyası yaradır. Sadə musiqi sıralarının başqa pərdələrə

dəyişdirilməsi Şedd (Köçürməli) məqamı sırası, musiqi sıralarının yaranmasına gətirib çıxarır [10; 27-30].

Qarapapaq aşıqlarının ifasında əsərlər lentə alınarkən Hüseyni məqamı səs qatarına tez-tez rast gəlinir. Hüseyni məqamı səs qatarı strukturuna görə, Azərbaycan musiqisindəki Şur məqamına bənzəyir. Məqam strukturları fərqlənsə də, şur məqamı ilə oxşardır. Musiqi dizisinin strukturuna görə, Hüseyni məqamı klassik türk musiqisindən fərqlənir. Türk musiqisinə görə, Hüseyni məqamının ilk səsi "lya" (dügah) pərdəsidir. Bundan əlavə, Hüseyninin musiqi dizisi, dügah pərdəsində (lya) Hüseyni beşlisinə, mi (Hüseyni) pərdəsində isə Uşşaq dördlüsünün əlavə edilməsi ilə yaranır. Məqam səs qatarlarında dördlü və beşlilərin birləşdiyi yer adətən məqam səs qatarının xarakterini müəyyən edən ən ifadəli və ya xarakterik səs kimi qəbul edilir. Əlavə olaraq, Uşşaq dördlüsünə bir tanini (9 koma) əlavə edildikdə Hüseyni beşlisi yaranır. Yəni dördlü halı Uşşaq dördlüsü, bir tanini əlavə edilmiş halı isə Hüseyni beşlisidir.

Klassik Türk musiqisində Hüseyni məqamının səs qatarının qurulması araşdırılarkən dügah (lya) pərdəsində Hüseyni beşlisinə, Hüseyni pərdəsində isə Uşşaq dördlüsü ilə əmələ gəlir. Hüseyni məqamının mövqeyi, Dügah pərdəsindəki Lya mayəsi olaraq təyin olunur. Buna görə, bu məqamın müxtəlif pərdələrdə tətbiq edilməsi mümkündür. Yeden səsi, Rast pərdəsi olan Sol səsidir. Klassik türk musiqisi nəzəriyyəsinə uyğun olaraq, məqamın dayaq səsi, güclü səsi və yüksək səsi var. Hüseyni məqamı səs qatarında da göründüyü kimi, durak (dayaq) səsi Lya səsi olan dügah pərdəsidir. Hüseyni məqamının ən güclüsü Uşşaq dördlüsünün başladığı Hüseyni (mi səsi) məqamın güclüsüdür. Muhayyer pərdəsi olaraq tanınan Tiz Lya səsidir.

Beşlikləri və dördlükləri araşdırsaq, Hüseyni beşliyində: K- S- T- T. Uşşaq dördlüyündə: K-S-T kimi kodlaşdırmalara rast gəlirik. Lya səsi bütöv səs olduğuna görə 9 kommadır. Lakin Lya və Si bir komma bemol arası arası 8 komadır. Bu interval K (böyük Mücənnəp) ilə işarələnir. Bir (1) koma si bemol və Do səsləri arasında 5 komadır. Bu aralık; S (Kiçik Mücənnəp) parolu ilə göstərilir. Do və Re arasında 9 koma vardır və T (Tanini) şifrəsi ilə göstərilir. Eynilə, Re və Mi səsləri arasında 9 koma olduğundan, onlar T (Tanini) ilə göstərilir. Uşşaq dördlüsünə ümumi baxış: K-S-T kodlamasını görürük. Bu kodlaşdırmanı təhlil edərkən onun Hüseyninin beşlik kodlaşdırmasına bənzədiyini görə bilərik. Tanini (9 koma) əlavə etsəniz, Uşşaq dördlüsü Hüseyni beşliyinə çevrilir. Hüseyni məqamı dizisi (səs qatarı) Uşşaq dördlüsünün yerini nəzərə alsaq, Mi (Tiz mi) ilə Fa dörd koma diyez arasındakı məsafə 8 komadır ki, bu da K şifrəsi ilə ilə göstərilir. Fa dörd koma diyez və sol arası 5 koma, bu da S şifrəsi ilə göstərilir. Nəhayət, Uşşaq dördlüsünün sonuncu komponenti olan sol və la arasındakı səslər, onların arasında 9 koma olduğundan T (Tanini) ilə işarələnir. Şəkildən (şəkil 4) göründüyü kimi, Hüseyni məqamında Uşşaq dördlüyündə bir koma bemol Si və ardınca Uşşaq dördlüsünün içərisində yer alan 4 koma diyez Fa olmaqdadır. Amma Qərb sisteminə görə düşünsək, bir koma bemol, ya da diyezi qarşılayacaq bir səs olmadığından dolayı Si təbii olaraq səsləndirilir. Uşşaq dördlüsündə dörd koma diyez də Qərb sistemində F diyez səsinə (oxşarlıq, yaxınlıq) uyğun gəldiyi üçün, Qərb sisteminə görə diyez

kimi səsləndirilir. Hüseyni dizini (səs qatarını), təsvirlərini ümumi şəkildə ümumiləşdirsək, Hüseyni dizisi yerində Hüseyni beşlisinə, Hüseyni pərdəsinə Uşşaq dördlüsünün əlavə edilməsi ilə əmələ gəlir.




**Şəkil 4.** Hüseyni səs qatarı

Hüseyni məqamının şifrələməsi aşağıdaki kimidir:

*(Y) K S T T K S T*

Hüseyni məqam seriyasına baxsaq, xülasə olaraq belədir:

- Qərar: pərdə lya (dügah) dizinin başladığı yeri təmsil edir.
- Ən güclü: mi (hüseyni) /hüseyni beşlisinin bitdiyi və yeni dördlünün kəsişdiyi nöqtəni təmsil edir.
- Treble Qərar: lya (muhayyer) səsi /massivinin oktava yüksək səsini təmsil edir.
- Aparat: Si bir koma bemol (segah pərdə) və fa dörd koma diyez (eviç pərdə) yazılmışdır.
- Pərdə adlarını sadalasaq: dügah (lya), seqah, çahargah (do), neva (re), hüseyni (mi), eviç və ya acem (fa-fa diyez), gerdaniye (sol), muhayyer (lya).

Tədqiqatçı Ferit Bulut‘‘Makamsal Dikte ve solfejler’’ kitabında Hüseyni məqamı dizisini bu şəkildə göstərmişdir. (Şəkil 5-də yer alan *Y*: yeden səsi, *D:* durak pərdəsini, *G*: güclüsünü, *TD*: tiz durak pərdəsini ifadə etməkdədir) [3; 50-60].




**Şəkil 5.** Hüseyni səs qatarında Y-D-G-TD (Şəkil, Ferit BULUT; ‘‘Makamsal Dikte ve solfejler’’ kitabından alınıb)

Hüseyni məqamı səs qatarını yazarkən Azərbaycan məqamlarından biri olan şur məqam silsiləsinin yazımı ilə oxşarlıqlarla üzləşirik. Hiss və seriyanın quruluşu baxımından oxşarlıqlar olsa da, nəzəri cəhətdən çox fərqlidir. Azərbaycan ərazisində istifadə olunan şur məqam silsiləsinə baxdığımızda, belədir:

*Şur məqamı:* Uşşaq və Hüseyni məqamı səs qatarlarına uyğun gəlir. (Xatırlamaq əhəmiyyətlidir ki, Hüseyni məqamını təşkil edən Hüseyni beşlisi əslində Uşşaq dördlüsünü əhatə edir. Bir tanini intervalı ilə əlavə edildiyində Hüseyni beşlisinə çevrilir). Böyük musiqiçi Üzeyir Hacıbəylinin “Azərbaycan xalq musiqisinin əsasları” adlı kita-

bında Azərbaycan musiqisinə görə şur məqamı dizisinin (səs qatarı) quruluşu belə təsvir edilir: 1-1/2-1 formu əsasında qurulmuş qovuşuq üslubu ilə üç tetraxordun təşkil olunub, orta tetraxordun birinci səsi Re notasıdır. İlk tetraxordun ilk səsi isə La səsidir [12; 61-62]. Bu perspektivdə qiymətləndirildiyində, məqam səs qatarı Türkiyənin klassik musiqisindən fərqlidir. Türk musiqisində Hüseyni məqamı səs qatarının başlanğıc səsi “lya” (dügah) pərdəsidir. Hüseyni beşlisinə, Uşşaq dördlüsünün əlavə olunması ilə yaranan Hüseyni məqamı səs qatarının “qüvvəli” Uşşaq dördlüsünün başlanğıc səsi olan “mi” Hüseyni pərdəsidir. Məqam səs qatarlarında “qüvvəli” məqamı *n* ən aydın və ya xarakteristik səsidir. Bu ümumi olaraq məqamı *n* başlanğıc və ya mərkəz səsi olur və məqamın xarakterini təyin edən əsas səs kimi qəbul edilir.




**Şəkil 6.** Şur səs qatarının quruluşu (Şəkil: Hacıbəyli, Üzeyir. “Azərbaycan xalq musiqisinin əsasları” [3; 61-62].

*Azərbaycan nəzəriyyəsi ilə ortaq xüsusiyyətlər və fərqliliklər.* Digər tərəfdən, klassik türk musiqisində yer alan Hüseyni məqamı səs qatarını təşkil edən Uşşaq dördlüsünün Azərbaycan musiqisində şur tetraxordu olduğunu görə bilərik. Eynilə də, Hüseyni məqamı dizisi Qərb sisteminə keçdikdə, koma diyəz Qərb sistemi baxımından düşünsək, bir koma bemol, yaxud diyezə uyğun gələn səs olmadığı üçün si təbii şəkildə səslənir. Buna görə, si bir koma bəmol təbii təbii şəkildə ifa olunur. Lya-Si səsləri arasındakı intervalın 1, Si-Do səsləri arasındakı intervalın ½, Do-Re səsləri arasındakı intervalın 1 olduğunu görə bilərik. Bu bizi şur məqamı səs qatarı və Hüseyni məqamı səs qatarının bənzərliyi kontekstində ortaq bir nöqtəyə gətirməkdədir. Türk musiqi teorisində mikrotonal diyez və bemol cədvəlləri istifadə olunarkən, Azərbaycan musiqisinin məqam vəznləri və nəzəriyyəsi Üzeyir Hacıbəylinin yaratdığı sistemə əsaslanır. Bu sistem qərb sistemlərinə yaxınlıq, Türk musiqisi və Azərbaycan musiqisi arasındakı tarixi və mədəni bağlara işarə edir. Hər iki musiqi geləneyi də mikrotonal strukturları və melodi qaydalarını əhatə edən mükəmməl sistemlər inkişaf etdirmişlər, lakin bu sistemlərin mənbələri və bəzi təfərrüatları fərqlilik göstərir.

Türk musiqisində məqam quruluşları beşlilər və dördlülər şəklində formalaşdığı halda, Azərbaycan musiqi nəzəriyyələrində məqamlar tertaxordların köməyi ilə qurulur. Ancaq Üzeyir Hacıbəylinin yaratdığı sistemə bənzər əsərlərin Əhməd Adnan Sayqun və daha sonra Necdet Levent kimi uğurlu musiqiçilər tərəfindən edildiyini də görə bilərik. Təbii ki, tam eyni deyil. Çünki məqam səs qatarının strukturları oxşar olsa da, eyni deyildir. Bu, Türk və Azərbaycan musiqi tarixi arasında əsaslı bir fərqdən qaynaqlanır. Bundan əlavə, Azərbaycan musiqi nəzəriyyəsində klassik türk musiqisinin terminologiyasında olmayan “mayə”, “şöbə”, “guşə”, “dəstgah” kimi terminlərə də rast gəlirik. Türk musiqisində “durak”, “tız durak”, “yeden”, “seyir” və s. kimi terminlər işlə-

dilir. Bu da bu iki musiqi ənənəsi arasındakı fərqdir. Türk musiqisində bəzi intervalları təmsil etmək üçün koma diyez və bemollerdən istifadə edilir. Bunların hər birinə aid işarələr və simvollar notda qeyd olunur. Lakin Azərbaycan musiqisində onların ekvivalentləri (koma diyez və bemoller) notlara birbaşa ötürülmür. Azərbaycan muğamlarının ifalarında tar alətinə kifayət qədər tez-tez rast gəlmək mümkündür. Tar alətində bəzi əsərlərin ifasında koma səslərindən istifadə olunur. Lakin bu əsərlər yazıya alındıqları zaman klassik türk musiqisində istifadə olunduğu kimi kəskin koma və bemoller ilə ifa olunmurlar.

**Nəticə**

Türk musiqisində cərgənin əsas səsinin dördlüklərin əvvəlində olduğu musiqi sıralarından fərqli olaraq, Azərbaycan musiqisində sıranı təşkil edən dördlüklərin ortasındadır. Bu struktur fərqi iki ənənənin səs silsiləsi formalaşmasına yanaşmalarındakı fərqi göstərir. Azərbaycan muğamlarında qəbul edilən əsas terminlər türk musiqisində işlədilmir. Məsələn, türk musiqisində "mayə", "şöbə", "güşə", "dəstgah" və başqa terminlərə rast gəlinmir. Eynilə, Azərbaycan muğamının terminologiyasında "seyir", "tiz durak", "karar" kimi türk musiqisinin əsas terminləri də yoxdur. Bu, iki musiqi ənənəsi arasında terminoloji və konseptual fərqlərin bariz sübutudur. Türk musiqisində məqam sıraları yaratmaq üçün həm dördlük, həm də beşlikdən istifadə edildiyi halda, Azərbaycan musiqisində məqam səs qatarlarını yaratmaq üçün yalnız dördlükdən istifadə olunur. Şur məqamı səs qatarı ilk baxışda Türk musiqisindəki Uşşaq və ya Hüseyni məqamı səs qatarları ilə birinci tertaxord baxımından oxşar görünə bilər, lakin fərqlər də var. Emosional təsirinə və inkişaf istiqamətinə görə, şur məqamı dizisi daha dinamik görünür, "Uşşaq" və "Hüseyni" məqamı isə fərqli xüsusiyyətlərə malikdir. Azərbaycandan Türkiyəyə köç edən Qarapapaq etnik qrupunun məqam nəzəriyyəsi baxımından fərqliliklər göstərməsi, Qars bölgəsinə adaptasiyaları ilə əlaqələndirilə bilər. Qars bölgəsində daha əvvəl yaşamış olan Qarapapaq əhalisinin Azərbaycan musiqi vasitələrini də istifadə etdiyi bilinsə də, bu gün Türk musiqi sistemi daxilində yer alır. Hiss kimi, melodiyalar bir-birini xatırlatsalar da, nəzəriyyədə əhəmiyyətli dərəcədə fərqliliklər mövcuddur. Bu, musiqi ənənəsinin zamanla necə dəyişdiyini və fərqli mədəni təsirlərin necə birləşdiyini göstərir. Bölgədə aparılan tədqiqatlar nəticəsində, xüsusilə segah və şur (hüseyni) məqamlarının istifadəsi də güclü bir qarşılıqlı təsirin göstəricisidir. Bu, xalqın uzun illər ərzində davam edən qarşılıqlı təsirinin bir əlamətidir. Şur məqamı ilə yanaşı, Azərbaycanının ən qədim məqamlarından biri olan segah məqamı da Məmməd Saleh İsmayılovun "Azərbaycan xalq musiqisinin janrları" kitabında öz əksini tapır. Bu baxımdan, Qars bölgəsində bir sintez mədəniyyətinin meydana gəldiyini söyləmək yerinə düşərdi.

**İstifadə edilmiş ədəbiyyat**

1. Kemaloğlu, M. Terekeme-Karapapak Türkleri Yerleşim Alanları // *Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi*, 2012, 1(3), s. 1-81.

2. Kalafat, Y. Karapapak Türkleri // *DergiPark*, 2010, №9253, s. 1-16. Erişim: https://dergipark.org.tr/tr/download/article-file/9253.
3. Ersarı, B., & Şahbazoğlu, E. *Kars Halk Ozanları. 2022- əsas mənbə kimi.*
4. Memmedli, Ş., & Goca Memmedova, G. Âşık Şenlik Şiirleri: Ziya Borçalı'nın Arşiv Cönkünde // *DergiPark*, 2018, №13, s. 1-13.
5. Əmirov, F. C. *Musiqi Səhifələri*. Bakı: İşıq, 1978, 143 s.
6. Arel, H. S. *Türk Mûsıkîsi Nazariyatı Dersleri*. Ankara: Kültür Bakanlığı Yayınları, 1993, 332 s.
7. Say, A. *Müzik Ansiklopedisi* [4 clddə]. c.1. Ankara: Müzik Ansiklopedisi Yayınları, 1992, 1279 s.
8. Ekici, S. Türk Halk Müziğinin Melodik Yapısının Adlandırılması Konusunda Düşünceler (Ayak, Makam ve Dizi Kavramları) // *DergiPark*, 2011, №13, s. 1-13.
9. Yahya Kaçar, G. Türk Mûsikîsinde Makam // İstem, 2008, 6(11), s. 145-158. Erişim: https://dergipark.org.tr/tr/download/article-file/260761
10. Hatipoğlu, E. *Makamlar ve Terkibler*. Ankara: Müzik ve Güzel Sanatlar Üniversitesi, 2019, 1105 s. Erişim: https://books.google.com.tr/books?id=MnGqDwAAQBAJ&printsec=frontcover&hl=tr&source=gbs_vpt_read#v=onepage&q&f=false
11. Arel, H. S. *Türk Musıkisi Nazariyatı Dersleri*. Ankara: Kültür Bakanlığı Yayınları, 1991, 369 s.
12. Bulut, F. *Makamsal Dikte ve Solfej*. Ankara: Arkadaş Yayıncılık, 2014, 232 s.
13. Hacıbeyli, Ü. *Azərbaycan Xalq Musiqisinin Əsasları*. Bakı: Apostrof Çap Evi, 2010, 175 s.
14. Harmancı, A. B. Türk Mûsikîsinde Seyir Kavramı ve Yeni Bir Form: Seyr-i Nâtık // *DergiPark*, 2015, №23, s. 1-23.
15. Əmirov, F. C. *Musiqi Səhifələri*. Bakı: İşıq, 1978, 143 s.
16. Suphi, E. Nazarî-Amelî Türk Mûsikîsi, (Cild 1). İstanbul: Milli Məcmua Mətbəəsi, 1933, 48 s.

**Хюля Кудрет**

## Звукоряд макама Хусейни этнической группы карапапак

**Резюме:** Исследование под названием "Звукоряд макама, Хусейни, используемая этнической группой карапапак", проведено на основе метода интервью. В центре внимания этого исследования – карапапакские народные озаны, переехавшие из Азербайджана в Турцию. Эти озаны исполняют свои самые популярные произведения в регионе Гарс, в который они переехали. Эти произведения были записаны, сняты на видео и проанализированы исследователем, а также сравнены с макамовыми последовательностями, используемыми в Азербайджане. Используемые макамы подверглись детальному анализу. Было проведено сравнение макамов, используемых в Турции и Азербайджане, что позволило оп-

ределить их сходства и различия. Это исследование заполняет пустоту в области этнической музыкальной науки. При оценке с точки зрения тюркской музыки будет обсуждаться не только макам, но и метрические шаблоны. Это исследование, помимо того, что оно является редким в академической литературе, также подробно исследует влияние этнической принадлежности на музыкальный опыт.

Отмечая, что имя Гарапапак происходит от шляпы, которую носят жители региона, было показано, что термин Гарапапак относится к людям, которые предпочитают этот стиль одежды.

**Ключевые слова:** Хусейни, ушшак, макам, последовательность, кома, карапапак.

**Hulya Kudret**

**The Huseyni Makam Series Used by the Garapapagh Ethnic Group**

**Summary:** “The Huseyni Makam Series Used by the Garapapagh Ethnic Group” was conducted based on interview method. In this research, Garapapagh folk poets who migrated from Azerbaijan to Turkey are the focus. These poets perform their most popular works in the region they migrated to. These works were analyzed by me through video recordings, and also compared theoretically with the makam series used in Azerbaijan. The makams used have been subjected to detailed analysis. A comparison of the makams used in Turkey and Azerbaijan was conducted, allowing for the determination of their similarities and differences. This research fills an important gap in the field due to the limited scope of ethnic music research. When evaluated from the perspective of Turkic music, discussions will be made not only about makam but also about etnic patterns. This research, in addition to being rare in academic literature, also extensively explores the impact of ethnic identity on musical experience.

It has been noted that the origin of the name “Garapapagh” comes from the hat worn by the people of the region, and it has been shown that the term “qarapapaq” refers to people who prefer a garment in this style.

**Keywords:** Huseyni, uşşaq, makam, series, interval, Garapapagh.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06.11.2024**

**UOT: 78**
**ORCID: 0009-0000-2095-0570**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.043**

**Natavan Mikayıl qızı Həsənova**
**Azərbaycan Milli Konservatoriyasının baş müəllimi**
**E-mail: hasanovanatavan2@gmail.com**

# MƏMMƏDAĞA KƏRİMOVUN SƏNƏT DÜNYASINA SƏYAHƏT

**Xülasə:** Bənzərsiz muğam və tar ifaçılığının qədim ənənələrini qoruyub saxlayan, Azərbaycan musiqi mədəniyyətində xüsusi yeri olan görkəmli tarzən, pedoqoq, alim, əməkdar incəsənət xadimi, professor Məmmədağa Kərimovun yaradıcılıq simasını səciyyələndirmək işin əsas məqsədidir. Təqdim olunan məqalədə məhz sənətkarın repertuarını, ifaçılıq üslubunun xüsusiyyətlərini xarakterizə etmək üçün onun sənət dünyasına səyahət edərək, yaradıcılığının bəzi məziyyətlərindən söhbət açılır.

**Açar sözlər: tarzən, ifaçı, üslub, musiqi mədəniyyəti, musiqi aləti, muğam, pedaqoq**

Azərbaycan musiqi mədəniyyəti zəngin ənənələri ilə bütün dünyada tanınmış, müxtəlif xalqların sənətsevərlərini heyran etmişdir. İki istiqamətdə inkişaf edən – xalq musiqimizin və müasir Azərbaycan professional musiqisinin zənginləşməsində rəngarəng musiqi alətlərinin, habelə bu alətlərdə böyük ifaçılıq məharəti göstərən sənətkarların mühüm rolu olmuşdur.

Professor Vaqif Əbdülqasımov "Azərbaycan tarı" kitabında yazır: *"Tar haqqında tarixi mənbələrdə kifayət qədər məlumatlar var. Yazılı mənbələrdə bildirilir ki, tarı ilk olaraq Carco şəhərinin Fərab adlı bir kəndində X əsrdə Türküstan türklərindən Tərxanın oğlu Məhəmməd düzəldib"* (1, s. 23).

Tar müxtəlif dövrlərdə şairlərimiz, bəstəkarlarımızla yanaşı, ayrı-ayrı elm sahələri üzrə tədqiqat aparan alimlərimizin də nəzərindən qaçmamış, bu gözəl çalğı alətinin mənşəyi, quruluşu, bədii təsir xüsusiyyətləri üzərində dayanılmışdır. Əlbəttə, bu bir tərəfdən tarın qədim musiqi aləti kimi təravətdən düşməməsi, öz ifa imkanlarını qoruyub saxlaması ilə əlaqədardır. Digər tərəfdən tarın gözəl tembri, qəlb oxşayan səsi, şərq aləmində, xüsusilə Azərbaycanda geniş yayılması ilə bağlıdır (3, səh.32).

Bildiyimiz kimi, Azərbaycan tar ifaçılıq sənəti 2012-ci ildə UNESCO-nun mədəni irs siyahısına qəbul olunub. Bundan sonra tarın məhz bizə məxsusluğu bir daha dünyaya bəyan edilib (6).

Azərbaycan tarı milli-musiqi mədəniyyətimizin, Azərbaycan musiqisinin rəmzi hesab olunur. Azərbaycanda hər zaman tar aləti musiqinin simvolu kimi qəbul olunub və UNESKO-nun təmsiledici siyahısına daxil edildikdən sonra tar sənəti, tar ifaçılığı artıq

Azərbaycanın milli brendinə çevrilib. Bütün dünyada Azərbaycan tarı deyiləndə insanların xatirində milli mədəniyyətimiz canlanır.

Azərbaycan musiqi mədəniyyətində xüsusi yeri olan insanlardan biri də görkəmli tarzən, pedoqoq, alim, Əməkdar incəsənət xadimi, professor Məmmədağa Kərimovdur.

Bənzərsiz muğam və tar ifaçılığının qədim ənənələrini qoruyub saxlayan sənətkarın yaradıcılıq simasını səciyyələndirmək üçün onun repertuarını, ifaçılıq üslubunun xüsusiyyətlərini xarakterizə etmək işin aktuallığını təşkil edir. Bu baxımdan onun yaradıcılığında tar alətinin rolu, bir ifaçı kimi muğamlarımızın, Azərbaycan bəstəkarlarının bir çox klassik əsərlərinin onun tərəfindən necə ifa olunması qeyd olunur. Eyni zamanda musiqi elminə gətirdiyi yeniliklər, onun elmi və pedaqoji fəaliyyətini araşdırmaq da aktuallıq kəsb edir.

Bütün bunlar sənətkarı dərindən və hərtərəfli səciyyələndirməklə yanaşı, onun yaradıcılığının öyrənilməsini istiqamətləndirir, onun sənətinin tədqiqi zəruriyyətini önə çəkir və müraciət etdiyimiz mövzunun aktuallığını əsaslandırmağa imkan verir.

Onun çoxçəhətli yaradıcılığı müasir Azərbaycan musiqi sənətinin parlaq səhifələrindən birini təşkil edir. O, müsiqi mədəniyyətimizin sevilən, rəğbətlə qarşılanan nümayəndələrindən biridir.

Məmmədağa Kərimov hər zaman müəllim həmkarları və tələbələr arasında kifayət qədər böyük hörmət və nüfuz qazanmış, eləcə də musiqi ictimaiyyəti və sənət dostları tərəfindən böyük səmimiyyətlə, hörmətlə qarşılanmışdır. Qazandığı bu hörmət, bu nüfuz, hesab etmək olar ki, onun 73 illik ömrünün ən böyük dəyəri, ömür tacı, yaşadığı həyatın əsas mahiyyəti və uğurlu nəticəsidir. Məhz qazandığı bu hörmət onun ömrünü hədər yaşamadığını, mənalı və dəyərli ömür sürdüyünü sübut edir. Bu böyük hörməti, nüfuzu Məmmədağa müəllim öz işinə, vəzifəsinə daim yüksək məsuliyyət və ciddi münasibəti, daim işinə və peşəsinə qarşı yüksək mənəvi və peşəkar meyarlarla yanaşması, sənətin və pedaqoji işin tələb etdiyi ali amallara sədaqətli qalması, özünə qarşı tələbkarlığı və həm də şəxsi, insani keyfiyyətləri, iş yoldaşlarına, həmkarlarına və tələbələrinə qarşı həmişə səmimi, ədalətli olması ilə, yaxşı işləri və əməlləri, xeyirxah təbiəti ilə qazanmışdır.

Məmmədağa Əkbər oğlu Kərimov 1948-ci ildə Bakıda dünyaya göz açmışdır. 1959-cu ildə 1 saylı uşaq musiqi məktəbinin tar sinifinə daxil olmuş, 1964-cü ilə qədər orada 5 il istedadlı müəllimlərdən dərs almışdır. Muğam üzrə Akif Novruzovdan, musiqi nəzəriyyəsindən isə Üzeyir Hacıbəylinin tələbəsi, Azərbaycan dilində nəşr olunmuş ilk elementar musiqi nəzəriyyəsi kitabının həmmüəllifi Fatma xanım Zeynalovadan sənətin sirlərini öyrənmişdir. Musiqi məktəbini bitirdikdən sonra 1964-cü ildə Asəf Zeynallı adına musiqi kollecinə tar ixtisası üzrə daxil olmuş, orada da not ixtisası üzrə yenə Akif Novruzovun sinfində dərs almışdır. Muğam müəllimi isə muğam bilicisi Kamil Əhmədov olmuşdur.

1968-ci ildə musiqi kollecini bitirərək Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyası) daxil olmuşdur. Müsabiqə böyük olsa da 60 nəfər içindən 4 nəfər, o cümlədən Məmmədağa müəllim də Konservatoriyaya qəbul edilir. Xalq artisti, professor, dövlət mükafatı laureatı Səid Rüstəmovun sinfində musiqi sənətinin incəliklərini öyrənməyə başlayır. Səid müəllimin 5 il sinifində oxumaq özü böyük bir məktəbdir. Dirijorluqdan Süleyman Əsgərov, partitura oxunuşundan isə Hacı

Xanməmmədov kimi şəxsiyyətlər ona dərs veriblər.

"Musiqi texnikumunda təhsil alarkən axşam fəhlə-gənclər məktəbində də oxumuş, 3 ilə kamal attestatı almışdır. Sonra ali təhsil almaq üçün Konsevatoriyaya yox, Dadaş Bünyadzadə adına Xalq Təsərüfatı İnstitutuna qəbul olur, amma musiqiyə olan böyük sevgisi onu yenidən musiqi sahəsinə gətirir. O, Azərbaycan Dövlət Konservatoryasına qəbul olur. İki yerdə təhsil almaq mümkün olmadığından digər ali məktəbdə təhsilini dayandırmaq məcburiyyətində qalır. Konservatoriyada təhsilini başa vurduqdan sonra yenidən iqtisadçı kimi təhsilini tamamlayır (4, səh.100**)**.

Konservatoriyada təhsil dövründə Gülarə xanım Əliyeva ilə görüşür və onun dəvətilə "Dan ulduzu" ansamblına işə qəbul edilir. Bir neçə illər burada çalışır. O illərdə Azərbaycanın 50 illik yubileyini keçirmək məqsədi ilə Moskvada tez-tez konsertlərdə iştirak edir. Eyni zamanda tarzən "Dan ulduzu" instrumental ansamblında solist-tarzən kimi çalışmış və bu kollektivlə SSRİ-nin bütün Respublikalarında qastrol səfərlərində olmuşdir. Hətta tarzənin repertuarından bir neçə musiqi nümünələri Moskvada Ostankino Televiziyasında lentə alınmış və qızıl fonda daxil edilmişdir.

Qızıl fondda saxlanılan "Dan ulduzu" instrumental ansamblının ifa etdiyi C.Cahangirovun "Rəqs süitası", G.Əliyevanın "Şüştər rapsodiyası" adlı instrumental əsərlərində solo tar partiyasının ifaçısı məhz M.Kərimovdur.

Təhsil almaqla yanaşı o, müəllim kimi də fəaliyyət göstərir. Belə ki, konservatroriyaya daxil olan ildə Zeynallı adına orta ixtisas musiqi məktəbində müəllim saxlanılmış və ötən əsrin 73-cü ilində Konservatoriyanın xalq musiqisi kafedrasına işə götürülmüş və vaxtilə ona dərs deyən tanınmış pedaqoqlarla, sənət xadimləri ilə birlikdə çiyin-çiyinə çalışmışdır. 2002-ci ildən isə AMK-da çalışır. Yəni, görkəmli tarzən yorulmaz ifaçılıq fəaliyyəti ilə yanaşı, pedaqoji sahəyə də çoxlu güc və qüvvə sərf etmişdir. Uzun illər Məmmədağa Kərimov gənc ifaçı və müəllimlərin böyük bir ordusunu yetişdirməklə, Azərbaycan Milli Konservatoriyasında "Xalq çalğı alətləri" kafedrasının müdiri vəzifəsində çalışmış və bu gün də öz pedaqoji fəaliyyətini davam etdirir.

Məmmədağa Kərimovun müəllimlik fəaliyyətindən söz açarkən xüsusi vurğulamaq istəyirəm ki, hələ o illərdə müəllimlərindən aldığı dərslərdən mənimsədiyi fikirləri öz müəllimlik fəaliyyətində tələbələrinə yüksək səviyyədə aşılamışdır. Akif Novruzov, Kamil Əhmədov, Səid Rüstəmov və Süleyman Ələsgərov kimi böyük bəstəkarların iş prinsipindən faydalanaraq, onların yolunu davam etdirmiş, ustadlarından gördüyü tərbiyəni tələbələrinə aşılamışdır və bu gün də həmin ənənəni davam etdirir.

M.Kərimov tədris prosesində özünəməxsus metodikası ilə seçilən pedaqoqlardan biridir. Qeyd edək ki, tədris metodikası – hər hansı bir fənnin şagirdlərə daha yaxşı mənitsətmək üçün istifadə olunan qaydalar və yollar sistemidir. Tədris metodikası müəllimin şagirdə bilik verməsi, təlim prosesində şagirdlərin milli ruhda tərbiyə edilməsi, eyni zamanda şagirdlərin bilikləri şüurlu surətdə mənimsəmələri üçün istifadə olunan qayda və yollar deməkdir. Musiqi məktəblərində həmin üsulların tətbiq edilməsi hər bir dərsin məzmunu və məqsədindən, şagirdlərin bilik səviyyəsindən və onların yaş xüsusiyyətindən, tədris vəsaitinin olub-olmamasından və sairədən asılıdır. Təlim müəllimlə şagird arasında

bir ünsiyyət formasıdır. Əgər müəllim şagirdin nəzər-diqqətini özünə cəlb etməyi, onu maraqlandırıb düşündürməyi bacarırsa, onda o, öz istədiyinə nail ola bilər (2, səh.23).

Məmmədağa Kərimov da buna nail ola bilən müəllimlərdəndir.

Konservatoriyada işlədiyi çoxillik pedaqoji fəaliyyət, ünsiyyətdə olduğu təcrübəli müəllimlər ona pedaqoji işin bütün incəliklərində, bütün sahələrində zəngin təcrübə, zəngin bilik qazandırmışdır. Məlum həqiqətdir ki, illər insana yalnız əmək stajı yox, həm də təcrübə gətirir. Sənətkar qeyd edir ki, onun təhsil aldığı illərlə bu günki ifalar arasında fərq var. Yaradıcılıq işi, təbii ki, durğun ola bilməz, hər zaman inkişafdadır. “Müəllimlərimlə yanaşı Əhsən Dadaşovun ifalarına maraq göstərirdim. Hətta bir müddət, Hacı müəllimin filarmoniyada təşkil etdiyi dərslərə də getmişəm. Lakin Əhsən müəllimin ifa tərzi, onun mizrab quruluşu həmişə məni özünə çəkib”[3]. Məhz belə görkəmli tarzənlərdən dərs alan sənətkar haqqında tam məsuliyyətlə və fəxarətlə demək olar ki, bu gün Məmmədağa Kərimov respublikada tar ixtisasının təlim-tədrisi sahəsində təcrübəli, hörmətli və nüfuzlu pedaqoqlardan biridir.

Tarzənin ifaçılığında interpretasiya xüsusiyyətlərindən danışsaq qeyd etmək istərdim ki, Məmmədağa müəllimin ifası ilə digər tarzənlərin ifasında müəyyən fərqli cəhətlər vardır. Bu mənada Məmmədağa müəllimin bir neçə tar üçün işləmələrini xüsusi qeyd etmək istərdim. O, yüksək ifaçılıq bacarığı ilə bu işin öhdəsindən də ustalıqla gəlmişdir. Bu haqda sənətkarın dediklərindən: “Macar bəstəkarı F.Listin “Rapsodiya”sını ifa edərkən o dövr üçün əlamətdar olmayan iki, üç oktavalı xromatik gedişlər var idi ki, onların mizrab hərəkətləri, mizrabların simdən-simə keçmək üçün mizrabların dəyişiməsi, ağ simdən sarı simə alt mizrabla keçməyərək, elə bir aplikatura quruluşu yaratmaq lazımdır ki, o avtomatik özü simdən-simə keçəndə digər mizrabla düşüb davam etsin və mizrabların səslənməsi itməsin”.

Eləcə də Süleyman Ələsgərovun birinci konsertinin ifası haqqında da danışmaq olar. Konsertin ikinci hissəsinin orta bölməsi kənar hissələrə rəğmən hərəkətli, cəld templidir. Tarzən bir-birinin ardınca gələn alt mizrab, forşlaq, mordentdən istifadə edərək bu hissəni ustalıqla ifa edir. İfaçı özü bu barədə deyir ki, sim üzərində olan ikinci və üçüncü barmaqların hərəkətini, onların qüvvəsini, barmaqların bərkliyini almaq üçün o qədər işləmək lazım idi ki, barmağın ucu artıq mazollşıb mizraba dönsün ki, mizrabda bir mizrab işləyərkən ikinci, üçüncü mizrab əvəzinə barmaqla dartmaqla o səslər alınsın. O dövr üçün bu bir yenilik idi.

Əlbətdə, indiki dövrdə kifayət qədər yeni ifa tərzləri vardır. İfaçılar xarici ifalarla maraqlanırlar, onların ifa tərzini, səslənmə tərzini xalq çalğı alətlərinə köçürməyə çalışırlar və bu da yüksək qiymətləndirilməlidir.

Professor M.Kərimov Konservatoriyada pedaqoji fəaliyyəti ərzində həm də tar ixtisasının təkmilləşdirilməsi və inkişafı, tədris repertuarının zənginləşməsi sahələrində çox əhəmiyyətli işlər görmüşdür. Onun pedaqoji metodika sahəsindəki işləri respublikanın hər yerində uşaq, orta ixtisas, ali musiqi məktəblərində tar ixtisası üzrə müəllimlərin tədris

[3] Burada və irəlidə sənətkarın dilindən verilən istinadlar M. Kərimovla şəxsi söhbətlərdən götürülüb.

metodikası üzrə öz bilik və bacarıqlarını təkmilləşdirməsinə müsbət təsir göstərmişdir. Belə ki, pedaqoq bu illər ərzində onlarla metodik tövsiyə, köçürmələr, proqamlar hazırlamışdır. Böyük təcrübəsindən irəli gələrək yazdığı dərs vəsaitləri və metodik vəsaitləri ixtisaslı kadr hazırlığına müsbət təsir göstrmişdir. Bu tədris vəsaitlərundən bir neçəsini nümunə olaraq göstərək: professor Afət Novruzovla birgə tərtib etdikləri “Azərbaycan xalq çalğı alətləri not ifaçılığının tarixi” adlı dərs vəsaiti, tanınmış bəstəkar Firəngiz Babayevanın tar ilə simfonik orkestr üçün “Konsert”i, T.Bakıxanovun Tar ilə simfonik orkestr üçün “4 saylı Konsert”i adlı metodik tövsiyyəsi, tar ilə f-no üçün “Pyeslər məcmüəsi”, bakalavr və magistr pillələri üçün ixtisas ansambl fənni üçün tərtib edilmiş proqramlar, “Xarici ölkə bəstəkarlarının ansambl üçün işlənmiş əsərləri”, “Azərbaycan və xarici ölkə bəstəkarlarının tar ilə f-no üçün işlənmiş əsərəri” və s.

Bu metodik işlər, bu tədris vəsaitləri bir daha təsdiq edir ki, Məmmədağa müəllim öz pedaqoji fəaliyyətini yalnız təcrübə üzərində deyil, eyni zamanda elmi əsaslarla, müasir tədris-təlimin və pedaqogikanın tələbləri səviyyəsində qurmağı bacaran, daim öz üzərində işləyən, özünə böyük tələbkarlıqla yanaşan bir müəllimdir. Onun bu keyfiyyətləri gənc nəsil üçün olduqca dəyərli bir nümunədir.

Nəhayət, pedaqoji nailiyyətləri haqqında bu faktları da nəzərə çatdıraq ki, onun tərbiyə edib yetişdirdiyi yüzdən artıq kadr arasında hazırda ifaçı, musiqişünas, dirijor və bəstəkar kimi uğurla fəaliyyət göstərənlər var. Müəllim üçün isə ən böyük xoşbəxtlik və ömür qazancı yetişdirdiyi tələbələr və onların uğurlarıdır. Bir çox tələbələri müxtəlif səviyyəli ifaçılıq müsabiqələrində qələbə qazanaraq diplomlara, fəxri adlara layiq görülmüşlər. Yetirmələrinin bəziləri hazırda Azərbaycan Mili Konservatoriyasında müəllim, dosent, professor kimi çalışırlar.

Məmmədağa müəllimin yetişdirdiyi ilk tələbələrdən biri görkəmli tarzən, xalq artisti, professor Möhlət Müslümovdur. Bu gün o, öz müəllimi ilə birgə eyni kollektivdə çalışır. Onun digər tələbələrindən Azərbaycan Respublikasının Əməkdar artisti, AMK-nın dosenti Səbuhi Cəfərov, Respublika və Beynəlxalq müsabiqələr laureatı Gülağa Zeynalov, Əməkdar artist Sahib Paşazadə, Əməkdar artist Ələkbər Ələkbərov, Arslan Növrəstli, Xalq artisti Elçin Nağıyev və başqalarının adını çəkə bilərik. Onlar həm ifaçı, həm də pedaqoq kimi fəaliyyət göstərərək öz müəllimlərinin yolunu davam etdirirlər.

Bir müəllim kimi Məmmədağa Kərimov hər zaman yetişdirdiyi tarzənlərin respublikanın müxtəlif musiqi ocaqlarında çalışmalarına, Azərbaycan mədəniyyətini irəli aparmalarına ürək dolusu sevinir, onlarla fəxr edir.

Məmmədağa Kərimov həm də istedadlı alimdir. O, namizədlik dissertsiyasını 1987-ci ildə Tiflisdə müvəffəqiyyətlə müdafiə elmiş və sənətşünaslıq namizədi (sənətşünaslıq üzrə fəlsəfə doktoru) elmi adını almışdır. Məmmədağa müəllim bir neçə elmi-tədqiqat və publisistik məqalələrin müəllifidir. Bu məqalələr müxtəlif qəzet, jurnal və elmi məcmüələrdə nəşr edilmişdir. Bunlardan bir neçəsinin adını çəkmək istərdim: “Azərbaycan muğamlarına arxeoloji və tarixi baxımdan nəzər”, “Üzeyir Hacıbəyli yaradıcılığında xəlqilik”, “S.Rüstəmovun mahnıları”, “Muğamların yaranması tarixinə dair”, “S.Ələsgərovun kamera instrumental musiqisi”, “Unudulmaz tarzən” və s.

Xatırladaq ki, Məmmədağa müəllimin "Azərbaycan xalqının musiqi irsi" adlı monoqrafiyası da vardır. Bu kitab 2007-ci ildə nəşr olunmuşdur. Burada Azərbaycan xalqının musiqi irsinin bir neçə minillikər boyu toplanması, zənginləşdirilməsi, eyni zamanda təkmilləşdirilməsi çox gözəl şəkildə şərh olunmuşdur. Kitab Azərbaycan dilindən əlavə, rus və ingilis dillərinə də tərcümə edilmişdir.

M.Kərimov yaradıcılığının daha bir tərəfi bir bəstəkar kimi də çıxış edərək bir sıra maraqlı əsərlərin müəllifi olmasıdır. Tar üçün "On beş etüd" məcmüəsini buna misal göstərə bilərik. Bunlardan ikisi "Etüd məşğələ" kimi qeyd edilib, qalanları sırf etüdlərdir.

Onun bəstələdiyi əsərlər içərisində "Qanun və f-no üçün Konsert" əsərini xüsusi qeyd etmək istərdim. Əsər istedadlı qanun ifaçısı, Beynəlxalq və Respublika müsabiqələri laureatı, AMK-nın baş müəllimi Natavan Həsənovaya həsr olunmuşdur. Əsərin fortepiano partiyasının müəllifliyi AMK-nın baş müəllimi, aparıcı konsertmeyster Svetlana Əhmədovaya məxsusdur.

İlk dəfə bu əsər Məmmədağa Kərimovun 70 illik yubiley gecəsində Azərbaycan Milli Konservatoriyasının böyük zalında ifa olunmuşdur.

Qanun üçün yazılan əsərlərin məhdud olduğunu görən Məmmədağa müəllim bu alət üçün əsər yazmağı qarşısına məqsəd qoymuşdur. Əsər ilk variantda qanunla fortepiano üçün nəzərdə tutulmuşdu. Sonradan qanun və kamera orkestri üçün 3 hissəli Konsert kimi ərsəyə gəldi. Bu haqda Məmmədağa müəllim deyir: "Mənim ürəyimdə bir arzum var idi. Çox hörmət bəslədiyim, mənim sevimli tələbələrimdən olan, istedadlı qanun ifaçısı Natavan xanıma bir iş həsr etmək istəyirdim. Beləliklə, bu əsəri ona həsr etdim. Mən notun əsas hissəsini bitirmədən üçüncü hissə yazıldı və mənim 70 illik yibiley gecəmdə ifa etməsini Natəvan xanımdan xahiş etdim. F-no partiyasının müəllifi Svetlana Əhmədova ilə Natavan xanım qanunda bu əsəri o dövrdə konsertin üçüncü hissəsi kimi yox, bir skertso kimi ifa etdilər və mənə elə gəlir ki, pis də qəbul olunmadı. Ondan sonrakı dövrdə mən konsertin birinci və ikinci hissələrini də tamamladım və əsər qanun və kamera orkestri üşün yazılan ilk Konsert kimi ərsəyə gəldi" (Məmmədağa müəllimlə söhbətdən).

Mənə həsr olunan bu gözəl əsəri sonralar dəfələrlə Azərbaycan Akademik Dövlət Filarmoniyasının, Kamera və Orqan musiqi zalının (Kirxanın) səhnəsində sevərək ifa etmişəm və əsər böyük alqışlarla qarşılanıb. Onu da vurğulamaq istəyirəm ki, Məmmədağa müəllimin sevimli tələbələrindən olmuşam. Hər zaman mənim ifamı bəyənərək öz müsbət təəssüratlarını bildirib. Mən də onun sənətinə, pedaqoqluğuna, yüksək mədəniyyətinə, tələbələrlə öz doğma balası kimi davranmasına böyük hörmətlə yanaşmışam. Məmmədağa *Kərimov çox səmimi bir insandır. Onun bütün yaxşı cəhətləri həm də bu səmimiyyətindən irəli gəlir. Bir neçə ildir ki, artıq biz kolleqa kimi birgə eyni təhsil müəssisəsində – Azərbaycan Milli Konservatoriyasında çalışırıq. Onun müəllim kollektivi ilə, tələbələrlə necə səmimi davranmasının şahidiyəm. Bu,* Məmmədağa *müəllimin öz təbiətindən irəli gəlir.*

Beləliklə, bu məqalədə Məmmədağa Kərimovun sənət dünyasına səyahət edərək onun yaradıcılığının bəzi məziyyətlərindən söhbət açdıq. Əminəm ki, bu zəngin yaradıcılığa hələ neçə-neçə yeni səhifələr əlavə olunacaq.

## İstifadə edilmiş ədəbiyyat

1. Əbdülqasımov V. Azərbaycan tarı. – Bakı, İşıq, 1989, 95 s.
2. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal-interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). – Bakı, 2011
3. Ələsgərov S., Abdullayeva S. Azərbaycan xalq çalğı alətləri və orkesrtləşdirmə. – Bakı, Maairf, 1996, 121s.
4. Qulamova J.E. Tarin simlərindən qəlblərə axan musiqi. Məmmədağa Kərimov – 70. // "Konservatoriya" jurnalı, 2018, №4 (42), səh. 99-103
5. Novruzov A. Tarın ifaçılıq xüsusiyyətlərinin təkamülündə xarici və Azərbaycan bəstəkarları əsərlərinin rolu. Avtoreferat. – Bakı, 2002
6. UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Hökumətlərarası Komitəsinin 15-ci iclası öz işinə başlayıb. URL: http://mct.gov.az/az/umumi-xeberler/13370

**Натаван Гасанова**

### Путешествие в мир искусства Мамедаги Керимова

**Резюме:** Основная цель работы – охарактеризовать творческий облик профессора Мамедаги Керимова – выдающегося тарзана, педагога, ученого, заслуженного деятеля искусств, сохранившего древние традиции уникального исполнения мугама и тара, занимающего особое место в музыкальной культуре Азербайджана. В представленной статье рассказывается о достоинствах его творчества, автор отправляется в путешествие по миру его искусства, чтобы охарактеризовать р-епертуар артиста, особенности его исполнительского стиля.

**Ключевые слова:** тар, исполнитель, музыкальная культура, музыкальный инструмент, мугам, педагог.

**Natavan Hasanova**

### The Journey to the Mamedagha Kerimov's World of Art

**Summary:** The main purpose of the work is to characterize the creative image of outstanding Tar player, pedagogue, scientist, honored art worker, professor Mammadaga Karimov, who has preserved the ancient traditions of unique mugham and tar performer and has a special place in the Azerbaijani music culture. The presented article tells about the merits of his work, the author has a journey through the world of his art to characterize the artist's repertoire, peculiarities of his performing style.

**Keywords:** Tar player, performer, style, musical culture, musical instrument, mugham, educator.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.10.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский Государственный Университет Культуры и Искусств, XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Art, XLVI edition, Baku, 2024

## TƏSVİRİ SƏNƏT

**UOT: 7-730**
**ORCID: 0009-0001-4326-7704**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.045**

**Məryəm Mənsim qızı Kazımova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Təsviri incəsənət və OTT kafedrasının baş müəllimi,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**E-mail: mmk74@bk.ru**

# AZƏRBAYCAN HEYKƏLTƏRAŞLIĞINDA AĞAC MATERİALINDAN YARADILAN ƏSƏRLƏRİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Məqalədə Azərbaycan milli heykəltəraşlıq sənətində ağac materialında yaradılan sənət əsərlərinin bədii-estetik xüsusiyyətlərindən söz açılır. Dünya incəsənətində ağac heykəltəraşlığının inkişaf tarixi qədimdir. Ölkəmizdə isə realist məzmunlu heykəltəraşlıq sənətinin inkişafı müasir dövrə təsadüf edir. Təqdim edilən məqalədə məhz müasir dövrdən bu sadə materiala istinad edən bir sıra görkəmli heykəltəraşlarımızın yaradıcılıq irsinə nəzər salınır. Ağac materialında dəyərli əsərlər yaradan peşəkar sənət nümayəndələrinin heykəltəraşlıq əsərləri təhlil edlir. Təsviri sənət tariximizin zənginləşməsində xidmətləri olan İbrahim Zeynalov, Tokay Məmmədov, Elmira Hüseynova, Ömər Eldarov və digər sənətkarların bu təbii materialda özünəməxsus bədii üslubu və texnikası araşdırılır. Heykəltəraşların yaradıcılığında üstünlük təşkil edən portret janrı ilə yanaşı sərbəst mövzuların kompozisiya həllində ağac materialının təbii faktura, dekorativ əlamətlərinin rolu təhlillər zamanı vurğulanır. Ağac təbiətin canlı materialıdır. Ağac heykəltəraşlığında bəzən hamar, bəzənsə qeyri-səlis oymalarla obrazın daxili aləmi və xarici görkəmi vəhdət yaradaraq xarakterin açılmasına, hisslərin aydın ifadəsinə imkan yaradır.
**Açar sözlər:** heykəltəraş, ağac materialı, plastika, portret, bədii obraz, janr.

Qədim dövrlərdən heykələtraşlıq nümunələrinin hazırlanmasında müxtəlif təbii materiallardan istifadə olunub. Tarixən bəlli olan daş, sümük kimi əsas materiallarla yanaşı heykəltəraşların yaradıcılığından yan keçməyən sənət materiallarından biri müxtəlif ağac növləridir. Tişə sənətində mülayim xarakterli bu materialın bədii imkanları tükənməzdir. Belə ki, ağac materialında obrazın plastik ifadəsi fiziki və təbii dekorativ əlamətlər sayəsində özünəməxsus bədii çalarlar qazanmış olur.

Ağac materialının tarixən xalq məişətində müxtəlif əşya və avadanlıqların hazırlanmasında əhəmiyyətli rol oynaması danılmazdır. Həmçinin musiqi alətləri üçün, me-

marlıqda qapı, pəncərə və s. bu kimi hissələrdə, konstruktiv, dekor məqsədilə istifadə olunub. Dəzgah heykəltəraşlığında isə bu materialın rolu realist üslubda, fərqli xarakterli obrazların axtarışı, dolğun, bitkin portretlərin yaradılmasından ibarətdir.

Ağac materialında heykəltəraşlığın inkişafı incəsənət tariximizdə müasir dövrdən aktualdır. Hər bir ağac növünün təbii rəngi, teksturası və möhkəmliyi peşəkar yanaşmayla rəssamlarımız tərəfindən zamanla dəyərləndirilib. Belə ki, XX əsr Azərbaycan incəsənətində bir sıra tanınmış heykəltəraşlar bu materiala dəfələrlə müraciət etmişlər. Dəzgah heykəltəraşlığının portret janrında görkəmli şəxsiyyətlərin, tanınmış və sıradan insanların obrazları ağac materialında əbədiyaşarlıq qazanıb. Tişə sənətkarlarımız ağac üzərində məzmunca digər materiallardan heç də geri qalmayan, üçölçülü formalarla tipikliyi, obrazlığı, xarakteri vurğulayan uğurlu əsərlər ərsəyə gətiriblər. Görkəmli heykəltəraşlarımızdan Tokay Məmmədovun, İbrahim Zeynalovun, Ömər Eldarovun, Həyat Abdullayevanın, Elmira Hüseynovanın, ağac materialında yaratdığı əsərlər orijinallığı ilə yaddaqalandır.

Milli tişə sənətkarları arasında Tokay Məmmədovun hələ gənc yaşlarından bu materialda yaradıcılıq dəst-xətti peşəkarlıq cəhətdən uğurlu olub. Sənət adamlarının daima diqqət mərkəzində olan Nizami Gəncəvinin bədii obrazına T.Məmmədov məhz ağac materialında müraciət edib (*şək.1*) Nizaminin ağacdan oyulan düşüncəli görkəmi olduqca real və təbiidir. Şairin mənəvi aləminin zənginliyini yansıdan ahəngdar cizgilər müdrik insanın simasında ümumiləşdirilmişdir. Çənəyə dayanan sağ əlin forması anatomik xırdalıqlarla yanaşı, ümumi portretə ifadəlilik verən əsas elementlərdən biridir. Geniş alının rəvanlığını pozan dərin qırışlar, önə dikilən susqun, dalğın nəzərlər potik ruhlu müdrik şairin dolğun obrazıdır. Heykəltəraş tarixi şəxsiyyəti elə klassik şairin əsərlərində adı keçən "*çalma*" adlı baş geyimində təsvir etməklə dövrə dair real təəssürat yaradır. Burada düzgün tapılan bədii forma obrazın xarakterini açaraq gerçəkliyi əks etdirir. F.Əbdürrəhmanaovun yaratdığı Nizami obrazına xas təmkinliyi əks etdirən portret ağac materialında yeni bədii çalar qazanmışdır. Ağacdan yonulan heykəl hal-hazırda şairin adını daşıyan muzeydə nümayiş olunur.



*Şəkil 1. Nizaminin portreti. Ağac.1953.*



*Şəkil 2.Şair Səməd Vurğunun portreti. Ağac.1957.*

Tişə ustasına Səməd Vurğunun obrazını ağac materialında iki dəfə işləmək müyəssər olub. Təbiət aşiqi Vurğunun elə təbiətin özü kimi hərarətli ağacdan oyulan ilk portretinə bədii dinamiklik xasdır (*şək.2*). Şairin surətində çox həssaslıqla ifadə edilən səmimiyyət, nəciblik kimi xarakterik keyfiyyətlər peşəkar ifaçılıq məharətinin nəticəsidir. Əsən mehin xə-

fifliyi Vurğunun ruhunu oxşayaraq onun sifət çizgilərində sezilən mülayim gülərüz çöhrəsi ilə həmahəngdir. Portretlə müqayisədə lirik şairin çiyinlərinin bilərəkdən həcmli və iri işlənməsi kompozisiyada mütənasibliyə zidd olsa da, əsərdə rəmzi-estetik mahiyyətlidir.


*Şəkil 3.Səməd Vurğun. Ağac.1963*

Xalq şairi S.Vurğunun 1963-cü ildə ağac materialında tam fiqurlu heykəlində obraz vüqarlı və bir qədər dalğındır (*şək.3*). Burada kompozisiya yenidən əsən küləyin fonunda həll edilib. T.Məmmədov zahiri cizgilərin oxşarlığını təkrarlamamış, şairin geyiminin formasını yumşaq və hamar səthlərlə vurğulamaqla portretin xarakterini açmağa nail olmuşdur. Əllərin səliqəli üst geyiminin yan ciblərində, irəliyə yönlənən nəzərlərlə, pafosdan uzaq, sadə duruşda təsvir şairin ruhən azadlığının aydın şəkildə ifadəsidir. İnsana xas bu kimi nəcib keyfiyyətlərin ifadəsində seçilən ağac materialının özünəməxsus rolu vardır.

Sənətşünas C. Novruzova Tokay Məmmədovun yaradıcılıq irsinə dair portretlərə iki bədii məzmunlu forma axtarışı hakim olduğunu qeyd edir: "*Onlardan birinə sakit, təmkinli, digərlərinə isə böyük ekspressivlik, dərin dinamizm və cəsarət xasdır*" [1, s 39].

İstedadlı heykəltəraş 1963-cü ildə tünd rəngli ağacda adi qocanın deyil, dövrünün uzunömürlü insanının obrazını yaradır (*şək.4*). Çoban qiyafəli Şirəli Müslümovun simasında maraqlı plastik forma axtarışları xırdalıqlara malikdir. Dərində qalan yuvarlaq gözlər, çatılmış qaşlar, nəzərə çarpaq yastı almacıq sümükləri dağlar qoynunda yaşayan bu ahıl insanın yaşına xas xarakterik əlamətlərdir. Qocanın başındakı motal papağı, çənəni tamaman qapayan gur saqqalı kompozisiyada milli xarakteri vurğulayan əsas elementlərdir. Burada hissələrin bir-biri ilə mütənasibliyi, materialın xarakterik əlamətliliyi 163 yaşlı azərbaycanlının simanın sərtliyinə yumşaqlıq gətirərək ağac heykəlində əbədiləşib.


*Şəkil 4. Şirəli Müslümovun portreti. Ağac.1963.*

Müxtəlif materiallarda bir-birindən maraqlı əsərlər yaradan istedadlı heykəltəraşın ağac materialında insan obrazları rəngarəngliyə malikdir. Qrafika və rəngkarlığın müxtəlif növlərində çoxşaxəli yaradıcılıq potensionalı Qəzənfər Xalıqovun ağacdan yonulan portretində güclü realist ştrixlərlə vurğulanmışdır. İncəsənət adamının bədii obrazında xarakterik əlamətlərin peşəkar plastikası işıq-kölgə oyunu ilə əsəri yaddaqalan edir. Məntiqli baxışlarda cəsarətlilik, qətiyyətlilik və dəqiqliklə bərabər, mədəni insana xas alicənablıq aydın və seziləndir. Dairəvi ağac heykəldə peşəkarlıqla nəzərə alınan mütənasiblik, ölçülərin uyğunluluğu, həcmin ahəngdarlığı heykəltəraşın güclü fəza hissiyatına malik olmasını göstərir.


*Şəkil 7. H.Z. Tağıyevin portreti.Ağac. 1997.*

T.Məmmədovun ağacdan yaratdığı obrazların xarakterik xüsusiyyətləri materialın fakturasında bəzən rəvan, bəzən kəskin formalarla plastik həlli bədii baxımdan əhəmiyyət kəsb edir. Heykəltəraş qəhrəmanlarının daxili aləmini, onların ictimai həyatda tutduğu mövqedən asılı olaraq mənəvi psixoloji keyfiyyətlərini ağac materialında taparaq, realist ruhlu ciddi bir əsər səviyyəsində tamaşaçıya sevdirə bilib.

Yaradıcılığı boyu ağacın hərarətli fakturasından məharətlə istifadə edən İbrahim Zeynalovun ağac materialında yaratdığı əsərlər əsasən lirik əhval-ruhiyyəlidir. Sənətkarın 1965-ci ildə “Tələbə qız”ın portretində bu material üçün xas fərdi dəsti-xəttinin əlamətləri diqqəti cəlb edir (*şək.5*). Gənc qızın yerə dikilən kədərli baxışları dalğınlığını, üz mimikası isə sakitliyini yansıtmaqla obrazın xarakterini əks etdirir. Realist üslublu əsər əlavə effektlərdən uzaq heykəltəraşlıq nümunəsidir.


Şəkil 5.Tələbə qız. ağac. 1965.

“Külək” və “Səhər” adlı lirik kompozisiyalarda heykəltəraş ümumiləşdirilmiş gənc qadın obrazlarına müraciət edib. “*Bu pozaya, siluetə, jestin ifadəliliyinə təravətli xarakteristika vermək bacarığını təsdiqləyir. Bu rəmzi-aleqorik işlər formanın obrazlı təsirinin, kompozisiyanın ritmi ilə asanlıqla uzlaşdırılması bacarığı diqqəti cəlb edir*” [2, s.10]. “Külək” adlı əsərdə bükülü vəziyyət alan qadının saçları simasını qapayıb (*şək. 6*). Zərif görünüşlü obrazın sifət cizgiləri tamaşaçıya gizli qalsa da, plastikanın material boyu rəvanlığı, qadının vəziyyəti, onu əhatə edən soyuqluq əsərdə duyulası dərəcədə həssaslıqla işlənilib. Naməlum qəhrəmanın ağacdan yonulan heykəlində onun zahiri əlamətləri əsən külək səbəbindən deyil, daxili iztirabın, dramatizmin nəticəsi olaraq belə tərzdə bədiiləşdirilib.


*Şəkil 6.Külək. Qoz ağacı.1988.*

“Səhər” kompozisiyasında isə digər əsərdən fərqli olaraq günün başlanması gənc qadının obrazında daha təmkinli və rahat şəkildə, təbii dekorativ görünüşlü ağacı artıq hissələrdən “təmizlənməklə” yaradılıb. Fiqurun azad, cəsarətli pozası zərifliyi ilə klassikaya meyillidir. Hər iki əsərdə müəllif material üzərində tişə ilə heç bir əlavə faktura yeniliyi etmədən, formanın plastikasını və materialın özünəməxsus keyfiyyətlərini əsas götürmüşdür.

Görkəmli heykəltəraşımız xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin portretini 1997-ci ildə, Müstəqillik dövründə ağac materialında işləyib (*şək.7*). İ.Zeynalov yaradıcılığında əhəmiyyətli mövqeyə malik tarixi janrlı portret əsərlər üçün xarakterik əlamətlər dəzgah heykəltəraşlığından da yan keçməyib. Yumşaq səthlər xeyriyyəçinin nurani və təmkinli çöhrəsində xarakterik cəhətləri nəzərəçarpacaq dərəcədə artırıb. Bir

çox ilklərə imza atan Tağıyevin obrazı təntənəliliyi ilə deyil, milli səmimiyyəti ilə diqqəti cəlb edir.



*Şəkil 8.S. Bəhlulzadənin portreti. I variant.1965.*

Xaraktercə mülayim, mehriban və alicənab insan, Azərbaycanın görkəmli heykəltəraşı Ömər Eldarovun bənzərsiz yaradıcılığında monumental heykəllərlə yanaşı dəzgah heykəltəraşlığına dair əsərlərin incəsənət tariximizdə özünəməxsus yeri vardır. Belə işlər arasında ağacdan oyular heykəllər məzmun müxtəlifliyi və plastik həllinin peşəkarlığı ilə digərlərindən geri qalmır. Ağacın növlərini və onun xüsusiyyətlərini mükəmməl bilən heykəltəraşa bu material yaratdığı obrazların daxili dünyasını təkrarolunmaz plastik formalarda daha qabarıq əks etdirməyə sanki kömək edir.

Heykəltəraş fəlsəfi mənzərə janrının banisi Səttar Bəhlulzadənin obrazını tişə sənətinin texniki imkanları daxilində, ağac materialında iki dəfə işləyib. 1965-ci ildə Səttar Bəhlulzadənin heykəltəraş tərəfindən yaradılan bədii obrazı özünəməxsus plastik həlli ilə fərqlənir (*şək.8*). 100x85x60 ölçülü əsərdə boyakar rəssamın daxili aləminin yaradıcı yanğısını xarakterik sifət cizgilərində, əllərinin formasında özünəməxsus ekspressivliklə əks etdirmişdir. Obrazın dinamik və emosional təsirini ağacın üzərində açdığı cəsarətli izlərlə artırmağa nail olmuşdur.

İkinci portretdə S.Bəhlulzadədənin rəssam olmasını, sənət dünyasını yalnız istedadlı insana xas ifadəli əllərinin forması onu tanımayan hər kəsə asanlıqla "*diktə*" edir (*şək. 9*). Ö. Eldarov təsviri sənət aləmində nəcib ruhlu həmkarının ağacdan yonduğu romantik surətini materialın mətninə uyğun məharətlə həll etmişdir. S.Bəhlulzadənin yaradıcılığını yüksək dəyərləndirən Xalq rəssamı deyir: "*Səttar yalnız xalqımızın deyil, həm də Yaxın-Uzaq Şərqin, bütövlükdə türk dünyasının bənzəri az olan sənətkarlarından biridir*" [3, s.24] . Hər iki əsər hal-hazırda Azərbaycan Milli İncəsənət Muzeyində mühafizə olunur.

1975-ci ildə "Zamanın dörd rəngi" adlı əsərində heykəltəraş qoz ağacının dörd rəng çalarından istifa-də edib (*şək.10*). Hər bir rəngdə rəmzi olaraq qadın ömrünün müxtəlif çağları bədii əksini tapıb. Bu heykəllər vasitəsilə qadınların yaş dövrlərinin fizioloji əlamətləri, psixoloji xüsusiyyətləri maneralarda həssaslıqla canlandırılmışdır. Rəmzi olaraq qadın ömrü bahar, yay, payız və qış fəsli ilə eyniləşib. Əsər barə-



*Şəkil 9.S. Bəhlulzadənin portreti. II variant. 1968.*



*Şəkil 10. Zamanın dörd rəngi.Ağac.1975.*



*Şəkil 11. Dirijor Niyazi. 1984-cü il.*

də tişə ustasının söylədiklərindən: "*Həyatda ən zərif, ən kövrək, ən naz sevən məxluq qadındır. Qadın lirikadır, musiqidir, gözəllik simvoludur. Bu çağa kimi yaranan və hələ yaranmayan bədii əsərlərin rəmzidir... Obrazlardan biri ömrünün qönçə dövrünü, çiçək, buta çağını yaşayır. Və nəhayət, gülün ətri tədricən qeyb olduğu, ləçəkləri üzülüb düşdüyü kimi, o da yaşa dolur. Gözünün nuru azalır, alnını qırışlar bürüyür... Dörd fəsil – əslində ömürlərin, yaş ölçüsünün estafetidir*" [3, s.24].

Hal-hazırda Milli Azərbaycan İncəsənəti muzeyinin sərgi salonunda nümayiş olunan dirijor Niyazinin portreti açıq rəngli ağac üzərində maraqlı süjet xətti ilə dinamikdir (*şək.11*). Klassik musiqi sənətkarının obrazı kompozisiyanın mərkəzində qollarını çarpazlaşdıraraq zəhimli nəzərləri yerə dikilmiş, siması gərgin və düşüncəli olmaqla ön plandadır. Heykəltəraş Niyazinin sağ və solunda onun dirijor sənətinə sahib yaradıcı, musiqiçi olmasını əllərinin epizodik həllində, siluetşəkilli daha bir portreti ilə arxa fonda oymaqla ikili obraz yaratmışdır. Mərkəzi qorelyefdə xarakterik sifət cizgiləri, uzunqollu geyiminin qırışlarına qədər dəqiqliklə işlənən obraz reallığı, arxa fonun təsvirləri isə musiqiçinin peşə fəaliyyətinin təxəyyülvari obrazını əks etdirir.

Sənətkarın yaradıcılığında ağac materialında işlədiyi kompozisiyalar mövzu cəhətdən rəngarəngdir. Məsələn, 1965-ci ildə iki fiqurlu "Neftçilər" adlı əsəri həmin illərdə təsviri sənətdə aktual olan peşə sahiblərinə həsr edilib. Ekspressivliyi ilə fərqlənən hər iki dənizçinin fiqurunu materialda kələ-kötür yonan heykəltəraş, bu kompozisiyada ağac materialının estetikasına fərqli səth oymaları ilə nail olur.

Görkəmli sənətkar Ö.Eldarovun ağac materialı ilə işlədiyi hər bir əsəri təkrarsız süjet xəttinə malik, rəssamın yaradıcılıq potensialının tükənməzliyini, dəzgah heykəltəraşlığında bədii təxəyyülünün hüdudsuzluğunu, müdrikliyini əks etdirir.

Azərbaycanda ağac materialında bədii-estetik dəyərli əsərlər yaradan qadın heykəltəraşlarımızın da əməyi az olmayıb. İncəsənətin heykəltəraşlıq kimi mürəkkəb və çətin növündə keçən əsrdə Elmira Hüseynova və Həyat Abdullayeva ağac materialında müxtəlif mövzulu bir sıra heykəllərin müəllifləridir. Xanımlara məxsus bu təbii materialda həssas duyğuların bu qədər real və səmimi şəkildə bədiiləşdirilərək əks olunmasının şahidi oluruq. Hər bir xanımın özünəməxsus dəst-xətti, mövzuya fərdi yanaşma tərzi və axtarışları bir-birindən fərqlənərək təkrarolunmazlığa malikdir.

*Şəkil 12. Gənclik. Ağac. 1960*



Peşəkar dəzgah heykəltəraşlığında Həyat Abdullayeva müxtəlif materiallarda lirik mövzulara daha çox üstünlük verib. Müəllifi olduğu "Gənclik" adlı iki fiqurlu əsəri 1960-



*Şəkil 13.Azərbaycanlı qadın. Ağac. 1957.*

cı ilə aid olsa da, mövzu və plastik həllin peşəkarlığı, səmimi hisslərin bu qədər şairanə əksi ilə müasir tamaşaçının diqqətini özünə cəlb edir (*şək.12*). Qadın heykəltəraş insan ömrünün özünəməxsus təravəti ilə seçilən gənclik sevgisini əsən meh fonunda oğlanla qızın obrazında yansıtmışdır. Burada gənclik üçün xas olan çılğınlıq dinamik deyil, sakit qəhrəmanların qamətində, baxışlarında nikbin ruhda əks olunub. Təbii ki, heykəltəraşın ağac materialının texniki imkanlarını yaxşı bilməsi ənənəvi mövzunu yeni rakursdan, fərqli lirizmlə çatdırmağa imkan verib. "*Sənətkar gəncliyin çiçəklənən saflığının unudulmaz hissini ağacda ifadə etməyə, bir neçə element vasitəsilə ağacın sıxlığını "dəlib keçməyə", onun fakturasını canlandırmağa cəhd göstərib*" [ 5, s.34]. İnsan həyatının gənclik dövrü üçün aktual olan sevgi hissi mədəniyyətdə əbədi mövzudur. H.Abdullayeva daha uzunömürlü daş, qranit, tunc, mərmərdə deyil, daha yumşaq, bütün canlılar kimi nəfəs alan, böyüyən ağacda bu mövzunu işləməklə fərqlilik yaratmışdır.

Digər qadın heykəltəraşımız Elmira Hüseynova Sankt-Peterburqda rəssamlıq təhsili alıb Bakıya qayıtdığı ilk günlərdən cəsarətli kompozisiyalar yaradan sənətkar kimi tanınıb. E. Hüseynovanın "Azərbaycanlı qadın" adlı ağac materialında işlədiyi əsər yaradıcılığından daha çox realistik heykəltəraşlıq üslubuna tabe olan yeganə heykəllərdəndir desək yanılmarıq (*şək. 13*). Aydın sifət cizgilərinə malik, başına örtdüyü saçaqlı örpəyini yüngülcə arxaya atan məğrur duruşlu bu qadın əməksevər azərbaycanlının ümumiləşdirilmiş obrazıdır. Keçən əsrin ideoloji fikri ilə həmahəng milli xarakterli portretin ağac materialda realist formalarda təcəssümü heykəltəraşın peşəkarlığını əks etdirir.

E.Hüseynovanın 1976-ci ildə "Analıq" adlı ağacdan yonduğu əsərində isə yeni forma axtarışı mövzunun daha sadə dillə çatdırılmasında həlledici rol oynayır (*şək.14*). 110x40x40 sm ölçülü kompozisiyanın süjeti silindr formalı ağacın səthində tapılıb. Əsərdə qollarını anasının boynuna dolayaraq ona sığınan körpə təsvir olunur. Ananın surətində nəvaziş və təmkin hiss olunmaqdadır. Övladını ovucları arasına sığdıran qadının portreti monumental görünüşlüdür. Analıq hissini bir qadının surətilə sənətkar xanım həssaslıqla, obrazlı şəkildə tamaşaçıya çatdıra bilir. "*...öz övladını bağrına basmış ana fiquru "alla-prima" sistemi üzrə, yəni birdəfəyə hazırlanıb*" [ 5, s.75]. Ümumiləşdirilmiş hər iki surətə xarakterik ülvi hisslər yalnız formaların silueti şəklində təsvir olunsa da, ağac materialında böyük bədii-estetik dəyərə malikdir.



*Şəkil 14. Analıq. Ağac. 1976.*



*Şəkil 15. Toğrulun portreti. Ağac.1979.*

Həyat yoldaşı Toğrul Nərimanbəyovun portretində forma ilə rəssamın xarakterik cizgilərindən yaranan obrazı olduqca maraqlıdır (*şək. 15*). Açıq rəngli uzunsov ağacda Toğrulun iri enli alnı, xırda gözləri, saqqallı çənəsi səthi, yəni material üzərində o qədər detallaşmaya varmadan oyularaq meydana çıxıb. Digər materiallarla müqayisədə nisbətən yumşaq ağacda portretin belə asanlıqla ərsəyə gəlməsi təbii ki, heykəltəraş xanımın materialı yaxşı bilməsindən irəli gəlir. Hələ gənc yaşlarında fırça ustasının özünəməxsusluğu ilə seçilən surətində heykəltəraş xanım əsas cəhətləri duyaraq onları qeyd olunan cəsarətli texniki eksperimentin nəticəsi olaraq ənənəvi portretlərdən tamamən fərqləndirir. 1979-cu ildə işlənən bu əsərdə müasir plastik forma elə realist səpkidə icra olunub ki, görkəmli fırça ustasının bu ağac heykəldə asanlıqla tanımaq olur.

Ağac heykəllərdə mövzusundan asılı olmayaraq təsvir edilənlər digər ənənəvi daş, mərmər, tunc və s. materiallarla müqayisədə soyuq deyil, təbiətin yaşayan və daha hərarətli, canlı bir parçasından yaradılır. Bəlkə də bu səbəbdən ağac heykəltəraşlığına "*səmimilik*", "*ovsunlayıcı*" xüsusiyyətlər xasdır. Hər bir ağac növünün təbii rəng çalarlarının müxtəlifliyi, onun kəsim diaqonalı nəticəsində meydana çıxan estetik keyfiyyətlər və mətninin müxtəlif texniki tələblərə uyğunluğu peşəkar rəssama fərdi yaradıcılıq imkanlarını nümayiş etdirməyə imkan verən əsas cəhətlərdir.

Yuxarıda incəsənət tariximizdə öz sözünü demiş bir sıra tanınmış heykəltəraşlarımızın yaradıcılığında ağac materialında ərsəyə gələn əsərlərin özünəməxsus bədii-estetik yük daşıyıcılığı danılmazdır. Bu sırada Qorxmaz Sücəddinovun, Elcan Şamilovun, Arif Qazıyevin, Münəvvər Rzayevanın adlarını da qeyd etmək olar. Peşəkar səviyyəli ağac heykəltəraşlığı öz bədii həllinin orijinallığı ilə seçilərək daima sənətsevərlərin maraq hədəfinə çevrilib.Ağacdan hazırlanan realist heykəllər lirik, romantik ruhu ilə professional və milli heykəltəraşlıq sənətimiz üçün dəyərlidir.

## İstinad edilmiş ədəbiyyat:

1. Новрузова Дж. Г. Скульптура – Баку: Язычы, 1983, 49 с.
2. Novruzova C. Heykəltəraş İbrahim Zeynalov – Bakı: Pioner, 1998, 75 s.
3. Mehdixanlı T. Yaratdığı əsərləri ilə ürəyində danışan sənətkar // "Qobustan", 2003, № 2, s. 22-25.
4. Новрузова Дж.Г. Скульптура Советского Азербайджана – Баку: Элм, 1979, 160 с.
5. Məmmədova Z., Abdullayeva H., Hüseynova E. Albomlar silsiləsi – Bakı: Sərvət, 2013.

**Марьям Мансим Кязимова**

**Художественные особенности созданных из деревянных материалов произведений в азербайджанской скульптуре**

**Резюме:** В статье говорится о художественно-эстетических особенностях произведений искусства, созданных из древесного материала, в национальном скульптурном искусстве Азербайджана. История развития деревянной скульптуры в мировом искусстве древняя. В нашей стране развитие скульптурного искусства реалистического содержания совпадает с современной эпохой. В представленной статье рассматривается творческое наследие ряда выдающихся скульпторов, обращающихся к этому простому материалу современной эпохи. Анализируются скульптурные произведения профессиональных представителей искусства, создающих ценные произведения из древесного материала. Исследуется уникальный художественный стиль и техника Ибрагима Зейналова, Токая Мамедова, Эльмиры Гусейновой, Омара Эльдарова и других художников, внесших вклад в обогащение нашей истории изобразительного искусства. В ходе анализа подчеркивается роль естественной фактуры и декоративных характеристик древесного материала в композиционном решении свободных тем, наряду с портретным жанром, который преобладает в творчестве скульпторов. Дерево – живой материал природы. В деревянной скульптуре, иногда с гладкой, иногда с нечеткой резьбой, внутренний мир и внешний облик изображения создают единство, позволяя раскрыть характер и ярко выразить чувства.

**Ключевые слова:** скульптор, древесный материал, пластика, портрет, художественный образ, жанр.

**Maryam Mansim Kazimova**

**Artistic Characteristics of Wooden Works in Azerbaijani Sculpture**

**Summary:** The article discusses the artistic and aesthetic features of the works of art created in wood material in the national sculpture art of Azerbaijan. The evolution of wood sculpture in world art is ancient. In our country, the development of sculptural art with realistic content occurs during the modern era. The presented article explores the artistic legacy of several prominent sculptors who worked with this basic material from the modern era. The sculptural works of professional art representatives who create valuable works in wood material are analyzed. The unique artistic style and technique of Ibrahim Zeynalov, Tokay Mammadov, Elmira Huseynova, Omar Eldarov and other artists who contributed to the enrichment of our fine art history are investigated. The role of the natural texture and decorative characteristics of the wood material in the compositional solution of free themes, along with the portrait genre, which prevails in the work of sculptors, is highlighted during the analysis. Wood is a natural material. In wood sculpture, the inner world and the outer appearance of the image form unity with smooth or fuzzy carvings, allowing the character to expose and express emotions clearly.

**Keywords:** sculptor, wood material, plastic, portrait, artistic image, genre.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.10.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский Государственный Университет Культуры и Искусств, XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Art, XLVI edition, Baku, 2024

**UOT: 73/76. Təsviri incəsənət**
**ORCID: 0000-0002-2953-065X**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.047**

**Nuranə Namiq qızı Rzazadə**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Doktorant**
**Email: nuna_fva@mail.com**

# TAMİLLA ABDULLAYEVANIN QOBELENLƏRİNDƏ MƏNZƏRƏ JANRININ MÜQAYİSƏLİ TƏHLİLİ

Xülasə: Məqalədə dekorativ tətbiqi sənətin ən qədim sahələrindən biri olan qobelendən bəhs edilir və bu sənətin görkəmli xanım nümayəndəsi Tamilla Abdullayevanın mənzərə janrında olan əsərlərinin təhlili aparılır. Təbiətdən ilhamlanan sənətkar əsərlərinin böyük əksəriyyətinin ideyasını da məhz buradan götürmüşdür. Sənətkarın əsərlərinin bədii və texnoloji təhlili həmin tarixi qobelenlərin realist üslubunun arxasında gizlənən mürəkkəb alleqorik kompozisiyanı üzə çıxarmağa xidmət edir. Məqalədə həmçinin qobelen sənətinin təsnifati, toxunma texnologiyaları və müəllifin üslub və janrlarından analizlər yer almaqdadır.

**Açar sözlər:** qobelen, xalçaçılıq, Tamilla Abdullayeva, kompozisiya, janr, üslub, triptix.

Qobelen toxuculuğu bir çox mədəniyyətdə yüz illərdir tanınır. Azərbaycanda isə bu nadir sənət növü ötən əsrin 1960-cı illərində populyarlaşıb. Əsl sənət əsərinin yaranmasına aparan yol çox vaxt əzab-əziyyətli və çətin olur. Belə ki, bu dövrdə dekorativ tətbiqi sənətdə eklektizm ilə mübarizə meyli güclənməyə başlayır və daha müasir konstruktivizm meyllərinə, sadə, məntiqi istiqamətlərə daha çox yer verilməsinə təkan verir. Bu cür inkişaf təbii ki, incəsənətin digər sahələrinə də təsirsiz ötüşməmişdir.

Digər respublikalarda bu sahədə bilik və bacarıqlara yiyələnmiş peşəkar qobelen sənətçiləri sənət meydanına çıxmağa başladılar. Onların yaradıcılığında qobelen sənətinin dünya miqyasında keçdiyi bütün yeniliklər öz əksini tapsa da, eyni zamanda yaradıcılıqlarına milli ruh hopa bilmişdi.

Azərbaycanın xalq sənətinin xanım sənətkarlarına istinad etsək burada dövrün ruhuna uyğunlaşan bir çox sənətkarı görmək mümkündür. Tamilla Abdullayevanı haqlı olaraq belə sənətkarlardan hesab etmək olar. Onun haqqında layiq olduğu qədər yazmır və danışmırlar, lakin onun zəngin mənəvi dünyasından qaynaqlanan istedadı onun yaratdığı hər bir sənət əsərində əks olunur.

Tamilla Abdullayevanın dekorativ rəssam kimi çoxşaxəli yaradıcılığı 1980-ci illərdə formalaşmağa başlayıb [1]. Qobelen və xalçalarla yanaşı, zərgərlik üçün də çoxsaylı dizaynlar yaratsa da, yenə qobelenləri xüsusi üstünlük təşkil edir. Rəssamın özünün də

qeyd etdiyi kimi, o, hisslərini və əhval-ruhiyyəsini onlarda asanlıqla ifadə edə bilir. T.Abdullayevanın əsərlərində tematik olaraq asanlıqla açılan və sənətkar tərəfindən qobelenlərinin səthlərində təcəssüm etdirilən obraz və ideyalar rahatlıqla meydana çıxır.

T.Abdullayeva ilk yaradıcılıq addımlarını tələbə olarkən M.Toidze adına Tiflis Rəssamlıq Məktəbində atıb, 1975-ci ildə oranı "Qobelen rəssamı" ixtisası üzrə bitirib. Təhsil aldığı müddətdə o, məşhur gürcü rəssamlarlar ilə çalışmışdır. T. Qabidzaşvili, G. Kandareli, A. Toidze, N.Medzmareaşvili kimi rəssamlarla işləmək fürsəti əldə edən T.Abdullayeva texnikası üzrə məharətini təkmilləşdirir, rəngin mənasını, kompozisiyaların qurulmasındakı incəlikləri bütün detallarına qədər öyrənmişdir.

O, bir müddət Tbilisi Dekorativ-Tətbiqi Sənət Yaradıcılıq Əsərləri Bədii Birliyində ("Solani") rəssam kimi çalışaraq əldə etdiyi bilikləri tətbiq edir, burada kiçik ölçülü suvenir qobelenlər yaradır [1].

Tamilla Abdullayeva 1978-ci ildə Bakıya qayıtdıqdan sonra Azərbaycan Dövlət Dekorativ-Tətbiqi Sənət və Xalça Muzeyində qrafik dizayner kimi fəaliyyətə başlayıb. Təhsilini davam etdirmək qərarına gələrək 1979-cu ildə dekorativ-tətbiqi sənət fakültəsinə daxil olmuş, burada müəllimi Lətif Kərimovun təsiri ilə "Xalça rəssamı" ixtisasını seçmişdir [1].

Ali təhsil alarkən o, çoxlu sayda xalça kompozisiyalarının hazırlanmasında iştirak etsə də, ilk tam ornamental xalça kompozisiyası onun "İslimi-Bəndlik" əsərinə (1984) həsr etdiyi diplom işi olmuşdur [1]. Belə ki, Tbilisi Rəssamlıq Məktəbində oxuması T.Abdullayevanın qobelen ustası, İncəsənət İnstitutunda isə xalça rəssamı kimi formalaşmasına öz töhfəsini verib. Bu iki fərqli təhsil ocağının onun peşəkar gələcəyinə təsiri çox böyük olub və onların hər biri gənc rəssamın sonrakı bədii inkişafında özünü büruzə vermişdir.

T.Abdullayevanın qobelenləri müxtəlif texnikalardan istifadə etməklə yaradılmışdır. Texnikalardan ən çox istifadə etdiyi buklet, qabartma olmuşdur. Bu cür əsərlərin ölçüləri kiçik olsa da, kompozisiyalarının tamlığı və cizgilərinin ifadəliliyi ilə seçilir. Qobelenlərin xüsusiyyətlərindən biri onun sıxlığıdır. Sıxlıq 1 sm-də olan xüsusi iplərinin sayı ilə müəyyən edilir. Müasir əl toxumasında 1 santimetrlik 1 və ya 2 sap sıxlığı istifadə olunur [2].

Əsas toxuculuq üsulları bunlardır: hamar texnika, teksturalı texnologiya və xov texnologiyası. Hamar bir texnika adi düz toxuculuq ipləri ilə əldə edilir. Teksturalı toxuma texnikası daha çox zəhmət tələb edən, sıx toxuculuqdur. İplərin kəsişməsi asimmetrik sürüşmə ilə baş verir - bir düyündən sonra iki və ya üçüncüdən tərs toxunmaqla əldə olunur. Sənətkar alətlə əyri sapı sağdan sola hörərək yenidən bazanın altına endirir. Relyef diaqonal sütunlar şəklində bir faktura yaratmış olur.

Zəngin istedadlı T.Abdullayeva qobelenlə bərabər, xalça, parça eskizləri, zərgərlik məmulatları kimi müxtəlif və çoxşahəli unikal əl işləri töhfəsi vermişdir [3]. Buna istinad olaraq qeyd etmək lazımdır ki, "İslimibəndlilik", "Əfşan", "Saxsıda güllər" xalçalarında rəng və ornamentlə qurulan harmoniya və ahəng illərin təcrübə və istedadını daşımasını xüsusi qeyd etmək lazımdır.

Janr müxtəlifliyi incəsənətin bütün növlərində olduğu kimi qobelen sənətində də özünü hərtərəfli göstərir. Qobelen sənətində janr bölgüsü rəngkarlıqla daha çox uyğunlaşır. Çünki burada rəngkarlıqda olduğu kimi mənzərə, natürmort, portret və fiqurativ süjetli janrların istifadəsinə rast gəlinir.

T.Abdullayeva da əsərlərində günəşli Azərbaycanın füsunkar təbiəti və gözəlliyini həm şairanə həm də lirik hisslərlə pərəstişkarlarına təqdim etmişdir. Təsadüf deyil ki, klassik qobelenlərdə də mənzərə janrına müraciət edərkən daha çox təbiət mənzərələrinə və bitki aləminin gözəlliklərini əks etdirməyə üstünlük verilirdi. Beləliklə rəssam, o təbiətdə gördüklərini bir növ özününküləşdirərək təbiətlə vəhdətdə olduğunu bildirirdi. Onun əsərləri bizi əhatə edən təbiətin gözəlliyini əks etdirir. Xəyali mövzunun daimi improvizasiyasının aparıldığı gərgin iş T.Abdullayevanı getdikcə daha maraqlı əsərlər yaratmağa sövq edir. Sənətkarın incə bədii cizgisi ilə sintezdə ruhun lirikası hər bir qobelendə öz əksini tapır. Onun vizual və semantik həllərin rəng münasibətlərinə əsaslandığı ağacları təsvir edən əsərləri də xüsusi diqqətə layiqdir. Bu silsilə işlərdən ilki 1997-ci ilə təsadüf edir (Şəkil 1). Hamar toxunuşda ərsəyə gətirilmiş bu əsər kiçik ölçülü olub açıq göy, sarı və tünd qəhvəyi rənglərdə işlənmiş və bu rənglərin vasitəsilə kompozisiyanın mərkəzindən yuxarıya doğru uzanan budaqlı ağacın təsviri verilmişdir [3]. Əsəri monoxrom kompozisiya adlandırmaq istəyərkən ağacın hər tərəfindən mərkəzə doğru kompozisiyanı əhatələyən mavi və göyün soyuq çalarları bizi bu fikirdən daşındırır. Bu əsərin foto effekti təsvir elementlərinin yanında incə, rəvan xətlərin imtiyaz meydana gətirməsi ilə əldə edilir.

1998-ci ildə "Dəfnə ağacı" (Şəkil 2) adlı növbəti əsər yaradıldı, burada göyümtül zəmində bol tacı olan ağacın təsviri göstərilir [4]. Üst sətri tünd yaşıl, alt səthi isə daha yüngül olan dəfnə yarpaqlarının özəlliyi kompozisiyada yaşıl-açıq yaşıldan solğun sarıya rəng keçidlərinin sıralanması ilə incəsənət həllini tapır ki, bu da ümumi kompozisiyaya xüsusi güzəran verir. Sadə keçirtmə texnikası ilə toxunan bu əsər dəfnə yarpaqlarının özünəməxsus naturalistik parıltısı ilə yaddaşlarda qalır. Gövdədən yuxarı doğru uzanan irili xırdalı budaqlar oval təşkil edərək əsərin diqqət çəkilməli olan əsas fikrinə eyham vurur.

Ağaclarla işlərin dövrü 2009-cu ildə toxunmağa başlanır və 2010-cu ildə yekunlaşır. Triptix “Həyat ağacı” (Şəkil 3) ağacı adlanır və yun keçirtmə texnikası ilə hazırlanmışdır [1]. Üç müstəqil hissə payızın olduğu vahid tematik və bədii kompozisiyada birləşdirilir. Əsərdə sarı, qırmızı və qəhvəyi rənglərin yumşaq və dərin çalarları ötən yay üçün bir qədər həsrət və soyuq qış gözləməsi yaradır. Qobelen tikişi ilə toxuma zamanı arxa tərəf sıx şəkildə tikilir ki, bu da iplərin uclarını etibarlı şəkildə gizlətməyə və demək olar ki, görünməz şəkildə etməyə imkan verir. Bu cür texnika professional sənətkara diqqəti istənilən sahəyə çəkməyə və ya əksinə diqqətdən yayındırmağa imkanlar yaradır.

Növbəti əsərlər qrupu “Kəpənəklər” (Şəkil 4) ismi altında birləşdirilə bilər. 2005-2006-cı illərdə hazır edilmiş üç qobelen bu cür kiçik və incə varlıqların gözəlliyini ortaya qoyur. Çox rəngli və iri qanadlarına görə kəpənəklər əfsanələrin mövzusu və insan

ruhunun təcəssümü hesab olunurlar. Yaşamın bir-birinə çevrilməsi möcüzəsi, ləng tırtılın, sərt qəlibdə zərif və gözəl kəpənəyə çevrilməsi möcüzəsi insanı dərindən təsirləndirir (Şəkil 5). T.Abdullayevanın yaradıcılığında bu mövzu müxtəlif variantlarda nəzərdən keçirilir.

Buna misal olaraq, başqa bir təbiət motivli əsərində budaq ilə ləçək komasının mərkəzində kəpənək seyr edilir. Bu zaman göz elementi kəpənəyin parlaq al qanadına çəkilir. Ləkəli böcək solğun yaşıl yarpaqlar ətrafında hərəkətsiz, təmkinli və statikdir. Fərqli bir çərçivə sakit rəng sxemində hazırlanmışdır. Bu dəfə ağ rəng üstünlük təşkil edir. Əsərin tamamında qara rəng çoxşahəli yaşılımtıl çalarların fonunda çertyoj konturlarını çəkir ki, bu da əsəri ətalətdən çıxmağa vadar edir. Bu əsərlər öz təsviri və koloristik keyfiyyətləri, rəng sxeminin göstərişli ifadəsi, fərdi toxunma performansının parlaq təyini ilə göz oxşayır.

Şərq dekorativ tətbiqi sənətində ornamentləri və onların semantik mənalarını “sezmək” olar, çünki hər qıvrım, forma və rəng seçiminin mənası vardır. Bu simvollar toxunduğu kilimlərlə, tikmələrdə, kilimlərdə və s. bədii irsin maddi nemetlərində nəsildən-nəslə ötürülür [5.]

Animalistik simvolların bir qismi də özü özlüyündə qorunmağa, arzuların yerinə yetirilməsinə, uğurlar cəlb etməyə, ailəni hifz etməyə və bolluğa yönəlmiş informasiya daşıyıcıları ola bilirlər. Buna misal olaraq, çiçəklər həyatın gözəlliyinin, nar uğursuzluqlara və bədbəxtliklərə qarşı talisman, uğur və məhsuldarlığın, kəpənəklər incəliyin, balıq isə firavanlığın simvoludur.

T.Abdullayeva gecə ilə gündüzün, qış ilə yayın müxtəlif zaman dilimlərinin vəhdətini təşkil edən başqa bir əsərini analiz edərkən təbiətdən ornamentlər və animalistik fiqurlar diqqəti cəlb edir. Əsər kvadrat formada mavi və göy rəngin müxtəlif ton və çalarlarında qapalı kompozisiya halında qarşımıza çıxır. Əsərin arxa planında təbiəti isidən günəş çarpaz bölünərək əks istiqamətdə soyuğu bildirən mavi ayı xatırladır. Əsərin ümumi rəng qamması olduqca çoxşahəlidir. Birinci planında bir-birinə əks istiqamətdə şaha qalxmış animalistik fiqurlar – marallar təsvir edilmişdir . Hamar texnikası ilə yanaşı təbiətin sakit havasını ilmələrin rəng keçidlərindən hiss etməmək mümkünsüzdür [6.] Silsilə dağ mənzərəli gah qarlı təbiəti, gah da yaynın istidən qovurduğu düzənlikləri andırır (Şəkil 6 ).

Son olaraq qeyd etmək lazımdır ki, incəsənətin bütün sahələrində olduğu kimi qobelen, bədii tikmə sənəti yalnız kompleks şəkildə təhlil və tədqiq edildikdə ona düzgün qiymət və dəyər vermək mümkündür. T.Abdullayevanın sənət və yaradıcılığını araşdırarkən onun bu sənətə təsadüfi gəlmədiyi, qədim kilim sənətinə sevgi və ilmələrindəki zəhmət tamaşaçılar o cümlədən sənətşünastların nəzərindən yayına bilməz. Əsərin çarpaz beş hissəyə bölünmüş halı və hər hissədə təbiətin, fəsillərin, relyefin bir birinə qarışması həm də eyni zamanda bu qarışıqlıqlığın ayrı-ayrılıqda tamaşaçının fikrinin qarışmasına zəmin yaratması əsəri daha da cazibəli və baxdıqca baxılan edir desək yanılmarıq.

Son onilliklərin dünya bədii təcrübəsi müasir dekorativ sənətin aparıcı janrlarından biri olan qobelen üzrə tədqiqatların və təcrübələrin qeyri-adi miqyasından xəbər verir. Plastika, faktura və koloristik imkanların görünməmiş dərəcədə genişlənməsi müasir qobelen sənətinə gələn keyfiyyətcə yeni bədii fenomenin formalaşmasına kömək edəcəkdir. Hal-hazırda, interyerlərin bəzədilməsi üçün getdikcə daha çox istifadə olunan dekorativ tətbiqi sənət nümunələrini maşınla sürətlə istehsal etmək və kütləvi surətdə təkrarlamaq mümkündür. Müasir texnologiyalar qobelenləri əlçatan edir, həmçinin çoxlu sayda müxtəlif qobelenlər yaratmağa imkan verir. Ancaq buna baxmayaraq, əl ilə hazırlanmış qobelenlər daha dəyərli və qiymətli olaraq qalır. Əlavə olaraq qeyd etmək lazımdır ki, təbii materiallardan hazırlanmış rəsmlər istilik və rahatlıq hissi yaradır.



Şəkil 1.“Ağac” 1997 Rəssamın şəxsi kolleksiyasından fotolar



Şəkil 2.“Dəfnə ağacı” Rəssamın şəxsi kolleksiyasından fotolar



Şəkil 3.“Həyat ağacı” Rəssamın şəxsi kolleksiyasından fotolar



Şəkil 4. “Kəpənəklər 1” Rəssamın şəxsi kolleksiyasından fotolar



Şəkil 5. “Kəpənəklər 2” Rəssamın şəxsi kolleksiyasından fotolar



Şəkil 6.“Marallar” Rəssamın şəxsi kolleksiyasından fotolar

## Ədəbiyyat siyahısı

1. Rəngli qobelen dünyası, “Yol” jurnalı 2011.səh 43
2. Соколова, М.С., Грицай, Л.В. Проблемы развития ручного гобелена М.С. Соколова, Л.В. Грицай // Периодический научный журнал. Современные тенденции развития изобразительного, декоративно-прикладного искусств и дизайна. Вып. 10 / Магнитогорский государственный университет. - Магнитогорск, 2013. - С. 130-136.
3. “Qobustan” jurnalı 2013. – səh 35.
4. “Mədəniyyət” jurnalı . 2023 – səh 70.
5. Маилян, Л. Р. Справочник дизайнера декоративно-прикладного искусства Л. Р. Маилян. – Москва : Феникс, 2014. – 279 с.
6. Всеобщая история искусств. Том 2., внига вторая// Под общей редакцией Б.В.Веймарна и Ю.Д.Колпинского. – М.: Искусство

**Нурана Намиг кызы Рзазаде**

## Сравнительный анализ жанра пейзажа в гобеленах Тамиллы Абдуллаевой

В статье анализируется гобелен, являющийся одной из древнейших отраслей декоративно-прикладного искусства, и произведения известной представительницы этого искусства Тамиллы Абдуллаевой в пейзажном жанре. Художник, вдохновленный природой, черпает идеи для большинства своих работ именно оттуда. Художественный и технологический анализ работ художника способствует раскрытию сложной аллегорической композиции, скрытой за реалистическим стилем исторических ковров. Кроме того, в статье также приводится классификация ковролепного искусства, технологии прикосновения и анализы стиля и жанров автора.

**Ключевые слова**: гобелен, ковроткачество, Тамилла Абдуллаева, композиция, жанр, стиль, триптих.

**Nurana Namiq Rzazada**

## Comparative Analysis of Landscape Genre in Tamilla Abdullayeva's Tapestries

The article analyzes the tapestry, which is one of the oldest branches of decorative applied art, and the works of the famous representative of this art, Tamilla Abdullayeva, in the landscape genre. The artist, inspired by nature, has derived the idea for the majority of her works from it. The artistic and technological analysis of the artist's works serves to reveal the complex allegorical composition hidden behind the realistic style of historical carpets. Additionally, the article includes classifications of carpet art, touch technologies, and analyses of the author's style and genres.

**Keywords**: tapestry, carpet weaving, Tamilla Abdullayeva, composition, genre, style, triptych.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 02.07.2024**

**UOT: 738**
**ORCID: 0009-0009-7941-396X**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.051**

**Könül Nurməhəmməd qızı Gəncmalıyeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının doktorantı**
**E-mail: konul.gencmaliyeva@gmail.com**

# DİNİ TƏYİNATLI METAL ƏŞYALARIN BƏDİİ-DEKORATİV XÜSUSİYYƏTLƏRİ
## (İslam dini kontekstində)

**Xülasə.** Məqalədə VII əsrdən etibarən Azərbaycanda mövcud olmuş İslam dini ilə əlaqədar məişətdə və dini mərasimlərdə istifadə edilən metal əşyaların bədii-dekorativ xüsusiyyətlərindən bəhs edilir. Qədim tarixə malik Azərbaycan dekorativ-tətbiqi sənəti, İslam dininə qədər mükəmməl bir yol keçsə də, onun təkamülü İslam dininin ölkəmizdə genişlənməsindən sonra daha geniş vüsət aldı. Buna səbəb müxtəlif sənət növlərinin inkişafı üçün əlverişli şərait yaradan və zəngin təbiətindən istifadə bacarığı olan sənətkarlar idi. Azərbaycanda İslam dininin inkişafını əməli olaraq göstərən sənət nümunələrinin hər birinin üzərində müxtəlif əsrlərə aid rəsmlərə və ornamentlərə rast gəlinir. Əgər bu əşyaların materialı, forması müxtəlif dövrlərdə istehsal prosesinin təşkilindən, təkmilləşməsindən xəbər verirsə, onların üzərindəki təsvirlər və naxışlar əcdadlarımızın həyat tərzini, adət-ənənələrini, dini ayinlərini və bədii zövqünü əks etdirən nadir incilər olduğunu bir daha təsdiqləyir. Bu cür dini təyinatlı metal əşyalar içərisində XVIII-XX əsrlərə aid edilən gülabdan, şərbət qabı, çil-cam, aftafa, kəşkül, təbərzin, ələm və zəncirlər xüsusilə seçilir. Qeyd edək ki, bu nümunələrin əksəriyyəti Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi və Milli Azərbaycan Tarixi Muzeyində qorunub saxlanılır.
**Açar sözlər:** dini, əşya, bədii, dekorativ, xüsusiyyət, İslam

**Giriş.** Məlumdur ki, hər bir xalqın özünəməxsus dini - inanc xüsusiyyətlərini özündə qoruyub saxlayan bədii-dekorativ sənətkarlıq nümunələri, milli dəyərlər kimi müxtəlif muzeylərdə, ziyarətgah və şəxsi kolleksiyalarda qorunub saxlanmaqdadır. Bu əşyaların üzərindəki təsvir xarakterli cizgilərin, günümüzə qədər gəlib çatması onu deməyə əsas ki, inkişaf etmiş həyat tərzinə nail olmayan, yaşayışlarını sadə məşğuliyyətlərlə davam etdirən ibtidai qəbilələrin də özünəməxsus dini inanclarının araşdırılmağa ehtiyacı vardır. Arxeoloji qazıntılardan əldə olunan belə əşyaların üzərindəki təsvirlər, sanki insan yaşamının sənətsiz, bədii tərtibatsız mümkünsüzlüyünü sübut edə bilir. Araşdırmalardan aydın olur ki, dini inanc əslində insan həyatını bütövlükdə əhatə edə bilir.

Azərbaycanda yaşayan müxtəlif azsaylı xalqların da dini əşyalarının bədii dekorativ xüsusiyyətlərinin hərtərəfli araşdırılması sənətşünaslıq elminin aktual problemlərindəndir. Yəni din, məişət qaydalarını müəyyənləşdirməyə, dünyanın nizam qaydaları haqqında öz nəzəri versiyasını irəli sürməklə dini qanunları ilə əxlaqi və estetik dəyərlərin əsası sayılır. Belə ki, dövründən və millətindən asılı olmayaraq dini əşyaların dekor bəzəklərindəki mürəkkəb tərtibatların öyrənilməsində ən sadə elementlərin əyani nümunələr əsasında vurğulanması və tarixi faktlar kimi meydana çıxması üçün mühüm amil ola bilir. Vaxtilə müxtəlif məqsədlər üçün istifadə olunmuş dini əşyaların səthlərindəki dekor tərtibatlı təsvir nümunələrinin fəlsəfi mahiyyəti və insanlara aşıladığı mənəvi-bədii dəyər məqalənin aktuallığını şərtləndirir.

**Əsas hissə:** Müxtəlif xalqların, o cümlədən Azərbaycan xalqının istifadə etdiyi dini əşyaların bədii-dekorativ xüsusiyyətlərinin əsaslı olaraq tədqiq edilməsi, reallığın düzgün dərk olunması və həyatda öz əksini tapması, elmlərarası vəhdətdə araşdırılması mühüm problem olaraq qalmaqdadır. Bu baxımdan Azərbaycanda azərbaycanlılarla birlikdə yaşayan yəhudilərin və eləcə də xristianların dini əşyalarının daşıdıqları mahiyyətlə birgə, bədii tərtibatlarının əsası sayılan dekor elementlərinin çox az araşdırıldığı tədqiqatlardan aydın olur. Əhatəli olaraq dekor bəzəklərinin bədii dekorativ xüsusiyyətlərinin təhlil olunması, onların sadə kompozisiya quruluşu, rəng həlli, süjet xətti və dekorativ xüsusiyyətlərinin daşıdığı dini məna yükünə uyğun olaraq seçilməsi məsələləri elmi işin aktuallığını bir daha artırır.

Qədim tarixə malik Azərbaycan dekorativ-tətbiqi sənəti, İslam dininə qədər mükəmməl bir yol keçsə də, onun təkamülü İslam dininin ölkəmizdə genişlənməsindən sonra daha geniş vüsət aldı. Buna səbəb müxtəlif sənət növlərinin inkişafı üçün əlverişli şərait yaradan və zəngin təbiətindən istifadə bacarığı olan sənətkarlar idi. Azərbaycanda İslam dininin inkişafını əməli olaraq göstərən sənət nümunələrinin hər birinin üzərində müxtəlif əsrlərə aid rəsmlərə və ornamentlərə rast gəlinir. Əgər bu əşyaların materialı, forması müxtəlif dövrlərdə istehsal prosesinin təşkilindən, təkmilləşməsindən xəbər verirsə, onların üzərindəki təsvirlər və naxışlar əcdadlarımızın həyat tərzini, adət-ənənələrini, dini ayinlərini və bədii zövqünü əks etdirən nadir incilər olduğunu bir daha təsdiqləyir. İslam dininin tarixi inkişaf prosesində tədricən Azərbaycan dekorativ-tətbiqi sənətinin bütün sahələrində formalaşan ayrı-ayrı dekorativ sahələr, xalqın tarixini, maddi və mənəvi dünyasını özündə əks etdirməklə hər vaxt araşdırma mövzusu olmuşdur.

Dini təyinatlı metal əşyalar içərisində gülabdan, şərbət qabı, çil-cam, aftafa, kəşkül, təbərzin, ələm və zəncirlər xüsusilə seçilir. Qeyd edək ki, bu əşyaların əksəriyyəti XVIII-XX əsrlərə aiddir və onlar hazırda Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi və Milli Azərbaycan Tarixi Muzeyinin həm zəngin fondunda qorunub-saxlanılır, həm də ekspozisiyasını bəzəyir.

Azərbaycan Milli Xalça Muzeyində nəfis tərtibatı ilə seçilən XIX əsrin sonu və XX əsrin əvvəllərinə aid edilən Lahıc misgərliyi nümunələri – şərbət qabı, gülabdan, badya, çil-cam, aftafa və digər yüksək bədii-estetik zövqə malik dini mətnlərlə tərtib

edilmiş nümunələr nümayiş etdirilir. *"Bunların arasında üzəri kalliqrafik kitabələrlə bəzədilmiş camın mətnində 14 şəxs adına Allahdan "Salavat" dilənilir. Camın üzərində onun sahibinin adı və istehsal tarixi yazılmışdır* صاحبه مهدي ١٢٢١ *- Sahibi Mehdi 1806/07 (epiqrafikaçı: Məşədixanım Neymətova). Lahıc misgərlərinin XIX əsrdə hazırladığı digər bir badyada nəbati dekorun arasında kalliqrafik medalyonlarda "Allahın salavatı olsun Mustafaya, Məhəmməd əl-Murtəzaya, Əl-Bətül Fatimə, əs-Səbteynə, Həsənə və Hüseynə...Sahib əz-zaman Mehdiyə"(epiqrafikaçı: Məşədixanım Neymətova) kəlamı yazılmışdır. Nəbati naxışlar xonça şəklində kitabəni əhatə edirlər".[2]*

Dini təyinatlı əşyalar içərisində mərasimlərdə istifadə edilən şərbətxorlar (şərbətqabı) da özünün dekorativ bəzəyinə görə seçilirlər. Bu cür şərbət qablarının üzərində adətən ornamentlərlə yanaşı dini motivli yazılar da öz əksini tapırdı. Belə nümunələrdən biri hazırda Azərbaycan Xalça Muzeyində qorunub saxlanılan və 1890-cı ilə aid olan şərbət qabını qeyd etmək olar. Basqalda hazırlanmış şərbət qabının üzərində - xüsusilə yuxarı və aşağı hissəsində İmam Hüseyn haqqında növhə yazılıb:

***Ey Əhmədin gözünün işığı, Heydərin yadigarı, Ya Hüseyn!***
***Yenə bu nə üsyandır ki, bütün dünya xalqını əhatə edib...***



***Şərbət qabı. Basqal. 1890. Mis. Azərbaycan Milli Xalça Muzeyi***

XIX əsrin sonuna aid edilən çil-camın içərisində ortada qabarıq, yuxarı haşiyədə isə cızma xətlə «Fatihə» surəsi yazılmışdır. Arada hissədə *"Ya İsrafil, Ya Əzrail, Ya Cəbrayıl! Allahdan kömək olsa, qələbə yaxın olar"*, ondan aşağı haşiyədə, xırda qabarıq xətlə: "*Möcüzələr yaradan Allahın rəsulu, Əlini çağır, Sən onda bəlalardan xilaskarını taparsan. Ya Məhəmməd, sənin peyğəmbərliyin, Əzəmətin, Ya Əli!"*, içəridə alt hissədə isə qabarıq xətlə: *"Rəbbin salamı olsun Məhəmmədə və Fatiməyə, Həsənə, Hüseynə, Məhəmməd Cəfərə, Məhəmmədə və Qasimə"* sözləri həkk olunmuşdur.



**Çil-cam. XIX əsrin sonu. Mis. Azərbaycan Milli Xalça Muzeyi.**

Qeyd edək ki, materialı misdən olan çil-camın hazırlanmasında döymə və cızma texnologiyasından istifadə edilmişdir. Camın hündürlüyü 5,5 sm., diametri isə 18,5 sm.-dir.

Xalça Muzeyinin saxlancında XIX əsrə aid olan digər mis çil-cam nümunəsi də vardır ki, onun da üzərində döymə və cızma texnikası ilə Qurani-Kərimdən bir neçə ayə və kiçik həcmli surələr həkk edilmişdir. Daha dəqiq desək, Bəqərə surəsinin 255-ci ayəsi – "Ayətül-kürsü", Kafirun və Nas surələri yazılıb.

Dini təyinatlı metal əşyalar içərisində dini ayinlərin icrası məqsədilə paklanmaq – dəstəmaz almaq üçün istifadə edilən aftafa – ləyənlər də özünün funksionallığı ilə yanaşı özünəməxsus bədii-estetik tərtibatı ilə seçilirlər. Dövrümüzə qədər gəlib çatmış aftafa – ləyənlərin əksəriyyətinin materialı misdəndir və onlar xüsusilə cızma, döymə texnikası ilə hazırlanıb. Bu nümunələr içərisində Lahıc, Gəncə və Qarabağdan tapılmış nümunələr öz unikallığı ilə seçilir.

*"Məişətdə istifadə edilən müxtəlif tipli əşyaların hazırlanması zamanı üzərinə həkk ediləcək yazıların mətni, adətən, onun nəzərdə tutulan istifadə təyinatına əsasən seçilirdi. Bəzən isə dini təyinatlı olmadığı hallarda da, müxtəlif növ metal qablar, parça nümunələri və s. üzərində Quran ayələri və başqa dini məzmunlu yazılar həkk olunurdu. Daha çox mis süfrə qabları və təsərrüfatda istifadə edilən su qabları üzərindəki belə kitabələr, görünür, Allahdan xeyir-bərəkət diləməyin ifadəsi kimi həkk edilmişdir"[3].*

Üzərində dini yazıların qabarıq şəkildə həkk olunması müşahidə olunan əşyalar içərisində Azərbaycan Milli Xalça Muzeyinin ekspozisiyasında nümayiş olunan bir badya nümunəsi özünün nəfis tərtibatına görə xüsusilə seçilir. XIX əsrə aid olan badyanın yuxarı haşiyəsində on dörd məsuma salam yazılmışdır: *"Allahın salavatı olsun Mustafaya, Məhəmməd əl-Murtəzaya, Əl-Bətul Fatimə əs-Səbteynə, Həsənə və Hüseynə, Zeynal Abdinə, Bağıra, Məhəmməd Sadiqə, Cəfərə, Museyi-Kazıma, Rizaya, Təqiyə, Məhəmməd Nəqiyə, Zəki əl-Əskəriyə, Həsənə, əl-Höccət ül-qayım əl-Saleh əl-Muzəffər əl-Murtəzaya, Sahib əz-Zaman Mehdiyə".*



**Badya. XIX əsr. Mis. Azərbaycan Milli Xalça Muzeyi.**

Qeyd edək ki, dini təyinatlı metal qabların üzərində dini mətnlərlə yanaşı nəbati ornamentlərə, xüsusilə islimi naxışlara da yer verilirdi. Belə güman edilir ki, *"əsasən islimi naxışı o zamanlar müqəddəs hesab olunan bükülmüş yarpaq təsviri kimi verilərək bir dekor elementinə çevrilə bildi. İslimi naxışı İslam dekorativ mədəniyyətində çox məşhurdur.. Elə buna görə də bəzi sənətşünaslar islimi sözünü İslam dininin adı ilə bağlayırlar"[4].*

**Nəticə:** Nəticə etibarilə qeyd edək ki, İslam incəsənət ənənəsini dekorativ-tətbiqi sənətin yalnız bədii metal növündə yox, onun bütün sahələrində də görmək mümkündür. Bu ənənə VII əsrdən başlayaraq Əməvilər, Abbasilər, Səlcuqlar dövründə daha da çiçəklənərək uzun inkişaf yolu keçmişdir. Təbii ki, müasir Azərbaycanda dekorativ-dini elementlərin qorunması və dini inanclarda müqəddəs sayılan əşyalar və onlara verilən dəyərlər tək muzeylərdə yox, bəzən evlərdə, iş yerlərində, eləcə də xüsusi marağı olan insanların şəxsi kolleksiyalarında saxlanılır. Harada saxlanılmasından asılı olmayaraq bu dekorativ elementli dini inancları əks etdirən əşyaların keçmişin özəlliklərini gələcək nəsillərə təhrifsiz olaraq ötürməsi önəmlidir. Bu baxımdan belə əşyaların bir tarixi fakt kimi, daşıdığı informasiyalar, yerinə yetirdikləri funksiyalar, hətta onların forma və məzmunları da tədqiqatçıların üzərinə daha çox məsuliyyət qoyur. Yəni dekorativ önəm daşıyan hər hansı bir element düzgün olaraq araşdırılarsa, sonralar o dəyər öz effektivliyini artırar ki, azaltmaz. Aydındır ki, elmdəki dəqiqliyə söykənmədən milli dəyərlərin də uzunömürlülüyünü təmin etmək mümkün deyildir.

## İstifadə edilmiş ədəbiyyat:

1. Fərzəliyev Ç. Azərbaycan el sənəti. Bakı, 2013.
2. İbrahimov T. Lahıc misgərliyi (tarixi ənənələr, çiçəklənmə dövrü və süqutu) URL: https://www.academia.edu/37950995/LAHIC_MİSGƏRLİYİ_Tarixi_ənənələr_çiçəklənmə_dövrü_və_süqutu

3. İslam mədəniyyəti və Azərbaycan məişəti [İzomaterial] : Kataloq /T. Şiriyev ; tərc. F. Bəşirova ; elmi red. N. Əliyeva (ön söz). Bakı: "Avropa", 2021.
4. Jonathan M. Bloom, Sheila S. Blair. The Grove Encyclopedia of Islamic Art and Architecture. Oxford University Press Inc., 2009, p. 65

**Кёнуль Гянджмалиева**

## Характеристика художественно-декоративных металлических предметов религиозного назначения (в контексте ислама)

**Резюме.** В статье говорится о художественно-декоративных особенностях металлических предметов, используемых в бытовых и религиозных обрядах, связанных с исламской религией, существующей в Азербайджане с VII века.

Хотя декоративно-прикладное искусство Азербайджана, имеющее древнюю историю, прошло свой путь к совершенствованию до исламской религии, его эволюция стала более обширной после распространения исламской религии в нашей стране. Причиной тому были мастера, создавшие благоприятные условия для развития различных видов искусства, имеющие возможность использовать свою богатую природу. Практически на каждом из образцов искусства, отражающих развитие исламской религии в Азербайджане, можно встретить изображения и орнаменты, относящиеся к разным векам. Если материал и форма этих предметов свидетельствуют об организации и совершенствовании производственного процесса в разные периоды, то изображения и узоры на них еще раз подтверждают, что это редкие жемчужины, отражающие образ жизни, обычаи, религиозные обряды и художественный вкус наших предков. Среди таких религиозных металлических предметов особенно выделяются гулабдан, сиропница, чил-джем, афтафа, кашкул, табарзин, алам и цепочки, относящиеся к XVIII-XX векам. Следует отметить, что большая часть этих образцов хранится в Национальном художественном музее Азербайджана, Национальном музее ковра Азербайджана и Национальном музее истории Азербайджана.

**Ключевые слова:** религиозный, предмет, художественный, декоративный, особенность, ислам.

**Ganjmaliyeva Konul**

## Characteristics of Artistic and Decorative Metal Objects for Religious Purposes (In the Context of Islam)

**Summary:** The article talks about the artistic and decorative features of metal objects used in everyday and religious rituals associated with the Islamic religion, which has existed in Azerbaijan since the 7th century. Although the decorative and applied arts of Azerbaijan, which has an ancient history, had its way to perfection before the Islamic religion, its evolution became more extensive after the spread of the Islamic religion in our country. The reason for this was the masters who created

favorable conditions for the development of various types of art, having the opportunity to use their rich nature. Almost every piece of art reflecting the development of the Islamic religion in Azerbaijan contains images and ornaments dating back to different centuries. If the material and shape of these items indicate the organization and improvement of the production process in different periods, then the images and patterns on them once again confirm that these are rare pearls reflecting the lifestyle, customs, religious rites and artistic taste of our ancestors.

Among such religious metal objects, the most notable are the gulabdan, syrup bowl, chill-jam, aftafa, kashkul, tabarzin, alam and chains dating back to the 18th-20th centuries. It should be noted that most of these samples are kept in the National Art Museum of Azerbaijan, the National Carpet Museum of Azerbaijan and the National Museum of History of Azerbaijan.

**Keywords:** religious, object, artistic, decorative, feature, Islam.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.11.2024**

**UOT: 73/76**
**ORCID: 0000-0003-3239-2777**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.056**

**Rayihə Şaiq qızı Məmmədli**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**İncəsənət tarixi kafedrasının müdiri,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**Email: rayiha_m@yahoo.com**

# XOCALI FACİƏSİNİN TƏSVİRİ SƏNƏTDƏ İFADƏSİ

**Xülasə:** Məqalədə müasir Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımı və onun təsviri sənətdə əksindən bəhs edilir. Tarixin müxtəlif dönəmlərində baş vermiş hadisələr çox zaman yaradıcı insanların əsərlərində öz bədii ifadəsini tapır. Xocalı soyqırımı mövzusu da həm rəngkarlıq, həm qrafika, həm də heykəltəraşılıq sahələrində çalışan sənətkarlarımızın yaradıcılığında mühüm yer tutur. X. Əhmədov, V. Ucatay, N. Əliyev, A. Azərelli, N. Məmmədov və digər sənətkarlarımız dəfələrlə bu mövzuya müraciət edərək hadisənin ağrı-acısını özündə dolğun şəkildə ifadə edən sənət əsərləri yaratmağa nail olmuşlar.

**Açar sözlər:** Xocalı, soyqırım, təsviri sənət, rəngkarlıq, qrafika, heykəltəraşlıq.

Tarixin müxtəlif dövrlərində ermənilər tərəfindən soyqırıma məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ildə Xocalıda üzləşdi. Bu, bəşər tarixində az-az təsadüf olunan dəhşətli cinayətlərdən biri və Ermənistanın ölkəmizə hərbi təcavüzünün kulminasiya nöqtəsi idi. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində yüzlərlə insan öldürüldü, yüzlərlə insan şikəst oldu, mindən çox Xocalının dinc sakinləri – qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətinə məruz qaldılar. Azərbaycan xalqı, uşaqdan böyüyə qədər hər kəs, bu hadisələrin dəhşətini yaşadılar. Və, əlbəttə ki, yaradıcı insanlar bu dəhşətli hadisələrə öz münasibətlərini bildirməyə bilməzdilər. İncəsənət öz spesikasına görə dövrün bir növ bədii güzgüsü hesab olunur. Müxtəlif dövrlərdə, fərqli cəmiyyətlərdə baş verən hadisələr həmin ölkənin təsviri sənətində öz bədii ifadəsini tapır. Biz bunu Dünya incəsənətinin müxtəlif tarixi dönəmində izləmişik, Azərbaycan incəsənətində isə tarixi hadisələrə ilk sənətkar-vətəndaş münasibəti Bəhruz Kəngərlinin yaradıcılığı ilə başlamışdı və sonrakı dönəmlərdə də bu ənənə digər rəssamlarımız tərəfindən uğurla davam etdirilmişdir. Həm rəngkarlıq, həm qrafika, həm də heykəltəraşlıq sahəsində çalışan sənətkarlarımız Xocalı faciəsini öz prizmalarında keçirərək hadisələrə obyektiv qiymət verməyə çalışmışdılar. Və, bu baxımdan, həmin əsərlərin tarixi əhəmiyyəti çox böyükdür.

Xocalı faciəsinə dərhal münasibət göstərmiş sənətkarlarımızdan biri Xalq rəssamı, heykəltəraş Xanlar Əhmədov olmuşdur. Faciə baş verdikdən sonra məhşur tişə us-

tası bir il ərzində digər yaradıcı işlərini qırağa qoyaraq, həmin dəhşətli hadisələrə həsr olunmuş 25 heykəltəraşlıq kompozisiyası yaratmışdır. Bədii cəhətdən çox dəyərli olan bu əsərlərdə Xocalı faciəsinin çox maraqlı plastik həllini görmək mümkündü.

Xocalı mövzusu tanınmış rəssam Vaqif Ucatayın yaradıcılığında da xüsusi yer tutur. Rəssamın bu dəhşətli hadisələrə həsr etdiyi ən təsirli əsərlərindən biri "Xocalı" plakatıdır. Əsərin kompozisiya mərkəzini təşkil edən sinəsinə xəncər sancılmış körpənin obrazı nifrət və qəzəb hissi doğurur. Rəssamın Qarabağ müharibəsinə həsr etdiyi "Bax! Gör! Unutma!" adlı qrafik silsiləsində də Xocalı faciəsini canlandıran əsərlərə xüsusi yer ayrılmışdır. Bu əsərlərə başlamazdan öncə rəssam yurdundan-yuvasında didərgin düşmüş insanlarla dəfələrlə görüşmüş, onların başına gələn müsibətləri dinləmiş və, nəticədə, çox təsirli və inandırıcı əsərlər yaratmağa nail olmuşdur.

Xocalı soyqırımı hadisələrinə yaradıcılığında mühüm yer ayıran sənətkarlarımızdan biri də Azərbaycanın Xalq rəssamı, professor, Natiq Əliyevdir. Məhşur heykəltəraşın Mexiko (2012), Sarayevo (2012) və Ankara şəhərlərində (2014) Xocalı faciəsi qurbanlarının xatirəsinə ucaltdığı monumental abidələr maraqlı kompozisiya həlli və mövzunun dramatik ifadəsi ilə seçilirlər. Hər bir əsərdə faciə qadın obrazı ilə ifadə olunub. Bu obrazlar emosional baxımdan fərqli olsalar da, onların hər birinində biz hadisənin dəhşətini, düşmənin qəddarlığını, insanların acısını hiss edirik.

Xocalı mövzusu və, ümumilikdə Qarabağ mövzusu, rəssam Asif Azərellinin də yaradıcılığında mühüm yer tutur. Rəssamın bu mövzuda yaratdığı ən təsirli əsərlərindən biri "Belə də haqsızlıq olar?" əsəridir. Üfüqi qurulmuş kompozisiyanın yuxarı küncündə qırmızı səmanın önündə düşmən tankları, öldürülmüş və yaralı Xocalı sakinləri təsvir olunub. Kompozisiyanın mərkəzi və ön hissəsində isə erməni əsgərinin ayaqları altında məhv olmuş maddi mədəniyyət nümunələrimiz – vaxtilə Xocalıda tapılmış saxsı qab parçaları, pərdəsi cırılmış tar, yarıya bölünmüş kamança, sındırılmış qaval, yerə atılmış Füzulinin kitabı, foto-şəkillər təsvir olunub. Bu vəhşi münasibət, əlbəttə ki, qəzəb və niffrət hissi oyatmaya bilməz.

Yaradıcılığının on ilindən çoxunu Xocalı soyqırımı mövzusuna həsr etmiş dəyərli sənətkarlarımızdan biri də Nazim Məmmədovdur. Rəssam baş verən hadisələrdən çox sarsılmış və Xocalı faciəsi baş verən gündən həyatının son günlərinə qədər 40-dan çox rəngkarlıq və qrafika əsərləri yaratmışdır. 2002-ci ildə rəssamın soyqırım hadisələrinə həsr etdiyi əsərlərindən ibarət "Xocalı harayı" adlı sərgisi keçirildi. Daha çox rejisor, rəssam-animator, abstrakt rəngkarlığın nümayəndəsi kimi tanınan Nazim Məmmədovu tamaşaçılar tamamilə fərqli rakursdan tanıdılar. Dəhşətli hadisələrin bütün mərhələlərini həyəcanlı, ekspressiv səpkidə ifadə edən rəssam, bir növ bu faciənin bədii salnaməsini yaratmışdır. Üslub, rəng, kompozisiya baxımından çox fərqli olan bu əsərlərə rəssam ittihamedici məna-məzmun yükləyir. Silsiləyə daxil olan "Ailə əsirlikdə", "Onu asıblar", "Körpənin ölümü" və s. kimi təsirli əsərlər tamaşıçıda qəzəb, niffrət hissi doğurur, qisasa səsləyir.

Xocalı faciəsini dolgün formada özündə ifadə edən, bir çox mənalarda bu dəhşətli hadisələrin rəmzinə çevrilən abidələrdən biri də "Ana harayı" abidəsidir (Memarı

– Camal Rəşid Əlizadə, heykəltəraşları – Aslan, Mahmud və Teymur Rüstəmovlardır). Əsərdə məcbur yurdunu-yuvasını tərk etmiş və cansız körpəsini sinəsinə sıxmış ana obrazı canlandırılmışdır. Müəlliflər hündür postamentin üzərində ucaltdıqları ananın obrazında həmin hadisənin agrı-acısını ifadə etməyə nail olmuşdular. Postamentdə yerləşdirilmiş barelyeflərdə soyqırım zamanı öldrülmüş qadınların, uşaqların, qocaların obrazları yer alıb. Barelyeflərdən aşağıda isə soyqırım haqqında rəqəmli faktlar və öldürülmüş insanların siyahısı həkk olunub. Müəlliflər postamentdə işlədikləri barelyefləri və yazıları Ana obrazı ilə birləşdirərək çox təsirli əsər yaratmağa nail olmuşdular.

Xalq rəssamı Arif Hüseynov Xocalı faciəsinə münasibətini "Qarabağnamə – tarixin səhifələri" silsilə əsərində bildirmişdi. Silsiləyə daxil olan əsərlər tarixi faktlara əsaslanır və dəhşətli hadisələrin təsirli və emosional vizual ifadəsi ilə seçilirlər. Bu qrafik əsərdə rəssam soyqırım haqqında yazılı məlumat verməklə bərabər şəhidlərin və dəhşətli hadisənin acısını yaşayan insanların hisslərini ağ-qara cizgilərlə mükəmməl şəkildə ifadə etmişdir.

Xocalı faciəsini özündə dolğun şəkildə əks etdirən monumental əsərlərdən biri də Günay Mehdizadənin yaratdığı "Bir baxışla Xocalı faciəsini yaşa" adlı əsəridir. Bu əsər rəssamın yaradıcılığında tarixi mövzuda yaradılan ən mühüm əsərdir. Yaratdığı çoxfiqurlu kompozisiyada Günay Mehdizadə faciənin çox geniş təsvirini vermiş, xocalıların yaşadığı dəhşəti, onların hisslərini inandırıcı formada vurğulamağa nail olmuşdur. Müəllif çalışmışdır ki, tamaşaçı bir baxışla Azərbaycan xalqının başına gələn faciəni hiss edə bilsin. Doğrudan da, rəssam, çox təsirli, emosional əsər yaratmaqla qarşısına qoyduğu məqsədə uğurla nail olmuşdur. Eyni zamanda, Günay Mehdizadə hadisənin dramatizmi ilə bərabər, bu torpaqların bir gün tarixi sahiblərinə qayıdacağı ümidini də kiçik detallarla ifadə etmişdi. Arxa planda, dağın zirvəsində ucalan Azərbaycan bayrağı buna bir işarə idi.

Xocalı soyqırımı elə bir mövzudur ki, bu mövzuya müraciət hər bir sənətkarın vətəndaş borcudur. Haqlarında bəhs etdiyim rəssamlardan başqa bu mövzuya müraciət edən sənətkarlar arasında Sirus Mirzəzadənin, Fərman Qulamovun, Mayis Əliyevin, Arif Həsənovun, Zakir Əhmədovun, Cəlil Qaryağdının, Aydın Rəcəbovun və digərlərinin adını çəkmək olar. Bu sənətkarlardan başqa ölkəmizdən kənarda yaşayan sənətkar-soydaşlarımızın yaradıcılığında da Xocalı faciəsi öz əksini tapmışdır. Bu mənada Türkiyədə yaşayan yaradıcı soydaşlarımızın fəaliyyəti təqdirəlayiqdir. Heykəltəraş Səid Rüstəmin "Xocalı" kompozisiyasında, Əli Verdiyevin "Xocalı soyqırımı", Ədalət Qaranın "Xocalı faciəsi" və digər sənətkarlarımızın yaradıcılığında erməni vandalizmi və yaşananların dəhşəti öz bədii-emosional ifadəsini tapmışdır. Uzun illərdir Türkiyədə yaşayan rəssam Məhəmməd Əliyevin yaradıcılığında da Xocalı mövzusu xüsusi yer tutur. "Xocalı vəhşiliyi", "Şəhid əsgər", "Xocalıda qadın qırğını" əsərlərində rəssam tarixi faktların yüksək bədii ifadəliliyinə nail olub. Bu əsərlər arasında "Şəhid əsgər" əsərini xüsusi qeyd eləmək istəyirəm. Kompozisiya quruluşuna görə A. Matis və P. Pi-

kassonu xatırladan əsərin mərkəzi hissəsini şəhid olmuş əsgərin cəsədi tutur. Rəssam əlləri, ayaqları bağlı əsgərin üzərinə kəskin işıq salaraq onun obrazını gecənin qaranlığından çıxarır, bununla da hadisənin ağırlığını, gərginliyini daha aydın şəkildə vurğulamağa nail olur. Tünd, kontrastlı kolorit, lampa tək ətrafı işıqlandıran ayın təsviri, kompozisiyanın aşağı hissəsindəki qanlı gölməçə hadisənin ekspressiyasını bir qədər də gücləndirir və dərin emosional təsir bağışlayır.

Xaricdə yaşayan yaradıcı-soydaşlarımızdan Almaniyada məskunlaşan Əşrəf Heybətovun adını xüsusi vurğulamaq lazımdır. Rəssam Xocalı faciəsinə həsr etdiyi 20-dən çox əsərində dəhşətli hadisələrin həyəcanını, ekspressiyasını intensiv rəng kontrastlarının köməyi ilə mükəmməl şəkildə ifadə etmişdir. Rəssamın "Xocalı faciəsi", "Son gecə". "Xocalı soyqırımı" və digər əsərlərinin nümayiş olunduğu Berlin, Vyana sərgiləri Azərbaycan həqiqətlərinin Dünya ictimayətinə çatdırılması baxımından çox önəmli rol oynayırlar.

32 il öncə ermənilərin Xocalıda törətdikləri qətliyamı Azərbaycan xalqı heç zaman unutmayacaq. Torpaqlarımız azad olunsa da, tarixi ədalət bərpa olunsa da, biz bu dəhşətli hadisələri unutmamalıyıq, gələcək nəsillərə ötürməliyik və, bu baxımdan, yaradıcı insanların fəaliyyəti, onların yaratdığı əsərlərin bədii-tarixi əhəmiyyəti çox böyükdür.

## Ədəbiyyat

1. Əliyev Z. A. Qarabağ savaşı rənglərin işığında // Mədəniyyət, №6. Bakı, 2020
2. Salamzadə Ə. Xocalı faciəsi Azərbaycan təsviri sənətində // Xalq qazeti. Bakı, 2019. 23 fevral, s. 6
3. Mexikoda Xocalı soyqırımı abidəsi. URL: xocali-soyqirimi-abidesi-mexiko-4 | QAZAX (qazaxib.az)
4. Sarayevoda Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulan "Dostluq parkı"nın və Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin açılışı olub (mfa.gov.az)
5. Xalq rəssamı Arif Hüseynovun "Qarabağnamə. Tarixin səhifələri" kitabının təqdimatı olub - AZƏRTAC (azertag.az)
6. Bakı Xoreoqrafiya Akademiyasında "Xocalı həftəsi" təşkil edilib - Ümumi xəbərlər | Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi (culture.gov.az)
7. Xocalı faciəsinə həsr olunmuş sərgi keçirildi (medeniyyettv.az)

**Райиха Шаиг кызы Маммадли**

## Трагедия Ходжалы в контексте изобразительного искуссва

**Резюме:** В статье рассказывается про Ходжалинский геноцид, являющийся одной из самых страшных страниц современной азербайджанской истории, и его отражение в изобразительном искусстве.

События, происходящие в разные периоды истории, как правило, находят свое отражение в работах творческих людей. Тема геноцида Ходжалы является важной частью творчества наших художников, работающих как в живописи, графике, так и в скульптуре. Х. Ахмедов, В. Уджатай, Н. Алиев, А. Азерелли, Н. Мамедов и другие видные представители азербайджанского изобразительного искусства неоднократно обращались к этой теме и создали произведения, полностью описывающие боль этого страшного события.

**Ключевые слова:** Ходжалы, геноцид, изобразительное искусство, живопись, графика, скульптура.

**Rayiha Shaig Mammadli**

## Khojaly Tragedy and its Expression in Fine Art

**Summary:** The article is about the Khojaly genocide, one of the most horrible pages of modern Azerbaijani history, and its expression in fine arts.

The events taking place in different periods of history are reflected in the works of creative people. The theme of the Khojaly genocide is an important part of the creativity of our artists working in painting, graphic art and sculpture. H. Ahmadov, V. Ujatay, N. Aliyev, A. Azerelli, N. Mammadov and other prominent representatives of Azerbaijani fine arts have repeatedly addressed this theme and created works that fully describe the pain of this terrible event.

**Keywords:** Khojaly, genocide, fine arts, painting, graphics, sculpture.

**Məqalənin redakasiyaya daxil olma tarixi: 12.06.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский Государственный Университет Культуры и Искусств, XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Art, XLVI edition, Baku, 2024

**УДК: 7.01**
**ORCID: 0009-0005-7320-0286**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.059**

**Лейла Азад кызы Исаева**
**докторант Бакинской Академии Хореографии**
**E-mail: s63816701@gmail.com**

# ФИЛОСОФИЯ ИСКУССТВА НАРОДНОГО ХУДОЖНИКА АЗЕРБАЙДЖАНА ГУСЕЙНА АХВЕРДИЕВА

**Резюме**: Статья посвящена творчеству Народного художника Азербайджана Гусейну Ахвердиеву, сыгравшего неоценимую роль в развитии азербайджанского изобразительного искусства XX века, обогащении его новыми художественными и эстетическими достоинствами. Отмечается, что художник, использующий различные виды изобразительного искусства и средства выразительности, в основном отдает предпочтение произведениям, отличающимся монументальным стилем и масштабными формами. Анализу подвергаются работы художника, выполненные в камне, а также его живописные работы. Подчеркивается, что его произведения пробуждают присущие постмодернизму идеи. Обогащая мир искусства индивидуальной абстрактной творческой манерой, Гусейн Ахвердиев создает произведения, наполненные глубокой экспрессией, подчеркивающей силу художественной выразительности, и несущие смысловую содержательную нагрузку.

**Ключевые слова:** Гусейн Ахвердиев, художник, постмодернизм, живопись, скульптура, философский подход.

Советско-коммунистическая идеология создавала препятствия на пути продвижения ценностей нашего национального искусства, а вопрос приверженности идеологии в искусстве не позволял раскрыть истинные творческие возможности наших художников. Вместе с тем, несмотря на существующие препятствия, в советский период в отечественном изобразительном искусстве сформировалась целая плеяда художников, которые стали продолжателями более прогрессивных традиций.

За годы независимости наши художники добились большего творческого замысла, дальнейшего совершенствования творческой манеры и техники. Основным аспектом, который каждый художник желал иметь в своем творчестве, стало умение придать дух создаваемым ими произведениям, раскрыть характер, соответствующий задумке. Один из таких художников стал Гусейн Ахвердиев, создавший произведения современного философского и концептуального по-

тенциала. Гусейн Ахвердиев сыграл неоценимую роль в развитии азербайджанского изобразительного искусства XX века, обогащении его новыми художественными и эстетическими достоинствами. Своим творчеством он занимает уникальное место в современном азербайджанском искусстве. С первых шагов познания мира и окружающей среды, искусство стало идти вместе с ним по этому жизненному пути. Искусство стало важнейшей частью его жизни. Естественно, большую роль здесь сыграла творческая среда, окружавшая его с ранних лет.

Гусейн Ахвердиев родился в 1956 году в Уджаре, в семье известного художника Гасана Ахвердиева. В 1958 году семья Гасана Ахвердиева переехала в Баку, где он, как и многие художники и скульпторы того времени, стал жить в «Доме художников». Учитывая, что они оба выросли в семье художника Гасана Ахвердиева – многогранного художника, использующего разные техники и стили, в живописи, графики, иллюстрации и декорациях для театральных спектаклей, и с ранних лет были связаны с творческой средой, и с ранних лет его судьба была переплетена с творческой средой азербайджанской художественной интеллигенции, проживающей некогда в Доме художников, где жили видные представители искусства Азербайджана, талантливые живописцы Беюкага Мирзазаде, Эйюб Мамедов, Кямиль Ханларов, Махмуд Тагиев и его супруга Халида Сафарова, прославленный скульптор Омар Эльдаров и многие другие. Поэтому совсем неудивительно, что Гусейн Ахвердиев, пошедшим по стопам своего отца Гусейн Ахвердиев, также, как и его брат Уджал Ахвердиев, выросли талантливыми художниками. Неоценимую роль в становлении художника как живописца сыграл один из виднейших представителей художественной школы Азербайджана Саттар Бахлулзаде, который был нередким гостем в доме Ахвердиевых. Один из самых выдающихся представителей азербайджанской школы живописи Саттар Бахлулзаде советовал юному художнику больше работать над черно-белым рисунком, позволяющим не пропустить многие важные детали создаваемой картины. В свой каждый приход этот выдающийся художник и доброжелательный человек приносил фломастеры, бумагу, всячески стараясь поддержать в нем любовь и интерес к живописи [1].

После окончания средней школы Гусейн Ахвердиев изучал навыки художественного мастерства в Азербайджанском Государственном Художественном училище имени Азима Азим-заде. Затем в течение 5 лет продолжил обучение на факультете архитектурно-декоративной пластики Ленинградского высшего индустриального художественного училища имени В.И. Мухиной. В эти годы художник уже стремится к самостоятельному творчеству. Несмотря на то, что Гусейн Ахвердиев прошел сильную реалистическую школу, он всегда был открытый к новациям. И в тот период, когда соцреализм главенствовал во всех областях, художник начал проявлять интерес к авангарду и современному искусству, стараясь передать зрителю закодированную визуальную информацию. Вместе с тем, художник, стремясь отразить в своих работах новаторство и современность,

на протяжении всего своего творчества не оторвался полностью от реализма и создавал произведения на основе этих традиций.

Творчество Гусейна Ахвердиева многогранно. Художник, использующий различные виды изобразительного искусства и средства выразительности, в основном отдает предпочтение произведениям, отличающимся монументальным стилем и масштабными формами. Известный как в своей стране, так и за рубежом, Гусейн с 1980 года является неотъемлемой частью азербайджанской художественной жизни. Когда он начал свою карьеру молодого художника, Советский Союз контролировал сферу искусства. После обретения Азербайджаном независимости он стал одним из самых важных и любимых художников, которые внесли свой вклад в развитие современного искусства и продолжают оставаться важными сегодня. Используя различные изобразительные искусства, такие как фотография, скульптура, инсталляция и живопись, она исследует материальность, форму и эмоции в своей экспериментальной и сложной практике. Помимо своей деятельности в Азербайджане, Гусейн с 1980 года является активным участником выставок и симпозиумов, где наряду с изобразительными видами искусства, такими как скульптура, графика, живопись, художник уникальным образом воплощает свои идеи и художественные эксперименты посредством видео-арта и фотографии. Будучи участником как индивидуальных, так и групповых выставок, он выставлял свои работы в таких странах, как Германия, Грузия, Великобритания, США, ОАЭ, Норвегия, Франция, Россия, Индия, Узбекистан и Италия. Опыт Гусейна Ахвердиева, удостоенного в 2003 году звания Заслуженного художника Азербайджана, расширяется и развивается. В 2021 году ему было присвоено почетное звание Народного художника Азербайджана.

В какой бы области и жанре он ни работал, художник относится к своему творчеству одинаково бережно, и в результате в своем богатом творчестве Ахвердиев подписал бесчисленное количество успешных работ. Художник в постоянном творческом поиске. Как только приходит новая идея, художнику становится ясно, что будущее произведение подходит для области графики, будет более успешным как скульптурное произведение или сможет полнее выразить свое отражение с помощью цветов.

Также очень важна использованная здесь техника и выбранный материал. Подбор материала для каждой работы, соответствующий ее духу, — одна из замечательных особенностей, которую можно увидеть в пластических образцах художника.

Гусейн Ахвердиев является автором видео-арта и фотокомпозиции, подготовленной для проекта «СССР-ремикс» совместно с другими азербайджанскими артистами. Те же принципы прослеживаются и в шестичастной композиции Гусейна Хагвердиева «Наша жизнь» («Fly to Baku»), состоящей из отдельных фрагментов как единого целого.

Примеры выставок, в которых участвовал Гусейн Хагвердиев: «Беженцы»

(Вашингтон, 1999 г.), «Кто?» (Баку. 2004), «Другой город» (Баку. 2013), «Камень» (Баку. 2014), «Метаморфозы» (Баку. 2014).

Выставка под названием «Отрыв» (Баку, 2015) в творчестве Гусейна Ахвердиева отличается от творческих диалогов на других выставках. Различные виды изобразительного искусства, выполненные в смешанных техниках, в проекте «Отрыв» можно оценить как «Исследование природы цвета» в произведениях скульптуры, графики, живописи. Здесь штрихи, линеарные линии, цвета словно вступают в диалог друг с другом и ведут человека в иной мир. Эта серия пробуждает присущие постмодернизму идеи. Обогащая мир искусства индивидуальной абстрактной творческой манерой, Гусейн Ахвердиев создает произведения, наполненные глубокой экспрессией, подчеркивающей силу художественной выразительности, и несущие смысловую содержательную нагрузку.

Среди художественных образцов Гусейна Ахвердиева особого внимание заслуживает композиция под названием «Фазы» из серии «Отрыв». Работа привлекает внимание философской емкостью мифологического мировоззрения художника, являющейся отражением его богатого мышления. Колорит произведения проявляется в более утонченной подаче цветового решения, присущего абстракционизму Кандинского и супрематизму Малевича. При рассмотрении из разных контекстов подход художника к «Страшному» Судному дню через цветовую символику очевиден. В этой серии проявляется толерантное отношение художника к различным религиям в «среде мультикультурализма» Азербайджана. Представленная здесь человеческая фигура с распростертыми в стороны руками, как бы отдает себя власти судьбы, напоминая стилизованные «Древние человеческие образы». Известно, что согласно христианской мифологии, белый цвет символизирует чистоту Иисуса Христа, а красный цвет символизирует его страдания и кровь. Эти изображения, нарисованные на листе дикта, окрашенном в черный цвет, отражают отделение от Природы-Творения. Здесь отражен новаторский подход к искусству иконописи, где лейтмотивом данного произведения является воздействие внутренних конфликтов на личность человека. Также очень важна использованная здесь техника и выбранный материал. Подбор материала для каждой работы, соответствующий ее духу, — одна из примечательных особенностей пластических образцов художника. Однако, Гусейн Ахвердиев в качестве материала особое значение придавал использованию камня. Скульптор, работающий над камнями, содержащими исторические следы прошлого, опираясь на древние традиции пластического искусства, переосмысливает его и представляет, образуя единство с современностью. Тому примером работы, представленные на персональной выставке «Камень» в Музее современного искусства.

Каменная скульптура занимает особое место в творчестве Гусейна Ахвердиева. Каменный век (палеолит) длился долгое время в истории и играл важную роль в повседневной жизни людей. В каталоге выставки Чингиз Бабаев, отмечая

чудо этого материала, пишет: «Камень – один из древнейших минералов. Камень — это твердая память об истории, хранящаяся в генетическом коде Земли». Каменные скульптуры отражают знания и опыт людей в искусстве и архитектуре разных народов, от первобытных времен до современности. Являясь показателем веры и убеждений человека, камень занимает важное место в его жизни, активно используясь в храмах, культовых человека и тотемных статуях. Камень выделяется своей вечностью, бесконечностью, статичностью и схематичностью. В своем творчестве Гусейн Ахвердиев обращается к камню не за его сакральные и священные достоинства, а напротив, через этот материал он подошел к ней как к «сущности существования», «исканию ответов на вопросы, постоянно заставляющие человека задуматься», «Кто или что мы?», «В чем причина и цель нашего существования». В философских скульптурных композициях, в которых задумывались все эти соображения, художник одновременно красил камень, посредством чего выражал через цвет свой внутренний эмоциональный мир.

Известно, что в скульптуре в роли цвета выступает фактура материала, но если обратиться к истории, скульптуры Камбоджи, Египта, а также надгробия на кладбище Пира Софи Хамид были расписаны минеральными красками. Действительно, все эти цвета связаны с культом и имеют сакральный смысл, но в серии работ под названием «Камень» Г. Ахвердиев представил органический синтез таких областей, как живопись, графика, скульптура. Здесь художник создал небольшое каменное галактическое пространство на Земле, которые эмоционально дополняют друг друга и вызывают взаимное притяжение во время диалога с особым Абшеронским камнем. В проекте художника «Камень» порядок, созданный из хаоса, более наглядно проявляется в графическом ряду.

Произведения Гусейна Ахвердиева занимают особое место в культурном ландшафте Баку. В области монументального искусства следует особо отметить каменную статую «Святая Мария» в *Церкви Непорочного зачатия Пресвятой Девы Марии* — единственного действующего католического храма на территории Азербайджана, который является главным соборным храмом Апостольского префекта Азербайджана. Чистота, непорочность, благородные чувства Матери Марии воспеваются в этой статуе, отличающейся сложным композиционным решением за счет пластического решения. Высота этой каменной резной статуи около 5 метров. Крупные формы, соразмерность форм, ощущение спокойствия в линиях портрета нашли свое воплощение в этой статуе. Делая художественные обобщения, Г.Ахвердиев успешно нашел пропорциональность масштаба, формы, объема и ритма в образе Св. Марии.

Среди его самых известных произведений — гигантская мозаичная работа «Легенда Каспийского моря», установленная на Сангачальском нефтяном терминале. Гусейн Ахвердиев является автором памятных досок художнику Джаваду Мирджавадову в Баку, академику Мирасадулле Миргасимову и композитору Гаре Гараеву в Москве.

Его фотографии, акриловая живопись и графика по информативности не уступают его монументальным произведениям, демонстрируют его мастерство в разных масштабах каждого человеческого опыта.

Исследуя многогранные пласты современного экзистенциализма, творчество Гусейна разнообразно и плодотворно. В 2013 году его картины пастелью и акрилом экспонировались на групповой выставке «Другой город», проходившей в галерее «YAY». Его картины с абстрактными сетками, ломающими небесный свод, создают грустное и задумчивое настроение, отражают буйную энергию городской жизни.

Проект Гусейна Ахвердиева «Преодолевая границы» был представлен в 2015 гду на Венецианской биеннале. Диалоговая система художника получила дальнейшее развитие и показала себя на новом уровне. Г.Ахвердиев продемонстрировал концепцию моста времени в экспозиции лабиринта, состоящей из деревянной инсталляции, окрашенной в черный цвет. Ограниченность и моральные страдания художников-нонконформистов, а также азербайджанских художников 1950-х и 1970-х годов перенесены в наше время. Доминирование черного цвета – черный хаос отражает метафорический подход к темной системе сталинского режима, где жил и творил отец Г. Ахвердиева, художник-график Гасан Ахвердиев.

Подобные работы также входят в основную экспозицию музея «Каменная летопись» в Баку. Эти произведения отражают важность камня в азербайджанской культуры во все периоды: от петроглифов в Гобустане до современной каменной скульптуры. Каменные произведения Гусейна Ахвердиева под названием «Артерия» выглядят как глубоко врезанные мегалиты. Хотя здесь воспроизводится древняя каменная технология, в этих работах она используется для исследования сложных эмоций современного человеческого существования. Используя натуральные материалы, такие как дерево и камень, Гусейн демонстрирует их многогранность и выражает вечное желание оставить неизгладимый след в меняющемся мире. По мере взросления опыта Гусейна его экспериментальное художественное творчество постепенно становится все более интересным. В 2014 году скульптор провел персональную выставку в Ташкенте, Узбекистан.

Таким образом можно констатировать, что творческие поиски Гусейна Ахвердиева служат мостом между философией материализма и идеализмом. Работы, выполненные художником в металле и камне, возникшей из теории большого взрыва во Вселенной, являются лишь частью философских творческих поисков. Человек с момента своего зарождения рассуждает о сущности бытия. Это останется актуальной проблемой, над которой люди думали с древних времен до современности, а также будут думать будущие поколения. Мы словно живем в параллельных друг другу вселенных и одновременно пространстве, и воспринимаем реальность, которую создали. Человек, живущий в разных когнитивных мирах, пытается понять непостижимость и абстрактность понятий мироздания.

Все эти особенности составляют лейтмотив произведений художника Гусейна Ахвердиева. Художник транслирует сложность момента «раскадровонной жизни», состоящей из множества отдельных проекций, и доводит до зрителя разные, абстрактные, неповторимые образы с деформациями, достигая через них диалога. Постмодернистский философский подход Г. Ахвердиева проявляется в творчестве художника, особенно в его скульптурах. Постмодернизм сторонник нового подхода к истории. В постмодернизме все границы сливаются воедино. Философия, культура, искусство, архитектура и другие понятия перемешаны друг с другом. Они уже не являются отдельными течениями, а смешиваются между собой и становятся синкретическими. В постмодернизме не достигается суть существования и вещей, все воспринимается, не обращая внимания на его глубину и тонкости. Художник Гусейн Ахвердиев представляет различия и стили изобразительного искусства в органическом диалектическом единстве.

Наряду с постмодернизмом в его творениях научно-теоретические принципы синергетики усиливают ощущение синхронизации и гармонии, усиливая философскую концепцию и архетипический лаконизм произведений. Система, состоящая из многих элементов, под действием некоторой силы переходит из хаотического состояния в упорядоченное. Синергетика изучает многодвижительный порядок и гармонию системы, состоящей из таких многокомпонентных элементов. Постмодернизм и синергетика в искусстве нашли свое полное выражение в творчестве художника. Перечисленные особенности отражают богатое художественное мышление художника Гусейна Ахвердиева.

## Литература:

1. Вагабова Диляра. Другое искусство. Азербайджанская живопись 1970-80-х годов: новые тенденции – Баку: Элм, 1993, 116 с.
2. Mirmehdi Ağaoğlu. “APA”: “Bir vedrə rəngi yerə töküb deyirlər, sənətdir” – Xalq rəssamı. URL: https://www.aznews.az/news/accident/273347.html
3. Таирова Мехрибан. Краски, рисующие время // “Tanış olaq”. Elmi-ictimai-bədii jurnal. URL: https://tanisolaq.wordpress.com/2016/04/16/%D0%BA%D1%80%D0%B0%D1%81%D0%BA%D0%B8%D1%80%D0%B8%D1%81%D1%83%D1%8E%D1%89%D0%B8%D0%B5%D0%B2%D1%80%D0%B5%D0%BC%D1%8F/
4. Аббасова Рая. Война и мир Гасана Ахвердиева. Дети и внуки художника достойно представляют современное национальное искусство. ЧАСТЬ 2. Каспій. / 2019 – 19 октября – С. 14-15. URL: https://www.anl.az/down/meqale/kaspi/2019/oktyabr/679421.htm
5. https://www.wikiwand.com/az/articles/H%C3%BCseyn_Haqverdiyev

**Leyla Azad qızı İsayeva**

## Azərbaycan xalq rəssamı Hüseyn Haqverdiyevin sənət fəlsəfəsi

**Xülasə**: Məqalə XX əsr Azərbaycan təsviri sənətinin inkişafında, onun yeni bədii-estetik məziyyətlərlə zənginləşməsində əvəzsiz rolu olan Azərbaycanın xalq rəssamı Hüseyn Haqverdiyevin yaradıcılığına həsr olunub. Qeyd olunur ki, təsviri sənətin müxtəlif növlərindən və ifadə vasitələrindən istifadə edən rəssam əsasən monumental üslubu və irihəcmli formaları ilə seçilən əsərlərə üstünlük verir. Rəssamın daşla işlənmiş əsərləri, eləcə də rəngkarlığı təhlil edilir. Onun əsərlərinin postmodernizmə xas olan ideyaları oyandırdığı vurğulanır. İncəsənət aləmini fərdi mücərrəd yaradıcılıq üslubu ilə zənginləşdirən Hüseyn Haqverdiyev dərin ifadə ilə dolu, bədii ifadəliliyin gücünü vurğulayan, semantik məzmun daşıyan əsərlər yaradır.

**Açar sözlər:** Hüseyn Haqverdiyev, rəssam, postmodernizm, rəssamlıq, heykəltəraşlıq, fəlsəfi yanaşma.

**Leyla Azad k. Isayeva**

## People's Artist of Azerbaijan Huseyn Akhverdiyev's Philosophy of Art

**Summary**: The article is devoted to the work of People's Artist of Azerbaijan Huseyn Akhverdiyev, who played an invaluable role in the development of Azerbaijani fine art of the twentieth century, enriching it with new artistic and aesthetic merits. It is noted that the artist, using various types of fine art and means of expression, mainly gives preference to works that are distinguished by a monumental style and large-scale forms. The artist's works made in stone, as well as his paintings, are analyzed. It is emphasized that his works awaken ideas inherent in postmodernism. Enriching the world of art with an individual abstract creative manner, Huseyn Akhverdiyev creates works filled with deep expression, emphasizing the power of artistic expressiveness, and carrying a semantic content load.

**Keywords:** Huseyn Akhverdiyev, artist, postmodernism, painting, sculpture, philosophical approach.

**Məqalənin redaksiyaya daxi olma tarixi: 30.09.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский Государственный Университет Культуры и Искусств, XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Art, XLVI edition, Baku, 2024

**UOT: 73/76.**
**ORCID: 0009-0007-5043-1537**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.060**

**Gülşən Tofiq qızı Qasımzadə**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantı**
**E-mail: gulshengasimzadeh@yahoo.com**

# OSMANLI SARAY XALILARI VƏ ONUN İNKİŞAFINDA AZƏRBAYCANLI RƏSSAM VƏ SƏNƏTKARLARININ ROLU

**Xülasə:** Məqalədə XV-XVI əsrlərdə Türkiyədə Osmanlı dövründə yaranan saraylar və bu sarayların bədii tərtibatında istifadə edilən xalılardan bəhs olunur. Türkiyənin Səlcuq dövrü xalılarından fərqli olaraq XVI-XVII əsr Osmanlı dövrü xalılarına həm Azərbaycanın, həm də Misirin təsiri olmuşdur.

Osmanlılar və səfəvilər arasında mürəkkəb siyasi qarşıdurmaya baxmayaraq, hər cür əlaqələr (o cümlədən hərbi mahiyyətli) mədəniyyət və incəsənət sahəsində dialoq yaradırdı. Belə ki, müəyyən hərbi toqquşmalar azərbaycanlı sənətkarların osmanlı emalatxanalarında çalışmasına, çoxsaylı mahir sənətkarların yerini dəyişməsinə səbəb olurdu. Onlar da məcburi olaraq yeni şəraitdə çalışır, yaradıcılıq fəaliyyətini davam etdirirdilər. Türkiyəyə köçürülən yüzlərlə, minlərlə azərbaycanlı sənətkar burada işləyib, türk incəsənətində böyük iz qoymuş, onun simasının formalaşmasına güclü təkan vermişdilər. Ümumiyyətlə, Osmanlı saray xalılarının bədii təhlili türk saray incəsənətinin Azərbaycan incəsənəti ilə yaxınlığı haqqında fikir söyləməyə əsas verir.

**Açar sözlər:** Osmanlı, saray, azərbaycanlı, Misir, xalı, Səfəvilər, Təbriz, İstanbul.

Çiçəkləndiyi dövrdə Osmanlı dövlətinin tərkibinə İran torpaqlarının bir hissəsi, Suriya, Fələstin, İraq, Ərəbistan, Balkan yarımadası, Macarıstan, Rusiyanın cənubu, Polşanın bir hissəsi, Misirin, Şimali Afrikanın, Sudanın bəzi hissələri daxil idi. Bu səbəbdən, Osmanlı sultan sarayının incəsənəti işğal edilmiş ərazilərdə inkişaf edən mədəniyyətlərin təsirinə məruz qalır, onun təsiri ilə formalaşırdı. Bununla bağlı araşdırılan mövzu hüdudlarında Səfəvi Təbrizi təsirinə xüsusi diqqət yetirilməlidir.

Osmanlı və Səfəvi mədəniyyətinin oxşarlığı onların siyasi, iqtisadi və mədəni inkişafının birliyindən irəli gəlirdi. Hər iki dövlət – Azərbaycan (Səfəvilər) və Türkiyə (Osmanlılar) və onların bədii məktəbləri özünün çiçəklənmə dövrünü eyni vaxtda, yəni XVI-XVII əsrlərdə yaşamışdılar. Türkiyə ilə Azərbaycanı həm də ümumi din – İslam və etnogenetik yaxınlıq, mədəni əlaqələr birləşdirirdi. Monqol əsarətindən Osmanlı Türkiyəsinə qaçan azərbaycanlı sənətkarlar yeni şəraitdə uğurla işləyir və öz isteadının reallaşdırılması üçün geniş imkanlar əldə edirdilər. XIII əsrdə, yəni Səlcuq memarlığı inkişafının ən yüksək zirvəsinə çatdığı dövrdə Konya sultanlığında azərbaycanlı me-

marlar və ornamentalist rəssamlar çalışırdı [1, s.118]. 1419-cu ildə Türkiyənin paytaxtı olan Bursa şəhərində Yaşıl məscidi də təbrizli memar tikmişdi [2, s.27]. Bununla yanaşı, iki dövlətin arasında münasibətlər heç də həmişə dostluq və əmin-amanlıq xarakteri daşımırdı. 1503-cü ildə Şah İsmayıl Xətai Ağqoyunlu dövlətini darmadağın edir, İranın və İraqın ərazilərini zəbt edərək, Səfəvilər dövlətini yaradır və özü həmin dövlətin hökmdarı olur. Səfəvi-qızılbaşların yüksəlişi onların qonşu dövlətlərin, o cümlədən Osmanlı və Şirvanşahlar dövlətlərinin ərazilərinə marağını da artırırdı. Osmanlı süləsinin nümayəndələrinə gəldikdə isə, onlar taxt-tac üçün apardıqları mübarizədə bəzən Səfəvilərə kömək üçün müraciət edir, bəzən isə onlara meydan oxuyurdu. Osmanlı imperiyası və Səfəvilər dövlətinin arasında baş verən ilk silahlı münaqişə, yəni iki dövlət arasında hərbi əməliyyatlar 1514-1555-ci illərdə baş verir. Həmin münaqişələr sünnü türklər və şiə azərbaycanlılar arasında dini fikir ayrılığı zəmnində baş vermişdi. Bu müharibənin nəticəsi olaraq 1555-ci ildə sülh müqaviləsi imzalanmışdı.

Səfəvi-Osmanlı münasibətlərində mühüm tarixi hadisə – Çaldıran döyüşü xüsusi yer tutur. Çaldıran döyüşü 1514-cü ildə, avqustun 23-də Van gölünün şimal-qərbində yerləşən Çaldıranda Osmanlı və Səfəvilər dövlətinin orduları arasında baş vermişdi və onun əsas məqsədi Erməni yaylası, Qafqaz və Mesopotamiya üzərində nəzarət əldə etmək idi. Döyüş Osmanlı ordusunun qələbəsi ilə sona yetmişdi. Osmanlılar Səfəvilərin paytaxtı Təbrizə daxil olur, lakin bu şəhəri uzun müddət saxlaya bilməyib geri çəkilmişdi. Sultan I Səlim Təbrizi tərk edərkən yüzlərlə sənətkarı zor gücü ilə İstanbula köçürmüşdü. Bu sənətkarlar müxtəlif sahələrdə – keramika, xalçaçılıq, miniatür rəngkarlığı və s. fəaliyyət göstərirdilər. Əsir götürülmüş sənətkarlar arasında xəttatlar da var idi [3, s.34]. Qənimət şəklində Təbrizdən zəngin maddi sərvətlər, o cümlədən Şah İsmayılın taxt-tacı, silahı, geyimləri, minlərlə qiymətli kitablar, nadir miniatürlər, xalçalar aparılmışdı [2, s.25]. Eyni hadisə 1559-cu ildə, yəni Sultan Süleyman ikinci dəfə Təbrizi işğal edəndə təkrar olunur və Təbrizdən küllü miqdarda qənimətlər aparılır. Çaldıran döyüşündən sonra Səfəvilər öz paytaxtını Təbrizdən Qəzvinə köçürür. Bu ehtiyat tədbiri çox gərəkli idi. Osmanlılar Təbrizi 1534-cü və 1548-ci ildə tutub, hər dəfə buradan zəngin qənimətlər aparmışdılar. Qafqaza nəzarət uğrunda Osmanlı-İran müharibələri 1578-1590-cı illərdə yenidən baş verir. 1590-cı ildə Osmanlı imperiyası və Səfəvilər dövləti arasında İstanbul müqaviləsi imzalanır və nəticədə İran Qafqazı itirir. Bütövlükdə, Osmanlı-İran müharibələri dövründə İstanbula yüzlərlə sənətkar ailəsi, çoxlu rəssam və xalq sənətkarları köçürülmüşdü [4, s.8]. Həmçinin çoxsaylı nadir xalçalar və başqa maddi sərvətlər aparılmışdı.

Əsir götürülmüş və Türkiyəyə gətirilən sənətkarlar xüsusi məntəqələrdə yoxlanılır, onların ixtisası və peşəkar səviyyəsi müəyyən edilirdi. Məsələn, Sultan Süleymanın İstanbula gətirdiyi sənətkarların arasında olan bir qrup rəssamları "cəmaəti nəqqaşı əcəm", "cəmaəti qaliçebəfan", "cəmaəti memaran" adlandırırdılar [2, s.40]. Türk tədqiqatçısı Bigə Çətintürk yazır ki, "cəmaəti qalıçebafan" əsasən sultanların şəxsi xalçaçıları olub [2, s.40-41]. Onların əksəriyyəti əsir yaxud qul kimi işləyirdi. Tədqiqatçı öz əsərində sənətkarların gündəlik zəhmət haqqı cədvəllərindən məlumat verir və hansı

sultanın dövründə işlədiyini göstərir [2, s.41]. Əsir götürülən sənətkarlar üçün yeni iş yerləri açılırdı. 1595-ci ildə bütün imperiya üzrə 16 iri emalatxana işləyir, onlarda yun, ipək, pambıq saplardan istifadə etməklə gözəl xalçalar toxunurdu [5, s.17]. Osmanlı toxuculuğunun əhəmiyyətini azaltmadan, Təbriz sənətkarlarının onun inkişafında rolunu qeyd etmək lazımdır. İstanbula gətirilən xalçalar yerli saray rəssamları və toxucuları üçün nümunə kimi təqdim olunurdu. Osmanlı sarayında Şahqulu adında təbrizli rəssam işləyirdi. “Şahqulunu Sultan Süleyman şəxsən sarayına dəvət etmişdi və ona böyük rəğbət bəsləyərək, 29 saray rəssamın başçısı təyin etmişdi. Sultan Süleyman Şahqulu üçün xüsusi emalatxana ayırır, ona gündə 100 aspra zəhmət haqqı verir və tez-tez ona baş çəkirdi” [6, s.62]. L.Kərimov Şahqulunun Osmanlı miniatürünün inkişafında oynadığı rolu haqqında türk tarixçilərinin verdiyi məlumatı təqdim edir: “Bizim rəssamlar Fatihin dövründən əvvəl səlcuq və Bursa məktəblərindən, hətta Qərb incəsənətindən bəhrələnirdi. Bu sənətə Şahqulu başçılıq etdiyi vaxtdan onlar bir müddət İran incəsənətinin təsirinə (Təbriz məktəbi incəsənəti nəzərdə tutulur) məruz qalmışdı” [4, s.90]. Osmanlı sarayında işləyən təbrizli rəssamlardan söhbət açarkən XVI-XVII əsrlər Azərbaycan miniatür məktəbinin görkəmli nümayəndələrinin – Kamal Təbrizinin, Vəli Can Təbrizinin, Əbdülqəninin, Mansur bəyin, Mir Ağanın, Şeyx Kamalın, Əli Canın adları çəkilməlidir [4, s.90]. Bu məlumata əsasən, Təbriz miniatür məktəbinin Osmanlı miniatürünə güclü təsir göstərməsindən söhbət açmaq məntiqi olardı. Y.Miller qeyd edir ki, “İran (Təbriz) təsiri süjetlərin, ikonoqrafiya və texnikanın mənimsəməsində özünü biruzə verir və getdikcə güclənirdi” [6, s.52]. Şah Tahmasibin xalça eskizləri yaratmağa həvəs göstərməsi dəqiq məlumdur. Daha bir dəqiq tarixi fakt odur ki, 1556-cı ildə Şah Tahmasib Osmanlı hökmdarı Sultan Süleymana göndərdiyi məktubda dahi Sinanın tikdiyi böyük məscid üçün (Süleyman məscidi) xalını onun özü göndərəcəyini bildirir və zalın ölçülərini ona göndərməyi xahiş edirdi. Nəticədə, xalılar vaxtında toxunub məscidə göndərilmişdi [2, s.38]. Belə bir qeydə də rast gəlinir ki, 1567-ci ildə İran səfiri baş vəzirə və başqa vəzirlərə Həmədanda və Dərgəzində toxunmuş ipək xalçalar bağışlamışdı. Həmin hədiyyələri 44 dəvə daşıyırmış. Onlardan 34-ü şəxsən şahın verdiyi hədiyyələri, qalanları isə səfirlərin verdiyi hədiyyələri aparırdı. Hədiyyələrin arasında ən qiymətli əşyalar 20 böyük ölçülü xalçalar idi. Bu xalçalar qızıl saplarla tikilmiş quş, heyvan və gül təsvirləri ilə bəzədilmişdi. Ondan əlavə, dəvə yunundan toxunmuş 9 xalça da olub [1, s.121]. K.M.Əliyeva A.Poupa istinad edərək, qeyd edir ki, Həmədanda və Dəbərzində toxunmuş xalçalar şimal-qərb tipli göllü xalçaların ən parlaq nümunələridir [1, s.121].

XVII əsrin əvvəllərində (1603-cü ildə) Səfəvilər və Osmanlılar arasında hərbi əməliyyatlar yenidən başlayır və onlar 1639-cu ilə qədər davam edir. Bu münaqişədə Avropa dövlətləri və Rusiya mühüm rol oynamışdı, çünki Səfəvilərin Osmanlılarla vuruşdurmaqda onlar da maraqlı idi. 1603-1607-ci illərin hərbi əməliyyatları ərzində Şah I Abbas Osmanlılardan bütün Azərbaycan torpaqlarını, o cümlədən Təbrizi, bütün Cənubi Azərbaycanı, Ordubadı, Culfanı, Naxçıvanı (1603-cü il), İrəvanı (1604-cü il), Gəncəni (1606-cı il), Şamaxını (1607-ci il), Bakını və Dərbəndi azad etmişdi. Mürək-

kəb siyasi qarşıdurmaya baxmayaraq, hər cür əlaqələr (o cümlədən hərbi mahiyyətli) mədəniyyət və incəsənət sahəsində dialoq yaradırdı. Belə ki, hərbi toqquşmalar çoxsaylı mahir sənətkarların yerinin dəyişməsinə səbəb olur, onlar da məcburi olaraq yeni şəraitdə çalışır, yaradıcılıq fəaliyyətini davam etdirirdilər [6, s.22]. Nəticədə, tarixi vəziyyət azərbaycanlı sənətkarların osmanlı emalatxanalarında çalışmasına gətirib çıxarmışdı. Türkiyəyə köçürülən yüzlərlə, minlərlə azərbaycanlı sənətkar burada işləyib, türk incəsənətində böyük iz qoymuş, onun simasının formalaşmasına güclü təkan vermişdilər [1, s.118].

XX əsrin əvvəllərində Lətif Kərimovun ustadı, məşhur rəssam Hüseyn Təbrizi İstanbulda, Sinan Universitetində işləyib, orada dərs deyib. Hüseyn Təbrizi özünün miniatür məktəbini, xalça və keramika dizaynı məktəbi yaratmışdı. Bununla yanaşı, azərbaycanlı sənətkarlarının da mühüm rol oynadığı Osmanlı xalçaları tam müstəqil olaraq da bənzəri olmayan bir sənət incisidir. Həmin orijinallıq osmanlı miniatürlərində də özünü biruzə verir. Tədqiqatçılar qeyd edir ki, "türk rəssamları Təbriz miniatürlərinin incəliyindən və nəfisliyindən uzaq idi. Rəng qamması da nisbətən ağır, hətta sərt görünür, bir çox hallarda o təzadlı rənglərin qarşı-qarşıya qoyulması üzərində qurulur" [7]. Ümumiyyətlə, Osmanlı saray xalılarının bədii təhlili türk saray incəsənətinin Azərbaycan incəsənəti ilə yaxınlığı haqqında fikir söyləməyə əsas verir.

Türk xalçaçılığı zəngin ənənələrə malikdir. Həmin ənənələrin kökü Orta Asiya ərazisində oğuzların yaşadığı dövrə gedib çıxır. Osmanlılar dövründə xalçaçılıq tam yeni səviyyədə inkişaf edirdi. Bu xalçaçılıq Səlcuq dövrünün bizim dövrə gəlib çatmış az saylı xalçaları ilə müqayisədə daha iri miqyaslı faktiki materialla (XVI-XIX əsrlər) təqdim olunur. Sözü gedən dövrdə xalçalar həm xalq sənəti əsərləri, həm də peşəkar saray sənətkarlarının əsərləri idi. Peşəkar sənətkarlar öz xalçalarını eskizlər əsasında yaradır və onları xalça materialında əks etdirirdilər. Bu tədqiqatda biz məhz peşəkar sənətkarların yaratdığı saray xalılarının araşdırılmasını məqsədəuyğun bildik. Canişinlərin sarayları İstanbuldan başqa bəyliklərin paytaxt şəhərlərində də yerləşirdi. Bu əzəmətli imarətlərin bəzədilməsi üçün çoxsaylı yüksək keyfiyyətli, dəbdəbəli xalçalar lazım idi. Türkiyənin ayrı-ayrı şəhərlərində saray tipli xalçaların istehsalının genişlənməsi də məhz bununla bağlı idi. Ondan başqa, yerli kübarlar Təbriz məhsullarını da həvəslə alırdı. Təbriz xalçaları Şərqdə ən gözəl və keyfiyyətli xalçalar hesab olunurdu. Təbriz xalçaçılıq məktəbi isə müsəlman Şərqinin bir çox ölkələrində xalçaçılıq sahəsinə müstəsna təsir göstərmişdir. Osmanlı dövründə xalçaçılıq sənətinin aşağıdakı mərkəzləri məlumdur. Onların arasında ilk növbədə imperiyanın paytaxtı İstanbulu qeyd etmək lazımdır. Xalçaçılıq emalatxanaları Topqapı sarayında, Üsküdar və Kum Kapıda yerləşirdi. XIX əsrə qədər həmin emalatxanalarda qızıl və gümüş saplar tətbiq edilən yun və ipək xalçalar toxunurdu. Həmin xalçalarda Osmanlı dövrünün ənənələri davam etdirilirdi. Osmanlı xalçalarının ən iri satış mərkəzi liman şəhəri Smirnada yerləşirdi (Smirna – müasir İzmir şəhərinin qədim adıdır). Smirnada xalçalar toxunmur, lakin ətraf kəndlərdə "Smirna" adı ilə tanınan xalçalar istehsal olunurdu. Bu xalçalar saray xalçaları üçün səciyyəvi olan əyri xətli "şəhərli" dizaynı ilə seçilirdi. Ondan əla-

və, Türkiyənin ayrı-ayrı bölgələrindən xalçalar gətirilir və dəniz yolları ilə Avropa bazarlarına aparılırdı. XV əsrdən başlayaraq Türkiyənin qərbində, Egey dənizi regionunda yerləşən Uşak şəhəri xalçaçılığın ən iri mərkəzlərində biri olub. Çox güman ki, Topqapı sarayını xalçalarla təhciz edən mərkəz də məhz Uşak olub, çünki saray emalatxananları burada yerləşirdi. Maraqlıdır ki, XVII əsrin əvvəllərində "Uşak şəhərində əhalinin əsas hissəsini ermənilər və yunanlar təşkil edirdi, xalçaçılıqla isə yalnız yunan qadınlar məşğul idi" [6].

İzmir əyalətində yerləşən Berqama şəhərini də xüsusilə qeyd etmək lazımdır. Berqama şəhəri ənənəvi peşə növləri məhsulları ilə - pambıq geyimləri, qızıl məmulatları, nəhayət məşhur Berqama xalçaları ilə şöhrət qazanmışdı. Egey dənizi sahilində, Anadoluda yerləşən çoxsaylı kəndlər də xalçaçılıq mərkəzləri kimi tanınırdı. Çox gözəl, yüksək keyfiyyətli xalçalar həm də Konyada, Karapınarda, Sivasda, Divrigidə, Bursada toxunurdu. Ladik namazlıq xalçaların istehsalı mərkəzi idi.

Osmanlı saray xalçalarının ən qəribə, maraqlı xüsusiyyətlərindən biri onların qeyri-adi strukturudur. Başqa türk xalçalarından fərqli olaraq Osmanlı saray xalçalarında "S" burumlu yun saplardan istifadə edilirdi. Bu da yalnız Misirdə toxunan xalçalar üçün səciyyəvi olan xüsusiyyətdir. Mütəxəssislər bu qeyri-adi xüsusiyyəti Misirin Osmanlılar tərəfindən 1517-ci ildə istila edilməsi ilə əlaqələndirirdilər. Yəni, Osmanlılar Misir emalatxanalarından xalçalar almağa, Misir toxucularının əməyindən və Misir xammalından, yunundan istifadə etməyə başlayır və xammalı Türkiyəyə, yerli emalatxanalara göndərirdilər. Bizim dövrə Qahirə emalatxanalarında İstanbul üçün toxunmuş çoxsaylı gözəl xalçalar gəlib çatmışdır. Qahirə Osmanlı xalçalarının alındığı ən iri təminatçıya çevrilmişdi. Məlum olduğu kimi, Sultan III Murad 11 nəfər toxucuya Qahirədən İstanbula köçməyi əmr etmişdi. Həmin toxucular İstanbulun saray emalatxanasında xalça toxumaq üçün özləri ilə iki ton boyanmış yun gətirmişdilər [8].

Səfəvilər dövründə olduğu kimi xalçaların toxunmasında çox yüksək keyfiyyətli yundan və pambıq iplərdən istifadə edilirdi. Məsələn, xovlu və xovsuz məmulatların hazırlanmasında ipək, qızıl və gümüş saplardan istifadə edilirdi.

Osmanlı Türkiyəsində Səfəvi Azərbaycanında olduğu kimi məscidlərə gözəl ipək xalçalar bəxşiş vermək ənənəsi var idi. Bu səbəbdən İstanbul xalça muzeyində saxlanan xalçaların çoxu da muzeyə Divrigi Ulu Cəme məscidi tərəfindən bağışlanmışdı (Divrigi Ulu Came məscidi UNESCO-nun Dünya mədəni irsi siyahısına daxil edilmişdir) [9].

## ƏDƏBİYYAT:

1. Алиева К.М. «Тебризская ковровая школа XVI-XVII веков». Баку. Элм. 1999.
2. Керимов Л.Г. «Азербайджанский ковер». т. 2. Баку. 1983.
3. А.Ю.Казиев. «Художественное оформление азербайджанской рукописной книги XIII-XVII вв.». М., Книга, 1977.
4. Керимов К.Дж. «Султан Мухаммед и его школа». Москва. «Искусство», 1970.

5. Batari, Ferenc. Ottoman Turkish Carpets. Budapest: Kezthelg, 1994.
6. Миллер Ю.А. Искусство Турции. М., Искусство, 1965.
7. Всеобщая история искусств. Том 2., внига вторая// Под общей редакцией Б.В.Веймарна и Ю.Д.Колпинского. М., Государственное издательство Искусство.
8. (https://www.pinterest.se/pin/403987029053717629/
9. http://www.azerbaijanrugs.com/anatolian/index_anatolian_rugs_carpets.htm

**Гюльшен Гасымзаде**

**Османские дворцовые ковры и роль азербайджанских художников и мастеров в их развитии**

**Резюме:**В статье рассказывается о дворцах, построенных в османский период в Турции в XV-XVI веках и о коврах, использованных в художественном оформлении этих дворцов. В отличие от ковров Турции сельджукского периода, ковры Османского (Османского) периода XVI-XVII веков подверглись влиянию как Азербайджана, так и Египта.

Несмотря на сложный политический конфликт между османами и сефевидами, между ними были диалоги в области культуры и искусства, а также в других областях (в том числе и в военной). В результате военных конфликтов азербайджанских ремесленников заставили работать в османских мастерских, а многие квалифицированные ремесленники менялись местами. Они были вынуждены работать в новых условиях и продолжать свою творческую деятельность. Здесь работали сотни и тысячи азербайджанских художников, переселённых в Турцию, которые оставили большой след в турецком искусстве, дали мощный толчок формированию его имиджа. В целом художественный анализ османских дворцовых ковров дает повод задуматься о близости турецкого дворцового искусства с азербайджанским искусством.

**Ключевые слова:** Османская империя, дворец, Азербайджан, Египет, ковер, Сефевиды, Тебриз, Стамбул

**Gulshen Gasimzadeh**

**Ottoman Palace Carpets and the Role of Azerbaijani Artists and Craftsmen in its Development**

**Summary:** The article talks about the palaces that were built during the Ottoman period in Turkey in the XV-XVI centuries and the scores used in the artistic design of these palaces. Unlike the Seljuk period rugs of Turkey, the rugs of the Ottoman period of the XVI-XVII centuries were influenced by both Azerbaijan and Egypt.

Despite the complex political conflict between the Ottomans and the Safavids, all kinds of relations (including military ones) created a dialogue in the field of culture

and art. Thus, certain military conflicts caused Azerbaijani artisans to work in Ottoman workshops and many skilled artisans to change places. They were forced to work in new conditions and continue their creative activities. Hundreds and thousands of Azerbaijani artists who were transferred to Turkey worked here, left a big mark on Turkish art, and gave a strong impetus to the formation of its image. In general, the artistic analysis of Ottoman palace rugs gives reason to think about the closeness of Turkish palace art with Azerbaijani art.

**Keywords:** Ottoman, palace, Azerbaijani, Egypt, carpet, Safavids, Tabriz, Istanbul.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18.10.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVI buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
Азербайджанский Государственный Университет Культуры и Искусств, XLVI выпуск, Баку, 2024
**THE WORLD OF CULTURE**
Azerbaijan State University of Culture and Art, XLVI edition, Baku, 2024

## FƏLSƏFƏ

**UOT: 1.18**
**ORCID: 0009-0006-1730-0204**
**DOI: https://doi.org/10.52094/3005-9941.46.2024.064**

**Şaxhüseynova Sevinc Asif qızı**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent. ADMİU**
**Email: sevinj.shah@gmail.com**

# ELLİNİZM DÖVRÜ FİLOSOFLARI İNCƏSƏNƏT HAQQINDA

**Xülasə:** "Ellinizm dövrü filosofları incəsənət haqqında" adlı məqalədə dövrün bədii ənənələri nəzəri cəhətdən ümumiləşdirilir, bədii təcrübənin formalaşması həmin dövrün məşhur sənət nəzəriyyəçiləri və filosoflarının bədii təhlilləri əsasında nəzərdən keçirilir. Müxtəlif sənət nəzəriyyələrinin yaranmasında dövrün bədii yaradıcılıq nümunələri və fəlsəfi əsərləri əsas mənbə kimi diqqətə çatdırılır. Teofrast, Vitruvi, Plotin, Apelles, Plini, Yevfranor, Xrisipp, Apolloni, stoiklər, epikurçular, skeptiklər, o cümlədən, Kitionlu Zenon, Kleanf, Xrissip, Seneka, Siseron, Epiktet, Mark Avreli, Epikur, Filodem, Tit Lukretsi Kar, Metrodor, Horatsi, Empirik, Pirron, Plutarx, Lukian, Psevdo-Longin, Dion Xrizostom, Lisipp, Poliklet, Porfiri, Yamvlix, Prokl və b. ilə təmsil olunmuş Ellinizm dövrünün nəinki fəlsəfə üçün, eyni zamanda incəsənət və sənətşünaslıq üçün də məhsuldar olduğu qeyd edilir.

Məqalənin əvvəlində Ellinizm dövrünün memarlıq və təsviri sənəti ilə əlaqədar praktik və nəzəri problemlərdən söhbət açılır. Roma memarı Vitruvi Pollionun 10 kitabdan ibarət olan «Memarlıq haqqında» əsəri nümunə gətirilir.

Məqalədə Ellinizm dövründə bir sıra yunan filosofları və yazıçılarının təsviri sənətə dair traktatlar yazmasından, rəssam və heykəltəraşların həyatı barədə məlumat toplamasından da söhbət açılır.

Məqalədə fayum portretləri barədə də məlumat verilir. Həmçinin, heykəltəraşlıq məktəblərinin yaranmasından, Roma heykəltəraşlarının yunan heykəllərinin surətlərini çıxarması və bununla da orijinalı qalmayan yunan heykəllərinin görünüşü barədə gələcək nəsillərin təsəvvür əldə edə bilməsinin təmin edilməsindən danışılır. Məqalə Ellinizm dövrü incəsənəti, sənət nəzəriyyəsi və estetikası barədə geniş təsəvvür yaradır.

**Açar sözlər:** ellinizm sənət nəzəriyyəsi, Roma memarlığı, Roma heykəltəraşlığı, fayum portretləri, son antik dövr estetikası.

**Giriş.** Platon və Aristotelin dövrü ilə yunan mədəniyyəti tarixinin klassik dövrü bitir. E.ə. IV əsrin II yarısından etibarən antik mədəniyyətin yeni dövrü – Ellinizm (bu sözü elmə ilk dəfə 1833-cü ildə alman tarixçisi Q.Droyzen gətirmişdir) dövrü başlayır.

Ellinizm özü 2 dövrə bölünür: erkən ellinizm və son ellinizm. Erkən ellinizm e.ə. IV əsrin sonlarından Roma imperiyasının yaranmasınadək (e.ə. I əsr) davam edir və öz əksini 3 yeni fəlsəfi məktəbin – stoiklər, epikurçular və skeptiklərin fəlsəfəsində tapır. Bu dövr maarifçilik xüsusiyyətləri ilə səciyyələnir. Son ellinizm eranın I-V əsrlərini, Roma imperiyasının süqutunadək olan dövrü əhatə edir. Bu dövrə bərpaçılıq xüsusiyyətləri xasdır.

E.ə. 146-cı ildə Roma Yunanıstana sahib oldu və onu öz əyalətinə çevirdi. Eramızın I-II əsrlərində Aralıq dənizi sahillərini, o cümlədən, Misir, Yunanıstan, Suriya, eləcə də Avropanın bir sıra ərazilərini birləşdirən Roma imperiyasında zamanın tələblərinə uyğun gözəl memarlıq abidələri, heykəltəraşlıq və rəssamlıq nümunələri yaradılmışdı. Buna görə də klassik Roma incəsənəti yalnız Romada yaradılmış sənət nümunələri olmayıb, imperiyaya daxil olmuş bütün xalqların, eləcə də Etrusk və Ellin incəsənətinin qarşılıqlı əlaqələri nəticəsində meydana gəlmiş və inkişaf etmişdi.

**Əsas hissə.** Ellinizmə qədər bəşəriyyət nəhəng tikililərdən, şəxsi və ictimai həyatda olan mürəkkəb formalardan xəbərsiz idi. Hələ e.ə. VII-VI əsrlərdə Etrusk sənətkarları gözəl binalar inşa etmiş və təsviri sənət nümunələri yaratmışlar. Etrusklar öz məbədlərini bişmiş gildən hazırlanmış heykəllərlə bəzəyirdilər. E.ə. V əsrə aid olan, sanki körpə Romul və Remi qoruyan Kapitoliya canavarının tunc heykəli də diqqəti cəlb edir.

Təsviri sənət və memarlıq hələ antik Yunanıstanda nəzəri cəhətdən geri qalsa da, praktik cəhətdən xeyli inkişaf etmişdi. Ellinizm dövründə bir sıra heykəltəraşlıq məktəbləri formalaşdı. Bunlardan Attik, İskəndəriyyə, Perqam, Rodos məktəblərini göstərmək olar. Məsələn, ellinizm heykəltəraşlarından Aqesandr, Afinodor və Polidorun e.ə. I əsrə aid olan məşhur «Laokoon» qrupu Rodos məktəbinə aiddir. Ellinizm heykəltəraşlığında portret janrı yunanlara nisbətən daha çox inkişaf etdi. Roma sənətkarları fərdi xüsusiyyətləri və psixoloji xarakterləri ilə seçilən konkret şəxslərin portretlərini yaradırdılar. Məsələn, imperator Oktavian Avqustun, imperator Neronun, imperator Trayanın, imperator Kaliqulanın portretləri, imperator Mark Avrelinin atlı portreti və s. Peyzaj da ilk dəfə ellinizm dövrü heykəltəraşlığında işlənməyə başladı.

Roma sənətkarlarının əvəzedilməz xidməti həm də bundan ibarət olub ki, onlar yunan heykəllərinin surətini çıxarmaqla məşğul olmuş və beləliklə, yeni sənət – surətçıxarma sənəti yaratmışlar. Bu, plagiat olmayıb, yeni bir fəaliyyət növü idi və məhz bu işin sayəsində sonradan məhv olmuş yunan heykəllərinin görünüşü barədə gələcək nəsillər təsəvvür əldə edə bildi. Beləliklə, orijinalı qalmayan yunan heykəlləri Roma variantında bizə bu yolla çatdırıldı. Məsələn, "Laokoon" qrupu, çoxfiqurlu heykəltəraşlıq qrupu olan "Farnez öküzü" (e.ə. II əsr, heykəltəraşlar - Apolloni və Tavrisk) bu cür roma surətləridir.

Ellinizm dövründə məşhur olan fayum portretləri öz dövrünün unikal bədii forması olub, əslində, dəfn portretləri idi. İnsan sağ ikən onun portretini çəkib öləndən sonra üzünə geyindirirdilər ki, ruhu öz sahibini tez tapsın. Mumiyadan olan dəfn maskalarını əvəz edən bu portretlər hər bir yaş dövrünə aid qadın və kişi surətlərinin son

dərəcə realist təsviri idi. Fayum portretləri üslub baxımından yunan-roma ənənələri ilə bağlı olsa da, məhz misirlilərin ehtiyaclarını ödəmək üçün yaradılırdı. IV əsrdə Misirdə, mumiyalaşma sənəti öz əhəmiyyətini itirən vaxt yaranan fayum portretləri həm də ikonaların sələfidir. Belə portretlər taxta parçası üzərinə rənglə çəkilirdi. Beləliklə, Misirin eramızın I-III əsrlərinə aid ellinizm və roma dövrlərində yaşayan əhalisinin sifətini təsvir edən fayum portretləri antik rəngkarlığın dövrümüzədək yaxşı qalmış nümunələridir. Bu günədək 900-ə yaxın belə dəfn portretləri məlumdur. Portretlər ilk dəfə 1887-ci ildə Fayum oazisində (oazis – səhrada yaşıllıq və su olan yer), yəni vahəsində ingilis ekspeditorları tərəfindən tapılıb. Onların çoxu məhz Fayum vahəsindəki nekropolda tapıldığı üçün belə adlanır. Sonralar belə portretlər digər ərazilərdə də tapılıb.

Roma memarlığının ən gözəl nümunələrindən imperator Trayanın sütunlu forumunu (113-cü il, Dəməşqli Apollodor), Roma forumunu (e.ə. VI əsr), Roma Panteonunu (118-128-ci illər, Dəməşqli Apollodor), imperator Konstantinin bazilikasını (310-cu il), Flavilər dövrünün imperatoru Titin zəfər tağını (81-ci il), antik dövrün 50 min adam tutan ən böyük amfiteatrı, stadionu və sirki olan və əvvəllər Flavilərin amfiteatrı adlanan Kolizey (72/75-80-cı illər, Qavdensi) binasını göstərmək olar. Qədim Romanın bu şah əsərləri dünya memarlığında xüsusi səhifədir.

Memarlığa aid antik dövrdən bizə qədər gəlib çatan yeganə nəzəri əsər məhz Ellinizm dövrünün məhsulu - Vitruvinin e.ə.I əsrə aid olan”Memarlıq haqqında” traktatıdır. Ondan əvvəlki müəlliflərdən yalnız Platonda memarlığa aid bəzi mühakimələrə rast gəlirik. Aristotelin işlətdiyi “arxitektonika” termininin isə arxitekturaya heç bir aidliyi yoxdur. O, bütünlükdə təsviri sənətə, incəsənətə, həyata, gerçəkliyə aiddir. Roma memarı Vitruvi Pollionun 10 kitabdan ibarət olan “Memarlıq haqqında” əsəri bu sahədə nəinki yeganə, həm də qiymətli əsərdir. Müəllif bütün sənətşünas-memarların adlarını sayır, əsərləri çatmasa da biz onlar haqqında məlumat əldə edirik.

Ellinizm dövründə bir sıra yunan filosofları və yazıçıları təsviri sənətə dair traktatlar yazır, rəssam və heykəltəraşların həyatı barədə məlumat toplayırlar. Apelles (e.ə. IV əsr) və bəzi digər rəssamlar incəsənətə aid bir sıra nəzəri traktatlar yazırlar. Plini (I əsr) belə hesab edir ki, Yevfranor “Simmetriya və kolorit” adlı traktat yazmışdır. Plini həm də Evpomp (e.ə. IV əsr) haqqında, Lisipp və Poliklet, onların yaradıcılığında olan fərqlər haqqında çox dəyərli fikirlər irəli sürmüşdü. Stoiklərdən Xrisippin (e.ə.III əsr) “Rəssamlığın restovrasiyasına qarşı” traktatı məlumdur.

Erkən ellinizm. Bu dövrün fəlsəfi məktəbi olan stoiklər də, Antik klassikada olduğu kimi, incəsənətə təbiətin təqlidi kimi baxırdılar. Erkən stoisizmin nümayəndələri Kitionlu Zenon, Kleanf, Xrisipp, nisbətən son stoisizmin nümayəndələri isə Seneka, Siseron, Epiktet və Mark Avreli idi. Stoiklərin bədii ədəbiyyatla əlaqədar bəzi traktatları qalmışdır. Məsələn, Zenonun “İşarələr haqqında”, “Filologiya ifadələri”, “Beş Homer məsələsi”, “Poetika sənəti haqqında”, “İncəsənət”, Kleanfın “Şair haqqında”, “Gözəllik haqqında”, Xrisippin “Filomata aid olan poetik əsərlər haqqında”, “Poetik əsərləri necə dinləməli?”, “Rəssamlığın bərpasının əleyhinə” və s.

Epikurçular məktəbini Epikur, Filodem, Tit Lukretsi Kar, Metrodor, romalı Horatsi təmsil edirdilər. Metrodorun "Şairlər haqqında", "Poeziya haqqında", Filodemin "Poetik əsərlər haqqında", "Natiqlik sənəti (bəlağət) haqqında", Lukretsinin "Şeylərin təbiəti haqqında", Horatsinin "Pizonlara məktub" traktatları olmuşdur. Epikurun incəsənətlə əlaqədar yeganə əsəri – "Musiqi haqqında" traktatıdır. Qədim Roma atomisti Tit Lukretsi Kar "Şeylərin təbiəti haqqında" adlı poemasında mədəniyyət və incəsənət məsələlərinə də toxunur. Romanın digər sənət nəzəriyyəçisi Kvint Horatsi Flakk satiralarından üçünü ədəbi məsələlərə həsr etmişdir. O, bu şeirlər vasitəsilə öz estetik görüşlərini izah edir.

"Mənzum məktublar" içərisində Horatsinin ən qiymətli əsəri "Pizonlara məktub"dur. Sonralar bu əsər "Poetika", "Poeziya sənəti haqqında", "Poeziya elmi" adı ilə məşhurlaşır. Bu əsər Aristotelin "Poetika"sından sonra ədəbiyyatşünaslıq tarixində dərin təsir buraxmış nəzəri əsərdir. Əsərdə hər bir şairin məcburi əməl etməli olduğu qaydalardan söhbət açılır. Hər bir şair fəlsəfədən xəbərdar olmalıdır. Əsərin əsas ideyası yalnız yunan fəlsəfəsindən götürülməlidir. Müəllif poeziyanın növ və janrlarının xarakteristikasını verir və daha çox dramın üzərində dayanır. Horatsiyə görə, dram əsəri 5 pərdədən ibarət olmalıdır. Hər şeyi səhnəyə gətirmək vacib deyil, məsələn, Medeyanın öz uşaqlarının qanını necə tökməsini tamaşaçılar görməməlidir, bunu sadəcə olaraq sözlə demək kifayətdir. Səhnədə eyni vaxtda üçdən çox aktyor olmamalıdır. Tragik səhnə ilə komik səhnə birləşdirilməməlidir. Bu, Horatsinin estetik baxışlarıdır. XVII əsrin dahi nəzəriyyəçisi N.Bualo "Poeziya sənəti" (1674) adlı traktatında bu əsərdən istifadə etmişdir.

Skeptiklər məktəbinin əsası Pirron tərəfindən qoyulmuşdur. Məktəbin ən tipik nümayəndəsi Sekst Empirik (II əsrin sonu – III əsrin əvv.) "Riyaziyyatçılara qarşı" əsərində təkcə riyaziyyatın deyil, o dövrdə mövcud olan digər elmlərin – qrammatikanın, bəlağətin, astronomiyanın, musiqinin, eləcə də incəsənətin əsas anlayışlarını tənqid edir. "Natiqlərə qarşı" traktatında o, bəlağətin, estetika və incəsənət nəzəriyyəsinin zəruriliyini inkar edir.

E.ə. III əsrdən sonra bədii yaradıcılıq sahəsində ümumi bir süstlük və durğunluq yaranır. İnkişaf edən yalnız komediya janrı olur. Bu, yunanların ellinizm dövründə dünya ədəbiyyatına bəxş etdiyi ən görkəmli ədəbi irsdir. Ellinizm dövründə yunan komediyasının son nümayəndəsi olan dramaturq-filosof Menandrın əsərlərində yunan estetikasının gözəllik haqqında müddəaları öz əksini tapmışdır.

Son ellinizm dövründə Afinada yaşayan yazıçılar köhnə ənənələri davam etdirərək, antik ədəbiyyatı təqlid edirdilər. Plutarx, Lukian, Psevdo-Longinin dövründə ellinizm sənət nəzəriyyəsi bir qədər canlanır.

Plutarx "Gənc oğlan poetik əsərləri necə dinləməlidir?" traktatında öz görüşlərini belə şərh edir: "Təsvir olunan predmet özlüyündə çox pis və natamam, lakin onun bədii təsviri tamamilə güclü və ləyaqətli ola bilər. Gerçəklikdə bizdə dəhşət doğuran hadisələr poeziyada heç də dəhşətli görünmür, əksinə, tamamilə zərərsiz və hətta xoşagələn olur. Poeziya – səslənən rəssamlıqdır, rəssamlıq isə lal poeziyadır. Bizim gör-

düyümüz kərtənkələ, meymun və s. kimi təsvirlər bizi ən çox gözəlliyi ilə deyil, bənzərliyi ilə cəlb edir. Təbiətdə olan bir çox səslər, məsələn, heyvanların səsi, qapı cırıltısı, külək vıyıltısı və s. bizi tezliklə təngə gətirir, əsəbiləşdirir, qıcıqlandırır, lakin bu səslərin gözəl təqlidi bizə zövq verir. "Yaxşını təqlid etmək" və "yaxşı təqlid etmək" – başqa-başqa şeylərdir" (17, s.125-137).

Plutarxın estetik tərbiyə, təqlidin prinsipləri, komikliyin növlərinin mahiyyəti haqqında fikirləri də maraq doğurur. "Aristofan və Menandrın müqayisəsi" əsərində qədim yunan komediyası ilə yeni komediyanın əsas cəhətləri üzə çıxarılır və bu fonda hər iki dramaturq müqayisə edilir, onların oxşar və fərqli cəhətləri aydınlaşdırılır. Plutarx komikliyin növləri və mahiyyəti barədə fikir söyləyir (17, s.161-171). Plutarx "Musiqi haqqında" traktatında "teatr" sözünün etimologiyasını verir. O yazır ki, "teatr" və "teoreyi" (təntənədə iştirak etmək) "teos" (Allah) sözündəndir (17, s.161-171).

"İkinci sofistika"nın nümayəndəsi olan Dion Xrizostom təsviri sənətlə poeziyanı müqayisə edərək, heykəltəraş və rəssamın şair qədər sərbəst imkanlara malik olmadığını söyləyir. Onun fikrincə, heykəltəraş öz material və modelləri ilə sıx bağlı olduğu halda, şair azca təsəvvürlə qənaətlənərək, qəlbinin kiçicik hərəkəti ilə sanki səxavətli bulaqdan külli miqdarda uçan sözlər əxz edir.

Eramızın I əsrinə aid olan "Ülvilik haqqında" adlı traktatın müəllifi naməlum olduğundan, əsər Psevdo-Longinin (psevdo – yalançı) adı ilə tanınır, çünki bir vaxtlar əsərin Longin tərəfindən yazıldığı güman edilirdi. Bu əsər dünya estetikasında yenilik olaraq incəsənətin gözəlliklə məhdudlaşan hüdudlarını genişləndirdi.

Bizim eranın II əsrindəki fəlsəfi cərəyanlardan biri də son stoiklərdir. Onların ən görkəmli nümayəndələri Seneka, Epiktet, Roma imperatoru Mark Avrelidir.

Antik fəlsəfənin ən mühüm və son cərəyanı III-IV əsrlərə aid olan neoplatonizm hesab edilir. Neoplatonizm – qədim mifologiyanın bərpa edilməsi idi. Antik ədəbiyyat və fəlsəfə tarixinin heç bir dövründən bu günədək neoplatonizm dövründən olan qədər əsər çatmamışdır. Bu əsərlər sayca çox olmaqla yanaşı, həm də həcmcə sanballıdır. Porfiri, Yamvlix, Prokl və bir çox digər neoplatonizm müəlliflərinin yüzlərlə və minlərlə səhifəsi olan əsərləri var.

Neoplatonizmin banisi və ən görkəmli nümayəndəsi olan Plotin incəsənətin bəzi növlərinə öz münasibətini bildirmiş, poeziyanı isə ümumiyyətlə nəzərdən keçirməmişdir, çünki bu dövrdə poeziya sənəti artıq yox olub gedirdi. Plotinin 54 traktatdan ibarət əsərlər toplusu olan "Enneadalar"da birinci "Enneada" etikaya, ikinci – naturfəlsəfəyə, üçüncü – kosmologiyaya, dördüncü – psixologiyaya, beşinci – ağıl haqqında təlimə, altıncısı – kateqoriyalar haqqında təlimə həsr edilib (16, s.221-222).

Son antik dövr estetikası xristian ideologiyasının ilk nəzəriyyəçiləri ilə təmsil edilirdi. İncəsənət problemləri II-III əsr xristian müdafiəçilərinin (apologetlərinin) traktatlarında mühüm yer tutur. Apologetlərdən İskəndəriyyəli Kliment incəsənəti tamamilə inkar etməsə də, onu gerçəklik kimi qəbul etməyə icazə vermir. İncəsənət gerçəkliyin cansız obrazıdır, ona görə də istənilən canlı varlıq, məsələn, ilan, köstəbək və s. heykəldən daha qiymətlidir. Biz görünən materiyaya deyil, vahid Allaha sitayiş et-

məliyik. Klimentin müasiri Kvint Tertullian deyirdi ki, antik incəsənət, xüsusən də təsviri sənət bütpərəstliyi yaratdığı üçün ondan imtina etmək lazımdır. Hər bir təsvir bütdür. Rəssam isə bütpərəstliyin əsas səbəbkarıdır. Buna görə də Tertullian xristianlara rəssam olmağı qadağan edirdi. Tertullian Roma imperiyasında geniş yayılmış tamaşaları da qadağan edir, çünki onlar da bütpərəstliyin yayılmasında mühüm rol oynayır. Sirk tamaşaları da bu qəbildən idi. Komediya – natəmizlik, faciə isə qəddarlıq və barbarlıq öyrədir. Lakin bunlarla belə, Tertullian incəsənətin insanın, hətta xristianın həyatındakı rolunu hiss etməyə bilməzdi. Buna görə də o, bütpərəst incəsənətdən və təsviri sənətdən başqa, digər incəsənət növlərinin xristian mədəniyyətinə daxil olmasına icazə verməyə məcbur oldu (16, səh.256-259).

Nəticə. Beləliklə, yunan-Roma sənətşünaslığı bütövlükdə incəsənətin ictimai vəzifəsi və onun mahiyyəti ilə bağlı bir çox məsələlər qoydu. İncəsənətin tərbiyəvi əhəmiyyəti, onun cəmiyyətin həyatı ilə əlaqəsi, incəsənətin növ və janrları, bədii əsərin məzmun və forması, gerçəkliyin estetik idrakı məsələləri geniş şəkildə inkişaf etdirildi.

Ellinizm dövrü nəzəriyyəçiləri incəsənətin yalnız texniki cəhətini ön plana çəkmirdilər. Təbiəti və varlığı incəsənətdən yüksəkdə tutan və incəsənəti təbiətdən az fərqləndirən klassik dövr nümayəndələrindən fərqli olaraq, ellinizm nümayəndələri əsərin sırf bədii tərəfini də başa düşürdülər. Ellinizm dövründə ilk dəfə olaraq, bədii əsəri həm məzmun, həm də forma cəhətdən təhlil etməyi öyrəndilər ki, bu da klassik dövrdə hiss edilmirdi.

529-cu ildə imperator Yustinianın Afinadakı fəlsəfi məktəbləri bağlatdırması ilə bütün antik fəlsəfə, o cümlədən estetika və ədəbiyyat süquta uğradı.

**Севиндж Шахгусейнова**

## Философы эпохи Эллинизма об искусстве

**Резюме:** В статье "Философы эпохи Эллинизма об искусстве» рассматриваются и теоретически обобщаются художественные традиции того времени. *Цель исследования* – анализировать формирование художественной практики на примере художественного подхода философов и теоретиков искусства эпохи. *Метод исследования* - отмечая важность и плодотворность эпохи Эллинизма в области философии, искусствоведения и собственно искусства, основываться на представителей, которыми являются, в основном, Теофраст, Витрувий, Плотин, Апеллес, Плиний, Евфранор, Аполлоний, стоики, эпикурейцы, скептики, в т.ч. Хрисипп, Зенон, Клеанф, Сенека, Эпиктет, Цицерон, Марк Аврелий, Эпикур, Филодем, Лукреций, Метродор, Гораций, Эмпирик, Пиррон, Плутарх, Лукиан, Псевдо-Лонгин, Дион Хризостом, Лисипп, Поликлет, Порфирий, Ямвлих, Прокл и др.

*Результаты исследования* заключаются в том, что читатель получает информацию об искусстве эпохи Эллинизма, знакомится с философами и теоретиками искусства данного периода. Например, в начале статьи освещаются теоретические и практические проблемы архитектуры и изобразительного ис-

кусства. Упоминается трактат римского архитектора Витрувия Поллиона “Десять книг об архитектуре”. В статье также перечисляются авторы, написавшие трактаты об искусстве, о жизни живописцев и скульпторов.

**Ключевые слова:** теория искусства Эллинизма, Римская архитектура, Римская скульптура, фаюмские портреты, эстетика позднего Эллинизма.

**Sevinj Shakhhuseynova**

**Hellenic Philosophers on Art**

**Summary:** “Philosophers of the Hellenistic Age on Art” analyzes and theoretically summarizes the artistic traditions of that time. The goal of the research is to analyze the formation of artistic practice using the example of the artistic approach of philosophers and art theorists of the era. The research method involves highlighting the importance and productivity of the Hellenistic period in the fields of philosophy, art history, and art itself, and is based mainly on representatives such as Theophrastus, Vitruvius, Plotinus, Apelles, Pliny, Euphranor, Apollonius, Stoics, Epicureans, Skeptics, including Chrysippus, Zeno, Cleanthes, Seneca, Epictetus, Cicero, Marcus Aurelius, Epicurus, Philodemus, Titus Lucretius Carus, Metrodorus, Horace, Empiricus, Pyrrho, Plutarch, Lucian, Pseudo-Longinus, Dio Chrysostom, Lysippus, Polykleitos, Porphyry, Iamblichus, Proclus, and others. The research results in the reader gaining information about the art of the Hellenistic age and getting acquainted with the philosophers and art theorists of the period. For example, the beginning of the article addresses the theoretical and practical problems of architecture and visual arts, mentioning the treatise of the Roman architect Vitruvius Pollio “Ten Books on Architecture”. The article also lists authors who have written treatises on art, about the lives of painters and sculptors.

**KeyWords:** theory of Hellenistic art, Roman architecture, Roman sculpture, Fayum portraits, aesthetics of late Hellenism.

## Ədəbiyyat:

*Azərbaycan dilində*

1. Aristotel. Poetika. Bakı. 1974.
2. Aslanov A. Estetika aləmində. B., 1987.
3. Sultanlı Əli. Antik ədəbiyyat tarixi. B., 2008.
4. Şahhüseynova S. Estetikanın inkişafında əsas mərhələlər. Antik dövr. Məqalələr toplusu. B., 1995. səh. 93-107.
5. Şahhüseynova S. Antik filosoflar musiqi haqqında. Məqalələr toplusu. B., 2000. səh. 71-79.
6. Şahhüseynova S. Antik estetikada poeziya, teatr və təsviri sənət. Məqalələr toplusu. B., 2001. səh. 21-30.
7. Şahhüseynova S. Qədim dövr Şərq mədəniyyəti (Metodik göstərişlər). B., 2002.
8. Şahhüseynova S. Estetika. Dərslik. B., 2015.

*Rus dilində*

9. Боннар А. Греческая цивилизация. В 3-х т-х. М., 1992.
10. Винкельман. История искусства древности. М., 2000.
11. Гильберт К., Кун Г. История эстетики. М., 2000.
12. Гнедич П. П. История искусств. М., 2005.
13. Дмитриева Н. А. Краткая история искусств. М., 1991.
14. История эстетики. тт. I-III. М., 1962-1967.
15. История эстетической мысли. В 6-ти т-х. М., 1985-87.
16. Лосев А. Ф. Эллинистически-римская эстетика I-II вв. н.э. М., 1979.
17. Лосев А. Ф. История античной эстетики. Поздний эллинизм. М.,1980.
18. Лукреций. О природе вещей. М., 1983.
19. Садохин А. П., Грушевицкая Т. Г. Мировая художественная культура. М., 2000.
20. Соколов Г. И. Искусство этруссков. М., 1990.
21. Татаркевич В. Античная эстетика. М., 1977.
22. Шахгусейнова С. А. Философско-исторические основы эстетической культуры. – "Социально-гуманитарные дисциплины в творческом вузе". матер. II Межд. науч.-практ. конф. Луганск, 2012 г. стр. 14-18.
23. Шахгусейнова С.А. Эстетическая культура – результат социальной эволюции общества. - "Общество, культура, личность. актуальные проблемы социально-гуманитарного знания". Матер. II Межд. науч.-практ. Конфер. Пенза, 2012. Стр. 35-38.

**Məqalənin redaksiyaya daxil oolma tarixi: 23.11.2024**

# QAYDALAR

**“Mədəniyyət dünyası”** adlı elmi-nəzəri məcmuədə məqalələr Azərbaycan, rus və ingilis dillərində çap olunur. Məqalənin əlyazmasını kompüterdə Microsoft Word redaktorunda Azərbaycan, rus və ingilis dillərində, Times New Roman şrifti ilə, 12 ölçüdə, 1,5-intervalla, A4 formatlı ağ vərəqdə tərtib etmək lazımdır. Məqalənin həcmi 6 səhifədən az olmamalıdır.

Məqalənin başlanğıcında məqalənin UOT indeksi, ORCID identifikatoru, müəllifin soyadı, adı, atasının adı, işlədiyi müəssisə, vəzifəsi, elmi adı, elmi dərəcəsi və ya fəxri adı, e-mail ünvanı, daha sonra, məqalənin adı, məqalə hansı dildə yazılmışsa həmin dildə qısa xülasəsi və açar sözlər (6-10 söz) verilməlidir. Məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair aydın şəkildə verilməlidir.

Məqalənin sonunda ədəbiyyat siyahısından sonra digər iki dildə xülasə (müəllifin adı və məqalənin adı həmin dillərdə göstərilməklə) (“резюме” və “summary”) və həmin dillərdə açar sözləri (“ключевые слова” və “keywords”) verilməlidir. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımından ciddi hazırlanmalıdır.

Hər nömrə üçün bir müəllif yalnız bir məqalə göndərə bilər.

**Kitab və jurnallara istinad aşağıdakı qaydada verilməlidir:**

Sitatlar aşağıdakı şəkildə verilməlidir: sitat dırnaqda verildikdən sonra mötərizədə, müəllifin familiyası və inisialları, nəşr ili, səhifə göstərilməlidir; nöqtə mötərizədən sonra qoyulur. Məsələn: “Payızda yarpaqlar rəngini dəyişir” (Smit, C., 1995, s. 43).

Ədəbiyyat siyahısı məqalənin sonunda əlifba sırası ilə və aşağıdakı qaydada tərtib olunmalıdır.

*Kitablar üçün*: Müəllifin soyadı, adının baş hərfi., nəşr ili, kitabın adı, şəhər: nəşriyyat. Məsələn: Smit, C. (1995). *Müasir incəsənət məkanında süni intellekt.* Bakı: ADMİU-nun Nəşriyyatı.

*Dövri mətbuat və jurnallar üçün*: Müəllifin soyadı, adının baş hərfi., nəşr ili, məqalənin adı. Jurnalın adı, nömrəsi, məqalənin ilk və son səhifəsi. Məsələn: Smit, C. (2010). Ehtiyat tədbirləri. *ADMİU-nun Elmi əsərləri, 16*(7), 26.

*İnternet resursları üçün*: Müəllifin soyadı, inisialları. (Materialın nəşr ili, il göstərilməyibsə, “tarix yoxdur” ifadəsini bildirən “t. y.” hərflərini yerləşdirin). *Veb-*

*səhifənin başlığı*. Saytın adı. URL. Məsələn: Qafarov, V. (2024). *Sabah Don Kixot bizə gələcək!* Teatro. URL: https://teatro.az/az/post/vidadi-qafarov---sabah-don-kixot-bize-gelecek-1242

**Məqalənin quruluşu:**

- Məqalənin UOT indeksi
- Müəllifin ORCID nömrəsi
- Müəllifin soyadı, adı, atasının adı
- İşlədiyi müəssisənin adı, vəzifəsi, elmi adı və elmi dərəcəsi, fəxri adı (və ya doktorant və ya dissertant olduğu təşkilatın adı, təhsilin forması)
- İşlədiyi müəssisənin (və ya doktorant olduğu təşkilatın ) ünvanı (poçt nömrəsi göstərilməklə)
- Müəllifin e-mail ünvanı
- Baş hərflərlə məqalənin adı
- Məqalənin yazıldığı dildə qısa xülasəsi və açar sözlər (6-10)
- Məqalənin mətni
- İstinad olunmuş ədəbiyyat siyahısı
- Digər iki dildə məqalənin adı və müəllifin adı və soyadı göstərilməklə qısa xülasəsi və açar sözlər (6-10)

**Məqalə aşağıdakı hissələrdən ibarət olmalıdır:**

- Giriş
- Məsələnin qoyuluşu
- Əsas hissə
- Nəticə (elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, və sair)
- Ədəbiyyat

**Məqalənin redaksiyaya təqdim olunması:**

- Məqalənin e-versiyası journal.admiu@gmail.com ünvanına göndərilməlidir. Məqalənin çap olunması üçün müəssisə tərəfindən təsdiq olunmuş müvafiq sənədlər (məqaləyə 2 rəy və təşkilatın (kafedranın) iclas protokolundan çıxarış) jurnalın məsul katibinə (İnşaatçılar pr. 39, ADMİU, əsas bina, II mərtəbə, Elmi hissə) təqdim edilməlidir.

- Ayrıca vərəqdə müəllif haqqında anket-məlumat əlavə olunmalıdır. Məlumatda müəllifin soyadı, adı, atasının adı, elmi dərəcəsi, elmi adı, müəssisənin adı, müəssisənin ünvanı, ev ünvanı, email ünvanı və telefon nömrəsi göstərilməlidir.
- Məqalə jurnalın internet səhifəsindən də göndərilə bilər: https://medeniyyetdunyasi.az/m%c9%99qale-gonder/.
- Lazım gəldikdə jurnalın redaksiyası məqalənin nəşri üçün əlavə sənədlər tələb edə bilər.

# ПРАВИЛА ОФОРМЛЕНИЯ СТАТЕЙ

В научно-теоретическом сборнике **«Мир культуры»** статьи публикуются на азербайджанском, русском и английском языках. Рукопись статьи должна быть набрана на компьютере по программе Microsoft Word на азербайджанском, русском и английском языках шрифтом Times New Roman, размером 12, интервалом 1,5, форматом A4. Объем статьи должен быть не менее 6 страниц.

Вначале статьи отображается индекс УДК, идентификатор ORCID, фамилия, имя, отчество автора, место работы, должность, ученое звание, учёная степень или почетное звание, e-mail, затем отмечается название статьи, краткое резюме и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья. В конце нужно чётко и ясно показать новизну, практическую значимость и эффективность работы в соответствующей области науки.

В конце статьи после списка использованной литературы даётся краткая аннотация на двух других языках (указать автора и название статьи) («резюме» и «summary») и ключевые слова («ключевые слова» и «keywords») на этих языках. Все резюме должны отражать содержание и подготовлено очень строго с научной и грамматической точки зрения.

Каждый автор в один выпуск журнала может представить только одну статью.

**Цитаты из книг и журналов даются в следующем порядке:**

Цитаты должны быть составлены следующим образом: после цитаты, взятой в кавычки, в скобках указываются фамилия и инициалы автора, год издания и страница; точка ставится после скобок. Например: «Осенью листья меняют цвет» (Смит, К., 1995, стр. 43).

Список литературы должен быть составлен в алфавитном порядке и представлен следующим образом.

*Для книг:* фамилия автора, инициал имени, год издания, *название книги*, город: издательство. Например: Смит, К. (1995). *Искусственный интеллект в пространстве современного искусства.* Баку: Издательство Академии наук Азербайджана.

*Для периодических изданий и журналов:* фамилия автора, инициал имени, год издания, название статьи. *Название журнала*, номер, страница. Например: Смит, К. (2010). Меры предосторожности. *Научные труды АзГУКИ*, 16(7), 26.

*Для интернет-ресурсов:* Фамилия автора, инициалы имени (год публикации или, если дата неизвестна, используйте буквы «б. д.», что означает «без даты»). *Название веб-страницы.* Название веб-сайта. URL-адрес. Например: Qafarov, V. (2024). *Sabah Don Kixot bizə gələcək!* Teatro. URL: https://teatro.az/az/post/vidadi-qafarov---sabah-don-kixot-bize-gelecek-1242

**Последовательность оформления (структура) статьи:**

- Индекс УДК
- Идентификатор ORCID
- Фамилия, имя, отчество автора
- Название учреждения, место работы, должность, ученое звание, ученая степень или почетное звание (или название организации докторанта или диссертанта, форма учебы) адрес учреждения (или организации докторанта), где работает (указать почтовый номер),
- E-mail автора,
- Название статьи с большими буквами
- Краткое резюме и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья
- Текст статьи
- Список использованной литературы
- Краткое резюме на двух других языках (с указанием автора и названия статьи) и ключевые слова (6-10 слов) на этих языках

**Статья должна состоять из следующих частей:**

- Введение
- Постановка проблемы
- Основная часть
- Выводы (новизна, практическая значимость и эффективность работы в соответствующей области науки)
- Литература

**Представление статьи в редакцию:**

- Электронную версию статьи следует направлять на адрес journal.admiu@gmail.com. Для публикации статьи необходимо предоставить ответственному секретарю журнала (Пр. Строителей 9, АГУКИ, основное здание, II этаж, Научная часть) соответствующие документы, утвержденные

учреждением (2 рецензии на статью и выписка из протокола заседания организации (отдела/кафедры).

- Анкет-справка об авторе представляется отдельно. В справке нужно указать фамилию, имя, отчество автора, ученое звание, ученую степень, название и адрес учреждения, домашний адрес, e-mail и номер телефона.
- Статью также можно подать с сайта журнала: https://medeniyyetdunyasi.az/m%c9%99qale-gonder/.
- В случае необходимости редакция журнала может потребовать дополнительные документы для публикации статьи.

# RULES

In the scientific-theoretical edition **"World of Culture"** articles are published in Azerbaijani, Russian and English languages. Articles must be written on the computer in Microsoft Word with Times New Roman type of 12 size, 1,5 interval and on a white paper of A4 format. Pages of the article must be not less than 6.

At the top of the article it must be noted UDC index of article, ORCID iD, name and surname of the author, his place of work, scientific degree, honorary title, e-mail, title of the article, its short summary, and key words (6-10). At the end of the article it must be clearly written about scientific novelty of the article, the importance of its research, practical significance etc.

At the end of the article it must be noted list of references, in two languages title of the article, name of the author summary and key words.

An author can submit only one article per issue.

**Reference to books and journals must be given as below:**

Citation should be formatted as follows: after the quotation, in quotation marks, the author's last name and initials, year of publication and page are given in brackets; a dot is placed after the brackets. For example: "In the fall, the leaves change color" (Smith, K., 1995, p. 43).

The list of references should be compiled in alphabetical order and presented as follows.

*For books:* Author's last name, first name initial, year of publication, book title, city: publisher. For example: Smith, K. (1995). *Artificial Intelligence in the Space of Contemporary Art*. Baku: Publishing House of the Azerbaijan Academy of Sciences.

*For periodicals and journals:* author's last name, first name initial, year of publication, article title. *Journal title*, issue, page. For example: Smith, K. (2010). Safety Precautions. *Scientific works of ASUCA*, 16(7), 26.

*For Internet resources:* Author's last name, first name initial, (year of publication or if unknown, use "n.d.", which stands for "no date"). *Title of webpage.* Website Title. URL. For example: Qafarov, V. (2024). *Sabah Don Kixot bizə gələcək!* Teatro. URL: https://teatro.az/az/post/vidadi-qafarov---sabah-don-kixot-bize-gelecek-1242

**Structure of the article:`**

• UDC index of the article

• ORCID iD

• Name and surname of the author

• Place of work and post, scientific degree, honorary title (it must be noted name of the institution where one is a candidate for a degree or a doctor for a degree.)

• Address of work (or institution where one is a doctor for a degree)

• E-mail of the author **journal.admiu@gmail.com**

• Title of the article in capital letters

• A short summary and keywords (6-10) of the article in the same language that was the article written in

• Text of the article

• List of references

• A short summary and keywords (6-10) of the article in the two other languages

**The article should consist of the following parts:**

• Introduction
• Statement of the problem
• Main part
• Conclusions (novelty, practical significance and effectiveness of the work in the relevant field of science)
• References

**Submitting an article to the editor:**

• The electronic version of the article should be sent to journal.admiu@gmail.com. To publish an article, it is necessary to provide the responsible secretary of the journal (9 Inshaatchilar Ave., ASUKA, main building, 2nd floor, Scientific section) with the relevant documents approved by the institution (2 reviews of the article and an extract from the minutes of the meeting of the organization (department/chair).

• A questionnaire-certificate about the author is submitted separately. The certificate must indicate the author's last name, first name, patronymic, academic title, academic degree, name and address of the institution, home address, e-mail and telephone number.

• The article can also be submitted from the journal's website: https://medeniyyetdunyasi.az/m%c9%99qale-gonder/.

• If necessary, the editorial board of the journal may require additional documents for publication of the article.

Çapa imzalanıb: 29.12.2024 Format:
60x84 1/4. Qarnitur: Times.
Həcmi: 45 ç.v.

**ADMİU-nun mətbəəsində çap edilmişdir.**

Ünvan: Bakı şəhəri, H. Zərdabi küç., 39a
Telefon: (+994 12) 434-50-04